# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## DOXSAN ALTINCI KİTAB

## AVQUST 2019 - OKTYABR 2019

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 388 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya Federasiyasına və Türkmənistan Respublikasına işgüzar səfərləri zamanı Soçinin Valday şəhərində və Aşqabadda keçirilən toplantılarda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi çıxışı, bu ölkələrin rəhbərləri ilə görüş və danışıqları, hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə aid, «Əsrin müqaviləsi»nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə Görüşündə geniş nitqləri və ölkəmizə gələn türkdilli dövlətlərin rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar toplanmışdır.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## PİRALLAHI RAYONUNDA GƏNCLƏR MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*7 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda yeni inşa olunmuş Gənclər Mərkəzinin açılışında iştirak etmişlər.*

*Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Gənclər Mərkəzinin üçmərtəbəli binasında Heydər Əliyev Muzeyi fəaliyyət göstərir. Burada ulu öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlar nümayiş olunur. Mərkəzdə eyni zamanda, akt zalı, elektron oxu və nikah zalları, robopark, rəsm, keramika-heykəltəraşlıq, fotostudiya, «bacarıqlı əllər» dərnəkləri və sərgi salonu yaradılıb. Burada gənclərin asudə vaxtının səmərəli təşkili, onların müxtəlif peşə və sənətə yiyələnmələrinə xüsusi önəm veriləcəkdir.*

*Azərbaycanda gənclər siyasətinin formalaşdırılması, yeni inkişaf mərhələsinə qədəm qoyması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizdə gənclər siyasəti 2003-cü ildən sonra yeni müstəvidə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilməkdə olan «Azərbaycan gəncliyi 2017–2021-ci illərdə» Dövlət Proqramı bu baxımdan çox mühüm rol oynayır.*

## YENİ AZƏRBAYCAN PARTİYASI PİRALLAHI RAYON TƏŞKİLATININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*7 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 7-də YAP Pirallahı Rayon Təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişlər.*

*Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni Azərbaycan Partiyası Pirallahı Rayon Təşkilatı üçün ikimərtəbəli müasir bina inşa olunub. Burada partiya təmsilçilərinin səmərəli fəaliyyəti üçün hərtərəfli imkanlar yaradılıbdır.*

*Yeni Azərbaycan Partiyası ölkəmizin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında və bütün sahələrdə əldə olunmuş tərəqqidə xüsusi rol oynayır. Azərbaycanın əsas və aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bütün bu uğurların qazanılmasında yaxından iştirak etməklə, xalqın partiyası olduğunu aydın nümayiş etdirir. Bu da ulu öndər Heydər Əliyevin «Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır» fikrinin real həyatda təsdiqini tapdığını bir daha göstərir.*

*Partiyanın uğurlu fəaliyyətində onun rayon təşkilatlarının da rolu böyükdür. Yeni Azərbaycan Par-*

*tiyasının rayon təşkilatları üçün bütün bölgələrdə inşa olunmuş inzibati binalar müasirliyi ilə seçilir, həmçinin şəhər və rayonların gözəlliyinə əlavə rəng qatır.*

## PİRALLAHI RAYONUNUN «MİRVARİ» PARK KOMPLEKSİNDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*7 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda yeni inşa olunmuş «Mirvari» Park Kompleksində yaradılmış şəraitlə tanış olmuşlar.*

*Beş hektar sahəsi olan kompleksdə uşaqlar üçün mini-futbol və 2 oyun meydançası, müxtəlif attraksionlar, yelləncəklər, idman qurğuları və fəvvarə quraşdırılıb. Müasir işıqlandırma sistemi ilə təchiz olunmuş bu istirahət guşəsində müxtəlif tədbirlərin keçirilməsi üçün səhnə də inşa edilibdir.*

*Dövlət başçısı və xanımı parkda Qarabağ müharibəsi əlillərinin «ASAN xidmət»in Ailə Biznesinə Asan Dəstək proqramı çərçivəsində nümayiş etdirilən rəsm əsərlərindən və müxtəlif səpkidə dekorativ əl işlərindən ibarət sərgiyə baxdılar.*

*İstirahət məkanında Ahılların günərzi mərkəzi də fəaliyyət göstərir. Mərkəz Prezident İlham Əliyevin «Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında» 2019-cu ilin iyun ayında imzaladığı sərəncama əsasən yaradılıb. Bura-*

*da hər gün sosial yardıma ehtiyacı olan 50 ahıla növbəlilik əsasında pulsuz xidmət göstəriləcəkdir.*

*Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyası daha da genişlənib. Bu tədbirlərin tərkib hissəsi olaraq yeni parkların yaradılması, mövcud istirahət məkanlarının isə müasir səviyyədə yenidən qurulması geniş vüsət alıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahətinin hərtərəfli təşkili baxımından böyük rol oynayır. Bütün bunlar Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayıblar. Əhaliyə xidmət göstərən bu kimi müasir layihələrin icrası son illərdə dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin real nəticəsidir.*

*Sonra dövlət başçısı və xanımı «Mirvari» Park Kompleksində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ictimaiyyət nümayəndələrini salamladılar.*

**S a k i n:** Xoş gəlmisiniz, cənab Prezident, hörmətli Mehriban xanım, səfa gətirmisiniz, həmişə Siz gələsiniz!

Bu gün Pirallahı qəsəbəsi, Pirallahı rayonu, demək olar ki, Bakı şəhərinin ən qabaqcıl rayonlarından biridir. Görülmüş bütün bu işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bütün bu abadlıq işləri Sizin sayənizdə görülübdür.

Sizə, Mehriban xanıma möhkəm cansağlığı arzulayırıq. Bir neçə gün bundan əvvəl Siz Pirallahıya qaçqınlarla görüşə gəlmişdiniz. Bu gün də bizimlə görüşürsünüz. İndi Sizin sayənizdə burada böyük abadlıq işləri görülür, qəzalı binalar çoxdur, 400-ə yaxındır, tikinti işləri gedir.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Rayonun inkişafına diqqət göstərilir. Son illər böyük abadlıq-quruculuq işləri aparılıb. Rayonun siması dəyişib və bu gün dediyiniz kimi, Bakının ən qabaqcıl rayonlarından biridir. Burada infrastruktur layihələri icra edilir, içməli su layihəsi 2 il bundan əvvəl öz həllini tapdı, qazlaşdırılma ilə bağlı bütün məsələlər həll olundu. İş yerləri yaradılır, Dərman zavodu tikilir, Şpris zavodunun açılışı bir qədər bundan əvvəl reallığa çevrildi. Yəni bu onu göstərir ki, biz həm iş yerlərinin yaradılması istiqamətində uğurlara nail oluruq, həm də abadlıq işləri aparılır. Məcburi köçkünlər üçün yeni evlər istifadəyə verilib, 300-dən çox ailə orada məskunlaşıb. İnzibati binalar, yollar tikilir. Yəni rayonun hərtərəfli inkişafı üçün böyük işlər görülür və bundan sonra da görüləcəkdir. İş yerlərinin yaradılması daim gündəlikdə duran məsələlərdən biridir və Balıqyetişdirmə zavodunun fəaliyyətə başlaması da, hesab edirəm ki, çox önəmli hadisədir. Əlbəttə, ictimai zonalar, parklar salınır, vətəndaşların istirahəti üçün gözəl imkanlar vardır.

**S a k i n:** Mən də bir veteran idmançı, dünya çempionu kimi, idmançılar adından Mehriban xanıma

təşəkkür edirəm və cansağlığı arzulayıram. Mənim ayağım protezdir, mənə kömək etdiniz, çox sağ olun.

**M e h r i b a n Ə l i y e v a:** Sağ olun. Sizə cansağlığı arzulayıram.

**S a k i n:** Bu gün mənə idmanla məşğul olmaqda kömək edirlər, arxamda dayanırlar, dəstək olurlar, yarışlar keçiririk. Biz Vətənimizə xidmət etməyə həmişə hazırıq.

**S a k i n:** Mən də bir veteran neftçi kimi, əziz Prezident, əziz vitse-prezident, sizə möhkəm cansağlığı, uğurlar arzulayıram. Dediyiniz kimi, sizin siyasətinizin ana xəttini Azərbaycan xalqı təşkil edir. Bu işdə sizə yeni-yeni uğurlar arzulayıram. Tanrı sizi qorusun!

## PİRALLAHIDA QƏZALI BİNALARIN SAKİNLƏRİ ÜÇÜN İNŞA OLUNMUŞ YAŞAYIŞ KOMPLEKSİ İLƏ TANIŞLIQ

*7 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda qəzalı binaların sakinləri üçün inşa edilmiş kompleksə gələrək, binalardakı mənzillərdə yaradılmış şəraitlə tanış olmuşlar.*

*Prezident İlham Əliyevin «Bakı şəhərinin Pirallahı rayonunda tikinti-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» 2017-ci ildə imzaladığı sərancama uyğun olaraq, müvafiq komissiya tərəfindən rayon ərazisində qeydiyyata alınmış 369 qəzalı binada yaşayan 5181 nəfərdən ibarət 1510 ailənin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yeni yaşayış kompleksi inşa olunur. Rayon mərkəzində ayrılmış 6,5 hektar ərazidə yerləşən kompleks 28 çoxmərtəbəli, 807 mənzilli binadan ibarət olacaq. Hazırda kompleksdə 114 mənzildən ibarət 3 binanın tikintisi başa çatıb. Kompleksə daxil olan digər binalarda isə tikinti-quraşdırma işləri davam etdirilir.Tikintidə 200 nəfər işlə təmin olunub. Kompleksə 340 şagird-yerlik məktəb binası, 120 yerlik 2 uşaq bağçası, 3 idman meydançası və velosiped*

*zolağı daxildir. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıbdır.*

*Bu layihənin icrası bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının sosial məsələlərinin həlli, onun rifahının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir.*

## PİRALLAHI RAYONUNDA YARADILMIŞ «NƏRƏMİZ» BALIQYETİŞDİRMƏ ZAVODUNUN İSTEHSALAT PROSESİ İLƏ TANIŞLIQ

*7 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda «Nərəkənd» Balıqyetişdirmə Kompleksi layihəsi çərçivəsində yaradılmış «NərəMİZ» Balıqyetişdirmə zavodunun istehsalat prosesi ilə tanış olmuşlar.*

*«CMS Properties» şirkətinin rəhbəri Eyvaz Eyvazov dövlət başçısına və xanımına müəssisə haqqında məlumat verdi. Pirallahı adasının girişində təməli Prezident İlham Əliyev tərəfindən 2017-ci ildə qoyulmuş kompleksin qapalı tipli istehsal sexləri inşa olunub. Ümumi sahəsi 6 hektar olan bu müəssisənin ilkin mərhələsində illik istehsal gücü 100 ton nərə, 25 ton çökə əti və 4 ton qara kürüdən ibarət olacaq. Burada 30 iş yerinin açılması nəzərdə tutulur və perspektivdə onların sayı 70-ə çatdırılacaqdır. «NərəMİZ» Balıqyetişdirmə zavodunda müasir texnologiyalarla suyun təkrar dövriyyəsini təmin edən qapalı tipli fermanın inşası tamamlanıb. Qapalı sistemdə suyun təkrar dövriyyəsini təmin edən texnoloji proses nərə balığı*

*istehsalının təbii faktorların təsirindən qorunmasına və yetişdirmə templərinin artmasına imkan yaradır. Burada yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən 2 il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdırılır. Layihənin növbəti mərhələsində dənizdə qəfəs təsərrüfatının qurulması nəzərdə tutulur. Hazırda münasib yerin seçilməsi üçün ölçmə-axtarış işləri aparılır. Nəticədə ümumi illik istehsalat həcminin 200 ton balığa və 20 ton kürüyə çatdırılması planlaşdırılır.*

*Kompleksin fermalarında yetişdirilmiş, habelə balıqçıların dənizdə tutduğu balığın mərkəzləşdirilmiş qaydada və zəruri normativlərə uyğun satışının təşkili məqsədilə zəruri şərait yaradılıb. Layihə çərçivəsində ərazinin yaşıllaşdırılması və əhalinin istirahəti üçün şəraitin yaradılması məqsədilə kompleksin ətrafındakı sahil zonası abadlaşdırılıb və ərazidə müasir park salınıbdır. Bu layihənin icrası ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı, o cümlədən idxalı əvəzləyəcək məhsulların istehsalı baxımından mühüm əhəmiyyətə malikdir. Son illərdə aparılan iqtisadi islahatlar nəticəsində qeyri-neft sahəsində mühüm nailiyyətlər əldə olunub, bu sektorun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabliyyətli malların istehsalı genişlənibdir.*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Qurban bayramı Allahın bəşəriyyət üçün hidayət yolu seçdiyi islamın əsas bayramlarından biri kimi, özündə mənəvi birliyi, həmrəyliyi, xeyirxahlığı və dözümlülüyü ehtiva edərək, insanın ən çətin məqamlarda düzgün mövqe seçmək və ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini əks etdirir.

Tarixən islama və onun mütərəqqi ənənələrinə bağlı olan xalqımız əsrlərboyu bu dəyərləri yaşadıb və ölkəmiz islam sivilizasiyasının mədəni mərkəzlərindən birinə çevrilibdir. Azərbaycanda bütün dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il böyük təntənə və yüksək əhval-ruhiyyə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvaram ki, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Qurban bayramı münasibətilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, qurbanlarınızın Allah tərəfindən qəbul olunmasını arzu edirəm. Qoy bu mübarək bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 avqust 2019-cu il*

**İNDONEZİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı– Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İndoneziya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2019-cu il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstanın milli bayramı– Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Əfqanıstan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2019-cu il*

**AZƏRBAYCAN SƏRHƏD MÜHAFİZƏSİNİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN ŞƏXSİ HEYƏTİNƏ**

Hörmətli sərhədçilər!

Sizi Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

1919-cu il avqust ayının 18-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti tərəfindən qəbul olunmuş qanunla ilk sərhəd mühafizə orqanları yaradılmış və bununla da Azərbaycan Sərhəd Mühafizəsinin əsası qoyulmuşdur.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra müstəqilliyin əsas atributlarından olan dövlət sərhədlərinin qorunması, eyni zamanda, Ermənistanın təcavüzü nəticəsində pozulmuş sərhədlərimizin bərpası dövlətimiz qarşısında duran ən vacib vəzifəyə çevrilibdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin dövlət sərhədlərinin mühafizəsinə xüsusi önəm vermiş və 2002-ci il iyulun 31-də Dövlət Sərhəd Xidmətini yaratmaqla, Azərbaycan Sərhəd Mühafizəsinin gələcək inkişaf yolunu müəyyən etmişdir.

Ümummilli lider Heydər Əliyevin sərhədlərin mühafizəsi məsələlərinə göstərdiyi xüsusi diqqət bu gün də davam etdirilir. Son illər ərzində Dövlət Sərhəd Xidmətinin idarəetmə sistemi təkmilləşdirilib, müasir radiorabitə və telekommunikasiya sistemlə-

rinin tətbiqi genişləndirilib, dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd nəzarətinin təşkili beynəlxalq standartlar səviyyəsinə qaldırılıbdır. Sərhəd Qoşunlarının döyüş hazırlığı və maddi-texniki təchizatı əhəmiyyətli dərəcədə gücləndirilibdir. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il iyunun 12-də imzaladığı sərəncamla Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılması bu sahədə peşəkar, Vətəninə və dövlətinə sadiq kadrların hazırlanması işinə böyük töhfə veribdir. Hazırda Dövlət Sərhəd Xidməti çevik, mütəşəkkil, yüksək intizama və döyüş hazırlığına malik, ən müasir silah və texniki vasitələrlə təchiz edilmiş, sərhədlərin toxunulmazlığının təmin edilməsi sahəsində üzərinə qoyulmuş vəzifələri icra etməyə qadir mühüm dövlət təsisatıdır. Sərhəd mühafizə orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi və xidmətlərinə görə mükafatlandırılması məsələləri daim dövlətimizin diqqət mərkəzindədir.

Əminəm ki, sərhəd mühafizə orqanlarının şəxsi heyəti dövlət sərhədlərimizin qorunması sahəsində mühüm vəzifələrini gələcəkdə də şərəflə yerinə yetirəcəkdir. Sizi bir daha əlamətdar yubiley münasibətilə təbrik edir, dövlətçiliyimiz üçün önəmli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2019-cu il*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR ZELENSKİYƏ**

Hörmətli cənab Prezident!

Ukraynanın milli bayramı– Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Ukrayna əlaqələri, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın qarşılıqlı mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Ukrayna xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2019-cu il*

**MOLDOVA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB İQOR DODONA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və bütün Moldova xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq münasibətləri, ölkələrimizin ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və uğurlar, dost Moldova xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 avqust 2019-cu il*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ YUSİF BİN ƏHMƏD ƏL-OSAYMİN İLƏ GÖRÜŞ

*24 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul etmişdir.*

*Dövlət başçısı İlham Əliyev Yusif bin Əhməd əl-Osayminin İslam Əməkdaşlıq Təşkilatının baş katibi kimi fəaliyyətini yüksək qiymətləndirdi və Azərbaycanla əməkdaşlığa verdiyi önəmə görə ona təşəkkürünü bildirdi.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Osaymin Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının çox mühüm üzvü olduğunu vurğulayan qonaq ölkəmizin dünyada sülhün və təhlükəsizliyin, o cümlədən müsəlman aləmində islam həmrəyliyinin möhkəmləndirilməsi işinə verdiyi töhfənin əhəmiyyətini qeyd etdi.*

*Görüşdə ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqun genişləndirilməsində mühüm rol oynadığı və dünyada bütün dinlərin və məzhəblərin sülh şəraitin-*

*də birgə yaşadığı nümunəvi ölkə olduğu bildirildi, Bakıda keçirilmiş İslam Həmrəyliyi oyunlarının önəmi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏYƏ

Hörmətli şeyx həzrətləri!

Sizi anadan olmağınızın 70, şeyxülislamlıq fəaliyyətinizin 40 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı Siz həm dini rəhbər, həm də ictimai xadim kimi, həmişə yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmisiniz. Azərbaycan həqiqətlərinin, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqemizin dünya ictimaiyyətinə çatdırılması sahəsində səmərəli xidmətlər göstərmisiniz.

Siz bütün həyatınız boyu cəmiyyətdə yüksək əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olması yolunda əzmlə çalışmış, xalqımızın mənəvi sərvətlərinin qorunub saxlanılması istiqamətində uğurlu fəaliyyət göstərmisiniz. Şeyxülislamlıq fəaliyyətiniz dövründə bir sıra ilklərə imza atmısınız. Xüsusilə müqəddəs kitabımız Quranın tərcüməsinin təşkil olunması və nəşr edilməsi, Aşura mərasimləri zamanı qanvermə aksiyalarının keçirilməsi, ölkəmizdə vəhdət namazı ənənəsinin dirçəldilməsi məhz Sizin adınızla bağlıdır. Azərbaycanda nümunəvi dövlət–din münasibətlərinin formalaşmasına verdiyiniz töhfələr də danılmazdır.

Sizin fəaliyyətinizdə təkcə Azərbaycanın deyil, həm də dini lideri olduğunuz bütün Qafqaz müsəlmanlarının problem və qayğılarının beynəlxalq ictimaiyyətə çatdırılması mühüm yer tutur. Siz daim müsəlman həmrəyliyi prinsiplərindən çıxış edərək, islam dünyasında törədilən qanlı hadisələrə etirazınızı bildirmiş, müqəddəs ziyarətgahların, qədim tarixi abidələrin mühafizə olunması üçün beynəlxalq təşkilatlar və böyük dövlətlər qarşısında məsələ qaldırmış, dünyada sülhə və əmin-amanlığa nail olunması istiqamətində ardıcıl fəaliyyət göstərmisiniz.

Müxtəlif konfessiyaların liderləri arasında böyük nüfuza malik şəxs kimi, Siz bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunur, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun dərinləşməsinə sanballı töhfələr verirsiniz.

Hörmətli şeyx həzrətləri!

Bu əlamətdar gündə Sizə uzun ömür, möhkəm cansağlığı, nəcib və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2019-cu il*

**MALAYZİYANIN XVI ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-SULTAN ABDULLAH RİAYATUDDİN ƏL-MUSTAFA BİLLAH ŞAH İBNİ SULTAN HACI ƏHMƏD ŞAH ƏL-MUSTAİN BİLLAHA**

Əlahəzrət!

Malayziyanın milli bayramı–Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Malayziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Malayziya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2019-cu il*

**QIRĞIZ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB SOORONBAY JEENBEKOVA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı–Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Qırğız xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2019-cu il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ**

Hörmətli Şavkat Miromonoviç!

Özbəkistan Respublikasının milli bayramı–Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qardaş Özbəkistanın ictimai-siyasi həyatında baş verən mühüm dəyişikliklər, sosial-iqtisadi sahədə əldə edilən uğurlar, ölkənin beynəlxalq nüfuzunun gündən-günə artması bizi sevindirir.

İnanıram ki, Azərbaycan–Özbəkistan dövlətlər-arası münasibətlərin və strateji tərəfdaşlığın daha da möhkəmlənməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın ikitərəfli və çoxtərəfli qaydada dərinləşməsi bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Hörmətli Şavkat Miromonoviç, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2019-cu il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM ZUZANA ÇAPUTOVAYA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Slovakiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2019-cu il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN FU ÇONQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. Azərbaycan ilə Vyetnamı xoş münasibətlər birləşdirir. Ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin, bir sıra sahələrdə qarşılıqlı maraq kəsb edən əməkdaşlığımızın zəngin ənənələri mövcuddur.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi bundan sonra da bütün sahələrdə birgə səmərəli fəaliyyətimiz üçün mühüm zəmin olacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2019-cu il*

## RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ NİKOLAY PATRUŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Prezident Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və bütün digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edildi, iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrimizin inkişafındakı rolu vurğulandı, Nikolay Patruşevin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı ekstremizmə, terrorçuluğa qarşı mübarizə ilə bağlı qanunvericilik və əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyi bildirildi və bu səfərin münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi,*

*onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAİR BOLSONARUYA**

Hörmətli cənab Prezident!

Braziliyanın milli bayramı–Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Braziliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Braziliya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 sentyabr 2019-cu il*

**ŞİMALİ MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STEVO PENDAROVSKİYƏ**

Hörmətli cənab Prezident!

Şimali Makedoniyanın milli bayramı–Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2019-cu il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Tacikistanın milli bayramı–Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün dost Tacikistan dövlət müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişafı, xalqın rifahının daha da yaxşılaşdırılması yolu ilə inamla irəliləyir. Ölkəniz dünyada və regionda sülhün və sabitliyin bərqərar olmasına, beynəlxalq təhlükəsizliyə və dialoqa mühüm töhfələr verir.

İnanıram ki, ölkələrimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi ilə bağlı atdığımız addımlar daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Emoməli Şərifoviç, bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2019-cu il*

## «ŞİMAL-2» ELEKTRİK STANSİYASININ İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*5 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakıda «Şimal-2» elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev, Yaponiya Xarici İşlər nazirinin parlamentar müavini Kenji Yamada, Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori dövlət başçısına burada görülmüş işlər barədə məlumat verdilər.*

*Ötən əsrin 50-ci illərində istifadəyə verilmiş «Şimal» elektrik stansiyasının 1988-ci ildə birinci, 1998-ci ildə isə ikinci növbəsi tam köhnəldiyindən istismardan çıxarılmışdı. 1998-ci ildə ulu öndər Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq «Şimal-1» elektrik stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb edilməsinə nail oldu. Beləliklə, 2000-ci ildə əsası qoyulmuş 400 meqavatlıq «Şimal-1» stansiyası 2002-ci ildə istismara verildi. 2011-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq «Şimal-2» elektrik stansiyasının təməli qoyuldu. Ötən ilin payızından başlayaraq, «Şimal-2» elektrik stansiyasının tikinti və*

*quraşdırma prosesləri sürətləndirilərək, 2019-cu ildə işlər tamamlandı.*

*Ümumi qoyuluş gücü 800 MVt olan «Şimal-1» və «Şimal-2» elektrik stansiyalarının vahid mərkəzdən idarə edilməsi, istismar prosesində əməliyyatların operativliyinin təmin olunması və ekstremal qəza vəziyyətlərində işdə pozuntuların operativ aradan qaldırılması nəzərə alınaraq, ərazidə mərkəzi idarəetmə binası inşa edilibdir.*

*Binada elektrik stansiyasının tarixini əks etdirən eksponatların sərgiləndiyi muzey də fəaliyyət göstərir. Burada iclas və konfrans zalları yaradılıb. Yeni istifadəyə verilmiş idarəetmə binasında vahid dispetçer idarəetmə mərkəzi və stansiyanın mikro SCADA sistemi yaradılıbdır. Stansiyanın enerji sisteminin ümumi idarəetmə sisteminə inteqrasiyası üçün serverlər quraşdırılıb və optik kabel xətti çəkilibdir. Yeni binada stansiyaya aid olan bütün kommunikasiya əlaqələrinin vahid sxemə uyğun birləşdirilməsi təmin edilib. «Şimal-1» və «Şimal-2» elektrik stansiyalarının birlikdə il ərzində gözlənilən istehsalı 5,7 milyard kilovat-saatdır.*

*Stansiyada Yaponiyanın «Mitsubishi» şirkətinin istehsalı olan 138 MVt gücündə buxar, 267 MVt gücündə qaz turbinləri, 560 MVA gücündə elektrik generatoru və onların köməkçi sistemləri quraşdırılıb. Enerji blokunda istehsal olunan elektrik enerjisi 480 MVA gücündə olan blok transformatordan qapalı tipli yarımstansiya vasitəsilə elektrik veriliş xətlərinə ötürülür. Müxtəlif gərginlik sinfinə malik olan pay-*

*layıcı qurğular arasında əlaqəni təmin etmək üçün 2 avtotransformator quraşdırılıb. Burada istehsal olunan elektrik enerjisinin ötürülməsi məqsədilə Abşeron regionunda 220 kV-luq dairəvi sxem qurulub, «Şimal» elektrik stansiyasının «Sumqayıt ES» və «Abşeron YS» ilə əlaqələndirilməsi üçün 65 kilometr uzunluğunda 220 kV-luq 4 hava elektrik verilişi xətti istismara verilib. Qəza rejimlərində stansiyanın vacib sistemlərinin elektrik enerjisi ilə qidalandırılması üçün qəza dizel generatoru quraşdırılaraq, xüsusi sərfiyyat sxeminə qoşulub və avtomatik ehtiyatdan qoşulması təmin edilibdir.*

*Prezident İlham Əliyev «Şimal-2» elektrik stansiyasını işə saldı.*

*Hazırda ən yüksək faydalı iş əmsalına malik olan «Şimal-1» və «Şimal-2» elektrik stansiyaları birlikdə respublika üzrə elektrik enerjisi istehsalının 20 faizini, Bakı və Abşeron yarımadası üzrə 40–50 faizini təşkil edəcəkdir. «Şimal» elektrik stansiyası enerji sisteminin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına əsaslı təsir etməklə yanaşı, il ərzində 77 milyon kubmetr təbii qazın qənaətinə və regionlardan Bakı şəhərinə verilən enerjinin miqdarının 20 faiz azalması nəticəsində elektrik enerjisinin uzaq məsafədən ötürülməsindən yaranan 199 milyon kVts elektrik enerjisi itkisinə qənaət olunmasına imkan yaradacaqdır. Bundan başqa, «Şimal» elektrik stansiyası 57,4 faiz faydalı iş əmsalına malikdir ki, bu da Cənubi Qafqaz regionunda ən yüksək faydalı iş əmsalı deməkdir. Elektrik stansiyası il ərzində 3,2 milyard kVts*

*elektrik enerjisi istehsal edəcək və hər bir kVts elektrik enerjisinin buraxılışına 214,3 qram şərti yanacaq sərf ediləcək ki, bu da enerji sisteminin ümumi göstəricisindən 65 qram azdır.*

*Stansiyanı yüksəktəzyiqli yanacaqla təmin etmək məqsədilə yeraltı qaz kəməri, qaztənzimləyici və təmizləyici qovşaq, qaz qızdırıcı qurğular və kompressor stansiyası tikilib. Stansiyanın buxar turbinlərinin kondensatorları və avadanlıqları Xəzər dənizindən götürülən su vasitəsilə soyudulur. Bu məqsədlə Xəzər dənizindən 140 metr uzunluğunda soyuducu su kanalı, hovuz, su xətti və ümumi məhsuldarlığı saatda 52 min kubmetr olan sahil nasos stansiyası, o cümlədən buxar turbininin kondensatorundan çıxan soyuducu suyun Xəzər dənizinə qaytarılması üçün boru xətti inşa olunub. Stansiyanın texniki və içməli suya olan tələbatının təmin edilməsi və su ehtiyatının yaradılması məqsədilə ərazidə duzsuzlaşdırma qurğusu və digər zəruri infrastruktur yaradılıb. Stansiyanın yanğın təhlükəsizliyinin təmin edilməsi üçün ərazidə yanğınsöndürmə sistemi də müasir səviyyədə qurulubdur.*

*Ətraf mühitin mühafizəsi məqsədilə stansiyada əks-osmos qurğusu, xüsusi ekoloji monitorinq sistemi, sənaye tullantıları və çirkab suların təmizlənməsi qurğuları inşa olunub. Stansiyanın avadanlıqlarının normal istismarı və reqlament üzrə texniki xidmətin aparılması məqsədilə stansiyada ekspress və kimya, elektrotexniki və sınaq-diaqnostika laboratoriyaları, müxtəlif müasir dəzgahlarla komplektləşdirilmiş mexaniki təmir emalatxanası və qapalı mərkəzi anbar*

*binası tikilib, təhlükəsizliyin təmin edilməsi məqsədilə zəruri işlər görülüb, videomüşahidə sistemi yaradılıbdır. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb, müxtəlif ağac və gül kolları əkilibdir.*

*Dövlət başçısı stansiyanın kollektivi ilə xatirə şəkli çəkdirdi.*

**İlham Əliyev:** Təbrik edirəm. Stansiyanın açılışı çox əlamətdar hadisədir. Azərbaycanda elektrik enerjisinə olan tələbat artır və əlbəttə ki, istehsal gücləri bu tələbata uyğun olmalıdır. Ona görə bu stansiyanın çox böyük əhəmiyyəti vardır.

Yaponiya şirkətlərinə də təşəkkürümü bildirirəm, burada çox fəal işləyiblər, bu stansiyanı yüksək keyfiyyətlə qurublar. Stansiyanın qurulması Yaponiya–Azərbaycan əməkdaşlığının təzahürüdür və Xarici İşlər nazirinin müavini də xüsusi olaraq bu məqsədlə Azərbaycana səfər edib. Əminəm ki, bizim ikitərəfli əlaqələrimiz gələcəkdə də uğurla inkişaf edəcək, çünki hələ bir çox layihələr icra olunmalıdır.

Bu stansiyanın fəaliyyətə başlaması elektrik enerjisi sahəsində çox əlamətdar hadisədir. Mən şadam ki, biz bu gün bu stansiyanın açılışını edirik. Azərbaycanda bundan sonra da sənaye istehsalının və iqtisadiyyatın artımı elektrik enerjisi mənbələri ilə təmin edilməlidir. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

* * *

*Respublikamızda həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlar, çoxsaylı sənaye və aqrar-sənaye*

*obyektlərinin yaradılması elektrik enerjisinə və ehtiyat generasiya güclərinə tələbatı daha da artırdığından «Şimal-2» elektrik stansiyasının istismara verilməsi çox əhəmiyyətlidir. Bu, iqtisadi cəhətdən istehsal prosesinin səmərəliliyinin yüksəldilməsinə, elektrik enerjisinin istehsalına sərf olunan yanacağın əhəmiyyətli dərəcədə azalmasına, ixrac potensialının artırılmasına və digər texniki imkanların genişləndirilməsinə şərait yaradır. Bütün bunlar isə ümumilikdə ölkəmizin iqtisadi potensialının möhkəmləndirilməsi istiqamətində dövlət tərəfindən atılan addımların ardıcıl və məqsədyönlü şəkildə davam etdiyini göstərir.*

## *bp*-nin DİREKTORLAR ŞURASININ SƏDRİ HELQE LUNDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də bp-nin Direktorlar Şurasının sədri Helqe Lundun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, neft və qaz sənayesinin inkişafının Azərbaycan iqtisadiyyatının şaxələndirilməsindəki rolu, Bakıda və regionlarda böyük infrastruktur layihələrinin reallaşdırıldığının önəmi vurğulandı.*

*Sonuncu dəfə 2014-cü ildə Azərbaycana səfər etdiyini qeyd edən bp-nin Direktorlar Şurasının sədri Helqe Lund ötən dövr ərzində Bakıda gedən böyük inkişaf proseslərinin şahidi olduğunu diqqətə çatdırdı. Sentyabrın 20-də «Əsrin müqaviləsi»nin 25 illiyinin qeyd ediləcəyini söyləyən qonaq bu layihənin Azərbaycanın inkişafındakı rolunu xüsusi vurğuladı.*

*Söhbət zamanı Xəzərin Azərbaycan sektorunda əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*6 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanlarının rəhbərlərini qəbul etmişdir.*

*Dövlət başçısı Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə etdi. İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını söyləyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu bildirdi. Dövlət başçısı ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, bu təmasların təhlükəsizliyin və regional sabitliyin təmin olunmasındakı rolunu vurğuladı. Azərbaycanın regional əməkdaşlıq proseslərində fəal iştirak etdiyini nəzərə çatdıran Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsi üçün səylərin bundan sonra da davam etdiriləcəyini bildirdi. Dövlət başçısı iclasda müzakirə edilən məsələlərin ölkələrimizin təhlü-*

*kəsizliyinin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə çıxış edən qonaqlar Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirdilər və bu tədbirin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin və sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyini vurğuladılar.*

**GÜRCÜSTANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB GEORGİ QAXARİAYA**

Hörmətli cənab Baş Nazir!

Gürcüstanın Baş Naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı tarixən təşəkkül tapmış dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir. İnanıram ki, bu xoş ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz və strateji tərəfdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Gürcüstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 sentyabr 2019-cu il*

## RUSİYA FEDERASİYASI SVERDLOVSK VİLAYƏTİNİN QUBERNATORU YEVGENİ KUYVAŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Rusiya Federasiyası Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycanın Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən Sverdlovsk vilayəti ilə əlaqələrinin genişləndirilməsinin məmnunluq doğurduğu bildirildi.*

*Söhbət zamanı Azərbaycanla Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin 85 faiz artması iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi, ticarət dövriyyəsinin daha da artırılması üçün lazımi potensialın mövcud olduğu vurğulandı. Eyni zamanda, Bakıda keçiriləcək biznes-forumun əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu. Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayının durmadan artdığı vurğulanaraq, Sverdlovsk vilayəti ilə turizm*

*sahəsində əlaqələrin inkişaf etdirilməsinin önəmi bildirildi.*

*Görüşdə əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən sənaye, maşınqayırma sahələrində birgə layihələrin həyata keçirilməsi, sərmayə qoyuluşu, mədəniyyət, təhsil sahələri ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRES MANUEL LOPES OBRADORA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı– Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Meksika arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Meksika xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 sentyabr 2019-cu il*

## BAKININ SURAXANI RAYONUNDA 101 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİR VƏ YENİDƏN QURULMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Suraxanı rayonunda 101 saylı tam orta məktəbdə aparılmış təmir-tikinti işləri və yenidən qurulmadan sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Səidə Məmmədova görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdilər. Bildirildi ki, 101 saylı tam orta məktəbin binası 1937-ci ildə tikilib və 400 şagird-yerlik üçmərtəbəli korpus istifadəyə verilib. 1960-cı ildə isə 4 sinifdən ibarət yardımçı korpus tikilib. 2012–2013-cü illərdə 20 sinif otağından ibarət əlavə 400 yerlik bina istifadəyə verilib. Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən, bu ilin may ayında təhsil ocağının 1937-ci ildə istifadəyə verilən binası sökülərək, yerində 360 yerlik 15 sinif otağından ibarət əlavə korpusun tikintisinə başlanılıb. İnşaat işləri yüksək səviyyədə həyata keçirilib. Bundan sonra məktəbdə birnövbəli sistemdə 985 şagird təhsil*

*alacaq. Şagirdlərin təlim-tərbiyəsi ilə 62 müəllim məşğul olur.*

*Diqqətə çatdırıldı ki, məktəbdə 35 sinif otağı, informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana vardır. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir.*

*Məlumat verildi ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. 2019-cu ilin statistikasına görə, məktəbi bitirən məzunların 80 faizi tələbə adını qazanıbdır.*

*Məktəbin həyatində geniş abadlıq və quruculuq işləri görülüb. Həyatdə futbol və voleybol meydançaları yaradılıbdır.*

*Dövlət başçısı İlham Əliyev məktəbin direktoru Səidə Məmmədova ilə söhbət etdi.*

**İlham Əliyev:** Açıq futbol meydançası da vardır. Gözəl şərait yaradılıb. Sizi təbrik edirəm.

**Səidə Məmmədova:** Mən Sizə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya təşəkkür edirəm. Bizim üçün belə bir müasir məktəb tikdirmisiniz. Sağ olun, var olun.

* * *

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilmiş xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi də məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxt və ətraf qəsəbələrlə yanaşı, respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun yenidən qurulur, lazımi avadanlıqlarla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.*

## BAKI METROPOLİTENİNİN «XƏTAİ» STANSİYASINDA ƏSASLI YENİDƏN QURULMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakı Metropoliteninin «Xətai» stansiyasında əsaslı təmir və yenidən qurulmadan sonra görülmüş işlərlə tanış olmuşdur.*

*«Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, «Xətai» stansiyası 1968-ci ildə istismara verilib. Stansiyanın 50 ildən artıq istismar müddətində köhnələn, müasir dövrün tələblərinə cavab verməyən bütün infrastrukturun yenilənməsi məqsədilə təmir mərhələlərlə aparılıb. 2014-cü ildə birinci mərhələdə stansiyanın platformasının orta zalı, stansiya yolu və «Xətai–Cəfər Cabbarlı» mənzilinin müvafiq tunelində əsaslı təmir və yenidən qurulma tədbirlərinə başlanılıb. Bu dəfə aparılmış yenidən qurulmadan sonra «Xətai» stansiyası əsaslı yenilikləri ilə sərnişinlərin xidmətində olacaqdır. Stansiyanın infrastrukturu və görkəmi tamamilə yenilənib. Burada funksionallığı ilə seçilən 4 yeni müasir eskalator quraşdırılıb. Bakı Metropoliteninin ən dərin stansi-*

*yasında sərnişinlərin enib-qalxma təhlükəsizliyinin, təxliyə imkanlarının və rahatlığının artırılması, xidmət səviyyəsinin daha da yüksəldilməsinə nail olunubdur.*

*Qeyd edildi ki, Bakı Metropolitenində müasirtipli qatarların sayı 11-ə çatdırılıb. Rusiyanın «Transmaşholdinq» Səhmdar Cəmiyyətinin tərkibinə daxil olan «Metrovaqonmaş» ASC 2019-cu ildə Bakı Metropoliteni üçün 30 vaqondan ibarət 6 qatar tərkibi istehsal edib. Dörd qatar tərkibi iyul və avqust aylarının əvvəllərində xəttə buraxılıb. Dördüncü nəslə mənsub olan bu qatarlar ən müasir tələblər səviyyəsində istehsal edilib. Qatarların maksimal sürəti saatda 90 kilometrdir. Yeni vaqonların qapıları daha enlidir. Bu, sərnişinlərin vaqonlara daha rahat və sürətlə giriş-çıxışına imkan yaradır. Qatarlarda vaqonlararası birbaşa keçidin olması vaqonun sərnişin tutumunu 15 faiz artırır, sərnişinlərin qatar boyunca bərabər paylanmasını, yerləşmə sahəsini genişləndirməklə, daşımanın rahatlığını və təhlükəsizliyini təmin edir. Vaqonlarda ayaq üstə dayanan sərnişinlər üçün çoxfunksiyalı zonalar, iri yüklər, uşaq arabaları üçün sahələr də ayrılıb, tutacaqlar xüsusi olaraq sərnişin sıxlığı nəzərə alınmaqla layihələndirilibdir. Qatarın baş vaqonu 38, orta vaqonu isə 44 oturacaqlıdır. Ümumilikdə isə baş vaqonda 315, orta vaqonlarda isə 329 sərnişin mənzil başına çatdırılır. Vaqonlarda təzyiqin tənzimlənməsi və ultrabənövşəyi lampalarla havanın bioloji təmizlənməsi, həmçinin daxili və xarici video müşahidə sistemləri də vardır. İşıq diodlu cihazların tətbiqi elektrik enerjisi sərfiyyatını*

*50 faiz azaldır, onların istismar müddətini isə 75 faiz artırır. Vaqonların istismar müddəti 30 ildir.*

*Stansiyada aparılmış əsaslı təmir və yenidən qurulma zamanı giriş vestibülü və platformanın orta zalının divarında Şah İsmayıl Xətai və onun yaradıcılığına həsr olunmuş bədii-memarlıq kompozisiyaları da bərpa olunub. Eskalatorların maşın zalı da əsaslı təmir edilib, stansiyanın digər infrastrukturunun yenilənməsi tədbirləri görülübdür. Təmir dövründə platforma, platforma altı sahə, stansiya yolu və yol mənzillərində hələ 2014-cü ildə başlanılmış əsaslı işlər də başa çatdırılıb, tunel yenidən təftiş olunaraq, bütün dəmir-beton konstruksiyalar gücləndirilib və ya yenidən qurulubdur. Bakı Metropoliteni tarixində ilk dəfə stansiya yolu ən müasir dəmir-beton bloklardan qurulub. Bu məqsədlə köhnə yol yatağı tamamilə sökülüb, dəmir-beton blokların quraşdırılması üçün yenidən layihələndirilibdir. Stansiyada bütün kommunikasiya xətlərinin, avadanlıqların yenilənməsi ilə bağlı mühüm işlər görülüb, hərəkətin təşkili, idarə olunması və tənzimlənməsində əhəmiyyət kəsb edən mərkəzləşmə məntəqəsi və stansiya növbətçisinin otaqları yenidən qurulub, eskalatorların nəzarətçi köşkü videogörüntülərlə təmin edilibdir. Stansiyada İKT-nin imkanlarından geniş istifadə olunacaqdır.*

*Dövlət başçısına Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulmuş Təlim-Tədris Mərkəzi barədə də məlumat verildi.*

*Prezident İlham Əliyevin imzaladığı sərəncamla təsdiq olunmuş Dövlət Proqramına əsasən, Bakı Met-*

*ropoliteni stansiyalarının yenidən qurulması, infra-strukturun müasir standartların tələbləri səviyyəsinə çatdırılması işləri planlı şəkildə aparılır. Bütün bunlar isə paytaxtın nəqliyyat sisteminin mühüm elementi olan Bakı metrosunun sürətlə inkişaf etməsinə böyük töhfə verir.*

## AŞPA-nın PREZİDENTİ XANIM LİLİAN MORİ PASKYE İLƏ GÖRÜŞ

*12 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti xanım Lilian Mori Paskyeni qəbul etmişdir.*

*Söhbət zamanı AŞPA-nın prezidenti xanım Lilian Mori Paskyenin Azərbaycanla tanışlığının, müxtəlif səviyyələrdə keçirilən görüşlərin və aparılan müzakirələrin əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaratdığı qeyd olundu.*

*Görüşdə bu il Avropa Şurasının təsis edilməsinin 70 illiyinin qeyd olunduğu və bu çərçivədə keçirilən tədbirlərin önəmi vurğulandı. Söhbət zamanı Azərbaycan–Avropa Şurası əməkdaşlığının müxtəlif aspektləri geniş müzakirə edildi, Azərbaycanın Avropa Şurası çərçivəsində mövcud olan konvensiyalara qoşulması və bu istiqamətdə ölkəmizin qanunvericiliyinin uyğunlaşdırılması məsələlərinə toxunuldu. Görüşdə Azərbaycanda insan haqlarının qorunması, demokratik inkişafla bağlı məsələlər müzakirə edildi.*

*Söhbət zamanı Avropa Şurasının gündəliyində duran və qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.*

## SURAXANI RAYONUNDA ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN 208 SAYLI TAM ORTA MƏKTƏBDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulmuş 208 saylı tam orta məktəbdəki şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Məlahət Əsədova dövlət başçısına görülmüş işlərlə bağlı məlumat verdilər.*

**İlham Əliyev:** Bu məktəb əsaslı təmir olunub?

**Eldar Əzizov** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Xeyr, sökülüb, yenidən tikilib və 3 il fəaliyyətsiz olubdur.

*Bildirildi ki, məktəbin binası 1938-ci ildə istifadəyə verilmişdi. O zaman 360 yerlik binada ümumilikdə 2 növbədə 800 şagird təhsil alırdı. Bu təhsil ocağı qəzalı vəziyyətdə olduğundan fəaliyyətini dayandırıb və müvəqqəti olaraq 140 saylı tam orta məktəbdə fəaliyyət göstəribdir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına əsasən, 2019-cu ilin mayında məktəbin mövcud binası sökülərək, yerində yenisi inşa olunubdur. 360 şagird-*

*yerlik yeni məktəb binası müasirliyi ilə seçilir. Burada müxtəlif fənn otaqları bütün zəruri inventarla təchiz olunub. Bir sözlə, təhsil müəssisəsində şagirdlərin elmin sirlərinə dərindən yiyələnmələri, müəllimlərin isə pedaqoji fəaliyyətlə yüksək səviyyədə məşğul olmaları üçün hərtərəfli imkanlar vardır.*

*Qeyd edildi ki, məktəbdə hazırda 320 şagirdin təlim-tərbiyəsi ilə 31 nəfərdən ibarət pedaqoji kollektiv məşğuldur. Son 10 ildir ki, məktəbin şagirdlərinin 70–80 faizi ali təhsil ocaqlarına qəbul olunur. Şagirdlər müxtəlif bilik, idman yarışlarında, olimpiadalarda təhsil ocağını layiqincə təmsil edirlər. Bu təhsil ocağının 10-cu sinif şagirdi güləş üzrə Avropa çempionudur.*

*Azərbaycanda dövlət səviyyəsində təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sferada innovativ üsulların tətbiqi məsələsinə daim xüsusi diqqətlə yanaşılır. Son illərdə çoxlu sayda yeni məktəb binasının və korpusların inşası, mövcud təhsil müəssisələrinin yüksək səviyyədə yenidən qurulması, onların zəruri tədris avadanlıqları ilə təchiz olunması təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən işlərin tərkib hissəsidir. Bütün bunlar bir daha sübut edir ki, insan kapitalının formalaşmasında müstəsna rola malik olan təhsil sahəsinin inkişafına ölkəmizdə ən yüksək səviyyədə diqqət göstərilir. Bu isə gənc nəslin bilikli, savadlı və intellektual səviyyədə yetişməsində, həmçinin müəllimlərin təlim-tədris prosesini müasir şəraitdə aparmasında mühüm rol oynayır.*

**İlham Əliyev:** Təbrik edirəm. Sizə uğurlar arzulayıram.

**Məlahət Əsədova** (*208 saylı tam orta məktəbin direktoru*): Cənab Prezident, şagirdlər və valideynlər adından Sizə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun ki, kənd yerində belə gözəl məktəb tikdirmisiniz.

**İlham Əliyev:** Şəhərimizin hər bir yerində məktəblər tikilir, əsaslı təmir olunur, bu proqram uğurla icra edilir. Bu məktəbin yenidən tikilməsi bizim siyasətimizi əks etdirir. Təhsil sahəsinə göstərilən diqqət eyni zamanda, infrastrukturun yaranmasında da özünü əks etdirir. Valideynlərə də, müəllimlərə də salam söyləyin. Sağ olun.

## SƏNAYE VƏ İNNOVASİYALAR ÜZRƏ BAKI DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*13 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak etmişdir.*

*Təhsil naziri Ceyhun Bayramov görülmüş işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdi.*

*Bildirildi ki, Təhsil Nazirliyi və Koreya Respublikasının «KT Konsorsium» şirkəti arasında imzalanmış saziş əsasında 2016-cı ildə yaradılmış Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi beynəlxalq təhsil standartlarına əsaslanan, qlobal sənaye ehtiyaclarına hazır rəqabətqabliyyətli kadrlar hazırlığını həyata keçirən peşə təhsili müəssisəsidir.*

*Mərkəzdə sənaye qurumlarında istehsal proseslərini təşkil edən və innovativ texnologiyalarla işləmək bacarığına malik olan mütəxəssislərin hazırlanması nəzərdə tutulur.*

*Dövlət başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev Peşə Təhsil Mərkəzində yaradılmış şəraitlə yaxından tanış oldu.*

*Bildirildi ki, mərkəz Koreya Respublikasının peşə təhsili modeli əsasında qurulub. Mərkəzdə nəzəri və praktiki bacarıqların formalaşdırılması üçün bütün şərait yaradılıb. Burada təhsil alanlara avtomobilə və İKT-nin yenilikləri əsasında formalaşan modellərə texniki xidmət göstərmək öyrədiləcəkdir. Ən müasir maddi-texniki baza ilə təchiz edilmiş mərkəz 8 fərqli ixtisas üzrə 1 illik proqramlarda təhsil almaq imkanını nəzərdə tutur. Tədris prosesi tam yeni formatda Koreyada təlim keçmiş ixtisaslı mütəxəssislər tərəfindən təşkil olunacaq. Bu ixtisaslar üzrə təhsilini başa vuran tələbələr üçün davamlı təhsil və geniş iş imkanları yaradılacaq. Onlar öz ixtisaslarını praktiki şəkildə reallaşdırmaq bacarıqları və vərdişlərinə yiyələnəcəklər. Səkkiz texniki ixtisasla yanaşı, mərkəzdə qısamüddətli ixtisasartırma kursları da təşkil olunacaq. Həmçinin tələbələr beynəlxalq sertifikatlı kurslarda iştirak edə biləcəklər.*

*Belə peşə məktəblərinin istifadəyə verilməsi ali məktəblərə qəbul ola bilməyənlər üçün çox mühüm əhəmiyyət kəsb edir. Ali məktəbə qəbul ola bilməyən məzun belə peşə məktəbinə daxil olmaqla, peşə vərdişlərinə yiyələnərək, gələcəkdə istədiyi sahədə çalışa bilər. Belə layihələrin icrası peşə təhsilinin inkişafına töhfə verməklə yanaşı, məşğulluğun artırılmasında da mühüm rol oynayır.*

*Dövlət peşə təhsili müəssisələrinin büdcədənkənar gəlir və xərclərinin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasının təmin edilməsi və peşə təhsilinin inkişafında maliyyələşmə mexanizmi ro-*

*lunu oynamasının həyata keçirilməsi məqsədilə Peşə Təhsilinin İnkişafı Fondu yaradılıb, peşə təhsili sahəsində bir sıra normativ-hüquqi aktlar hazırlanıbdır. Peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə həyata keçirilən peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və optimallaşdırılması, müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması «Strateji Yol Xəritəsi»ndə qarşıya qoyulan mühüm vəzifələrdəndir.*

*2018-ci ildə regionlarda və Bakıda fəaliyyət göstərən 55 peşə təhsili müəssisəsinin bazasında 24 Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Qeyd olunmuş istiqamətdə daha 2 mərkəzin yaradılması nəzərdə tutulub. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi artıq publik hüquqi şəxs statusu alıb. Digər Peşə Təhsil mərkəzlərinin də publik hüquqi şəxs statusunda fəaliyyət göstərməsi istiqamətində hazırlıqlar gedir. Bununla yanaşı, «Azərbaycan peşə təhsili və təliminin inkişafına dair «Strateji Yol Xəritəsi»ndə ilkin mərhələdə 2020-ci ilədək müxtəlif istiqamətli 10 pilot peşə təhsil müəssisəsinin qurulması hədəf kimi müəyyənləşdirilib. «Strateji Yol Xəritəsi»nə əsasən, pilot peşə təhsili müəssisələrinin müasir standartlara cavab verməsi və tələbata uyğun fəaliyyət göstərməsi üçün onların əsaslı təmiri və ya yeni peşə təhsili müəssisələrinin tikintisi nəzərdə tutulur.*

*Dövlət başçısının sərəncamına əsasən, 2018-ci il yanvarın 1-dən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətlən-*

*dirilməsi aparılmış müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılıb. Əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanmasında və işlək peşə təhsili modelinin qurulmasında işəgötürənlərlə birgə əməkdaşlıq bu sahənin inkişafı üçün mühüm önəm kəsb edir. Ümumilikdə bu il ərzində peşə təhsili müəssisələrinin 420 nəfərlik mühəndis-pedaqoji heyəti üçün 29 təlim həyata keçirilib. Peşə təhsili müəssisələrinə sənəd qəbulu «ASAN xidmət» mərkəzlərində, «ASAN xidmət» mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlar üzrə isə müvafiq peşə təhsili müəssisələrində ödənişsiz şəkildə və elektron qaydada həyata keçirilibdir.*

*Bütün bunlar peşə təhsili sahəsinə birbaşa müsbət təsir göstərməklə, özünü gələcəkdə müxtəlif sahədə mütəxəssis kimi sınamaq istəyənlərə geniş imkanlar açır.*

## BAKIDA YENİDƏN QURULMUŞ AŞIQ MOLLA CÜMƏ KÜÇƏSİNİN VƏ ONA BİTİŞİK YOLLARIN AÇILIŞI MƏRASİMİ

*13 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakı şəhərinin Nərimanov rayonunda yenidən qurulmuş Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına yenidən qurulma tədbirləri barədə məlumat verdi.*

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 mart tarixli müvafiq Sərəncamına əsasən Bakının Nərimanov rayonu ərazisində şəhər əhəmiyyətli Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların yenidən qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb və bu işlər qısa müddətdə yüksək səviyyədə yerinə yetirilibdir. Molla Cümə küçəsində, Həsən Əliyev və Yusif Vəzir Çəmənzəminli küçələrinin bir hissəsində, həmçinin Molla Cümə və Əhməd Rəcəbli küçələrini birləşdirən yollarda yeni və müasir yol infrastrukturu yaradılıb. Yenidən qurulmuş yolların ümumi uzunluğu 6 kilometrdir.*

*Paytaxtda yeni yolların salınması, yolötürücülərin, yeraltı və yerüstü piyada keçidlərinin, çoxmərtəbəli avtomobil dayanacaqlarının layihələndirilməsi və tikilməsi, mövcud yol qurğularının təmiri və yenidən qurulması sahəsində silsilə tədbirlər reallaşdırılır. İndiyə qədər görülən işlər nəticəsində paytaxtda və ətraf qəsəbələrdə yeni alternativ yol infrastrukturları formalaşdırılıb, şəhərin mərkəzindən bir sıra istiqamətlərə, o cümlədən ətraf qəsəbələrə rahat və sürətli gediş-gəliş təmin edilib, müəyyən qisim yollarda avtomobillərin hərəkətində məhdudiyyətlər və ləngimələr aradan qaldırılıb, bəzi yolların buraxılış qabiliyyəti artırılıb, yoldan istifadə asanlaşıb, paralel yeni yollar açılıb və sair irəliləyişlərə nail olunubdur. Ümumilikdə 2003-cü ildən bəri respublikamızda 16 min kilometrdən çox avtomobil yolu yenidən qurulub, bərpa və təmir edilibdir. Bunun 500 kilometrdən çox hissəsi 2019-cu ilin 8 ayında reallaşdırılıb. Bu ilin sonuna kimi ölkəmizdə yenidən qurulan, bərpa və təmir edilən yolların uzunluğu 17 min kilometrdən çox olacaqdır. 2003-cü ildən bu günə kimi təkcə Bakıda avtomobil yollarının 1500 kilometrdən çox hissəsində yenidən qurulma, təmir və bərpa işləri həyata keçirilib. Bunun 200 kilometrdən çoxu 2019-cu ilin 8 ayında reallaşdırılıbdır.*

# LATVİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ DAYNİS QARANÇS İLƏ GÖRÜŞ

*14 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Daynis Qarançsın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Daynis Qarançs Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Daynis Qarançs etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu bildirərək, özünün Latviyaya və Latviya prezidentlərinin ölkəmizə səfərlərinin ikitərəfli münasibətlərimizin genişləndirilməsində rolunu qeyd etdi. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığa toxunaraq, ticarət dövriyyəsinin artırılması, investisiya, turizm və digər sahələrdə əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.*

*Dövlət başçısı Daynis Qarançsın səfir kimi fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin daha da*

*inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Səfir Daynis Qarançs Azərbaycanın Latviya üçün regionda strateji tərəfdaş olduğunu söylədi. O, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək inkişafını qeyd edərək, müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini bildirdi. Daynis Qarançs iqtisadi əməkdaşlığın genişlənməsi və ticarət dövriyyəsinin artırılması üçün hökumətlərarası birgə Komissiyanın mühüm rol oynadığını söylədi. Ölkələrimiz arasında əməkdaşlığın inkişafında regionlararası əlaqələrin vacibliyini qeyd edən səfir Azərbaycanın və Latviyanın 14 şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulduğunu nəzərə çatdırdı. O, mədəniyyət, elm, təhsil kimi sahələrdə də Azərbaycanla Latviya arasında səmərəli əməkdaşlığın olduğunu bildirdi.*

*Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə toxunuldu, Aİ üzv ölkəsi kimi, Latviyanın ölkəmizin bu təşkilatla əməkdaşlığının inkişafına verdiyi dəstək qeyd olundu.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ CEYMS LAYL ŞARP İLƏ GÖRÜŞ

*14 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Ceyms Layl Şarpın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Ceyms Layl Şarp Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Ceyms Layl Şarp etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev Azərbaycan–Böyük Britaniya tərəfdaşlıq əlaqələrinin zəngin tarixə malik olduğunu və uzun illər uğurla inkişaf etdiyini bildirdi, keçən ilin aprelində Böyük Britaniyaya səfərini və səfər zamanı aparılmış səmərəli müzakirələrin əməkdaşlığımızın inkişafında rolunu qeyd etdi. İki ölkə arasında əlaqələrin müxtəlif sahələri əhatə etdiyini vurğulayan Prezident İlham Əliyev enerji sahəsində 25 illik dövr ərzində bp şirkəti ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini və bu əməkdaşlığın uzunmüddətli*

*perspektivdə inkişaf etməkdə davam edəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev səfir Ceyms Layl Şarpa diplomatik fəaliyyətində uğurlar arzuladı.*

*Səfir Ceyms Layl Şarp yaxın günlərdə 25 illiyi qeyd olunacaq «Əsrin müqaviləsi» çərçivəsində əlaqələrin ölkələrimiz arasında geniş enerji əməkdaşlığının uğurlu nümunəsi olduğunu bildirdi. Səfir ölkələrimiz arasında əməkdaşlığın şaxələndirilməsinin və qeyri-neft sektoru, o cümlədən bərpa olunan enerji, kənd təsərrüfatı, səhiyyə, elm-təhsil və digər sahələrdə inkişafı üçün əlverişli imkanların olduğunu nəzərə çatdırdı. Ceyms Layl Şarp səfir kimi fəaliyyəti dövründə ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.*

*Prezident İlham Əliyev eyni zamanda, qeyri-neft sektorunda əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirərək, Böyük Britaniyanın kiçik və orta biznes dairələrinin də Azərbaycanda fəaliyyəti üçün geniş imkanların olduğunu vurğuladı.*

*Görüşdə regional gündəlikdə duran və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

**ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
SEBASTİAN PİNYERA EÇENİKEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı– Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Çili arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 sentyabr 2019-cu il*

## BAKININ BİNƏQƏDİ RAYONUNDA 300 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ TƏDRİS KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*16 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 16-da Bakının Binəqədi rayonunda 300 saylı tam orta məktəbin 960 şagird-yerlik yeni tədris kompleksinin açılışında iştirak etmişlər.*

*Təhsil müəssisəsinin direktoru İradə Xəlilova görülmüş işlərlə bağlı dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, məktəbin yeni tədris kompleksində ən müasir şərait yaradılıb. Burada şagirdlər müxtəlif laboratoriyalarda əyani təlimlər keçərək, biliklərini artıra, idman zalında idmanın müxtəlif növləri ilə məşğul ola biləcəklər.*

*Bu təhsil ocağının binası 1932-ci ildə tikilib. O zaman məktəb 400 şagird-yerlik olub. Hazırda isə burada yeni istifadəyə verilən tədris kompleksi ilə birlikdə ümumilikdə 1944 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 138 müəllim heyəti məşğul olur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni tədris kompleksinin idman zalında, hərbi otaqda, ekosinifdə, informatika otağında, kimya kabinetində, ayrı-ayrı sinif otaqlarında və yeməkxanada*

*yaradılmış şəraitlə tanış oldular, müəllimlərlə, şagirdlərlə söhbət etdilər, onlara yeni tədris ilində uğurlar arzuladılar. Məlumat verildi ki, ötən tədris ilində bu təhsil müəssisəsini bitirən məzunların 77 faizi ali məktəblərə qəbul olub. Ümumilikdə hər il bu məktəbin məzunları arasında 600-dən çox bal toplayan və ölkəmizin ali təhsil ocaqları ilə yanaşı, xarici dövlətlərin nüfuzlu universitetlərinə də qəbul olan məzunlar vardır. Məktəbin şagirdləri bir çox bilik, idman yarışlarında, olimpiadalarda müxtəlif medallar qazanaraq, təhsil ocağını layiqincə təmsil ediblər. Yeni təhsil kompleksi bu uğurların daha da artmasına imkan verəcək. Çünki burada şagirdlər geniş, işıqlı, hər cür zəruri tədris avadanlığı ilə təchiz olunmuş otaqlarda elmin sirlərinə yiyələnəcək, müəllimlər isə müasir şəraitdə şagirdlərə dərs deyə biləcəklər.*

*Hər bir dövlətin inkişafı və gələcəyi onun təhsil səviyyəsi ilə bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Azərbaycan bu baxımdan hazırda dünyada lider ölkələrdəndir. Heç bir ölkədə belə qısa müddət ərzində bu sayda məktəb tikilməyib. Bu istiqamətdə atılan addımlara Heydər Əliyev Fondunun töhfələri də olduqca mühümdür. Fondun bu sahədə həyata keçirdiyi layihələrin coğrafiyası və miqyası ilbəil daha da genişlənir.*

*Məktəbdə yaradılmış şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva müəllim heyəti və valideynlərlə görüşüb onları təbrik etdilər.*

**Fəridə Hüseynova** (*1-ci sinif şagirdinin nənəsi*): Əziz Prezidentimiz, hörmətli Mehriban xanım, sizi burada görməyimizə çox şadıq. Mənim nəvəm də bu məktəbin birinci sinfinə qəbul olub. Mən öz adımdan, valideynlər adından sizə təşəkkür edirəm ki, övladlarımıza belə gözəl şərait yaratmısınız. Allah sizin canınızı sağ, ömrünüzü uzun eləsin.

**İlham Əliyev:** Çox sağ olun. Mən də çox şadam ki, uşaqlar yeni dərs ilini yeni məktəbdə başlayırlar. Müəllimlərin də iş yeridir. Valideynlər də, uşaqlar da, müəllimlər də razıdırlar. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, xalqımız razı olsun, xalqımızın yaşayış səviyyəsi gündən-günə yaxşılaşsın, uşaqlar gözəl məktəblərdə oxusunlar.

Son illərdə məktəb tikintisi istiqamətində çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, həm Bakı şəhərində, həm bütün bölgələrdə 3200-dən çox məktəb tikilib və ya təmir olunubdur. Bu il 80-dən çox məktəb yenidən tikiləcək və hələ də təmirsiz olan məktəblərdə gələcək illərdə mütləq təmir işləri aparılacaqdır.

Bu məktəb doğrudan da göz oxşayır. Bütün lazımi şərait yaradılıb, avadanlıqlarla təchiz edilibdir. Mənə verilən məlumata görə, məktəbin əvvəlki vəziyyəti çox acınacaqlı idi. Yəni burada müəllimlər üçün də böyük çətinliklər var idi, uşaqlar da təmirsiz, yararsız vəziyyətdə olan məktəbdə oxuyurdular. İndi bu şərait yaradıldı. Amma bu, işin bir hissəsidir. Əlbəttə, əsas məsələ odur ki, gözəl şəraitlə bərabər, təhsilin səviyyəsi yüksək olsun və burada oxuyan uşaqlar gələcəkdə həyatda layiqli yer tuta bilsinlər. Ona görə təhsilin

səviyyəsinin qaldırılması bu gün gündəlikdə duran vacib məsələlərdəndir və bu istiqamətdə də nəticələr vardır.

Onu da bildirməliyəm ki, son illərdə müəllim peşəsini seçənlərin sayı artır. Müəllim Azərbaycanda həmişə çox hörmətli peşə olub. Həmişə müəllimə böyük hörmət olub. Bu gün isə bu daha da yüksək səviyyədədir. Müəllimlərin əmək haqlarının artırılması, iş şəraitinin yaxşılaşdırılması bu nəticəyə gətirib çıxarıb ki, müəllim olmaq istəyənlərin sayı əvvəlki illərlə müqayisədə xeyli artıb. Bir daha uşaqları, valideynləri, müəllimləri yeni məktəbin tikintisi ilə əlaqədar təbrik edirəm.

**Yaqut Mönsümova** (*məktəbin kimya müəllimi*): Möhtərəm Prezident, icazə verin, mən də kollektivimiz adından Sizə minnətdarlığımı çatdırım. Sözün düzü, minnətdarlığımı çatdırmaq üçün söz tapa bilmirəm. Cənab Prezident, yeni məktəblər tikirsiniz, təmir etdirirsiniz. Bu, təhsilə olan münasibətdir. Bu, dövlətə olan münasibətdir. Sizin tapşırığınıza əsasən tikilmiş bu yeni məktəb binası Bilik Günündə bizə ən gözəl hədiyyədir. Biz hər zaman Sizin qayğınızı hiss edirik. Belə gözəl, möhtəşəm məktəb binasının istifadəyə verilməsi biz müəllimləri ürəkdən sevindirir, daha yaxşı işləməyə həvəsləndirir, məsuliyyətimizi daha da artırır. Mən məktəbimizdəki kimya laboratoriyasını, kabinetləri gördüm. Düzü, əvvəllər belə laboratoriyaları, kabinetləri biz ancaq filmlərdə görürdük. İndi bu, Azərbaycanın reallığıdır.

Bilirik, dünyada bir çox münaqişələr, problemlər baş verir. Azərbaycanımızda Sizin sayənizdə sabitlikdir,

əmin-amanlıqdır. Bu Sizin uzaqgörən siyasətinizin nəticəsidir. Əldə olunmuş uğurlarda əzizimiz, çox hörmətli Mehriban xanımın da böyük xidmətləri vardır. Mehriban xanım, biz sizi dünyalar qədər sevirik. Bir daha çox sağ olun ki, dəyərli vaxtınızı ayırıb bizimlə görüşə gəlmisiniz.

Cənab Prezident, bu gözəl məktəbə, ümumiyyətlə, gördüyünüz bütün işlərə görə Sizə kollektivimiz adından minnətdarlığımı bildirirəm. Allah Sizi, əzizimiz Mehriban xanımı, bütün ailənizi qorusun!

**İlham Əliyev:** Çox sağ olun. Xoş sözlərə görə təşəkkür edirəm. Sizə bir daha uğurlar arzulayıram, sizi bir daha təbrik edirəm. Əminəm ki, burada oxuyan uşaqlar gələcəkdə həyatda layiqli yer tutacaq, dövlətimiz, xalqımız üçün böyük işlər görəcək və bizim ümumi inkişafımıza öz töhfələrini verəcəklər.

# TÜRKİYƏ RESPUBLİKASININ VİTSE-PREZİDENTİ FUAT OKTAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək, əməkdaşlığımızın bütün sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev yüksək səviyyəli siyasi əlaqələrə uyğun olaraq, iqtisadi əməkdaşlığımızın da hərtərəfli inkişaf etdiyini söylədi. Azərbaycan–Türkiyə tərəfdaşlığının son illərdə daha da möhkəmləndiyini bildirən dövlət başçısı ölkələrimizin həyata keçirdiyi birgə irimiqyaslı layihələrin, xüsusilə enerji sahəsi ilə bağlı layihələrin bölgə üçün böyük önəm daşıdığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda Türkiyənin xeyli sayda orta və kiçik müəssisələrinin fəaliyyətinin də iqtisadi əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyini və ticarət dövriyyəsinin 20 faiz artaraq, 3 milyard dollardan çox həcmə çatmasından məmnunluğunu ifadə etdi.*

*Dövlət başçısı Bakıda keçirilən hökumətlərarası birgə Komissiyanın iclasının səmərəli nəticələr verəcəyinə əminliyini ifadə etdi və Türkiyə Respublikası-*

*nın vitse-prezidenti Fuat Oktayın ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini dedi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən vitse-prezident Fuat Oktay ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimizin dövlət başçıları arasında olan dostluq münasibətlərinin əlaqələrimizin inkişafındakı rolunu xüsusi qeyd etdi. Vitse-prezident Fuat Oktay Bakının işğaldan azad edilməsinin 101-ci ildönümü münasibətilə təbriklərini çatdırdı və paytaxtımızın daha da gözəlləşdiyini qeyd edərək, Azərbaycanın bundan sonra da inkişaf yolunda olacağına əminliyini ifadə etdi.*

*Türkiyə vətəndaşlarına münasibətdə viza rəsmiləşdirilməsi tələbinin aradan qaldırılmasına görə təşəkkürünü ifadə edən qonaq bunun iki ölkə arasında turizm və biznes sahəsində əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyini bildirdi.*

*Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktay Türkiyənin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə əlaqədar qəti və birmənalı mövqeyinin olduğunu xatırladaraq, bu mövqenin bütün beynəlxalq səviyyələrdə davamlı olaraq ifadə edildiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## BƏDİİ GİMNASTİKA ÜZRƏ 37-ci DÜNYA ÇEMPİONATININ AÇILIŞI MƏRASİMİ

*Milli Gimnastika Arenası*

*16 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, Birinci vitse-prezident, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva və ailə üzvləri sentyabrın 16-da Bakıda Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli açılışı mərasimində iştirak etmişlər.*

*Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova da açılış mərasimində iştirak etdi.*

*Mərasimdə əvvəlcə iştirakçı ölkələrin Dövlət bayraqları təqdim edildi.*

*Sonra Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov çıxış etdi.*

**A z a d R ə h i m o v:** Hörmətli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Hörmətli Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyeva!

Hörmətli Beynəlxalq Gimnastika Federasiyasının prezidenti cənab Morinari Vatanabe!

Beynəlxalq aləmdə idman tədbirlərinin yüksək səviyyəli təşkilatçısı kimi tanınan Azərbaycanda bu gün daha bir nüfuzlu idman yarışı keçirilir. 14 ildən sonra Azərbaycan bədii gimnastika üzrə 37-ci dünya çempionatına ev sahibliyi edir.

2014-cü ildə istifadəyə verilmiş bu möhtəşəm arena dövlətimizin başçısı İlham Əliyevin ümumilikdə idmana göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Gimnastika növləri üzrə Bakıda dünya kubokları, Avropa və dünya çempionatları yüksək səviyyədə keçirilir. Azərbaycan Gimnastika Federasiyası ardıcıl olaraq 2 il dünyanın ən yaxşı federasiyası adına layiq görülüb. Təsadüfi deyil ki, Beynəlxalq Gimnastika Federasiyası bu mötəbər yarışın təşkilini məhz ölkəmizə həvalə edibdir.

Müasir Azərbaycan gimnastikasında olan bugünkü nailiyyətlər ölkəmizin Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın adı ilə bağlıdır. Mehriban xanımın rəhbərlik etdiyi yerli təşkilat komitəsinin hər bir üzvünə, yerli və xarici könüllülərə minnətdarlığımızı bildiririk. Sözsüz ki, yarışın Tokio Olimpiya oyunlarına təsnifat xarakteri daşıması, 61 ölkənin 300-dən çox idmançısının mükafatlar uğrunda mübarizə aparması dünya çempionatının gərgin mübarizə şəraitində keçəcəyinə, maraqlı və unudulmaz olacağına əminlik yaradır. İdmançılara isə yaranmış bu imkandan bəhrələnərək, layiqli mübarizə aparmağı və qələbə qazanmağı arzu edirəm.

Diqqətinizə görə çox sağ olun.

**M o r i n a r i  V a t a n a b e:** (*Beynəlxalq Gimnastika Federasiyasının prezidenti*): Beynəlxalq Gimnastika Federasiyasının prezidenti olaraq, sizi burada – Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatında salamlamaqdan məmnunluq duyuram. Bu gündən etibarən 7 gün ərzində dünyanın müxtəlif ölkələrindən olan bədii gimnastlar «Tokio–2020» Olimpiya oyunlarına lisenziya qazanmaq uğrunda mübarizə aparacaqlar. Onlar həm də gözəllik üçün yarışacaqlar. Mən inanıram ki, bu, tamaşaçılar üçün gözəl musiqi və əsrarəngiz bədii gimnastika çıxışlarının harmoniyasından həzz almaq üçün böyük bir imkandır.

Azərbaycan Gimnastika Federasiyasına, xüsusilə də federasiyanın prezidenti Mehriban xanım Əliyevaya, Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimova, tədbirin bədii gimnastika üzrə səfiri Yana Batırşinaya, könüllülərə və çempionatı belə gözəl səviyyədə təşkil etməkdə əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Əziz gimnastlar, əminəm ki, siz bədii gimnastikanın gözəlliyini və mükəmməlliyini dünyaya nümayiş etdirəcəksiniz.

* * *

*Mərasimdə Beynəlxalq Gimnastika Federasiyasının sentyabrın 13-də vəfat etmiş, 20 il bu qurumun rəhbəri olmuş sabiq prezident Bruno Qrandinin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Sonra Azad Rəhimov, Morinari Vatanabe və dünya çempionatının*

*səfiri, bir neçə dəfə dünya çempionu, Olimpiya oyunlarının mükafatçısı, rusiyalı gimnast Yana Batırşina çempionatı açıq elan etdilər.*

*Tanınmış müğənni və bəstəkar, Əməkdar artist Tünzalə Ağayeva Azərbaycanın Dövlət himnini akapella üslubunda ifa etdi.*

*Daha sonra hakimlərin, gimnastların və məşqçilərin adından and içildi. Misir Gimnastika Federasiyasının nümayəndəsi Sarah Qhoneim hakimlər, azərbaycanlı gimnast Zöhrə Ağamirova atletlər, Meksika yığma komandasının məşqçisi Karolina Rangel isə məşqçilər adından təntənəli şəkildə and içdilər. Bu andlar bütün iştirakçılara, tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik, idmanda ədalətin prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olduğunu bir daha xatırlatdı.*

*Dünya çempionatının ulduz səfiri, Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış «Birinci ol» mahnısını ifa etdi.*

*Mərasimdə şərq motivləri əsasında səhnələşdirilmiş «Şərq nağılı» şousu təqdim olundu. Şouda gimnastikanın müxtəlif növləri üzrə 200-ə yaxın gimnast və onların məşqçiləri iştirak etdilər. Bu şouda səhnəyə çıxan ən kiçik gimnastın 9 yaşı vardır.*

*Şoudan sonra məşhur müğənni, Xalq artisti Emin Ağalarov sevilən mahnıları ilə tamaşaçıların qəlbini fəth etdi.*

*Beləliklə, Azərbaycan daha bir unudulmaz açılış mərasimi ilə adını dünya gimnastika yarışlarının tarixinə yazdı.*

*«Tokio–2020» Yay Olimpiya oyunlarına lisenziya xarakteri daşıyan çempionatda 61 ölkədən 300 gimnast 9 dəst medal uğrunda mübarizə aparır.*

*«Nağıllar gerçəkləşəcək!» devizi ilə təşkil olunmuş dünya çempionatına Azərbaycan 9 gimnastla qatılıb. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova güclərini sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.*

*Sentyabrın 22-dək davam edəcək çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) Tokio Olimpiadasına lisenziya əldə edəcəklər. Qrup hərəkətləri komandalarına gəldikdə isə, ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin edib. Çempionatda çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Olimpiadaya vəsiqə qazanacaqdır.*

## GÜRCÜSTANIN İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF NAZİRİ NATİYA TURNAVA İLƏ GÖRÜŞ

*17 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Natiya Turnavanı qəbul etmişdir.*

*Natiya Turnava Gürcüstanın Baş Naziri Georgi Qaxarianın salamlarını dövlət başçısına çatdırdı. Görüşdə Azərbaycanla Gürcüstan arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, iqtisadi sahədə əməkdaşlığın ayrı-ayrı istiqamətlərdə genişlənməsindən məmnunluq ifadə olundu.*

*Söhbət zamanı iqtisadiyyatın şaxələndirilməsi hesabına ticarət dövriyyəsinin genişləndirilməsi, tranzit yükdaşımalarının həcminin artırılması məqsədilə Bakı–Tbilisi–Qars dəmir yolunun imkanlarından istifadə edilməsi məsələləri müzakirə edildi, energetika, sərmayə qoyuluşu, elektroenergetika, turizm sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlət başçısı Baş Nazir Georgi Qaxarianın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC VELLAYA**

Hörmətli cənab Prezident!

Malta Respublikasının milli bayramı– Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2019-cu il*

## BELARUS RESPUBLİKASI TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİ STANİSLAV ZASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Belarus Respublikası Təhlükəsizlik Şurasının Dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Xoş gəlmisiniz! Sizi yenidən görməyimə şadam. Siz artıq ilk dəfə deyil ki, bizim ölkəmizə gəlirsiniz və hər səfəriniz qarşılıqlı maraq doğuran məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Münasibətlərimizin xarakteri və ruhu haqqında danışmağa ehtiyac yoxdur. Biz onları çox yüksək qiymətləndiririk. Onlar dostluğa, qarşılıqlı anlaşmaya, qarşılıqlı dəstəyə əsaslanır. Əminəm ki, sizin bu səfəriniz də münasibətlərimizin gələcək inkişafına töhfə verəcəkdir.

Bizim siyasi qarşılıqlı fəaliyyətimizin səviyyəsi çox yüksəkdir. Demək olar ki, dövlət başçılarının, digər rəsmi şəxslərin müntəzəm səfərləri, ticari-iqtisadi sahədə yaxşı irəliləmələr, birgə layihələr, birgə istehsal, təhlükəsizlik sahəsində, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıq mövcuddur. Belə ki, münasibətlərimiz

dərin məzmunla zəngindir və nəticəyə yönəlibdir. Münasibətlərimizin fərqli xüsusiyyəti ondadır ki, biz qərar qəbul edirik, qərarların həlli yollarını müəyyənləşdiririk və nəticəsini görürük. Düşünürəm ki, bu müsbət dinamika gələcəkdə də saxlanılacaq, münasibətlər uğurla inkişaf etdiriləcək, ölkələrimizə və xalqlarımıza fayda gətirəcəkdir. Sizi bir daha Azərbaycanda salamlayıram.

**S t a n i s l a v  Z a s** (*Belarus Respublikası Təhlükəsizlik Şurasının Dövlət katibi*): Sağ olun, hörmətli İlham Heydər oğlu. Sizinlə görüşmək, söhbət etmək mənim üçün böyük şərəfdir.

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI
ƏLAHƏZRƏT SALMAN BİN
ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Səudiyyə Ərəbistanının qardaş xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2019-cu il*

## ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ YIĞINCAĞI DAİMİ KOMİTƏSİNİN SƏDRİ Lİ CANŞUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab sədr, hörmətli qonaqlar, mən sizi Azərbaycanda salamlamaqdan şadam. Bizim ölkəyə xoş gəlmisiniz! Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, səfər uğurlu olacaq, ikitərəfli əlaqələrimizin daha da inkişafına və dərinləşməsinə xidmət edəcəkdir. Çox şadıq ki, ölkələrimiz arasındakı dostluq münasibətləri uğurla inkişaf edir, getdikcə yeni sahələri əhatə edir və gələcək üçün çox yaxşı perspektivlərə malikdir.

Bildiyiniz kimi, mən sizin ölkənizə dəfələrlə dövlət, rəsmi və işgüzar səfərlər etmişəm. Sonuncu səfərim bu ilin aprelində «Bir kəmər–bir yol» konfransı çərçivəsində olub. Tədbir çərçivəsində mənim Sədr, hörmətli cənab Si Cinpinlə görüşüm keçirilib. Bu görüşdə biz münasibətlərimizi müfəssəl müzakirə etdik və gələcək

əməkdaşlıq üçün perspektivləri müəyyənləşdirdik. Siyasi münasibətlərin yüksək səviyyəsi digər sahələrdə də münasibətlərin inkişafına yaxşı zəmin yaradır. Biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin xeyli artmasına şadıq. Şadıq ki, yeni müqavilələr bağlanılır. Sizin ölkənizə sonuncu səfərim zamanı 10 müqavilə bağlanılıb. Şadıq ki, Çin şirkətləri Azərbaycanda investisiya layihələrinə maraq göstərir, eləcə də imzalanmış müqavilələr çərçivəsində müxtəlif sahələrdə çalışaraq, layihələr həyata keçirirlər. Bizdə artıq energetika, nəqliyyat, humanitar sahələrdə yaxşı nəticələr vardır. Şadıq ki, Çin Xalq Respublikasından yüklər Azərbaycan vasitəsilə dünya bazarlarına nəql edilir. Həmçinin dediyim kimi, əmtəə dövriyyəsi artır, eləcə də Azərbaycandan sizin ölkənizə, sizdən isə bizə ixrac artır.

Onu da qeyd etmək istərdim ki, viza rejiminin sadələşdirilmiş sxemi üzrə Çin Xalq Respublikasından Azərbaycana gələn turistlərin sayının artmasından şadıq. Nəqliyyat sahəsində əməkdaşlıqdan danışarkən qeyd etmək istərdim ki, biz Azərbaycanda böyük həcmdə yüklər nəql etməyə qadir olan müasir nəqliyyat infrastrukturu yaratmışıq. Bizim beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığımızı da qeyd etmək istərdim. Ölkələrimizin bir-birinə göstərdiyi qarşılıqlı dəstək bütün istiqamətlər üzrə münasibətlərin inkişafına yaxşı şərait yaradır. Parlament diplomatiyası çərçivəsində münasibətləri xüsusi qeyd etmək istərdim. Ölkələrimizin parlamentlərarası əlaqələri böyük əhəmiyyət kəsb edir və sizin Azərbaycana səfəriniz bunu bir daha vurğulayır. Sizə ölkəmizdə vaxtınızı

xoş keçirməyi arzulayıram və bir daha sizi Azərbaycanda salamlayıram.

**L i C a n ş u:** İcazə verin, hər şeydən əvvəl köhnə dostunuz Si Cinpinin səmimi salamını və ən yaxşı arzularını Sizə çatdırım. Son illərdə Sədr Si Cinpin Sizinlə ikitərəfli və çoxtərəfli müstəvidə xeyli görüş keçirib. Siz birlikdə Çin–Azərbaycan münasibətlərinin yüksək səviyyədə inkişaf etməsinə rəvac verirsiniz. Eyni zamanda, siz öz aranızda çox yaxşı işgüzar münasibətlər və şəxsi möhkəm dostluq yaratmısınız. Düşünürəm ki, məhz sizin uzaqgörənliyiniz, eləcə də strateji istiqamət sayəsində dövlətlərimiz tərəfindən Çin–Azərbaycan münasibətləri möhkəm, sağlam və sabit inkişaf edir. Bununla da bizim münasibətlərimiz nümunəvi dövlətlərarası münasibətə çevrilibdir. Bu ilin aprelində Sədr Si Cinpin Sizi ikinci «Bir kəmər–bir yol» Sammitinə dəvət etmişdi. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Siz Cənubi Qafqazdan dəvət olunmuş yeganə dövlət başçısı idiniz. Sammit çərçivəsində Sizin Si Cinpinlə ənənəvi görüşünüz oldu. Siz birlikdə Çin–Azərbaycan münasibətlərinin gələcək inkişafının möhtəşəm planlarını müəyyənləşdirdiniz və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsi üçün təməl yaratdınız.

* * *

*Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müasir Azərbaycan dövlətçiliyinin əsasının qoyulduğunu və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə siyasi*

*sabitliyin hökm sürdüyünü qeyd etdi. O, ölkəmizdə sosial-iqtisadi sahədə əldə edilmiş böyük uğurlar münasibətilə təbriklərini ifadə etdi.*

*Görüşdə Azərbaycanın Çinin etibarlı tərəfdaşı olduğu və əməkdaşlığımızın bundan sonra da dinamik inkişaf edəcəyinə əminlik ifadə olundu. Ölkələrimiz arasında ticarət dövriyyəsinin artması, nəqliyyat, sənaye, informasiya və kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, elm, təhsil və digər sahələrdə əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsi aparıldı. Ölkələrimizin Çinin təşəbbüskarı olduğu «Bir kəmər–bir yol» layihəsi çərçivəsində əməkdaşlığına toxunuldu. Azərbaycanda böyük həcmdə yüklərin ötürülməsinə qadir olan müasir nəqliyyat infrastrukturunun yaradıldığı, Çin mallarının Azərbaycan vasitəsilə dünya bazarlarına daşınması nəqliyyat sahəsində əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi.*

## «ƏSRİN MÜQAVİLƏSİ»NİN 25 İLLİYİ VƏ NEFTÇİLƏR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN NEFT SƏNAYESİ İŞÇİLƏRİNƏ

Hörmətli neft sənayesi işçiləri!

Sizi ölkəmizin həyatında mühüm strateji rol oynamış «Əsrin müqaviləsi»nin 25 illiyi və peşə bayramınız olan Neftçilər Günü münasibətilə ürəkdən təbrik edirəm.

«Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü» haqqında 1994-cü il 20 sentyabr tarixli Saziş müstəqil Azərbaycanın gələcək inkişafının başlıca mənbəyinə çevrilmiş, onun dinamik templə sonrakı davamlı yüksəlişini təmin etmişdir.

Dövlət müstəqilliyimizin ilk illərindəki gərgin geosiyasi şəraitdə xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi qətiyyəti nəticəsində imzalanmış və yüksək dəyərləndirilərək, «Əsrin müqaviləsi» adını qazanmış bu Saziş respublikamızın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft anlaşması idi. Müqavilə bütövlükdə regionun enerji xəritəsini köklü şəkildə dəyişərək, Xəzər dənizi hövzəsində əməkdaşlığa əlverişli zəmin yaratmışdır. Bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu enerji strategiyasının ölkəmizin

qısa vaxtda dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq mövqelərinin güclənməsində müstəsna əhəmiyyəti vardır.

Azərbaycan nefti və qazı bu gün dünyada sülhün, təhlükəsizliyin və tərəqqinin amillərindəndir. Ölkəmizin təşəbbüsü və liderliyi ilə «Cənub Qaz Dəhlizi» çərçivəsində gerçəkləşdirilən işlər Azərbaycanın potensialını nümayiş etdirir. Respublikamız eyni zamanda, aparıcı xarici neft şirkətləri ilə ötən illərdə uğurlu əməkdaşlıq formatı reallaşdırmışdır. Tərəfdaşların təşəbbüsü ilə «Əsrin müqaviləsi»nin yenidən işlənməsi və sazişin müddətinin 2050-ci ilədək uzadılması bunun aydın təzahürüdür. Regional və qlobal əhəmiyyətli neft-qaz layihələrində ölkəmizi layiqincə təmsil edən və dünya enerji bazarında mövqelərini möhkəmləndirən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin həyata keçirdiyi investisiya layihələri isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirir.

«Əsrin müqaviləsi»nin misilsiz uğurları neftçilərimizin fədakar əməyinin bəhrəsidir. Məhz onların sayəsində Azərbaycan neft sənayesinin geniş infrastrukturuna malik olub, dünyada neft ölkəsi kimi tanınıbdır.

Neftlə bağlı ən müxtəlif istiqamətlər üzrə görkəmli alim və mütəxəssislərimiz zəngin neft, qaz sərvətlərinin Vətənimizin yüksəlişi naminə istifadəsi üçün nəhəng işlər görüb, ölkəmizin neft salnaməsinə parlaq səhifələr yazıblar.

Azərbaycan neftçilərinin indiki nəsli olaraq, siz onların yolunu böyük müvəffəqiyyətlə davam etdirirsiniz. Bu yolda hamınıza yeni nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 sentyabr 2019-cu il*

## «ƏSRİN MÜQAVİLƏSİ»NİN 25 İLLİYİ VƏ NEFTÇİLƏR GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ MƏRASİMDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*20 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Heydər Əliyev Mərkəzində «Əsrin müqaviləsi»nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilmiş mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısı tədbirdə nitq söylədi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanımlar və cənablar, əziz dostlar! Bu gün Azərbaycanda çox əlamətdar bir gündür. Bu gün biz Neftçilər Gününü qeyd edirik. Bütün Azərbaycan neftçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik edirəm, onlara yeni uğurlar, yeni qələbələr arzulayıram. Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaqdır. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüb, böyük töhfələr veriblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır.

Bildiyiniz kimi, dünyada sənaye üsulu ilə ilk neft məhz Azərbaycanda hasil edilmişdir. Bu gün şəhərimizin mərkəzində dünyanın ilk neft quyusu bir turizm obyekti kimi fəaliyyət göstərir. O gündən bu günə qədər Azərbaycanda böyük həcmdə neft hasil edilibdir. Bildiyiniz kimi, dəniz yataqlarından da dünya miqyasında ilk neft Azərbaycanda hasil edilmişdir və bu gün biz Azərbaycan neft sənayesinin inkişafının yeni mərhələsinin şahidiyik.

Bu gün Azərbaycan nefti müstəqil Azərbaycan dövlətinə xidmət göstərir. Biz hamımız yaxşı xatırlayırıq ki, «Əsrin kontraktı»nın imzalanması ölkəmizin yeni mərhələyə qədəm qoymasına şərait yaratdı. Keçən əsrin 90-cı illərinin əvvəllərində gənc müstəqil Azərbaycan dövləti çox böyük çətinliklərlə, çağırışlarla üz-üzə qalmışdı. Ovaxtkı hakimiyyətin səriştəsizliyi, yarıtmaz fəaliyyəti, xəyanətkar addımları ölkəmizi uçurum kənarına qoymuşdu. 1991–1993-cü illər ağır faciəli illər kimi tariximizdə qalacaq. Ölkəmizi böhran bürümüşdü – siyasi, iqtisadi böhran, sənaye iflic vəziyyətdə idi. İqtisadi sahədə yaşanan tənəzzül gənc müstəqil ölkənin inkişafı üçün çox böyük maneələr törədirdi.

Azərbaycan xalqı özünəxas müdriklik nümayiş etdirərək, 1993-cü ildə ulu öndər Heydər Əliyevə üz tutub, onu hakimiyyətə dəvət etdi. O gündən bu günə qədər Azərbaycan sabitlik dövrü yaşayır, Azərbaycan inkişaf yolu ilə gedir. 1993-cü ildən bu günə qədər aparılmış islahatlar, görülmüş işlər Azərbaycanı dünya miqyasında uğurla inkişaf edən ölkə kimi tanıdır. O vaxt iqtisadi və siyasi sahədə yaşanan böhran böyük təhlükə mənbəyi

idi. Heydər Əliyevin cəsarəti, uzaqgörənliyi, fədakarlığı Azərbaycanı bütün bəlalardan qoruya bildi. Vətəndaş müharibəsinə son qoyuldu, Azərbaycan islahatlar yoluna qədəm qoydu. Müstəqil dövlətin Konstitusiyası qəbul edildi. Qeyri-qanuni silahlı birləşmələr tərk-silah edildi, ölkədə qayda-qanun yaradıldı. Əlbəttə ki, ölkəmizin gələcək inkişafı ilə bağlı ciddi addımlar atılmalı idi və «Əsrin kontraktı»nın imzalanması bu addımlar sırasında xüsusi yer tutur.

«Əsrin kontraktı»nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər «Əsrin kontraktı» imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi?! Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik?! «Əsrin kontraktı»nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu vardır. Bu kontraktın imzalanması da asan məsələ deyildi. Uzun müddət ərzində aparılan danışıqlar nəticə vermirdi. Əlbəttə, hər iki tərəf çalışırdı ki, özü üçün daha əlverişli və məqbul şərtləri əldə etsin. Hesab edirəm ki, biz «Əsrin kontraktı»nın timsalında beynəlxalq əməkdaşlığın müsbət tərəfini görürük. Çünki həm sərmayə qoyan tərəf – investorlar, həm də ki, Azərbaycan dövləti maraqlar balansını taparaq, özləri üçün ən məqbul şərtlərlə bu kontraktı imzaladılar. Əgər investorları kontraktların şərtləri qane etməsə, onda, əlbəttə ki, heç bir kontraktın imzalanmasından söhbət gedə bilməz. Eyni zamanda, Azərbaycan dövlətinin maraqları da tam şəkildə təmin edildi. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən

Azərbaycan bu sözlərimin əyani sübutudur. Mən danışıqların son mərhələsini yaxşı xatırlayıram. Amerikanın Hyuston şəhərində bir aydan çox danışıqlar gedirdi. Bu danışıqlar həlledici rol oynadı. Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxartdı və bu gün «Əsrin kontraktı» bizim neft sənayemizin inkişafında öz rolunu oynayır. İki il bundan əvvəl kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması göstərir ki, 1994-cü ildə nə qədər düzgün qərar qəbul edilmişdir.

«Əsrin kontraktı» ulu öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başladılar. «Əsrin kontraktı»nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradıldı. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. Yəni «Əsrin kontraktı»nın çox böyük faydası vardır.

Eyni zamanda, o vaxt Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı. Ermənistanın ölkəmizin torpaqlarını işğal etməsi, gedən vətəndaş müharibəsi, iqtisadi çətinliklər, bir daha demək istəyirəm ki, Azərbaycanı investisiya üçün əlverişli ölkə kimi təqdim edə bilməzdi. O vaxt ulu öndər Heydər Əliyevin xidmətlərindən biri də o olmuşdu ki, investorları inandıra bilmişdi və Dövlət Neft Şirkətinin rəhbərliyi – bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki,

Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcəkdir. Belə də oldu. «Əsrin kontraktı»nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar, Azərbaycan dövləti isə yüz milyard dollardan çox gəlir əldə etdi.

Yəni bir daha demək istəyirəm ki, bu, dünya təcrübəsində özünə layiqli yer tutan kontraktdır. Çünki həm dövlətin, həm də investorların maraqları təmin olundu. Eyni zamanda, neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı. Biz dünyada neft sənayesində gedən işlərdən xəbərdarıq. Bir çox hallarda neft xoşbəxtlik gətirmir, faciə, qarşıdurma, qeyri-bərabərlik, ədalətsizlik gətirir. Azərbaycanın timsalında neft xeyir gətirdi. Çünki neftdən əldə edilmiş gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu. Sosial məsələlərin həlli üçün şərait yaratdı. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün imkan yaratdı. Müasirləşən şəhərlər, abadlaşan kəndlər, ölkədə gedən quruculuq, abadlıq işləri – bütün bunların təməlində bizim neft sənayemiz dayanır.

Biz, əlbəttə ki, bu gün iqtisadi sahədə şaxələndirmə yolunu seçmişik. Yəni neftdən asılılığı aşağı salmağa çalışırıq, qeyri-neft sektorunu inkişaf etdiririk. Ancaq bilməliyik ki, bu gün də, sabah da ölkəmizin aparıcı sektoru neft-qaz sektorudur. Bu gün və sabah ölkəmizin uğurlu inkişafı üçün bizim qəhrəman neftçilərimizin əməyi əvəzolunmazdır. Məhz bizim neftçilərimiz bu gün Azərbaycanın qüdrətini, inkişafını təmin edirlər. Ona

görə neft-qaz sektorunun bundan sonra da uğurla inkişafı prioritet məsələlərdən biridir. Mən yenə də bunu ona görə deyirəm ki, biz iqtisadi inkişafla bağlı apardığımız siyasəti təbii olaraq, qeyri-neft sektoru üzərində qururuq. Ancaq bilməliyik ki, əgər neft sektoru inkişaf etməsə, bizim qeyri-neft sektorumuz bu gün ölkəmizin tələbatını ödəyə bilməz.

«Əsrin kontraktı»nın imzalanmasından sonra xarici şirkətlər anladılar ki, Azərbaycana sərmayə qoymaq olar və sərmayə qoymaq lazımdır. Yaxşı xatırlayıram, bir çox xarici şirkət Azərbaycana üz tutub, təkliflərini irəli sürüb və bizimlə əməkdaşlıq etmək haqqında öz niyyətini ifadə etmişdir. Beləliklə, «Əsrin kontraktı»ndan sonra onlarla kontrakt, 40-a yaxın «Hasilatın Pay Bölgüsü» Sazişi imzalandı. Düzdür, onların bir hissəsinə xitam verildi. Çünki orada kəşfiyyat işlərində lazımi həcmdə neft-qaz resursları tapılmadı. Ancaq digər layihələr bu gün qüvvədədir və bizim qüdrətimizi daha da artırır. Xüsusilə «Şahdəniz» qaz-kondensat yatağının işlənilməsini qeyd etmək istərdim. «Şahdəniz» üzrə kontrakt «Əsrin kontraktı»ndan 2 il sonra – 1996-cı ildə imzalandı. O vaxt dünya enerji aləmində qaz yataqları o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Bu gün təbii qaz enerji təhlükəsizliyi üçün həlledici məsələdir. Ancaq o vaxt belə deyildi. Ona görə «Şahdəniz» üzrə kontraktın imzalanması da tarixi hadisədir. Bu gün «Şahdəniz» «Cənub Qaz Dəhlizi»nin əsas resurs bazasıdır. «Şahdəniz» qaz-kondensat yatağı dünyanın ən böyük yataqlarından biridir. «Azəri–Çıraq–Günəşli» və «Şahdəniz» yataqları eyni əhəmiyyətə malikdir.

Ondan sonra neft-qaz kəmərləri inşa edilməyə başlandı. Bakı–Novorossiysk kəməri yenidən quruldu. Bakı–Supsa kəməri 1999-cu ildə işə salındı. Bakı–Tbilisi–Ceyhan – hansı ki, ulu öndər Heydər Əliyev özü şəxsən bu kəmərin təməlini qoymuşdu – 2006-cı ildə biz tərəfdən uğurla başa çatdırıldı. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verildi və Azərbaycan öz təbii qazını ixrac etməyə başladı. 2012-ci ildə Azərbaycan və Türkiyə arasında TANAP qaz kəməri üzrə saziş imzalandı. «Şahdəniz» yatağının tam miqyasda işlənilməsi üçün bu hadisənin xüsusi yeri vardır. Keçən il biz böyük təntənə ilə həm TANAP-ı, həm «Cənub Qaz Dəhlizi»ni rəsmi şəkildə açdıq və bu gün TANAP uğurla fəaliyyət göstərir.

Bütün bunlar bizim tariximizdir. Əlbəttə, bu gün bu məclisdə bir çıxışda neft-qaz sənayesi sahəsində görülmüş bütün işləri sadalamaq qeyri-mümkündür. Buna bəlkə də saatlar, günlər lazımdır. Qazma qurğularının Azərbaycanda tikintisi, on minlərlə Azərbaycan vətəndaşının işlə təmin edilməsi, ölkəmizə gələn gəlirlərin düzgün istifadəsi – yəni bütün bunlar bugünkü reallıqlardır.

Bu gün Azərbaycanın uğurlu inkişafı timsalında biz məhz o illərdə atılmış addımların təzahürünü görürük. Görürük ki, ulu öndər Heydər Əliyevin bütün başqa xidmətləri ilə bərabər, bu sahədə xalq qarşısında, dövlət qarşısında göstərdiyi xidmətlər ən yüksək qiymətə layiqdir. Biz – onun davamçıları bu sahədə öz işlərimizi davam etdiririk. Bu gün yeni kontraktlar imzalanır, Azərbaycanın neft-qaz sənayesinə böyük maraq vardır.

Azərbaycan beynəlxalq əməkdaşlıq sahəsində, enerji sahəsində böyük uğurlar əldə edib. Mən fürsətdən istifadə edərək, bizim strateji tərəfdaşımızın – *bp* şirkətinin fəaliyyətini qeyd etmək istərdim. Bizim əsas strateji layihələrimizdə *bp* əsas tərəfdaşımızdır. Həm «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun, həm «Şahdəniz» yatağının işlənilməsində, həm TANAP-da və yeni imzalanmış digər kontraktlar əsasında bizim əməkdaşlığımız uzunmüddətlidir, artıq 25 illik tarixi vardır. Bu əməkdaşlıq bundan sonra ən azı 25–30 il də davam edəcəkdir.

Bir məsələni də qeyd etmək istəyirəm. «Əsrin kontraktı»nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası vardır. Onlardan biri də kadr hazırlığıdır. Xatırlayıram, 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi, konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu. Əlbəttə ki, birinci illərdə xarici mütəxəssislər çoxluq təşkil edirdi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Mənə verilən məlumata görə, bu gün bu təlimlərdən keçmiş mütəxəssislər *bp* şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edir, önəmli vəzifələrdə çalışırlar. Bu gün «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır, yəni bunu biz təmin etdik.

Bu çox böyük sərvətdir. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir. Bu təlimlərdən keçmiş Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görür, ölkəmizin inkişafına böyük töhfə verirlər. Neftdən əldə edilmiş gəlirlər ölkə iqtisadiyyatının inkişafında istifadə olundu. Biz bunu bu istiqamətə yönəltdik. İnfrastruktur tamamilə yeniləndi. Yadınıza salın, 1994-cü ildə bizim infrastrukturumuz nə vəziyyətdə idi, bu gün nə vəziyyətdədir. O vaxt hətta Bakı şəhərinin yarısı təbii qaz ala bilmirdi. Rayonlarda, ümumiyyətlə, bundan söhbət gedə bilməzdi. Bu gün Azərbaycanda qazlaşdırılma 96 faizdir. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkmişik və bu proses davam etdirilir. Mən Dövlət Neft Şirkətinə tapşırıq vermişəm ki, bu işlər dayanmasın. Düzdür, 96 faiz çox böyük rəqəmdir. Nadir hallarda ölkələrdə bu dərəcədə qazlaşdırılma aparılır. Amma biz bunu davam etdirməliyik. O illərdə ölkəmizin yarısı işıqsız qalmışdı. Bakı şəhərinin özündə işıq çatışmırdı. Hətta bəzi hallarda saat 12-də televiziya kanalları da fəaliyyətini dayandırırdı ki, vətəndaşlar elektrikdən az istifadə etsinlər. Çünki elektrik çatışmırdı. Artıq 3000 meqavata yaxın yeni generasiya gücləri yaradılıb və biz nəinki özümüzü elektrik enerjisi ilə təmin edirik, hətta ixrac da edirik.

Yollar bərbad vəziyyətdə idi. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. İçməli su böyük problem idi. Bu gün əhalinin

75 faizi dayanıqlı içməli su ilə təmin edilir və bu proses davam etdirilir.

Məcburi köçkünlər üçün 100-dən çox şəhərcik salındı. Çadır şəhərciklərini biz hələ 2007-ci ildə ləğv etdik. Nəyin hesabına? Neft Fondunun hesabına. Neft Fonduna vəsait haradan gəlir? «Əsrin kontraktı»nın icrasından. Biz yüz minlərlə köçkünə yeni evlər verdik, yeni mənzillər təqdim etdik. Şəhid ailələrinə, müharibə veteranlarına edilən güzəştlər, verilən müavinətlər, mənzillər, minik avtomobilləri – yəni «Əsrin kontraktı»nın çox böyük faydası var və biz vəsaitdən düzgün istifadə etdik. Neft Fondunun gəlirlərindən yalnız büdcə çərçivəsində istifadə etmək mümkündür. Yəni Azərbaycan vətəndaşları Milli Məclisdə öz təmsilçiləri vasitəsilə bu vəsaitin bölgüsündə iştirak edirlər.

Sosial infrastruktur tamamilə yenidən quruldu, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikildi və təmir olundu, idman qurğuları inşa edildi. Azərbaycan kosmik dövlətə çevrildi. Bizim 3 peykimiz vardır. Biz gəlirlərdən istifadə edərək, dövlət borcumuzu aşağı səviyyədə saxlayırıq. Bu, ümumi daxili məhsulun cəmi 19 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə artıqdır. Bu hansı ölkələrdə ola bilər? Var, amma bu ölkələrin sayı o qədər də çox deyil.

«Əsrin kontraktı»nın faydasından çox danışmaq olar. Bundan sonra da neftin satışından əldə ediləcək gəlirlər ilk növbədə, sosial məsələlərə, infrastruktur layihələrinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəldiləcək ki, Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı təmin edilsin.

Mən bu gözəl tarix – «Əsrin kontraktı»nın 25 illiyi və Neftçilər Günü münasibətilə bir daha sizi təbrik edirəm. Azərbaycan neftçilərinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

*ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer Birləşmiş Ştatların Dövlət katibi Maykl Pompeonun məktubunu oxudu.*

**«Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli cənab Prezident!

«Əsrin müqaviləsi»nın imzalanmasının 25-ci ildönümü münasibətilə Sizə və Azərbaycan Respublikasının xalqına Amerika Birləşmiş Ştatları adından salamlarımı və təbriklərimi çatdırmaq istəyirəm.

Bu il 25-ci ildönümünün qeyd edilməsi Azərbaycanın dünya bazarlarına öz zəngin enerji ehtiyatlarını davamlı şəkildə çatdırdığı vaxta təsadüf edir. Son 25 il ərzində Amerika Birləşmiş Ştatları öz enerji ehtiyatlarının işlənilməsində, Avropanın və dünyanın enerji təhlükəsizliyinə töhfə verilməsində və müstəqil dövlət kimi, öz siyasi xəttinin formalaşdırılmasında Azərbaycanın göstərdiyi səylərdə onun qətiyyətli tərəfdaşı olubdur.

1994-cü ildə qərb şirkətləri ilə bu müqaviləni imzalamaqla və Bakı–Tbilisi–Ceyhan boru kəmərini inşa et-

məklə, Azərbaycan dünya bazarlarında əsas neft ixracatçısına çevrildi və ilk dəfə olaraq Xəzər dənizi ilə Aralıq dənizi arasında birbaşa enerji bağlantısı yaratdı.

Azərbaycan yenə də təşəbbüskar rolunda çıxış edərək, bu dəfə «Cənub Qaz Dəhlizi» vasitəsilə təbii qaz ixrac etməklə, Avropanın enerji təhlükəsizliyinə strateji əhəmiyyətli töhfə verir. «Xəzər neft və qaz» sərgisinin 26-cı ildönümü münasibətilə Prezident Tramp öz məktubunda qeyd etdiyi kimi, biz Sizin səylərinizi tam dəstəkləyirik və hesab edirik ki, Azərbaycanın iqtisadi uğuru regionun sabitliyi və çiçəklənməsi üçün əhəmiyyətlidir.

Uğurlu enerji əməkdaşlığımız həm iqtisadi işbirliyimizi, həm təhlükəsizlik sahəsində tərəfdaşlığımızı, həm də insan hüquqları və fundamental azadlıqlar demokratik idarəçilik sahəsində davamlı fəaliyyətimizi əhatə edən straterji münasibətlərimizə müsbət töhfə veribdir.

Birləşmiş Ştatlar bütün bu sahələrdə birgə işimizin davam etdirilməsini və dərinləşdirilməsini səmimiyyətlə arzulayır. Bu mühüm tarixi hadisənin ildönümü münasibətilə təbriklərimi qəbul etmənizi xahiş edirəm.

*Səmimiyyətlə,*

**MAYKL POMPEO**
**Amerika Birləşmiş Ştatlarının Dövlət katibi»**

*Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp Birləşmiş Krallığın Beynəlxalq Ticarət Departamentinin Beynəlxalq Ticarət üzrə Dövlət katibi Elizabet Trassın və*

*Xarici və Birlik məsələləri ofisinin Avropa və Amerika üzrə naziri Kristofer Pinçerin məktubunu oxudu.*

**«Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**

Zati-aliləri!

1994-cü ildə zati-aliləri Heydər Əliyev və Con Braun tərəfindən imzalanmış «Əsrin müqaviləsi»nin 25-ci ildönümü münasibətilə Sizi və Azərbaycan xalqını bu məktubla təbrik etməkdən olduqca məmnunuq.

Həmin əhəmiyyətli gün hazırda ölkələrimizin malik olduğu sıx siyasi və ticari münasibətlərin başlanğıcı kimi yadda qaldı. Son 25 il ərzində *bp*-nin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə tərəfdaşlığı çox böyük uğurla nəticələndi və digərlərinə nümunə olan, enerji sektorunda əməkdaşlıqda məmnunluq doğuran misaldır. 2017-ci ildə müqavilənin müddətinin uzadılması həmin tarixi tərəfdaşlığın gələn onilliklər ərzində inkişafını təmin edir.

Müqavilənin imzalanması bütün dünyaya göstərdi ki, Azərbaycan suveren və müstəqil dövlətdir, ölkənin təbii ehtiyatları tamhüquqlu şəkildə Azərbaycan xalqına məxsusdur. «Cənub Qaz Dəhlizi»nin tamamlanması ilə Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfəsini davam etdirəcəkdir.

Bu daim güclənən davamlı əməkdaşlığımızı səmimiyyətlə arzulayırıq və belə tarixi məqamı mümkün etdiyinizə görə Sizi, Azərbaycan hökumətini, Azərbay-

can xalqını, SOCAR-ı, *bp*-ni və Birləşmiş Krallığın işgüzar dairələrini bir daha təbrik edirik.

*Ən xoş arzularla,*

**ELİZABET TRASS**
**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Beynəlxalq Ticarət Departamentinin Beynəlxalq Ticarət üzrə Dövlət katibi və Ticari Məsələlər İdarə Heyətinin sədri**

**KRİSTOFER PİNÇER**
**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici və Birlik məsələləri ofisinin Avropa və Amerika üzrə naziri»**

**Qari Couns** (*bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti*):

Zati-aliləri Prezident İlham Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hər il bu tarixdə biz Neftçilər Gününü qeyd edirik. Bu dəfə bu tarix xüsusi əhəmiyyət daşıyır, belə ki, bu gün həm də «Azəri–Çıraq–Günəşli» layihəsinin 25 illiyini qeyd edirik.

25 il bundan əvvəl məhz bu tarixdə haqlı olaraq «Əsrin müqaviləsi» adlandırılmış «Azəri–Çıraq–Günəşli» üzrə «Hasilatın Pay Bölgüsü» Sazişinin imzalanması ölkənin müasir tarixində yeni səhifə açdı. Ümummilli

lider Heydər Əliyevin sözləri ilə desək: «Əsrin müqaviləsi»nin imzalanması müstəqil Azərbaycanın yeni neft strategiyası və doktrinasının başlanğıcıdır».

Bu gün biz mərhum Prezident Heydər Əliyevin uzaqgörən siyasətinə əsaslanan strategiyanın möhtəşəm nəticələrinin şahidiyik. «Əsrin müqaviləsi»nin ölkədə misli görünməmiş bir iqtisadi inkişafa yol açması və Azərbaycanı müasir enerji mərkəzinə çevirməsi göz qabağındadır.

Biz AÇG-ni bir öncül hesab edirik. Azərbaycanın dəniz sektoru üzrə imzaladığı ilk «Hasilatın Pay Bölgüsü» Sazişi AÇG yatağı üzrə bağlanılıb. AÇG qərb transmilli şirkətlərinin bu vaxtadək keçmiş Sovet İttifaqı ölkələrinə qoyduğu ilk iri investisiyanı ölkəyə gətiribdir.

Nəhəng və mürəkkəb layihə olan AÇG çərçivəsində dəniz hasilat platformalarını, sualtı boru kəmərlərini, qazma qurğularını, emal terminallarını və ixrac boru kəmərlərini özündə birləşdirən dünya səviyyəli enerji infrastrukturu inşa edilibdir.

Bu illər ərzində 3,6 milyard barreldən çox neft hasil edilib, 44 milyard kubmetr səmt qazı Azərbaycana çatdırılıb, 3,3 milyard barrel neft Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə nəql edilib, 4300 tankerə yüklənilib və dünya bazarlarına göndərilib, 36 milyard ABŞ dolları həcmində kapital investisiya qoyulub, 84 milyon ABŞ dolları həcmində vəsait davamlı inkişaf layihələrinə xərclənibdir. Bütün bunlar müstəsna nailiyyətlərdir və biz hamımız bununla qürur duymalıyıq. Fikrimcə, bu uğur üç aparıcı amilə arxalanır.

Birinci və ən önəmli amil, aparıcı qüvvə, AÇG-nin Azərbaycan üçün əsl milli sərvətə çevrilməsinə töhfə vermiş neftçilərdir. Tarixən Azərbaycanda görkəmli neft mütəxəssisləri yetişib və illərlə yığılmış bu təcrübəni AÇG layihəsində iştirak edən yeni nəsil yüksək səriştəli yerli neft mütəxəssisləri uğurla davam etdirirlər.

Mən xüsusilə qürur duyuram ki, ixtisaslaşmış kadrlarımızın 90 faizi Azərbaycan vətəndaşlarıdır. Sevindirici haldır ki – cənab Prezident də bunu qeyd etdi – onların bir çoxu hazırda *bp*-nin dünyanın müxtəlif ölkələrindəki ofislərində rəhbər vəzifələrdə işləyir.

İkinci amil, onilliklər ərzində birgə səylərlə ərsəyə gətirdiyimiz dünya səviyyəli bu layihənin uğurla həyata keçirilməsinə imkan yaratmış çoxsaylı tərəflərin nümayiş etdirdiyi əməkdaşlıq və strateji tərəfdaşlıqdır.

AÇG üzrə «Hasilatın Pay Bölgüsü» Sazişi Azərbaycanda AÇG tərəfdaşlarının investisiyaları üçün hüquqi sabitlik və etibarlı müdafiə təmin edən nadir birgə iş mexanizmi formalaşdırıb. Bütün tərəflərin, xüsusilə də Azərbaycan hökumətinin göstərdiyi etimad və sarsılmaz inam olmasaydı, bu uğurlar çətin ki, mümkün olardı. Məhz həmin inam və əməkdaşlıq ruhu bizdə AÇG-nin nailiyyətlərini əl-ələ verərək, birlikdə qazanmağa imkan yaradıb. Ötən 25 il ərzində bizim Azərbaycan hökuməti və SOCAR ilə tərəfdaşlığımız yüksək səviyyədə olub. AÇG-nin bütün tərəfdaşları adından bu layihənin uğurunu təmin edən qətiyyətli dəstəyə və öhdəliyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığımı bildirirəm.

Üçüncü amil isə AÇG yatağının işlənilməsində və istismarında tətbiq edilən texnologiyalardır.

Sənayedəki ən qabaqcıl texnologiyaların istifadəsi və yerli innovativ həllərin tətbiqi AÇG-ni təhlükəsiz və səmərəli şəkildə həyata keçirməyə, hasilatı maksimuma çatdırmağa və texniki çətinliklərin öhdəsindən gəlməyə imkan verdi. Bundan əlavə, hazırda AÇG *bp*-nin dünyadakı aktivləri arasında texnologiyaların sınağı və tətbiqi baxımından əsas mərkəz hesab edilir. AÇG-nin 25 illik tarixi möhtəşəm olmuşdur və biz inanırıq ki, onun gələcəyi də eyni dərəcədə uğurlu olacaqdır.

İki il bundan əvvəl məhz bu ayda imzalanmış, «Yeni əsrin müqaviləsi» adlandırılan, müddəti uzadılmış AÇG üzrə «Hasilatın Pay Bölgüsü» Sazişi eyni uğurlu gələcək üçün güclü zəmin yaradır.

Növbəti 30 il ərzində biz yeni sərmayələr yatırmaqla, yeni texnologiyalar tətbiq etməklə və hasilatın artırılması istiqamətində yeni birgə səylər göstərməklə, AÇG-nin uzunmüddətli işlənmə potensialının reallaşdırılması üçün birgə işimizi davam etdirəcəyik.

Yekunda isə bir çox hallarda mürəkkəb iş mühitində işləyərək, öz enerjisi, səriştəsi və əməyi ilə AÇG-nin uğurla gerçəkləşdirilməsinə töhfə vermiş hər kəsə təşəkkürümü bildirmək istəyirəm. Məhz sizin səyləriniz, fədakarlığınız və əzminiz sayəsində Azərbaycanın neft və qaz tarixinə «qızıl» hərflərlə yazılmış bu əlamətdar tarixi qeyd edirik. Təşəkkür edirəm.

**Xoşbəxt Yusifzadə** (*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti*):

Hörmətli xanımlar və cənablar!

Sizin hamınızı, ümumiyyətlə, Azərbaycan xalqını bu bayram münasibətilə təbrik edirəm. Çünki bu, təkcə neftçilərin bayramı deyil. Neftçilərin əldə etdiyi nailiyyətlər, ümumiyyətlə, Azərbaycan xalqının əldə etdiyi nailiyyətlərdir. Ona görə də bu bayram doğrudan da gözəl bayramdır.

«Əsrin müqaviləsi»nin 25 illiyi tamam olur. Bu sanki 100 ilə bərabər bir vaxtdır. Mən yaşca böyük olduğum üçün istəyirəm Dövlət Neft Şirkətinin bütün kollektivi adından hörmətli Prezidentimiz cənab İlham Əliyevə «Çox sağ olun!» – deyim ki, bizim nə qədər işçilərimizi mükafatlandırıb. Bu mükafatları verdiyiniz üçün, cənab Prezident, mən neftçilər adından Sizə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, Sizin bizə məhəbbətinizin nəticəsidir ki, bütün bayramlarda, bütün əlamətdar günlərdə Siz neftçiləri yaddan çıxarmırsınız. Ona görə də Sizə «Çox sağ olun!» – deyirəm. Ömrünüz uzun olsun!

Cənab Prezident elə ətraflı danışdı ki, mən bilmirəm nədən danışım. «Əsrin müqaviləsi» birinci gündən gözümün qabağından bir lent kimi gəlib keçir. Mən də gördüklərimdən bir-iki cümlə deyim. Məsələ ondadır ki, bəzən fikirləşirsən ki, «Əsrin müqaviləsi»dir, qol çəkildi, hər şey hamar getdi. Amma mənim gözümün önündədir ki, nə qədər əziyyətlər çəkilib. Əsas da bu əziyyəti çəkən, bu işin başında duran hörmətli cənab Prezidentimiz Heydər Əliyev olub. Bu müqavilənin imzalanmasına hamını məhz Heydər Əliyev inandıra bildi. Çünki Heydər Əliyevin nəinki Azərbaycanda, bütün

dünyada həm böyük hörməti, həm də böyük qətiyyəti var idi.

Respublika rəhbərliyinə ikinci dəfə gələndə, biz neftçiləri yığdı, neft sənayesi ilə maraqlandı, vəziyyəti aydınlaşdırdı. Belə qərara gəlindi ki, biz hökmən xarici şirkətlərlə bir yerdə işləməliyik. O vaxt aramızda bir çox adamlar var idi, deyirdilər ki, biz özümüz işləyərik. Amma bizim özümüzün işləməyimiz üçün 30–40 il vaxt lazım idi. Cənab Heydər Əliyev vəziyyəti aydınlaşdırandan sonra belə qərara gəldi ki, biz mütləq xarici şirkətləri dəvət etməliyik. Özü də xarici şirkətləri dəvət etməkdə qeyri-adi heç nə yox idi. Bütün böyük dövlətlərin heç biri dənizdə tək işləmir. Çünki bu çox baha başa gəlir. Ona görə də burada elə qorxulu bir şey yox idi. Buna nail olduq. Danışıqlar başlandı, əvvəlcə Bakıda, ardınca İstanbulda. Sonra biz cənab İlham Əliyevlə birlikdə Hyustona getdik. Orada 45 gün danışıqlar aparıldı. İndi bir cümlə ilə deyilir ki, danışıqlar aparıldı. Amma bilirsiniz də, o danışıqlar necə gedirdi. Danışıqlarda bizim o qədər təcrübəmiz yox idi. Amma bizə bütün bu şəraiti yaradan, bütün bu işləri qabağa aparan hörmətli cənab İlham Əliyev oldu. Çünki o, Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdi, xarici dilləri bilirdi.

Onları öz dillərində başa salırdı ki, bizim məqsədimiz nədir. Danışıqlar müsbət nəticələndi. Qayıdıb gəldik və sentyabrın 20-də bu müqavilə imzalandı. O çətin vəziyyətdə 7 ölkənin 11 şirkəti bu müqaviləyə imza atdı. Müqavilənin əhəmiyyəti barədə mən də qısaca olaraq bir-iki kəlmə demək istərdim. Siyasi əhəmiyyətinə gəldikdə,

bütün dövlətlər, bütün şirkətlər inandılar ki, Azərbaycan sabit ölkədir, burada işləmək olar. Heç təsadüfi deyil ki, ondan sonra 35 müqavilə imzalandı. İkincisi, iqtisadi əhəmiyyətinə gəldikdə, 1997-ci ildə bizim respublikada neft hasilatının səviyyəsi 9 milyon tona düşmüşdü. Bu müqavilənin nəticəsində 2010-cu ildə 11 milyon ton neft hasil olundu. «Azəri–Çıraq–Günəşli»də ötən müddətdə 492 milyon ton neft hasil olunub ki, onun 287 milyon tonu Azərbaycanın mənfəət neftidir. Bu da təxminən 58 faiz təşkil edir. Amma ildən-ilə mənfəət neftinin miqdarı artır. Çünki əvvəllər başqa xərclər də var idi. Elə bu ilin 8 ayını götürsək, «Azəri–Çıraq–Günəşli»dən 18 milyon neft hasil olunub ki, onun 13 milyon tonu Azərbaycanın mənfəət neftidir. Bu isə 73 faiz təşkil edir. Demək istəyirəm ki, Azərbaycanın mənfəət neftinin həcmi ildən-ilə artır. Müqavilənin 30 illik müddəti başa çatırdı, bir yol tapmaq lazım idi. Cənab İlham Əliyevin rəhbərliyi ilə düzgün yol seçildi. Yatağın işlənilməsində böyük təcrübəsi olan *bp* və tərəfdaşları ilə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılması çox gözəl nəticə oldu – bizim 75 faiz mənfəət neftimiz qalır, 3,6 milyard bonus gəlir. 40 milyard xərcləyiblər, 40 milyard da xərclənəcək. Yenə 500 milyon ton neft hasil ediləcək. Öz tərəfdaşları ilə burada qalan *bp*, «Azəri–Çıraq–Günəşli»dən başqa, digər strukturlarda da iş aparır, fəaliyyətini genişləndirir. Odur ki, Azərbaycan neftinin gələcəyi üçün bunun böyük əhəmiyyəti oldu.

Bir-iki kəlmə də Bakı–Tbilisi–Ceyhan haqqında danışım. Bakı–Tbilisi–Ceyhan da Heydər Əliyev cənablarının uzaqgörənliyini göstərir. O vaxt ulu öndər bildi ki,

Azərbaycan neftini Bakı–Supsa, Bakı–Novorossiysk kəmərləri ilə xaricə çıxara bilməyəcək. Onda Bakı–Tbilisi–Ceyhan məsələsi ortaya çıxdı. Bu həm də iqtisadi cəhətdən çox səmərəli idi. Çünki bu kəmər Qara dənizdən yan keçməklə, Aralıq dənizinə çıxırdı. Qısaca deyim ki, əgər bu günədək xarici bazarlara 554 milyon ton Azərbaycan nefti çıxarılıbsa, onun təxminən 400 milyon tonu Bakı–Tbilisi–Ceyhanın payına düşür. İndi təsəvvür edin ki, bu kəmər olmasaydı, bu qədər neft xaricə necə çıxacaqdı? Ümumiyyətlə, həyat belədir, nə yaxşı iş görürsən gör, bir nəfər tapılıb deyir ki, bu elə deyil, belədir. Amma həyat sonradan bu məsələlərin düzgünlüyünü göstərdi. İndi buna heç kim heç nə deyə bilməz. Demək olar ki, əgər «Əsrin müqaviləsi» cənab Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı–Tbilisi–Ceyhan ikinci şah əsəridir. Üçüncü şah əsəri də «Şahdəniz»dir. Bunların hamısını cənab Heydər Əliyev başladı. Bunların əsasını qoydu, yaratdı, dünyaya çatdırdı. Cənab İlham Əliyev də bu gün bunların hamısını davam etdirir. İndi əldə etdiyimiz nailiyyətləri danışmaqla qurtarmaq olmaz. Çünki bu 25 ildə çox böyük işlər görülüb. Mən də bir məqalə yazmışam – «100 ilə bərabər olan 25 il». Cənab İlham Əliyev, hörmətli Mehriban xanım, rayonlara gedəndə görürük ki, nə qədər məktəblər, idman mərkəzləri tikilib, yollar çəkilibdir. Azərbaycanda 5–10 il olmayan insanlar ölkəmizə gələrkən buradakı inkişafa heyran qalırlar, çox böyük dəyişikliklər baş veribdir.

Mən çox danışmaq istəmirəm. Allah Heydər Əliyevə rəhmət eləsin. Allah cənab İlham Əliyevə ailəsi ilə

birlikdə uzun ömür versin. Azərbaycanın neftçiləri də öz qarşılarında vəzifə qoyurlar ki, ölkəmiz həmişə birinci yerdə olsun. İndi qeyri-neft sektoru inkişaf edir. Bu çox yaxşı haldır. Amma biz neft sənayesinin işçiləri də gərək elə edək ki, geridə qalmayaq. Əvvəlcədən necə işləmişik, elə də işləyək. Çünki hələ uzun illər bizə neft, qaz lazım olacaq. Odur ki, mən sizin hamınızı bir daha təbrik edirəm. Cənab İlham Əliyevə, onun ailəsinə uzun ömür arzu edirəm ki, respublikanın bayrağını yüksəyə qaldırıb dünyaya tanıdıblar.

Diqqətinizə görə çox sağ olun.

* * *

*Sonda bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Couns Prezident İlham Əliyevə «Əsrin müqaviləsi»nin 25 illiyi münasibətilə «Azəri–Çıraq–Günəşli» yatağını simvolizə edən markaların toplusunu hədiyyə etdi.*

## TƏHSİLİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ ASSOSİASİYANIN 45-ci İLLİK KONFRANSI İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Əziz qonaqlar!

Sizi Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram. Belə mötəbər tədbirin ölkəmizin paytaxtında yenidən keçirilməsindən məmnunluğumu bildirirəm.

Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir. «Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları» mövzusuna həsr olunmuş hazırkı konfrans bu baxımdan təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcəkdir.

Azərbaycanın təhsil sistemində son illərdə bir sıra uğurlar qazanılıbdır. Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik. Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə eyni zamanda, beynəlxalq

qiymətləndirmənin inkişaf prinsiplərinə əsaslanaraq, lazımi araşdırmalar aparılıb və bu istiqamətdə normativ-hüquqi baza təkmilləşdirilibdir.

Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir. Əminəm ki, 55 ölkədən 300-dən artıq ekspertin qatıldığı konfransınızda qiymətləndirmə sisteminin müxtəlif aspektləri ilə bağlı geniş müzakirələr yeni qiymətləndirmə texnologiyalarının səmərəli tətbiqində və standartların formalaşdırılmasında mühüm rol oynayacaqdır.

Hamınıza cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 sentyabr 2019-cu il*

**TÜRKMƏNİSTAN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikqulıyeviç!

Türkmənistanın milli bayramı–Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Türkmənistan əlaqələri qarşılıqlı hörmət, etimad və dəstək prinsipləri ilə səciyyələnir. İnanıram ki, dövlətlərarası münasibətlərimiz və əməkdaşlığımız xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dinamik şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə, hörmətli Qurbanqulu Məlikqulıyeviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 sentyabr 2019-cu il*

## XORVATİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BRANKO ZEBİÇ İLƏ GÖRÜŞ

*24 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Xorvatiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Branko Zebiçin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Branko Zebiç Fəxri qarovul dəstəsinin qarşısından keçdikdən sonra etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**Branko Zebiç:** Sabahınız xeyir, cənab Prezident. Adım Branko Zebiçdir. Xorvatiyanın səfiriyəm. Burada olmaq, etimadnaməni təqdim etmək və Sizin çox yaxşı tanıdığınız Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin salamlarını Sizə çatdırmaq mənim üçün şərəfdir.

**İlham Əliyev:** Çox sağ olun. Mən bizim görüşlərimizi, xüsusilə ötən il ölkənizə rəsmi səfərim zamanı keçirdiyimiz görüşü xatırlayıram. Apardığımız müzakirələr ölkələrimiz arasında tərəfdaşlığın inkişafına xidmət edir. Düşünürəm ki, biz bir sıra sahələri əhatə edən çox səmərəli əlaqələr qurmağa müvəffəq olmuşuq. Əlbəttə ki, xanım Prezidentin Azərbaycana rəsmi səfəri və mənim

ölkənizə səfərim əməkdaşlığımızın çox mühüm nümunələridir. Əminəm ki, özünüzü Azərbaycanda evinizdəki kimi hiss edəcəksiniz, çünki ölkələrimiz arasındakı dostluq münasibətləri xalq diplomatiyasını da əhatə edir. Düşünürəm ki, son illərdə Xorvatiyada daha çox adam bizim barəmizdə məlumatlı olub və daha çox azərbaycanlı sizin ölkəniz barədə məlumat əldə edibdir. Bu səbəbdən də düşünürəm ki, Azərbaycanda bir neçə il fəaliyyət göstərmək sizin üçün çox xoş olacaq. Əminəm ki, siz ənənəvi sahələrdə əməkdaşlığımızın gücləndirilməsinə, həmçinin tərəfdaşlığımızın yeni sahələrinin tapılmasına öz töhfənizi verəcəksiniz. Sizə ölkəmizdə xoş günlər və uğurlar arzulayıram.

**Branko Zebiç:** Təşəkkür edirəm. Mən özümü çox yaxşı və artıq evimdəki kimi hiss edirəm. Bundan əvvəl 1 il müddətində müvəqqəti işlər vəkili işləmişəm. Siz Zaqrebə səfər edən zaman mən Azərbaycanda yaşamağa başladım. Mən Xorvatiya nümayəndə heyətinin tərkibində idim. Baş Nazir məni Sizə təqdim etdi və burada səfir olacağıma dair söz verdi. Lakin bu, Xorvatiyada bir qədər vaxt tələb etdi. Prosedur belədir.

**İlham Əliyev:** Azərbaycanda yaxşı yerləşmisiniz?

**Branko Zebiç:** Bəli, yaxşı yerləşmişəm, özümü evimdəki kimi hiss edirəm. Siz qeyd etdiyiniz kimi, əməkdaşlığı gücləndirmək və genişləndirmək üçün çoxlu sahələr vardır. Söhbət təkcə iqtisadi əməkdaşlıqdan getmir. Bu sahədə işlər çox yaxşı gedir. Xorvatiyanın Azərbaycanda ilk daimi səfiri kimi, mən xüsusilə xalqlar arasında əməkdaşlığı genişləndirmək istərdim.

*Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Xorvatiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## LİTVA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ EQİDİUS NAVİKAS İLƏ GÖRÜŞ

*24 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Eqidius Navikasın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Eqidius Navikas Fəxri qarovul dəstəsinin qarşısından keçdikdən sonra etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Sizi yenidən görməyimə şadam, Azərbaycana xoş gəlmisiniz! Ölkəmizdə sizə xoş günlər arzulayıram. Əminəm ki, Azərbaycanda çalışdığınız müddətdə bizim ənənəvi dostluq münasibətlərimiz uğurla inkişaf edəcək, yeni sahələri əhatə edəcəkdir. Biz yaxşı tərəfdaş, köhnə dostlarıq, bir-birimizi çoxdan tanıyırıq və uzun müddət ərzində fəal əməkdaşlıq edirik. Yəqin ki, mənim sizin prezidentlərlə əlaqələrim barədə xəbərdarsınız. Cənab Adamkusla biz Bakıda da, Vilnüsdə də tez-tez görüşmüşük. Eləcə də Prezident Qribauskayte ilə bizim çox yaxşı münasibətlərimiz olub. Belə ki, bizim əlaqələrimizin tarixi kifayət qədər

müsbətdir. Ona görə də düşünürəm ki, münasibətləri irəli aparmaq üçün xeyli işiniz olacaqdır.

Əməkdaşlığın ənənəvi və yeni sahələri mövcuddur. Əlbəttə, ticari-iqtisadi əməkdaşlıq cəhətdən müəyyən işlər görülməlidir. Əmtəə dövriyyəsini artırmaq mümkündür. Ticari-iqtisadi əlaqələri artırmaq məqsədilə müəyyən işçi qruplar yaratmaq olar. Biz bütün digər istiqamətlərdə də ənənəvi əməkdaşlığı davam etdirmək, tərəfdaşlığı möhkəmləndirmək niyyətindəyik. Əməkdaşlıq həm də hansısa konkret nəticəyə yönəlməlidir. Sizə ölkəmizdə yaxşı günlər və Azərbaycanda fəal işləməyi arzulayıram.

**E q i d i u s N a v i k a s:** Çox sağ olun, cənab Prezident. Mən ilk növbədə, Sizə Litva Prezidenti cənab Nausedanın ən xoş arzularını, eləcə də Sizin Litvaya səfərinizlə bağlı dəvəti çatdırmaq istəyirəm. Əlbəttə, mənim üçün Azərbaycanda səfir olmaq böyük şərəfdir. Mən həmçinin çox şadam ki, artıq qeyd etdiyiniz kimi, dost münasibətlərin və əməkdaşlığın sanballı bazası, təməli vardır. Bakıda olduğum müddətdə xalqlarımızın çox yaxşı, müsbət əlaqələrinin mövcudluğunu hiss etdim.

*Səfir Azərbaycan və Litva arasında yüksək səviyyəli siyasi dialoqun məmnunluq doğurduğunu bildirdi. Eqidius Navikas ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi. Ölkələrimiz arasında əməkdaşlığın inkişafında şəhərlərarası əlaqələrin vacibliyinə toxunan səfir Litva və Azərbaycanın 3 şəhəri arasında qardaşlaşma münasibətlərinin qurulduğunu bildirdi. Səfir Azərbaycanın*

*Avropa İttifaqı ilə əlaqələrinə toxundu və ölkəsinin Avropa İttifaqının «Tvinninq» layihələri çərçivəsində Azərbaycanla yaxından əməkdaşlıq etdiyini söylədi.*

*Dövlət başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın hərtərəfli inkişaf etdiyini, ötən müddət ərzində Avropa İttifaqı rəhbərliyinin Azərbaycana səfərlərini və özünün Avropa İttifaqının mənzilqərargahına səfərini xatırladaraq, Avropa İttifaqı üzv ölkələrinin bu əməkdaşlığın inkişafına verdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğuladı.*

*Prezident İlham Əliyev Litva Respublikasının Prezidenti Gitanas Nausedanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Litva Prezidentinə çatdırmağı xahiş etdi.*

## FRANSA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ZAKARİ QROS İLƏ GÖRÜŞ

*24 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Zakari Qrosun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Zakari Qros Fəxri qarovul dəstəsinin qarşısından keçdikdən sonra etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Sizə Azərbaycanda xoş günlər arzulayıram. Artıq uzunmüddətli və çox uğurlu bir tarixə, böyük potensiala malik əməkdaşlığımızın əhatə dairəsini nəzərə alaraq ümid edirəm ki, dolğun bir gündəliyiniz olacaq. Əlbəttə, əməkdaşlığımızın inkişaf mərhələləri sizə yaxşı məlumdur. Bilirsiniz ki, Azərbaycan hər zaman sizin ölkənizi dünyanın ən mühüm tərəfdaş ölkələrindən biri kimi qəbul edir. Mənim Parisə çoxsaylı səfərlərim və prezidentlər Şirak, Sarkozi, Olland ilə, həmçinin ötən il Prezident Makron ilə olan görüşlərimin hamısı və digər yüksək səviyyəli rəsmilərlə görüşlərim əməkdaşlığımızın inkişafında çox böyük rol oynamışdır. Təsadüfi deyil ki, fransız

şirkətləri Azərbaycanda bir çox mühüm layihələr həyata keçiriblər. Xatırlayıram ki, Prezident Ollandın səfəri zamanı bir neçə milyard dollarlıq müqavilələr imzaladıq. Onlardan bir hissəsi artıq icra edilib, digərləri isə icrasını gözləyir. Fransız şirkətləri burada çox geniş təmsil olunur. Əlbəttə, MEDEF ilə çoxsaylı görüşlərim haqqında da məlumatlısınız. Son dəfə bu görüş burada, Bakıda keçirildi. Həm Fransada, həm də burada görüşmüşük. Qarşılıqlı böyük maraq və yaxşı nəticələr vardır. Düşünürəm ki, bu sahədə möhkəm əməkdaşlığımız var və bu əməkdaşlıq böyük perspektivlərə malikdir. Əlbəttə, siyasi əlaqələrimiz də şirkətlər arasında əməkdaşlıq və iqtisadi sahədəki əlaqələrin inkişafında mühüm rol oynayır. Ötən il Prezident Makronla görüşüm əlaqələrimizin gələcək əməkdaşlıq planlarının müəyyənləşdirilməsi baxımından çox önəmli idi. Bu görüş bugünkü tərəfdaşlığın inkişaf etdirilməsində mühüm rol oynadı. Əlbəttə, nazir Lö Merin səfəri də çox uğurlu oldu. Biz münaqişənin həlli məsələsində də əməkdaşlıq edirik və danışıqların hansı fazada olduğunu bilirik. Əlbəttə ki, Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının inkişafında da sizin ölkəniz mühüm rol oynayır. İyul ayında Prezident Tuskun səfəri çox uğurlu idi. Beləliklə, əməkdaşlığımız çox geniş gündəliyə malikdir. Əminəm, görüləsi işləriniz çoxdur və ümid edirəm ki, mövcud əlaqələrimizin müsbət dinamikası fəaliyyətiniz dövründə də davam etdiriləcəkdir.

**Z a k a r i  Q r o s:** Təşəkkür edirəm. Prezident Makronun ən səmimi salamlarını Sizə çatdırıram. Burada, gözəl və uğurla inkişaf edən şəhərinizdə olmağımdan çox

məmnunam. Artıq Sizin də qeyd etdiyiniz kimi, bizim möhkəm ikitərəfli münasibətlərimiz mövcuddur və bu məsələdə Sizin şəxsi töhfəniz bizim üçün çox önəmlidir. Təhlükəsizlik məsələləri mühüm əhəmiyyətə malikdir. Azərbaycan və Cənubi Qafqazın təhlükəsizliyi Avropanın təhlükəsizliyi üçün çox əhəmiyyətlidir. Regionda gərginliyin mövcudluğu şəraitində – İran məsələsində Prezident Makron gərginliyin aradan qaldırılmasına səy göstərir. Əlbəttə, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransa münaqişənin dinc yolla, ölkənizin ərazi bütövlüyünə hörmət prinsipi çərçivəsində həllini arzulayır və bu sahədə fəal olmaq niyyətindədir. Biz ölkələrimiz arasında siyasi dialoqu davam etdirməyə ümidvarıq. Sizin də qeyd etdiyiniz kimi, iqtisadiyyat, energetika, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlıq bizim üçün çox vacibdir.

*Prezident İlham Əliyev Fransa Prezidenti Emmanuel Makronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fransa Prezidentinə çatdırmağı xahiş etdi.*

## BAKI NƏQLİYYAT AGENTLİYİNİN «KOROĞLU» NƏQLİYYAT MÜBADİLƏ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*25 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin «Koroğlu» Nəqliyyat Mübadilə Mərkəzinin açılışında iştirak etmişlər.*

*Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sürətli sosial-iqtisadi inkişafın təmin olunması istiqamətində nəhəng layihələr icra edilir. Bütün bunlar vətəndaşların sosial rifahının yaxşılaşdırılmasına, insanların rahatlığının, təhlükəsizliyinin təmin olunmasına yönəldilibdir. Hazırda ölkədə keyfiyyətli ictimai nəqliyyat xidmətlərinin göstərilməsi ilə bağlı görülən işlər də məhz bu amildən qaynaqlanır.*

*Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, son illərdə nəqliyyat parkının müasirləşdirilməsi, sərnişinlərin müntəzəm marşrut avtobuslarından təhlükəsiz və rahat istifadəsini təşkil etmək məqsədilə bir sıra layihələr icra olunub. Bu layihələrdən biri də ictimai nəqliyyat sistemində yenilik olan Nəqliyyat Mübadilə mərkəzlərinin – «hab»ların yaradılmasıdır. Bu konsepsiyada əsas məqsəd sərnişinlərin rahat gediş-gəlişinin təmin edilməsi, şəhərdə nəqliy-*

*yatın mobilliyinə nail olunması, Bakının mərkəzi hissəsində nəqliyyat sıxlığının aradan qaldırılmasıdır. Bu layihənin icrası vətəndaşların rahatlığı ilə yanaşı, sərnişindaşımada təhlükəsizlik baxımından da mühüm rola malikdir.*

*Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli «Koroğlu» Nəqliyyat Mübadilə Mərkəzində yaradılmış şərait barədə dövlət başçısına və xanımına məlumat verdi.*

*Qeyd edildi ki, Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişmə nöqtəsi, Böyükşor qovşağı, eləcə də metronun «Koroğlu» stansiyasının yaxınlığındakı bu Nəqliyyat Mübadilə Mərkəzi ilk «hab» olaraq, 2016-cı ildə təşkil edilib. Pilot layihə olaraq, mərkəz əvvəlcə yüngül konstruksiyalardan hazırlanmışdı. Lakin sonradan əhalidən gələn müraciətlərlə əlaqədar «Koroğlu» «hab» 2019-cu ildə əsaslı şəkildə yenidən qurulub və burada müasir nəqliyyat infrastrukturu yaradılıbdır.*

*Dövlət başçısının tapşırığına əsasən, agentlik tərəfindən Bakı şəhərinin əsas giriş-çıxış ərazilərində 5 böyük «hab» təşkil edilib, şəhər və qəsəbələrdə isə 6 kiçik «hab»ın yaradılması planlaşdırılır. Bütün mərkəzlərdə buradakı kimi ən yüksək şərait yaradılacaqdır.*

**İlham Əliyev:** Əlbəttə, biz bu sahəyə böyük diqqət göstəririk. Çünki vətəndaşların rahatlığı hər şeydən üstündür. Ona görə ən müasir avtobuslar alınır, nəqliyyatla və təhlükəsizliklə bağlı çox ciddi tədbirlər görülür. Bu işləri davam etdirin. Şəhərimizin hər bir

yerində ən yüksək səviyyəli nəqliyyat şəraiti yaradılmalıdır.

* * *

*Məlumat verildi ki, paytaxtın yollarında yeni səkilər salınıb, görmə əngəlli vətəndaşlar üçün şərait yaradılıbdır. Hökumət Evinin arxasında pilot layihə kimi, velosiped yolunun salınması nəzərdə tutulur. Yolun 100 metrlik hissəsi artıq hazırdır. İndi velosiped yolunun örtüyü ilə bağlı təcrübələr aparılır. Bu yolun salınmasında əsasən yerli materiallardan istifadə edilir. Bakı şəhərində ümumilikdə 18,5 kilometrlik, ilk mərhələdə isə 7,5 kilometrlik velosiped yolunun salınması nəzərdə tutulur.*

*Diqqətə çatdırıldı ki, şəhərdə parklanma ilə əlaqədar ilkin mərhələdə 600-dək yer müəyyənləşdirilib. İndi bu istiqamətdə infrastruktur işləri görülür.*

*Sonra dövlət başçısı və xanımı platformalarda və gözləmə zallarında yaradılmış şəraitlə maraqlandılar.*

*Bildirildi ki, burada 4 platformadan ibarət avtobus terminalı inşa edilib. Platformalarda müasir informasiya texnologiyaları avadanlığı, havalandırma sistemi ilə təchiz edilmiş 10 gözləmə zalı vardır. Gözləmə zalları Azərbaycanın elm, ədəbiyyat, mədəniyyət, incəsənət, tarix, idman sahələrində əldə etdiyi uğurları, zəngin dəyərləri əks etdirən yazılı və qrafik məlumatlar əsasında tərtib edilib. Hər bir zalda maarifləndirici məlumatlarla yanaşı, kitab rəfləri də quraşdırılıb. Gözləmə zalları ilə yanaşı, mərkəzdə 5 köşk, 1 idarəetmə otağı, tibb məntəqəsi, ana və uşaq otağı inşa edilib. Zallar*

*içməli su ilə təmin olunub. Ətraf kənd və qəsəbələri şəhər mərkəzi ilə birləşdirən 30 müntəzəm marşrut xətti üzrə 430-a yaxın avtobusun fəaliyyət göstərdiyi mərkəzin xidmətlərindən gün ərzində 270 min nəfərə yaxın sərnişin istifadə edəcək. Ümumilikdə isə gün ərzində Bakı şəhərində 2,2 milyon sərnişin daşınır. Burada hər bir marşrut xətti üzrə avtobuslar üçün dayanacaq yeri müəyyən edilib, məlumatlandırıcı lövhələr yerləşdirilibdir.*

*Paytaxtın avtobus parkının yenilənməsi məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, 300 yeni avtobus sifariş olunub. Avtobuslardan 168-i artıq BNA-ya təhvil verilib. Oktyabrın sonunda avtobusların sayı 200-ə çatdırılacaq. Ümumilikdə bütün avtobusların ilin yekununda təhvil verilməsi planlaşdırılır.*

*Prezident İlham Əliyev burada yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

*Mərkəzin əsas özəlliklərindən biri də ərazidəki istirahət parkıdır. Parkda qurulmuş ən müasir işıqlandırma sistemi gecələr buraya xüsusi gözəllik bəxş edir.*

**İlham Əliyev:** Biz bu parkı mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl yaratmışıq. İndi bura gözəl bir istirahət zonasıdır. Bu da parka bitişik olan bir yerdir. Burada gözəl şərait vardır. Biz böyük bir ərazini ictimai yerə çevirdik. Çünki bəzi fikirlər var idi ki, burada tikinti aparılsın, binalar tikilsin. Mən icazə vermədim, dedim ki, bura vətəndaşların rahatlığı üçün ictimai zona olmalıdır. İndi bura böyük ərazidir. Şəhərin mərkəzində yeni gözəl istirahət və nəq-liyyat mərkəzi yaradılıbdır.

* * *

*Sonra dövlət başçısı və xanımı Türkiyənin BMC şirkətinin istehsalı olan avtobusa baxdılar.*

*Məlumat verildi ki, sərnişindaşıma tələblərinə tam cavab verən bu avtobuslar rahatlığı ilə fərqlənir. Avtobusların ən üstün cəhəti onun sıxılmış təbii qaz mühərrikli olmasıdır. «BakuBus» MMC üçün əvvəllər sifariş edilmiş avtobuslar 300 kilometr məsafə qət edə bilirdisə, sıxılmış təbii qaz mühərrikli avtobuslarda bu məsafəni 600 kilometrədək artırmaq mümkün olubdur. Bu avtobusların salonu və mühərrik sistemi tamamilə dəyişdirilir. 26 oturacaq yeri olan avtobusların ümumi sərnişin tutumu 100 nəfərlikdir.*

*Prezident İlham Əliyev əlavə müasir avtobusların alınması ilə bağlı tapşırıqlarını verdi.*

*«Koroğlu» Nəqliyyat Mübadilə Mərkəzi istər yol hərəkətinin təşkili, istərsə də sərnişindaşıma sahəsinə müsbət töhfə verəcək. Bu mərkəz şəhərdaxili və şəhərlərarası avtobuslar, metro və dəmir yolu nəqliyyatı kimi, ictimai nəqliyyat növlərini birləşdirən və onların arasında daşımaları asanlaşdıran nəqliyyat infrastrukturudur. «hab» konsepsiyası əsasən şəhərətrafı ərazilərdən şəhər mərkəzinə gələn avtobusların hərəkətinin mərkəzləşdirilmiş şəkildə təşkili, həmçinin sərnişindaşımada səmərəli idarəetmənin və nəzarət mexanizminin gücləndirilməsində mühüm rol oynayır.*

*Son illərdə dövlət başçısının sərəncamlarına, tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakının qəsəbə və kəndlərində müasir yollar salınır, orada yaşayanların sosial məsələlərinin həlli üçün konkret addımlar atılır. Bu*

*mərkəzin yaradılması da bu istiqamətdə atılan addımların ardıcıl xarakter aldığını göstərir. Belə ki, bu infrastruktur Bakının qəsəbələrində yaşayanların şəhər mərkəzinə, həmçinin əks istiqamətə rahat və təhlükəsiz hərəkətini təmin etməklə, ümumilikdə paytaxtda sərnişindaşıma xidmətinin müasirləşdirilməsinə töhfə verəcəkdir.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – respublikamızın yəhudi əsilli vətəndaşlarını yeni il bayramınız Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınan Azərbaycanda əsrlərboyu müxtəlif etnik və dini qrupların nümayəndələri, o cümlədən yəhudilər dostluq, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşamış, heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmadan milli mədəni və dini dəyərlərini günümüzədək qoruyub saxlamışlar.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, cəmiyyətimizin ayrılmaz hissəsi olan yəhudi icması əsl vətəndaşlıq və azərbaycançılıq mövqeyindən çıxış edərək, respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində və ictimai-siyasi proseslərdə fəal iştirak edir.

Əminəm ki, yəhudi əsilli həmvətənlərimiz bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da çiçəklənməsi üçün səylərini əsirgəməyəcəklər. Hər il təntənə ilə qeyd olunan Roş-Ha-Şana yeniliyi, mənəvi saflığı və xeyirxahlığı təcəssüm etdirir.

Qoy bu bayram hamınızın həyatına xoş ovqat, ailələrinizə səadət və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2019-cu il*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA

Hörmətli cənab Prezident!

Fransa Respublikasının sabiq Prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin inkişafında və möhkəmləndirilməsində Jak Şirakın böyük xidmətləri olmuşdur.

Prezident Heydər Əliyevi Prezident Jak Şirak ilə möhkəm dostluq münasibətləri bağlayırdı. Onların görüşləri, aparılmış müzakirələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf xəttini müəyyən etmişdir. Prezidentlərin birgə səyləri sayəsində Azərbaycan ilə Fransa arasında dostluq və əməkdaşlıq münasibətləri böyük inkişaf yolu keçmişdir.

Prezident Jak Şirakla çoxsaylı görüşlərimi ən xoş təəssüratlarla xatırlayıram. Bu görüşlər Azərbaycan–Fransa əlaqələrinin hərtərəfli inkişafına mühüm təkan vermişdir.

Azərbaycan–Fransa münasibətlərinin inkişafında xüsusi xidmətlərinə görə Jak Şirak ölkəmizin ən yüksək ordeni olan «Heydər Əliyev» ordeni ilə təltif edilmiş və bu orden mənim tərəfimdən Jak Şiraka təqdim olunmuşdu.

Bu ağır itkinin kədərini bölüşür, şəxsən öz adımdan və Azərbaycan xalqı adından Sizə, bütün Fransa xalqına, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2019-cu il*

## BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASININ VİTSE-PREZİDENTİ HANS PİTER LANKESİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Beynəlxalq Maliyyə Korporasiyasının iqtisadiyyat və özəl sektorun inkişafı üzrə vitse-prezidenti Hans Piter Lankesin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz, sizi görməyə şadam! Mənə verilən məlumata görə, siz Azərbaycan Respublikası Dövlət Neft Fondunun 20 illik yubileyinə həsr olunmuş konfransda iştirak edirsiniz. Bu bizim əməkdaşlığımızın yaxşı göstəricisidir. Ötən 20 il ərzində bizim Neft Fondumuz Azərbaycanın inkişafı üçün çox vacib vasitə rolunu oynayıb. Bununla yanaşı, Fond dünyanın ən şəffaf suveren fondlarından biri kimi, BMT tərəfindən mükafata layiq görülüb. Bu Fondun Azərbaycanın inkişafında və sosial problemlərin həllində rolu olduqca böyükdür.

Fondun aktivləri hesabına biz qaçqın və məcburi köçkünlər üçün 100-dən artıq qəsəbənin tikintisini maliyyələşdirmişik. Azərbaycan Respublikası Dövlət Neft Fondu insan kapitalına, təhsilə və infrastruktura sərmayə

yatırıb. Sizin konfransda iştirakınız da yaxşı göstəricidir. Bildiyimə görə, sizin təsisat vasitəsilə 250 milyon dollar həcmində sərmayə qoyulubdur.

Bizim əməkdaşlığımızın çox yaxşı və uğurlu tarixçəsi vardır. İqtisadiyyatımızın şaxələndirilməsi və dayanıqlı iqtisadi inkişaf üçün zəmin yaradılması planlarını nəzərə alaraq, gələcək inkişaf üçün də yaxşı perspektivlər mövcuddur. Neft və qaz sahəsindən asılılığın azaldılması əsas prioritetlərimizdəndir.

Əlbəttə, bunu bir günün içində etmək mümkün deyil, ancaq şaxələndirmə və iqtisadiyyatın müasirləşdirilməsi bizə bu asılılığın böyük dərəcədə aradan qaldırılmasına imkan verəcəkdir. Əlbəttə, bildiyiniz kimi, biz biznes mühitinin yaxşılaşdırılmasına mühüm önəm veririk. Fərəhləndirici haldır ki, Dünya Bankının «Doing Business» hesabatına görə, biz dünyanın 10 ən islahatçı dövləti sırasına daxil olmuşuq. Bununla bağlı nail olduğumuz sürətli inkişaf bizim bu sahəyə çox ciddi yanaşmamızın nəticəsində mümkün olub. Bildiyiniz kimi, biz bu məqsədlə xüsusi komissiya yaratmışıq. Həmin komissiya çatışmazlıqları aradan qaldırmaq və vəziyyəti yaxşılaşdırmaq üçün hansı işlərin görülməli olduğunu ətraflı təhlil edib. «Doing Business» hesabatına görə, 25-ci yerdə qərarlaşmaq iftixar hissi doğurur. Ancaq ən əhəmiyyətlisi odur ki, bu, biznes mühitinə və Azərbaycanın qeyri-enerji sahəsində inkişafına müsbət təsir göstərir. Gələcək prioritetlərimizə gəldikdə, hesab edirəm ki, insan kapitalı, qeyri-neft sektoru, təhsil, kənd təsərrüfatı, turizm, kiçik və orta sahibkarlığın dəstəklənməsi bizim əməkdaşlığımızın prioritetləri sırasın-

dadır. Əminəm ki, səfəriniz çərçivəsində siz artıq bizim rəsmi şəxslərlə təmaslarınızda gələcəkdə görüləcək işlər barədə müzakirələr aparmısınız. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**Hans Piter Lankes:** Qəbula görə təşəkkür edirəm. Səfərimizin əsas məqsədi Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə birgə keçirdiyimiz tədbirdir. Dövlət Neft Fondu bizim uzunmüddətli yaxın tərəfdaşımızdır. Zənnimizcə, bu Fond peşəkarcasına idarə olunan fondlardan biridir və biz bu əlaqələrimizə böyük önəm veririk. Konfransın mövzusu «Müsbət təsirli investisiya»dır. Beynəlxalq Maliyyə Korporasiyası da bu məsələyə önəm verir və mövzunun çox aktual olduğunun şahidiyik. Azərbaycan Respublikası Dövlət Neft Fondunun özünəməxsus sərmayə strategiyasına malik olması rəmzi məna daşıyır. Bir sözlə, çox yaxşı münasibətlərimiz mövcuddur.

*Görüşdə Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanla əməkdaşlığının perspektivləri, iqtisadiyyatın şaxələndirilməsi, şəhər və kənd yerlərində yeni iş yerlərinin yaradılması, biznes mühitində qazanılmış uğurların daha da möhkəmləndirilməsi, özəl sektora birbaşa xarici investisiyaların cəlb olunması məsələləri müzakirə edildi.*

**ÇİN XALQ RESPUBLİKASININ**
**SƏDRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Çin Xalq Respublikasının yaranmasının 70-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ötən illər ərzində Çin Xalq Respublikası böyük inkişaf mərhələsi keçərək, həyatın bütün sahələrində misilsiz uğurlar qazanıb, köklü iqtisadi islahatlar yolu ilə modern infrastruktura malik ölkəyə, dünyanın ən aparıcı dövlətlərindən birinə çevrilibdir.

Müəllifi olduğunuz «Bir kəmər – bir yol» təşəbbüsü irimiqyaslı transmilli beynəlxalq əməkdaşlıq layihəsi kimi, ayrı-ayrı ölkələrin və bütövlükdə Avrasiya məkanının çiçəklənməsi üçün geniş imkanlar açıbdır.

Xüsusi olaraq qeyd etmək istərdim ki, biz Azərbaycan–Çin əməkdaşlığına böyük əhəmiyyət veririk. Qədim tarixə və xoş ənənələrə malik olan əlaqələrimiz hazırda özünün dinamik və hərtərəfli inkişaf dövrünü yaşayır.

Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi siyasi, iqtisadi və humanitar sahələrdə birgə səmərəli işimiz üçün yaxşı zəmin yaradıbdır.

Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın ikitərəfli və çoxtərəfli qaydada daha da dərinləşməsi istiqamətində atdığımız addımlar bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2019-cu il*

**BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU XANIM KRİSTALİNA GEORGİYEVAYA**

Hörmətli xanım Georgiyeva!

Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktoru vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasındakı əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu baxımdan ölkəmizdə həyata keçirilən iqtisadi islahatlara Beynəlxalq Valyuta Fondunun dəstəyini məmnunluqla qeyd etmək istərdim.

Ümidvaram ki, Sizin rəhbərliyinizlə Beynəlxalq Valyuta Fondu qlobal maliyyə-iqtisadi və valyuta sisteminin idarə edilməsi ilə bağlı qarşısında duran məsul vəzifələrin öhdəsindən layiqincə gələrək, beynəlxalq maliyyə əməkdaşlığının möhkəmləndirilməsinə töhfələr verəcəkdir.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm can-sağlığı, qarşıdakı məsul işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2019-cu il*

## FRANSA RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ SABİQ PREZİDENT JAK ŞİRAKIN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI VERİLMƏSİ MƏRASİMİ

*27 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 27-də Fransa Respublikasının ölkəmizdəki səfirliyinə gələrək, Fransanın sabiq Prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı vermişlər.*

*Fransa Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Zakari Qros Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladı.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı verib, matəm kitabına ürək sözlərini yazdılar.*

**İlham Əliyev:** Cənab səfir, bizim başsağlığımızı qəbul edin. Prezident Şirak Azərbaycanın yaxın dostu idi. Biz onu mənim atamla şəxsi dostluğu başlayan dövrdən tanıyırdıq və onların birgə səyləri nəticəsində ölkələrimiz arasında çox yaxın tərəfdaşlıq münasibətləri qurulubdur. Biz onunla görüşlərimizi xatırlayırıq.

Bildiyiniz kimi, mən ilk dəfə Prezident seçiləndə, xaricə etdiyim ilk rəsmi səfər Fransaya olmuşdur. O vaxt məni rəsmi səfərə dəvət edən ilk xarici dövlət başçısı Prezident Şirak oldu və bu bizim əməkdaşlığın çox yaxşı göstəricisi idi. O vaxtdan ölkələrimiz arasında əməkdaşlıq uğurla inkişaf edir. Bu yaxınlarda sizinlə də görüşdə mən ölkənizin prezidentləri ilə görüşlərdən xatirələrimi bölüşdüm. Bir daha bizim başsağlığımızı qəbul etməyinizi xahiş edirəm.

**Z a k a r i  Q r o s:** Cənab Prezident, hörmətli Birinci vitse-prezident, buraya gəlməyinizə və sözlərinizə görə Sizə təşəkkür edirəm. Prezident Makron və Fransa xalqı adından səmimi sözlərinizi və burada olmağınızı yüksək qiymətləndirdiyimizi bildirmək istəyirəm. Sizin də qeyd etdiyiniz kimi, Prezident Şirak Fransada və beynəlxalq arenada birləşdirici rol oynayaraq, sülhü təşviq etmiş dövlət xadimi olmuşdur. Gəlişiniz bizi təsirləndirdi, Sizə minnətdaram.

# FRANSA RESPUBLİKASI SENATININ FRANSA–QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ ALEN UPERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Fransa Respublikası Senatının Fransa–Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini Alen Uperin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz! Əminəm ki, səfəriniz Fransa–Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün önəmli rol oynayacaq. Bu yaxınlarda səfirin etimadnaməsini qəbul edərkən Fransa–Azərbaycan əlaqələri haqqında öz fikirlərimi bölüşdüm. Hesab edirəm ki, əvvəlki dövrlərdə bu əlaqələrin inkişafı istiqamətində böyük işlər görülüb və müxtəlif sahələrdə Fransa–Azərbaycan əlaqələri uğurla inkişaf edir. Siyasi əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Dövlət başçıları səviyyəsində bir çox qarşılıqlı səfərlər edilib. Onu da bildirməliyəm ki, Heydər Əliyevin Prezident seçiləndən sonra ilk xarici səfəri Fransaya olmuşdur. Mənim də Prezident seçilməyimdən sonra ilk rəsmi səfərim Prezident Jak Şirakın dəvəti ilə Fransaya olubdur. Fürsətdən istifadə edərək,

Prezident Jak Şirakın vəfatı ilə əlaqədar bir daha başsağlığı verirəm.

Fransa prezidentləri Azərbaycana rəsmi səfərlər ediblər və keçən ilin iyul ayında mənim Fransaya səfərim çərçivəsində Prezident Makron ilə çox səmimi görüşümüz olub. Yüksək səviyyəli səfərlər bütün sahələrdə əlaqələrin inkişafına güclü təkan verib. Təsadüfi deyil ki, bir çox sahələrdə, o cümlədən energetika, nəqliyyat, kosmik sənaye, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Əlbəttə ki, parlamentlərarası əlaqələr ümumi əlaqələrimizin inkişafına çox mühüm töhfə veribdir. Əminəm ki, sizin səfəriniz də bu istiqamətdə çox uğurlu və önəmli addım olacaqdır.

**Alen Uper:** Cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkürümüzü bildiririk. Ölkənin birinci şəxsi tərəfindən səfirimizin müşayiət etdiyi nümayəndə heyətimizin qəbul edilməsindən şərəf hissi duyuruq. Səfir bu yaxınlarda təyin olunub və öz fəaliyyətinə artıq başlayıbdır. Şəxsən öz adımdan və Fransa adından Sizə və xanımınıza təşəkkürümü bildirirəm ki, Prezident Şirakın vəfatı ilə əlaqədar Siz dostluğunuzu nümayiş etdirdiniz. Dostluğun müddəti olmur. Siz bunu sübuta yetirdiniz. Ölkələrimizi səciyyələndirəcək bir söz olarsa, o, dostluq sözü olardı. Ölkələrimiz arasında güclü əlaqələr vardır. Çünki bir əsrdən çox müddət əvvəl sizin hökumətiniz Fransada mühacir olmuşdur. General de Qol hələ 1944-cü ildə burada olmuşdur.

*Alen Uper mədəniyyətlərarası və dinlərarası dialoqda Azərbaycanın əhəmiyyətini xüsusi olaraq vur-*

*ğuladı və Fransada bu mövzu ilə əlaqədar müzakirələr aparılan zaman Azərbaycanı nümunə kimi təqdim etdiyini bildirdi.*

*Dövlət başçısı İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar Azərbaycanın mövqeyini diqqətə çatdıraraq bildirdi ki, bu münaqişə yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında dostluq və əməkdaşlığın inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi rolu qeyd olundu. Həmçinin söhbət zamanı iki ölkə arasında elmi-tədqiqat, tibb və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MUN CE-İNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Koreya Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2019-cu il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbriklərimi yetirirəm.

Azərbaycan–Almaniya əlaqələri geniş spektri əhatə edir. Ölkələrimiz arasında konstruktiv siyasi dialoq, səmərəli iqtisadi əməkdaşlıq və humanitar mübadilələr qarşılıqlı münasibətlərimizi səciyyələndirən mühüm amillərdəndir.

İnanıram ki, ikitərəfli və çoxtərəfli müstəvidə əməkdaşlığımız bundan sonra da davamlı şəkildə inkişaf edərək, ölkələrimiz və xalqlarımız üçün hər cəhətdən faydalı olacaqdır.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim əmin-amanlıq, sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2019-cu il*

## ÖLKƏMİZDƏ HƏYATA KEÇİRİLƏN NÖVBƏTİ SİYAHIYAALINMADA İŞTİRAK

*1 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə həyata keçirilən növbəti siyahıyaalınmada iştirak edərək, siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırmışdır.*

*Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ölkəmizdə keçirilən növbəti siyahıyaalınma barədə dövlət başçısına məlumat verdi.*

**Tahir Budaqov:** Cənab Prezident, fərmanınıza əsasən, bu gün ölkədə əhalinin siyahıyaalınmasına start verilir. İlk növbədə, cənab Prezident, tərtib olunmuş siyahıyaalma və sorğu vərəqələrinin cavablandırılmasını Sizdən xahiş edərdik. Bu siyahıyaalınmanın keçirilməsi zərurəti ondan irəli gəlir ki, son illərdə insanların yaşayış, mənzil şəraitində çox ciddi dəyişikliklər baş veribdir. Miqrasiya proseslərində də müəyyən dəyişikliklər olubdur. Bütün bunlar nəzərə alınaraq, keçirilən bu siyahıyaalınmanın nəticəsində insanların rifah halında, onların gəlir mənbələrində, mənzil-məişət şəraitində baş vermiş dəyişikliklərlə yanaşı, əhalinin ailə tərkibi, ev təsərrüfatlarının tərkibi, hər bir şəxs barədə toplanılan məlumatlar ölkədə həm daxili, həm xarici miqrasiya

proseslərinə, eyni zamanda, insanların məşğulluq statusuna, onların gəlir mənbələrinə, təhsil səviyyəsinə dair bir çox sosial-iqtisadi göstəricilərin əldə edilməsinə imkan yaradacaqdır.

*Tahir Budaqov ilk dəfə olaraq siyahıyaalınmaya sosial statusla bağlı məsələlərin daxil edildiyini bildirdi. O, siyahıyaalınmada «Strateji Yol Xəritələri»ndən irəli gələn məsələlərin monitorinqi, eləcə də dayanıqlı inkişaf üzrə BMT-nin müvafiq qərarları ilə bağlı sualların da nəzərə alındığını diqqətə çatdırdı.*

**İlham Əliyev:** Çox yaxşı. Bu hər bir ölkə üçün çox önəmli tədbirdir. Azərbaycanda da siyahıyaalınma tədbirləri müntəzəm olaraq keçirilir. Son dəfə 10 il bundan əvvəl keçirilmişdir. Əlbəttə, bu 10 il ərzində ölkəmizdə çoxlu dəyişikliklər baş veribdir. İlk növbədə, demoqrafik vəziyyət daha da yaxşılaşıb. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini təntənə ilə qeyd etdik. İşsizliklə bağlı görülmüş tədbirlər öz səmərəsini verir, vətəndaşların sosial rifahı yaxşılaşır. Təkcə bu il minimum əməkhaqqı təxminən 2 dəfə artırılıb. Həmçinin pensiyalar, tələbələrin təqaüdləri, müavinətlər artırılıb. Yəni sosial-iqtisadi inkişaf demoqrafik inkişafla uzlaşır və bu da təbiidir.

Müstəqillik dövründə Azərbaycanın əhalisi təxminən 3 milyon artıbdır. Bu da bizim mövqelərimizi möhkəmləndirir, ölkəmizi gücləndirir. Eyni zamanda, qarşımıza yeni çağırışlar çıxır. Baxmayaraq ki, biz ölkəmizdəki prosesləri yaxından izləyirik və bu proseslər müsbət istiqamətdə gedir, siyahıyaalınma bizə daha dəqiq və müfəssəl məlumat verəcək.

Siyahıyaalınma 10 gün ərzində keçiriləcək və bu gün artıq bu proses başlayır. Əminəm ki, 10 gün ərzində Azərbaycan əhalisinin tam şəkildə siyahıyaalınma prosesi başa çatacaq və bizə iqtisadi inkişafla, infrastrukturla, miqrasiya və əmək resurslarının artımı ilə bağlı yeni məlumat verəcək ki, gələcək inkişafımızı necə planlaşdıraq. Bizdə əmək resursları artır. Əlbəttə ki, tədbirlər gərək bu artıma uyğun olsun.

**Z ə b i h ə Ə s g ə r** (*Dövlət Statistika Komitəsinin əməkdaşı*): Cənab Prezident, BMT-nin tövsiyələrinə əsasən, siyahıyaalınmanın iki əsas sənədi var ki, bunlardan biri siyahıyaalma vərəqi, digəri isə sorğu vərəqidir. Siyahıyaalma vərəqinin doldurulmasının məqsədi ev təsərrüfatları haqqında məlumat əldə etməkdir.

*Sonra Prezident İlham Əliyev siyahıyaalma və sorğu vərəqələrində olan sualları cavablandırdı.*

## BAKI ŞƏHƏR NƏRİMANOV RAYONU ATATÜRK PROSPEKTİNDƏ YERLƏŞƏN PARKDA ƏSASLI YENİDƏN QURULMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*1 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 1-də Bakının Nərimanov rayonu Atatürk prospektində yerləşən parkda əsaslı yenidən qurulmadan sonra yaradılmış şəraitlə tanış olmuşlar.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya parkda görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, parkda yenidən qurulma işlərinə cari ilin may ayından başlanılıb. Layihə çərçivəsində parkda əsaslı yenidən qurulma işləri aparılıb, landşaft dizaynı yenilənibdir. Bütün yaş qruplarına aid vətəndaşlar nəzərə alınaraq, onlar üçün xüsusi guşələr yaradılıb. Parkda uşaq əyləncə və trenajor qurğuları quraşdırılıb. Burada həmçinin konsert meydançası da vardır.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycanda sosial-iqtisadi sahədə həyata keçirilən layihələr ölkəmizin ümumi inkişafına sanballı töhfələr verib. Təsadüfi deyil ki, bu gün Azərbaycan sosial-*

*iqtisadi inkişafına görə dünyada lider ölkələrdən biridir. Əldə olunmuş nailiyyətlər Azərbaycanın bütün regionlarının, o cümlədən paytaxt Bakının da timsalında aydın görünür.*

*Dövlət başçısı İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, paytaxtımızda icra olunmuş layihələr nəticəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Paytaxt Bakı gündən-günə abadlaşır, müasirləşir və yenilənir. Bu baxımdan yeni park və xiyabanların salınması, mövcudlarının yenidən qurulması, sosial obyektlərin inşası, ictimai yerlərin istifadəyə verilməsi xüsusi rol oynayır. Nərimanov rayonu Atatürk prospektində yerləşən parkın əsaslı şəkildə yenidən qurulması da mühüm əhəmiyyət daşıyır.*

*Bu layihənin icrası eyni zamanda, son dövrlərdə paytaxtımızda aparılan abadlıq-quruculuq işlərinin həcmini də nümayiş etdirir və bu istiqamətdə görülən tədbirlərin ardıcıl xarakter aldığını göstərir. Ümumilikdə indiyədək şəhərimizin daha da abadlaşdırılması və müasirləşdirilməsi istiqamətində görülmüş işlər vətəndaşların istirahətinin, asudə vaxtlarının səmərəli təşkilinə hərtərəfli imkan yaradır. Bakının müasir sosial infrastrukturundan paytaxt sakinləri ilə yanaşı, şəhərimizin çoxsaylı qonaqları da istifadə edirlər. Şübhəsiz ki, bütün zəruri infrastrukturla təchiz olunmuş belə müasir parkların yaradılması turistlərin istirahətinin dolğun və maraqlı təmin olunması işində, onların ölkələrinə Bakıdan zəngin təəssüratlarla qayıtmalarında da böyük rol oynayır. Ümumi sahəsi 6,5 hektar olan bu istirahət məkanının yenidən qurulması bir daha nümayiş*

*etdirir ki, Azərbaycan dövləti tərəfindən insanların rahatlığı, onların sağlamlığı, bir sözlə, vətəndaşların sosial məsələlərinin həllinə daim xüsusi həssaslıqla yanaşılır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkda sakinlərlə görüşdülər.*

**S a k i n l ə r:** Xoş gördük Sizi, cənab Prezident!

**İ l h a m  Ə l i y e v:** Salam, xoş gördük.

**S a k i n:** Bu parkda yaradılmış gözəlliyə görə çox sağ olun. Allah Sizə ömür versin. İllər boyu yaradırsınız, qurursunuz. Dost görür sevinir, düşmən görür, gözü kor olur. Dünya qan çanağına dönüb. Amma Allaha şükürlər olsun ki, dövlətimiz, ölkəmiz inkişaf edir. Bu inkişaf Sizin əməyinizin nəticəsidir. Fəxr edirik ki, müdrik Prezidentimiz, birinci xanımımız vardır. Allah Sizə cansağlığı versin. Mənim 7 nəvəm var, gəlib burada istirahət edirəm. Bütün bunlara görə çox sağ olun, Allah Sizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən ilin əvvəlində burada idim, yeni İnnovasiya Mərkəzinin açılışında. Oradan çıxanda gördüm ki, bu parkın vəziyyəti çox acınacaqlıdır, dözülməzdir. Göstəriş verdim ki, burada abadlıq işləri aparılsın və 6,5 hektarı əhatə edən bu park qısa müddət ərzində yenidən quruldu, ən gözəl səviyyəyə çatdırıldı. İndi burada yaşlı nəslin, uşaqların, yeniyetmələrin və gənclərin istirahəti üçün bütün imkanlar vardır. Ümumiyyətlə, Bakı son illər ərzində bağlar və parklar şəhərinə çevrilibdir. Deyə bilərəm ki, parkların sayına görə biz dünya miqyasında ən qabaqcıl yerlərdəyik.

İndi Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Baxın, son illərdə şəhərimizdə nə qədər park salınıb. İlk növbədə, bizim ən böyük parkımız bulvardır. Əvvəllər bulvarın uzunluğu 3 kilometr idi, indi 15 kilometrdir. Hər tərəf yaşıllıq, hər tərəf gözəl, hər tərəf abad. Heydər Əliyev Mərkəzinin və Konqres Mərkəzinin ətrafında 20 hektarı əhatə edən böyük bir park vardır. İndi uşaqlar, yaşlı nəsil orada istirahət edir. Yusif Səfərov küçəsindəki park. Orada da yöndəmsiz binalar var idi, infrastruktur dağılmışdı. Orada da park salındı. Yəni bu abadlıq-quruculuq işləri vətəndaşlar üçündür. Çünki vətəndaşlar ictimai yerlərdən istifadə etməlidirlər. Bu parkda da çox gözəl şərait yaradılıb. Bakı şəhərinin problemlərinin həlli istiqamətində böyük işlər görülür.

Bilirsiniz ki, bu yaxınlarda metronun «Koroğlu» stansiyasının yanında yeni Nəqliyyat Mübadilə Mərkəzinin açılışını qeyd etdik. Yeni avtobuslar gətirilir. Bu il 300 avtobus gətirilib, əvvəlki dövrlərdə də gətirilib. Gələn il də ən azı 300 müasir avtobus gətiriləcək. Bakı o şəhərlərdəndir ki, metro tikintisi gedir. Deyə bilərəm ki, MDB məkanında yalnız Rusiyada və Azərbaycanda metro tikintisi davam etdirilir. Bu il 30 yeni vaqon gətirilib. Bu vaqonlarda həm kondisioner, həm də gözəl şərait vardır. Bütün bunlar vətəndaşların rahatlığı üçün edilir. İndi mənim təşəbbüsümlə nümunəvi həyətlər qurulur. Bütün həyətlər abadlaşdırılacaq və həyətlərdə bütün şərait yaradılacaqdır. Lift təsərrüfatı yenilənir. Bu məqsədlə 40 milyon manat vəsait ayrılıb. İcra başçısı, məlumat ver, indiyədək neçə lift dəyişdirilib?

**E l d a r  Ə z i z o v** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Artıq 50 lift quraşdırılıb. Sizin tapşırığınıza uyğun olaraq, ilin axırınadək 500-ə qədər olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Yəni bunlar Bakının həm gözəlliyi, abadlığı, eyni zamanda, vətəndaşların rahatlığı üçündür. Biz bu işləri davam etdirəcəyik. Bakının hər bir guşəsi abad, gözəl olmalıdır. Vətəndaşlar üçün çox gözəl imkanlar yaradılmalıdır.

**S a k i n:** Allah Sizə cansağlığı versin. İnsanlar Sizi sevir və dəstəkləyir. Həmişə deyirik ki, Prezidentimiz camaatın arasındadır.

**İ l h a m  Ə l i y e v:** Belə də olmalıdır. Mənə də güc verən vətəndaşların dəstəyidir. Mən bu dəstəyə arxalanıram, güvənirəm. Bu mənə güc verir. Bu gün Azərbaycan dünya miqyasında sabitlik məkanıdır, inkişaf diyarıdır. Bundan sonra da biz ancaq yüksələn xətlə inkişaf edəcəyik, buna heç kimin şübhəsi olmasın.

**S a k i n:** Cənab Prezident, Sizdə də, xanımınızda da çox böyük səmimiyyət vardır. Allah Sizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

**S a k i n:** Cənab Prezident, mən də öz növbəmdə, Sizə, Mehriban xanıma minnətdarlığımı bildirirəm. Sizlərlə görüşmək çox xoş oldu. Açıq havada belə gözəl müasir park yaratdığınız üçün Sizə minnətdarlığımı ifadə etmək istəyirəm. Həqiqətən, parkda gözəl şərait var, müasir idman qurğuları quraşdırılıb, şahmat meydançası, velosiped, qaçış zolaqları yaradılıbdır. Biz də bu ərazidə yaşayırıq. Əvvəllər asudə vaxtlarımızda dostlarımızla istirahət etmək üçün kənara gedirdik. İndi

burada müasir, gözəl şərait yaradılıb. Biz tez-tez buraya gələcəyik. Buna görə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Şəhərin hər yerində gözəl parklar, ictimai zonalar olmalıdır və biz bunu yaradırıq.

**Sakinlər:** Sağ olun, cənab Prezident, bütün azərbaycanlılar Sizin arxanızdadır.

## BAKI ŞƏHƏR NƏSİMİ RAYONUNDA 28 MAY, DİLARƏ ƏLİYEVA VƏ FİKRƏT ƏMİROV KÜÇƏLƏRİNİN KƏSİŞMƏSİNDƏ İSTİFADƏYƏ VERİLMİŞ YENİ PARKLA TANIŞLIQ

*1 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 1-də Bakının Nəsimi rayonunda 28 May, Dilarə Əliyeva və Fikrət Əmirov küçələrinin kəsişməsində istifadəyə verilmiş yeni parkdakı şəraitlə tanış olmuşlar.*

*Dövlət başçısının tapşırığı ilə salınmış yeni parkda sakinlərin və turistlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb. Müasir üslubda, orijinal dizaynda qurulmuş belə istirahət mərkəzlərinin istifadəyə verilməsi ilə paytaxtın gəzməli yerlərinə daha bir neçə ünvan əlavə olundu.*

*Belə layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və yüksək keyfiyyətlə yerinə yetirilir.*

*Prezident İlham Əliyev paytaxtdakı binaların dam örtüklərinin təmiri, həyətlərin abadlaşdırılması və həyata keçirilməsi vacib olan digər məsələlər barədə tövsiyə və tapşırıqlarını verdi.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*2 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Krasnodar vilayətinin qubernator müavini Anatoli Voronovski, Soçi şəhərinin meri Aleksey Kopayqorodski və digər rəsmi şəxslər qarşıladılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Soçi*

*3 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür.*

*President Vladimir Putin Prezident İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Sonra Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasında görüş oldu.*

**Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

İcazə verin, sizin hamınızı ürəkdən salamlayım.

Bu dəfə biz Soçidə Beynəlxalq Siyasi Diskussiya Klubu çərçivəsində görüşürük. Tədbir ilk dəfə Valdayda keçirildiyinə görə biz onu «Valday» klubu adlandırırıq.

Görüşümüzün əvvəlində qeyd etmək istərdim ki, Sizi görməyə çox şadam. Biz çoxdandır ki, görüşməmişik. Lakin şəxsi görüşlərimizdə, əlaqələrimizdə fasilə olmasına baxmayaraq, ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir.

Ticari-iqtisadi əlaqələr möhkəmlənir. Keçən il əmtəə dövriyyəsinin həcmi 2,5 milyard dollar olub. Bu istiqamətdə yaxşı perspektivlərimiz vardır. Mən o planları nəzərdə tuturam ki, onların əsas müəllifi Azərbaycan Prezidentidir. Biz də öz tərəfimizdən, bu konkret, mənim fikrimcə, iri layihələrin reallaşması üçün bizdən asılı olan hər şeyi edirik. Bunun üzərində hökumətlərarası birgə Komissiya işləyir və zənnimcə, kifayət qədər inamla işləyir.

Başqa istiqamətlər üzrə münasibətlərimizin vəziyyəti barədə də fikir mübadiləsinə ehtiyac vardır. Ümidvaram ki, bu gün biz bütün bunlara nail olacağıq və Siz bu maraqlı ümumi diskussiyada iştirak edəcəksiniz. Bu gün buraya gəldiyinizə görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Dəvətə görə çox sağ olun, Vladimir Vladimiroviç. «Valday» Beynəlxalq Diskussiya Klubunun işində iştirak etmək mənim üçün böyük şərəfdir. Bu klub bu gün müasir dünya nizamının qlobal aktual məsələlərinin müzakirəsi üçün çox mühüm beynəlxalq məkandır. Əlbəttə ki, bu görüşə görə təşəkkür edirəm.

Sizin qeyd etdiyiniz kimi, biz müəyyən müddətdir, daha dəqiq desəm, dörd aydır ki, görüşməmişik. Bizim əlaqələrin intensivliyini nəzərə alsaq, bu, yetərincə böyük müddətdir. Keçən il biz 4 dəfə görüşmüşdük. Bu görüşlər çox müsbət rol oynayır, strateji tərəfdaşların münasibətləri kimi səciyyələndirdiyimiz əlaqələrin inkişafına yaxşı təkan verir.

Ticari-iqtisadi sahədə müsbət dinamikanı da qeyd etmək istərdim. Əmtəə dövriyyəsi artıb – keçən il də, bu

il də. Bizdə olan məlumata görə, avqust ayına qədər artım 20 faizdən çox olub. Sizinlə bizim təsdiq etdiyimiz «Strateji Yol Xəritələri»nin reallaşdırılması da, əlbəttə, daha sıx qarşılıqlı fəaliyyətə, bütün sahələrdə inteqrasiyaya və əməkdaşlığa gətirib çıxaracaqdır.

Bizim üçün Rusiya ən mühüm tərəfdaş, dost, mehriban qonşudur. Biz bu münasibətləri çox qiymətləndiririk. Əminəm ki, bugünkü diskussiya əlaqələrimizin gələcək inkişafına yaxşı töhfə olacaq. Dəvət üçün bir daha sağ olun.

* * *

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, iqtisadi, investisiya qoyuluşu, hərbi və hərbi-texniki, kənd təsərrüfatı, turizm və humanitar sahələrdə əməkdaşlıq barədə müzakirələr aparıldı.*

*Nümayəndə heyətlərinin geniş tərkibdə görüşündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin təkbətək söhbət etdilər.*

## «VALDAY» BEYNƏLXALQ DİSKUSSİYA KLUBUNUN 16-cı İLLİK İCLASININ PLENAR SESSİYASINDA İŞTİRAK

*Soçi*

*3 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində keçirilmiş «Valday» Beynəlxalq Diskussiya Klubunun 16-cı illik iclasının plenar sessiyasında iştirak etmişdir.*

*«Valday» Beynəlxalq Diskussiya Klubu 2004-cü ildə yaradılıb. Klubun ilk konfransı Rusiyanın Velikiy Novqorod şəhərində, Valday gölünün sahilində keçirilib. Klub adını da elə buradan götürüb. Ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilmiş klub tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer verir. İndiyədək klubun işində 74 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, həmçinin dövlət və hökumət başçıları iştirak edib. Onu da bildirək ki, digər ölkələrin rəhbərləri bu tədbirlərə məhdud sayda dəvət olunurlar.*

*Sessiyada əvvəlcə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin çıxış etdi.*

### Rusiya Prezidenti Vladimir Putinin çıxışı

Zati-aliləri Kral Abdulla! Hörmətli İlham Heydər oğlu!

Hörmətli Kasım-Jomart Kamaloviç!

Hörmətli cənab Rodriqo Duterte!

Dostlar, xanımlar və cənablar!

Sizin hamınızı «Valday» klubunun Soçidə keçirilən illik iclasında salamlamağa çox şadam. Yaranmış ənənəyə görə biz bu məkanda cari siyasi problemləri, hətta diplomatik diskussiyaları da bir kənara qoymağa və tarixi, mədəni və fəlsəfi kontekstdə, necə deyərlər, «uzaq gələcəyə» baxmağa, onun konturlarını cızmağa çalışırıq.

Bu dəfə təşkilatçılar bizə həqiqətən, tükənməz və mən deyərdim, çox maraqlı bir şərq mövzusu təklif ediblər – dünyanın ən iri və əhalisi sıx olan qitəsi kimi, Asiyanın dünya məsələlərində rolu. Rusiya ilə Asiya dövlətlərinin münasibətləri bizim üçün həmişə vacib olub və xüsusi əhəmiyyət kəsb edib, zənnimcə bu münasibətlər hamı üçün maraqlıdır. Asiya ilə Rusiya münasibətlərinin belə xarakteri təkcə bugünkü reallıqların tələbi deyil, tarixin tələbidir.

Hindistan və Çin, Misir və İran, Türkiyə və Yaponiya, Mərkəzi və Cənub-Şərqi Asiya ölkələri böyük və qədim sivilizasiyaların varisləridir, onlar bəşəriyyətə nadir biliklər və texnologiyalar, təbabət, riyaziyyat, mədəniyyət və incəsənət sahəsində nailiyyətlər bəxş ediblər.

Ziyalı, yaradıcı insanlarda Asiya həmişə xüsusi duyğular oyadıb, bir qədər müəmmalı və mistik görünüb, bəlkə heç də həmişə sona qədər aydın olmayan,

lakin hökmən maraq doğuran mənəvi qüvvə və müdriklik mənbəyi kimi məşhurlaşıbdır.

Rusiyada şərqin əlvan rəngləri bizim neçə-neçə yazıçı, şair, rəssam, musiqiçi üçün ilham mənbəyi olub. Mən Puşkini, Rimski-Korsakovu, Arsenyevi, Vereşşagini, Kandinski və Rerixi nəzərdə tuturam. Bu adlar Rusiya auditoriyasına yaxşı məlumdur, özü də təkcə Rusiya auditoriyasına yox. Bu gün Asiya Məğribdən və Yaxın Şərqdən Şərqi və Cənub-Şərqi Asiyaya qədər bütün ucsuz-bucaqsız məkanda dünya məsələlərində onun böyük irsinə bugünkü, şübhəsiz, böyük və artan potensialına uyğun təbii yerini özünə qaytarır.

Asiya dövlətlərinin mövqelərinin möhkəmlənməsi bütün sahələrdə nəzərə çarpır. Əlbəttə, xüsusən də iqtisadiyyatda. Dünya üzrə məcmu məhsulun üçdəbir hissəsindən çoxu artıq bu regionda formalaşır. Həyat səviyyəsi də yüksəlir, dünya üzrə orta göstəricini aşır. Ən qabaqcıl texnologiyalar fəal tətbiq edilir. Əhatə dairəsinə görə misilsiz inteqrasiya prosesləri, qloballaşma həm ayrı-ayrı xarici oyunçuları, həm də onunla həmhüdud olan bütöv subregionları Asiyaya cəlb edir.

Asiya ölkələri sanballı tərəqqi nümunələri nümayiş etdirməklə bərabər, öz bənzərsizliyini saxlayır, ənənələrini qoruyur, öz köklərini xatırlayır və irəliyə doğru hərəkətində sübut edir ki, dövlət suverenliyi prinsipləri açıqlığa və qloballaşmaya zidd deyil, davamlı inkişaf müstəqillik və sərbəstlikdən imtina edilməsi əsasında deyil, onlara əsaslanaraq mümkündür, dövlətin artan iqtisadi və humanitar potensialı həm də siyasi subyektivlik tələb edir.

Qanunauyğun haldır ki, qloballaşmanın, texnoloji inqilabın bəhrələrindən, mənfəətlərindən müdrikliklə istifadə edən və iqtisadi liderlər sırasına daxil olan Asiya dövlətləri dünya siyasətində də daha mühüm rol oynamağa çalışır. Bu, tamamilə təbii prosesdir. Onlar beynəlxalq gündəliyin mühüm məsələləri barədə öz fikirlərini müdafiə edir, müstəqilliyin qədrini bilir və hesab edirlər ki, onların obyektiv artan təsiri tanınacaq. Bizim fikrimizcə bu ədalətlidir və həm bugünkü, həm də gələcək reallıqlara tamamilə uyğundur.

Yeri gəlmişkən, vaxtilə Asiyanın belə adlandırılan oyanışı, region ölkələrin milli və mədəni dirçəlişi beynəlxalq münasibətlərin demokratikləşməsində çox böyük rol oynayıb. Bu gün isə aşkar görünür ki, Asiyanın iştirakı olmadan qlobal problemləri həll etmək sadəcə, qeyri-mümkündür. Əlbəttə, ətalət üzrə və köhnə yaddaş əsasında bunu etməyə cəhd göstərmək olar. Lakin qloballıq və universallıq iddiasında olan belə qərarların legitimliyi və ən başlıcası, onların praktiki mənası çox şübhəlidir.

Çox cəhətdən Asiya dövlətlərinin sayəsində dünya obyektiv olaraq çoxqütblü və nəticə etibarilə, şübhəsiz ki, daha mürəkkəb olub. Lakin çox qütblülük –mən bu barədə danışmışam – hər dərdin çarəsi deyil və o heç də o demək deyil ki, beynəlxalq münasibətlərdə kəskin məsələlər və ziddiyyətlər bir anda öz-özünə aradan qalxacaq.

«Valday» klubunun illik məruzəsinin müəllifləri iddia edirlər və biz indicə eşitdik ki, dünya nizamının çətinləşdiyi dövrə qədəm qoymuşuq. Bəli, belə ssenari

həqiqətən, mümkündür. Lakin onun təhlükəli cəhətləri çoxdur və biz hamımız bunu başa düşürük. Ümid etmək istərdim ki, dövlətlər arasında münasibətlər nə qədər mürəkkəb olsa da, məsələn, nüvə və raket sınaqları sahəsində hüquqi məqamlar nə qədər təhlükəli olsa da, beynəlxalq hüququn mühüm roluna əsaslanan dünya nizamı transformasiyaya məruz qalacaq, lakin saxlanacaqdır. Biz hamımız onu qorumaq üzərində işləyəcəyik. Şübhə yoxdur ki, başqa yol, demək olar, bütün bəşəriyyəti qlobal təhlükələrə aparır.

Əlbəttə, dünya sistemi rəngarəng və mürəkkəb, eyni zamanda, misilsiz dərəcədə qarşılıqlı əlaqəli sistemdir. Hər kəsin öz obyektiv, heç də həmişə başqalarının maraqları ilə üst-üstə düşməyən maraqları vardır. Bu da aydındır. Lakin ümumi məsuliyyət hissi də vardır. Nəhayət, ümidvaram və əslində şübhə etmirəm ki, sağlam düşüncə, təhlükəsizliyə meyil də vardır.

Buna görə də dünya nizamı sistemli olmalıdır. Lakin şübhəsiz, çeviklik və qeyri-xəttilik də lazımdır. Bu, sistemdən imtina etmək deyil, reallıqları nəzərə almaqla, mürəkkəb prosesi təşkil etmək bacarığı deməkdir. Bu, müxtəlif mədəni dəyər sistemlərini nəzərə almağı, əlbir hərəkət etməyi, stereotipləri və geosiyasi şablonları dəf etmək bacarığını nəzərdə tutur. Qlobal, regional və milli səviyyəli məsələləri yalnız bu yolla səmərəli şəkildə həll etmək olar.

Belə nümunələr göz qabağındadır. 2015-ci ildə «Valday» klubunun iclasında iştirak edənlər yəqin ki, xatırlayırlar: praktiki olaraq, həmin günlərdə Suriyada Rusiya əməliyyatlarının başlanılması haqqında qərar

qəbul edildi. Açıq deyirəm, o vaxt zalda olanların heç də hamısı, o cümlədən ekspertlər də inanmırdılar ki, bu əməliyyat belə müsbət şəkildə başa çata bilər. Əksinə, buna çox şübhə ilə yanaşırdılar, çoxları bunun nəyə lazım olması barədə suallar da verir, soruşurdular ki, biz hansı bir arı yuvasına girdiyimizi başa düşürükmü? Bəzi əcnəbi tərəfdaşlar isə – əlbəttə, burada iştirak edən ekspertləri deyil, sadəcə, beynəlxalq arenada işlədiyimiz əcnəbi tərəfdaşları nəzərdə tuturam – açıq desək, bizə mane olmağa, müqavimət göstərməyə çalışırdılar. Lakin sizin diqqətinizi görülmüş işlərin ən başlıcasına cəlb etmək istəyirəm. Əlbəttə, ilk növbədə, bizim ölkəmiz üçün edilənləri nəzərdə tuturam, çünki mən onun mənafelərini təmsil edirəm. Biz Suriya ərazisində artıq praktiki olaraq qalib gəlmiş beynəlmiləl terrorizmi məğlub etdik və onun qayıtmasının, bizim ölkəmizə və qonşu dövlətlərə sızmasının qarşısını aldıq. Yeri gəlmişkən, həmin dövlətlərlə bizim viza rejimimiz yoxdur, onlarla sərhədlərimiz şəffafdır. Biz yüzlərlə, gələcəkdə isə bəlkə də minlərlə silahlı başkəsənin ölkəmizə sızmasının qarşısını aldıq.

Bir neçə il ərzində Suriya ərazisinin çox hissəsi terrorçulardan azad edildi, zorakılıq səviyyəsi əsaslı şəkildə azaldı. Biz «Astana formatı» üzrə tərəfdaşlarımızla birlikdə BMT-nin dəstəyi ilə Suriyadaxili siyasi prosesi işə salmağa, bu məqsədlə İran, Türkiyə, İsrail, Səudiyyə Ərəbistanı, İordaniya, Yaxın Şərqin digər ölkələri və Birləşmiş Ştatlarla sıx işgüzar əlaqələr yaratmağa nail olduq. Hörmətli həmkarlar, razılaşın ki, çox fərqli dövlətlərin, bir-birinə

münasibətdə çox fərqli emosiyaların belə mürəkkəb diplomatik toplusunu bir neçə il bundan əvvəl hətta təsəvvür etmək belə, çətin idi. İndi isə bu, gerçəkləşmiş faktdır, biz buna nail olmuşuq.

Bizim fikrimizcə, Suriya məsələsinin nizamlanması regional böhranların həlli üçün bir növ model ola bilər. Həm də əksər hallarda məhz diplomatik mexanizmlər işləyəcək. Burada güc tətbiq edilməsi ifrat, məcburi bir istisnadır. Axı biz Suriyada bütöv bir terrorçu kvazi-dövlət yaratmaq cəhdi ilə, tamamilə mübaliğəsiz deyirəm, əsl terrorçu ordusu ilə üzləşdik.

Bəzən adama elə gəlir ki, həm yeni, həm də xroniki, köhnə problemlərin, böhranların çoxu həddən artıq dolaşıb, onlara yanaşma da məlum deyil. Lakin təkrar edirəm, indi qeyri-ordinar, qeyri-standart addımlar və hərəkətlər dövrüdür. Suriya istiqamətində Rusiya tərəfdaşları ilə birlikdə – əlbəttə, bunu təkbaşına heç vaxt edə bilməzdik – beynəlxalq hüquq normalarına əsaslanmaqla və onlara riayət etməklə, suverenliyə hörmət etməklə, ilk növbədə, insanların həyatı, təhlükəsizliyi və maraqları barədə düşünərək, hər halda, çox iş görübdür.

Əminəm ki, dünyada, o cümlədən Asiyada mövcud olan başqa problemləri də məhz belə yanaşma əsasında həll etmək olar. Məsələn, çoxdandır «məngənədə» olan Koreya yarımadasındakı vəziyyət bu qəbildəndir.

Bununla əlaqədar qeyd etməliyəm ki, Birləşmiş Ştatlar Koreya Xalq Demokratik Respublikası ilə, özü də ilkin rəsmiyyət və şərtiliklər olmadan, adi, bəzən çox kobud, təhqirlər dərəcəsinə çatan ritorika olmadan birbaşa

danışıqlar aparmağı qərara alan kimi, dərhal məsələnin sülh yolu ilə nizamlanmasına ümid yarandı.

Əlbəttə, biz başa düşürük və görürük ki, həll edilməmiş problemlər hələ çoxdur, qarşıda çox böyük yol vardır. Lakin hər halda, düzgün istiqamətdə hərəkət vardır. Burada Prezident Trampın cəsarətinə, qeyri-ordinar addımlar atmaq bacarığına lazımınca qiymət verməliyik. Axı onilliklər boyu Amerika prezidentləri Koreya Xalq Demokratik Respublikasına etinasızlıq göstərir, onu «izqoy» hesab edirdilər. Cənab Tramp tarixi addım atmağa, anlamamaq və rədd etmək kimi «demarkasiya xətti»ni aşmağa, Kim Çen In ilə görüşməyə və danışıqlar prosesini başlamağa müvəffəq oldu.

Bir daha təkrar edirəm, ən mürəkkəb münaqişə düyünlərini qarşılıqlı əməkdaşlıq, hörmət, tərəflərin maraqlarını tanımaq, müxtəlif qəbildən olan blok fəlsəfəsindən imtina etmək prinsipləri əsasında həll etmək lazımdır və bu mümkündür. Məsələn, Fələstin–İsrail, Əfqanıstan, İranın nüvə proqramı ətrafında vəziyyət kimi məsələlər.

Bununla əlaqədar xatırlatmaq istəyirəm ki, Rusiya məhz bu məntiqlə cari ilin iyulunda Körfəz zonasında kollektiv təhlükəsizliyin təmin edilməsi Konsepsiyasını təqdim edib. Zənnimcə, bu ideya regionda cari gərgin və gözlənilməz şəraiti nəzərə alaraq, hələ də çox aktualdır.

Biz yığılıb qalmış yanlış təsəvvürləri, qarşılıqlı iddiaları bir kənara qoyaraq, bu regionda təhlükəsizlik və əməkdaşlıq üzrə təşkilatın yaradılmasına yeni

səhifədən başlamağı təklif edirik. Bu təşkilata Körfəz ölkələri ilə yanaşı, müşahidəçi statusu ilə Rusiya, Çin, ABŞ, Avropa İttifaqı ölkələri, Hindistan və digər maraqlı dövlətlər daxil ola bilərdi.

Hörmətli görüş iştirakçıları, gələcəyə istiqamətlənmiş bərabərhüquqlu siyasi münasibətlərin, o cümlədən Asiya ölkələri arasında münasibətlərin əsası, şübhəsiz ki, hamının davamlı və uzunmüddətli inkişafı üçün real perspektivlər açan iqtisadi tərəfdaşlıqdır.

Nümunə kimi, nəqliyyat sahəsində qarşılıqlı əlaqələri göstərmək istəyirəm. Müasir avtomobil, dəniz, dəmir yolları infrastrukturu yaradılmadan ticarəti, sənaye kooperasiyasını inkişaf etdirmək, hər hansı digər sahələrdə qarşılıqlı mübadiləni təşkil etmək mümkün deyil. Belə Avrasiya nəqliyyat karkasının, geniş ticarət marşrutları şəbəkəsinin formalaşdırılmasını necə sürətləndirmək barədə birlikdə düşünməliyik.

Şübhəsiz ki, Rusiya birgə iş üçün açıqdır və artıq burada bir sıra birgə layihələr həyata keçirir. Onlardan biri – Şimal–Cənub ticarət marşrutu bizim ərazimizdən, Xəzər regionundan keçməklə, Avropa ölkələrindən Mərkəzi Asiya dövlətlərinə, İran və Hindistana uzanır. Digəri – Avropa–Qərbi Çin marşrutu Baltik dənizindəki Rusiya limanlarını Sarı dənizdəki limanlarla birləşdirəcəkdir.

Daha bir perspektivli marşrut Arktika–Sibir–Asiyadır. Onun məğzi ondadır ki, Şərqi Sibirdən – Avrasiyanın mərkəzindən nəqliyyat magistralları ilə Şimal dənizinin limanlarını Sakit və Hind okeanlarının limanları ilə

birləşdirmək mümkün olsun. Bu ideyanı reallaşdırmaq, çatışmayan elementləri formalaşdırmaq üçün biz Rusiyanın ən şimalında, Yamal yarımadasında yerləşən Sabetta limanına dəmir yolu xəttinin tikintisini, «Şimal en gedişi» layihələri kompleksinin reallaşdırılmasını, həmçinin Rusiya Federasiyasının şərqində Tuva Respublikasında Kuraqino–Kızıl dəmir yolu magistralının gələcəkdə Monqolustan, Çin və regionun digər ölkələrinə çıxışını təmin etməklə, inşasını sürətləndirmək və başa çatdırmaq niyyətindəyik. Ümumavrasiya əhəmiyyətli bu təşəbbüs üzrə bütün maraqlı tərəfdaşlarla işləməyə hazırıq.

Fikrimizcə, transsərhəd, transmilli nəqliyyat arteriyaları təkcə təbii rəqabətə əsaslanmış münasibətlərin qurulmasında açar, stimul deyil, həm də həmrəylik baxımından çox mühümdür. Çünki marşrutun keçdiyi ölkələrdən birində siyasi və iqtisadi sabitlik olmasa, onda bütün zəncir fəaliyyətini itirəcək. Buna görə də qonşular təbii yolla bir-birinin tərəqqisinə can atmalıdırlar.

Məhz birgə ümumi tərəqqi prinsiplərini rəhbər tutaraq, biz tərəfdaşlarımızla Avrasiya İqtisadi İttifaqını qururuq. Bu inteqrasiya birliyi hüquq bərabərliyinə, praqmatizmə, bir-birinin maraqlarının nəzərə alınmasına əsaslanır. Bu halda, bizim ittifaqımız qapalı bazar deyil.

Avrasiya İqtisadi İttifaqı beynəlxalq əlaqələri fəal inkişaf etdirir. Vyetnamla azad ticarət zonası haqqında saziş imzalanıb, bu yaxınlarda, lap elə bu günlərdə Sinqapurla da belə müqavilə imzalamışıq. İranla azad

ticarət zonası haqqında müvəqqəti saziş imzalanıb. İsrail və Misirlə danışıqlar aparılır, tezliklə Hindistanla danışıqların birinci raundu olacaqdır. Avrasiya İttifaqı Çinlə ticari-iqtisadi əməkdaşlıq haqqında saziş imzalayıb. Avrasiya Komissiyası ilə ASEAN arasında 2019–2020-ci illərdə əməkdaşlıq proqramının həyata keçirilməsinə başlanılıbdır.

Bütün bu razılaşmalar Avrasiya İqtisadi İttifaqı, MDB, ŞƏT, ASEAN ölkələrinin və bir sıra digər dövlətlərin potensial iştirakı ilə Böyük Avrasiya Tərəfdaşlığının formalaşdırılması baxımından vacibdir.

Avrasiya İqtisadi İttifaqı layihəsi ilə Çinin «Bir kəmər – bir yol» təşəbbüsünün əlaqələndirilməsi Böyük Avrasiyanın «daşıyıcı dirəklərindən» biri olmalıdır. Biz çinli dostlarımızla bu işin sürətləndirilməsi barədə razılıq əldə etmişik.

Bütün bu misalları gətirərək, çox sadə və zənnimcə, aşkar fikri vurğulamaq istəyirəm – dövlətlər arasında praqmatizmə, bir-birinin maraqlarının nəzərə alınmasına əsaslanan belə münasibətlərin qurulması xoş arzular və xəyallar, çox da uzaq gələcəyin məsələsi deyil. Bu mümkündür və üstəlik, indi reallaşdırılır.

Hörmətli həmkarlar, Rusiya lap əvvəldən, təşəkkül tapdığı və formalaşdığı vaxtdan çoxmillətli, çox konfessiyalı ölkədir. Məlum mənada bu ölkə elə bir sivilizasiyadır ki, bir çox ənənələri və mədəniyyətləri üzvi şəkildə mənimsəyib, onların özünəməxsusluğunu, nadirliyini qoruyub, həm də orada yaşayan xalqların birliyini saxlayıbdır. Biz Rusiya Federasiyası xalqlarının bənzərsizliyinin və ümumi taleyinin harmoniyası ilə çox

qürur duyuruq və onu yüksək qiymətləndiririk. Biz aşkar görürük ki, dövlət daxilində müxtəliflik normal haldır. O, sözün əsl mənasında, öz modelini aksiom kimi qəbul etdirməyi yox, səbirli, dözümlü olmağı, müxtəlif nöqteyi-nəzərləri anlamaq və qəbul etmək bacarığını, ənənələri və qaydaları öyrədir. Düşünürük ki, bizim bu təcrübəmiz bir çox digər tərəfdaşlarımız üçün də faydalı ola bilər. Ümumilikdə dünyadan danışdıqda bütün dövlətlərin şübhəsiz ki, müxtəlif olduğunu nəzərə alaraq, yeknəsəklik, universallaşdırma prinsipcə mümkün deyil. Müxtəlif dəyərlərin, ideyaların, ənənələrin birgə mövcud olduğu, qarşılıqlı fəaliyyət göstərdiyi və bir-birini zənginləşdirdiyi, eyni zamanda, öz xüsusiyyətlərini və fərqli cəhətlərini qoruduğu və üzə çıxardığı sistem lazımdır.

XIX əsrdə diplomatiyada belə bir obraz olub. Burada mənim həmkarlarım olan diplomatlar var və bizim Xarici İşlər naziri mənə söylədi ki, bu gün, belə demək mümkünsə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu günüdür. Çünki mənim həmkarlarım arasında Qazaxıstan Prezidenti və Azərbaycan Prezidenti MDBMİ-nin məzunları, digər iki həmkarım – Prezident Duterte və İordaniya Kralı isə bu universitetin Fəxri professorlarıdır. Bu universitet ənənəvi olaraq, lap əvvəldən diplomatik xidmət üçün kadrların hazırlanması sahəsində aparıcı ali məktəbdir.

Vaxtilə, XIX əsrdə «böyük dövlətlərin konserti» haqqında danışırdılar. Bu gün inkişaf modellərinin, maraqların, mədəniyyət və ənənələrin qlobal «konserti» haqqında danışmaq vaxtıdır ki, burada hər alətin

çıxardığı səs mühüm, əvəzolunmaz və qiymətlidir. «Musiqinin» xaric səslənməməsi, kakofoniyaya oxşamaması, əksinə, harmonik səslənməsi üçün beynəlxalq həyatın bütün iştirakçılarının rəyinin və maraqlarının nəzərə alınması vacibdir. Təkrar edirəm, əsl qarşılıqlı hörmətə əsaslanan, praqmatik, deməli, gözlənilən və sıx münasibətlər məhz müstəqil, suveren dövlətlər arasında qurula bilər.

Rusiya belə yanaşmalara səmimi olaraq sadiqdir və müsbət gündəliyi reallaşdırır. Biz beynəlxalq hüquqa qeyd-şərtsiz əməl olunmasının, qarşılıqlı etimadın və ehtiramın möhkəmləndirilməsinin tərəfdarıyıq. Biz dövlətlərarası münasibətləri və ünsiyyəti BMT Nizamnaməsinin müddəalarına əsaslanaraq, ədalətli, demokratik prinsiplər üzrə qururuq.

Bizim ölkəmiz diqqətini təhlükəsizliyin və sabitliyin möhkəmlənməsi, beynəlxalq terrorizmə, digər çağırış və təhdidlərə qarşı mübarizə üzərində cəmləşdirib. Biz Asiya da daxil olmaqla, bərabər və bölünməz təhlükəsizlik sisteminin geniş kollektiv iş əsasında yaradılması istiqamətində fəaliyyət göstəririk. Yeri gəlmişkən, 3 həftədən sonra elə burada, Soçidə Rusiya–Afrika Sammiti keçiriləcək. Biz onun gedişində afrikalı həmkarlarımıza, dostlarımıza bərabərhüquqlu və ən müxtəlif sahələri – iqtisadiyyat, energetika, nəqliyyat, təhsil və ekologiyanı əhatə edən geniş gündəlik təqdim etməyə hazırıq.

Sonda mövzudan kənar da olsa, amma hər halda, bizim əsas mövzumuzla bağlı olan hadisəni danışmaq istəyirəm. Təxminən 20 il əvvəl – 2000-ci il ərə-

fəsində mənim «Rusiya minilliklərin qovuşuğunda» sərlövhəli məqaləm dərc olunub. Məqalədə o zaman dünyanın vəziyyəti, inkişaf perspektivləri ilə bağlı təhlil, mənə elə gəlir ki, ümumilikdə reallığa uyğun idi.

Rusiya həqiqətən də XX əsrin 90-cı illərini öz tarixinin ən çətin dövrlərindən biri kimi yaşayıb. Kəskin daxili siyasi, iqtisadi, sosial böhranlarla yanaşı, biz həm də beynəlxalq terrorizm tərəfindən təcavüzə məruz qaldıq. O zaman Rusiya çox təhlükəli, hər bir xalq, hər bir millət və ölkə üçün ən pis hadisələrin – dağıntı və dövlətin süqutunun baş verəcəyi həddə yaxınlaşmışdı. Bu təhdid havadan asılmışdı və insanların bir çoxu onu hiss edirdi.

Biz o zaman, əlbəttə, tamamilə real olaraq irimiqyaslı vətəndaş müharibəsinə yuvarlana, dövlət bütövlüyümüzü, suverenliyimizi itirə və dünya siyasətinin periferiyasında qala bilərdik. Yalnız rus xalqının və Rusiyanın digər xalqlarının müstəsna vətənpərvərliyi, igidliyi, nadir səbri və əməksevərliyi nəticəsində ölkəmiz bu təhlükəli xətdən uzaqlaşdırıldı.

Bu 20 il ərzində yəqin ki, nələrisə başqa cür, daha yaxşı etmək olardı. Lakin biz nadir təcrübə qazandıq və düşünürəm ki, o, dünyada da istifadə oluna bilər. Biz həmkarlarımızla bu zala daxil olmazdan əvvəl ən mühüm problemlərdən biri – terrorizm haqqında danışdıq və müzakirə apardıq.

Həqiqətən, bizdə – Rusiyada həll edilməmiş problemlər hələ çoxdur. Bununla yanaşı, siyasi sabitlik, bütün xalqın öz gücünü səfərbər etməsi sayəsində

Rusiya nəinki dirçəlib və iqtisadi, sosial sahələrdə möhkəmlənməkdə davam edir, həm də planetin aparıcı, nüfuzlu və məsuliyyətli dövlətləri arasında inamla öz yerini tutur. Bizim ölkəmiz mövcud dünya nizamının qarantlarından biri kimi, öz öhdəliklərini tam şəkildə yerinə yetirir. Əminəm ki, bu, gələcəkdə də belə olacaq. Əgər biz birlikdə fəaliyyət göstərsək, bu daha səmərəli olacaqdır.

Diqqətinizə görə çox sağ olun.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, «Valday» Diskussiya Klubunun növbəti iclasında iştirak etməyə dəvət üçün Vladimir Vladimiroviç Putinə dərin təşəkkürümü bildirmək istərdim. Qeyd etmək istərdim ki, klubun fəaliyyətini Azərbaycanda böyük maraqla izləyirlər. O, müasir dünyanın aktual məsələlərinin müzakirə edildiyi və əməkdaşlığın dərinləşməsi üçün tövsiyələr verən ən mühüm beynəlxalq məkanlardan birinə çevrilibdir.

Mən Vladimir Vladimiroviçin çıxışını böyük maraqla dinlədim və hər məsələdə onunla razıyam. Minilliklərin sərhədində Rusiyada yaranmış vəziyyətdən bəhs edərkən onun demədiyi yeganə məsələ budur ki, Rusiyanın çox ağır sınaqlardan şərəflə çıxmasında əsas amil Vladimir Putin amilidir. Bu həqiqətdir, bunu hamı bilməlidir. Məhz onun cəsarəti, qətiyyəti, müdrikliyi, vətənpərvərliyi sayəsində Rusiya ən çətin sınaqlardan çıxdı və bu gün dünyanın aparıcı böyük dövlətidir. Bu gün Vladimir Vladimiroviçlə bizim görüşümüz oldu. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və hətta bir neçə aylıq kiçik fasilə bizə pauza kimi təsir bağışlayır. Ölkələrimiz arasında münasibətlər strateji əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, biz bir-birimizi strateji tərəfdaşlar adlandırırıq. Bu gün biz ikitərəfli münasibətlərin çox geniş gündəliyini nəzərdən keçirdik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirdik. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Dövlət

başçılarının və digər rəsmi şəxslərin müntəzəm görüşləri əməkdaşlığımızın dərinləşməsinə şərait yaradır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, ən mühüm, ümdə məsələlərdə ənənəvi olaraq, bir-birimizi dəstəkləyirik. Avropa Şurası Parlament Assambleyasının iyun sessiyasında Rusiyanın bu təşkilata qayıtması məsələsi müzakirə edilərkən Azərbaycan nümayəndə heyəti tam tərkibdə çıxış edərək, Rusiyanın AŞPA-ya qayıtmasının lehinə səs verdi. Mən bu münasibətlə həmkarlarımızı təbrik etmək istərdim.

Ticari-iqtisadi münasibətlərimizin inkişafında müsbət dinamika müşahidə olunur. Biz əmtəə dövriyyəsini hər il artırırıq. Bu, get-gedə çətinləşir, çünki keçən il biz təqribən 20 faiz artım barədə danışırdıqsa, bu il artım daha çox olub. Beş «Yol Xəritəsi» çərçivəsində əməkdaşlığın prioritet istiqamətlərinin müəyyən edilməsi, şübhəsiz ki, ticari əlaqələrin daha da genişlənməsinə səbəb olacaqdır. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Azərbaycan Rusiyada 1,2 milyard dollar, Rusiya Azərbaycanda 4,6 milyard dollar həcmində sərmayə qoyub. Burada biz geri qalırıq, lakin bunun obyektiv səbəbləri vardır. Onu da qeyd etmək istərdim ki, sənayeləşmə məsələsində Rusiya bankları bizə çox kömək edir. Onlar iqtisadiyyatın real sektorunda həyata keçirilən layihələr üçün təqribən 1 milyard dollar kredit ayırıblar.

Hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Bu gün biz bu istiqamətdə işi davam etdirmək barədə razılığa

gəldik. Hərçənd, Rusiyadan texnika alınması çərçivəsində bizim aramızda artıq imzalanmış kontraktların məbləği 5 milyard dollar təşkil edir, bunun 3 milyard dolları artıq reallaşıb. Dediyim kimi, biz bu istiqamətdə işi davam etdirmək niyyətindəyik.

Bizim əməkdaşlığımızın mühüm istiqamətlərindən biri də nəqliyyat sahəsidir. 2018-ci ildə Şimal–Cənub dəhlizi vasitəsilə daşınmış yüklərin həcmi əvvəlki ildəkindən 8 dəfə çox olub. Həcmlər hələlik böyük deyil, lakin dinamika güclü təsir bağışlayır. Onu da qeyd etmək istərdim ki, Şimal–Qərb dəhlizi də işə düşüb. Rusiyadan yüklər Azərbaycan ərazisindən keçməklə, həm cənub, həm də qərb istiqamətində göndərilir. Bu çox cəhətdən onun sayəsində mümkün olur ki, biz tarif siyasətimizi razılaşdırmışıq və son vaxtlar Azərbaycanda müasir nəqliyyat infrastrukturuna böyük sərmayə yatırılıbdır.

Bizim əlaqələrimizin daha bir göstəricisi həm ölkələrimiz, həm də xalqlarımız arasında münasibətlərin ruhu və xarakteri barədə parlaq təsəvvür yaradır. Keçən il 880 min rusiyalı Azərbaycana səfər edib. Bu il onların sayı daha çoxdur. Sirr deyil ki, turistlər təkcə görməli yerlərə baxmaq və milli mətbəx təamlarını dadmaq üçün gəlmirlər. Onlar o yerə gedirlər ki, orada özlərini təhlükəsiz, rahat, öz evlərində olduğu kimi hiss edirlər. Zənnimcə, bu fakt turizmin sürətlə artmasına dəlalət edir.

Təhsil sahəsində böyük uğurları qeyd etmək istərdim. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin, habelə Birinci Moskva Dövlət Tibb

Universitetinin filialı fəaliyyət göstərir. Azərbaycanın bütün dövlət ali məktəblərində rus dili bölmələri vardır. Ölkəmizdə 25 min tələbə rus dilində təhsil alır. Təhsilin rus dilində olduğu 338 məktəbdə 130 min şagird də rus dilində oxuyur.

Daimi diskussiyaların mövzularından biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsidir. Rusiya ATƏT-in Minsk qrupunun həmsədridir. Onun vasitəçilik üçün mandatı vardır. Qeyd etməliyəm ki, Dağlıq Qarabağ və Azərbaycanın digər 7 rayonu 25 ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Qeyd etməliyəm ki, bu münaqişə ilə əlaqədar çox vaxt reallığı əks etdirməyən geniş fikir müxtəlifliyi vardır. Bu məsələyə aydınlıq gətirmək üçün deməliyəm ki, 1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın çox vaxt erməni tərəfinin interpretasiya etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir. Münaqişə başlayana qədər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlı və erməni əhalinin say nisbəti 25:75 faiz kimi olub. Münaqişə nəticəsində Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhali qovulub, başqa sözlə desək, orada etnik təmizləmə aparılıbdır.

Bu gün də işğal olunmuş ərazilərdə azərbaycanlı əhali yoxdur və işğal olunmuş ərazilər, onların böyük bir hissəsi yandırılmış, dağıdılmış torpaqlar, viran qoyulmuş evlər, məktəblər, ictimai binalardır. Münaqişə nəticəsində

Azərbaycan humanitar fəlakətlə üzləşib – Dağlıq Qarabağdan və Azərbaycanın işğal olunmuş digər ərazilərindən olan 700 mindən çox məcburi köçkün, üstəgəl müasir Ermənistan ərazisində öz tarixi torpaqlarından qovulmuş 250 min azərbaycanlı. BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. 25 ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir. Burada biz mühüm məsələyə – qəbul olunmuş qərarların yerinə yetirilməsinə gəlirik. BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır. Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır. Ermənistanın baş naziri son vaxtlar tez-tez təkrarlayır ki, münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağ xalqı üçün məqbul olmalıdır. İndi deməliyəm ki, «Dağlıq Qarabağ xalqı» məfhumu mövcud deyil. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər

bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, Təhlükəsizlik Şurasının qətnamələrinə və Helsinki Yekun Aktına uyğundur.

Deməliyəm ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü bu gün də davam edir. Dünən erməni snayperi tərəfindən, münaqişə zonasından uzaqda, Ermənistanın Azərbaycanla sərhədində yerləşən Qazax rayonunun dinc sakini qətlə yetirilib. Həmçinin deməliyəm ki, 2016-cı ilin aprelində hərbi təxribat zamanı 6 dinc sakin, o cümlədən balaca qız qətlə yetirilibdir.

Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də «Valday» Forumu çərçivəsində müvafiq cavab verilibdir. Beləliklə, bəyanat sözbəsöz belədir: «Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə». Birincisi, yumşaq şəkildə desək, bu yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi.

İşğala, keçən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə hər 8 nəfərdən birinin qaçqın olduğu humanitar fəlakətə baxmayaraq, Azərbaycan böyük inkişaf və quruculuq yolu qət edib. Ölkədə oyuncaq, xalqa zidd, satqın Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu müstəqilliyin ilk illəri istisna olmaqla, 26 ildir Azərbaycan sabitlik şəraitində yaşayır və burada əsas xidmət vətəndaş müharibəsinin qarşısını almış, işğalı dayandırmış, xaosun, dağıntının öhdəsindən gəlmiş və Azərbaycanı quruculuq yoluna çıxarmış Prezident Heydər Əliyevə məxsusdur. Beləliklə, 26 ildir ki, Azərbaycan xalqı sabitlik və inkişaf şəraitində yaşayır. Ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənir. Bunun göstəricilərindən biri bir neçə il əvvəl ölkəmizin 155 dövlətin səsi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Bu o qədər də asan deyildi, bizə 3 gün və 16 tur tələb olundu, lakin ədalət zəfər çaldı. Həmçinin qeyd etmək istərdim ki, Rusiya Federasiyası və digər 154 ölkə bizə böyük dəstək verdi.

Bizi sevindirir ki, Bakı artıq bir neçə ildir Rusiya və NATO-nun ali hərbi komandanlıqlarının görüş yeri seçilir. Bunu bizə göstərilən etimadın ifadəsi kimi qiymətləndiririk. Bu ayın sonunda Bakıda «Qoşulmama Hərəkatı»nın sammiti keçiriləcək. Azərbaycan 3 il müddətinə bu təşkilatın sədri olacaqdır.

Qarşımızda duran beynəlxalq gündəliklə yanaşı, əlbəttə, biz diqqətimizi iqtisadi inkişafla bağlı daxili problemlərə yönəldirik. Bu istiqamətdə böyük nəticələr əldə olunub. Azərbaycan xarici dövlət borcu az olan ölkədir. Bu göstəriciyə görə biz 9-cu yerdəyik, xarici

borc ümumi daxili məhsulun 17 faizini təşkil edir. Məlumat üçün deyim ki, Rusiya 6-cı yerdədir. Biz rəqib deyilik, lakin həmişə ən yaxşı nəticələrə istiqamətlənirik. Yoxsulluğun azaldılması üzrə böyük işlər görülür və bu göstərici 2003-cü ildəki 49 faizdən 5 faizə endirilib. İqtisadi artım sosial problemlərin həllinə də imkan verir. Bu il minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faiz artıbdır. Biz müasir texnologiyalara sərmayə qoyuruq, əhalimizin 80 faizi internet istifadəçisidir. Azərbaycan 3 peyki olan ölkədir. Bunlardan ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən peykdir.

Sonda Vladimir Vladimiroviçin nəqliyyat layihələrinin təkcə ticarətin inkişafına kömək etməməsi, həmçinin xalqlar arasında körpü olması barədə tezisinə dəstək olaraq demək istəyirəm ki, bu istiqamətdə bizim ölkəmizdən keçən Şimal–Cənub və Şərq–Qərb dəhlizləri məhz beynəlxalq əməkdaşlığın genişləndirilməsi və risklərin azaldılması istiqamətində addımlardır, layihələrdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sessiyada çıxış edən İordaniya Kralı II Abdullah, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Filippin Prezidenti Rodriqo Roa Duterte «Valday» Beynəlxalq Klubunun əhəmiyyətinə toxundular, Asiya regionunun dünyada artan rolundan, terrorizmin doğurduğu təhdidlərdən, dünyada gedən qlobal siyasi və iqtisadi proseslərdən bəhs etdilər.*

*Sonra Prezident İlham Əliyev və tədbir iştirakçıları sualları cavablandırdılar.*

**S u a l: Cənab Prezident, bizim ölkələrimizin iştirakı ilə iqtisadiyyat sahəsində inteqrasiya layihələri, o cümlədən Şimal–Cənub ticarət marşrutu, Sizin xatırlatdığınız Şimal–Qərb nəqliyyat dəhlizi regional təhlükəsizlik üçün nadir əsaslar yaradır. Bu sistemin parametrləri Bakıdan necə görünür? Təhlükəsizlik sahəsində Rusiya–Azərbaycan əlaqələri onun qurulmasına necə kömək edir?**

**C a v a b:** Şübhəsiz ki, bu məsələlər qarşılıqlı əlaqəlidir. Mən öz şərhlərimdə demişəm ki, nəqliyyat layihələri yük göndərənlər, yaxud tranzit ölkələr üçün təkcə gəlir qazanmaq üçün əlavə imkanlar yaratmır, bunlar ölkələri qarşılıqlı asılı vəziyyətə salır. İstənilən tranzit ölkə öz qonşuları ilə yaxşı münasibətlərə malik olmalıdır, yoxsa bu tranzit sadəcə, baş tutmayacaqdır. Azərbaycana gəlincə, biz artıq çoxdandır həm müasir nəqliyyat infrastrukturunun, həm də regionumuzda etimad mühitinin yaradılmasına investisiya qoyuruq. Düşünürəm ki, biz tərəfdaş ölkələrin birgə səyləri ilə

nadir əməkdaşlıq formatı yaratmağa nail olmuşuq. Həmin format bu gün xalqlarımızın rifahına, eləcə də təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir. Hesab edirəm ki, beynəlxalq təcrübədə qarşılıqlı asılılıq və qarşılıqlı tamamlama bütövlükdə sabitlik və təhlükəsizlik amillərindən biridir.

Azərbaycan nəqliyyat infrastrukturuna xeyli vəsait qoyub. Biz Bakı yaxınlığında çox böyük ticarət limanı istifadəyə vermişik. Həmçinin dəmir yolları bizi üç qonşumuzla birləşdirir. Avtomobil yolları da yük axınının artmasına təkan verir. Coğrafi yerləşmə təbii ki, geosiyasi vəziyyətdən asılıdır. Onun həm müsbət, həm də mənfi cəhətləri ola bilər. Fikrimcə, hər bir hökumətin vəzifəsi ölkəsinin coğrafiyasını müsbətə yönəltməkdir. Zənnimcə, biz buna nail olmuşuq. Azərbaycan «Bir kəmər – bir yol» layihəsinin fəal iştirakçısıdır və bu ilin aprelində Pekin konfransında Cənubi Qafqazın yeganə ölkəsi kimi iştirak edib. Biz həmçinin Şimal–Cənub layihəsinin mühüm tərəfdaşıyıq. Azərbaycan həm Şərq–Qərb, həm də Şimal–Cənub dəhlizlərində iştirak edən yeganə ölkədir. Mən bu gün dedim ki, biz artıq Şimal–Qərb dəhlizinin işə düşməsinə şadıq. Beləliklə həmin layihələr, təbii ki, regional təhlükəsizliyin möhkəmləndirilməsinə kömək edəcəkdir.

Sizin sualınızın ikinci hissəsinə – Azərbaycanla Rusiya arasında münasibətlərin təhlükəsizliyə necə kömək etməsi məsələsinə gəlincə, düşünürəm ki, toqquşmaların, xaosun, vətəndaş müharibələrinin, münaqişələrin, dini ekstremizmin tüğyan etdiyi dənizdə Rusiya və Azərbaycanın sabit ictimai-siyasi vəziyyətdə olan və o

cümlədən beynəlxalq terrorizmə, ekstremizmə qarşı mübarizədə qarşılıqlı fəaliyyət göstərən ölkələr olduğunu görmək üçün bizim regiona baxmaq kifayətdir. Həm Rusiya, həm də Azərbaycan Qafqaz ölkələridir. Təbii ki, bizi Qafqaz birləşdirir. Bizi Xəzər dənizi birləşdirir. Qeyd etməliyəm ki, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işində ötən ilin avqustunda Aktauda Xəzər dənizinin hüquqi statusunun tənzimlənməsi haqqında Konvensiyanın imzalanması böyük rol oynadı. Beləliklə, Rusiya–Azərbaycan münasibətləri artıq çoxdan ikitərəfli çərçivədən çıxaraq, regionumuzda sabitliyin mühüm amilinə çevrilibdir.

*Fransa Beynəlxalq Münasibətlər İnstitutunun eksperti Tatyana Kostuyeva-Janın ekologiya ilə bağlı sualını cavablandıran Prezident Vladimir Putin bu barədə Prezident İlham Əliyevin də öz münasibətini bildirməsini xahiş etdi.*

**S u a l: Ümumiyyətlə, ekologiya məsələləri yəqin ki, hamını narahat edir. İlham Heydər oğlu, bəlkə bu barədə fikrinizi bildirəsiniz?**

**C a v a b:** Mən Vladimir Vladimiroviçin tezislərini tam dəstəkləyirəm. Öz tərəfimdən demək istərdim ki, Azərbaycanda da elektrik enerjisinin istehsalında qaz və hidroresurslardan istifadə edirik. Bu planda biz, həmçinin tullantılar üzrə öhdəliklərimizi də yerinə yetiririk. Mövzu qlobal xarakter daşıyır və əlbəttə, əsas həlledici sözü iqlimin istiləşməsində başlıca töhfə verən ölkələr deməlidir. Bizim ölkəmiz ərazi baxımından kiçikdir və əhalisi də azdır, ona görə də biz qlobal proseslərə ciddi təsir etmirik. Lakin

beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi, öz tərəfimizdən həm ölkəmizdə, həm də Xəzər regionunda ekoloji şəraiti yaxşılaşdırmaq üçün zəruri tədbirlər görürük. Çünki bu təkcə bizə yox, həm də digər sahilyanı ölkələrə və bütövlükdə regiona aiddir.

* * *

*Sonra dövlət başçılarının «Valday» Beynəlxalq Diskussiya Klubunun 16-cı illik iclasının iştirakçıları ilə qeyri-formal görüşü oldu.*

## RUSİYANIN «ROSSİYA-24» VƏ «ROSSİYA-1» TELEVİZİYA KANALLARINA MÜSAHİBƏ

*Soçi*

*3 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Soçi şəhərində «Valday» Beynəlxalq Diskussiya Klubunun iclası ərəfəsində Rusiyanın «Rossiya-24» və «Rossiya-1» televiziya kanallarına müsahibə vermişdir.*

**M ü x b i r:** Salam, cənab Prezident. Aleksey Qolovko, «Vesti» proqramı.

**İ l h a m  Ə l i y e v:** Çox xoşdur.

**S u a l: Bu il «Valday»ın mövzusu «Şərqin şəfəqi»dir, Asiya ölkələrinə xüsusi diqqət yetirilir. Rusiya kimi, Azərbaycan da, demək olar, Avropa ilə Asiyanın qovuşuğunda yerləşir. Siz burada hansı əsas məsələləri qaldırmaq və hansı suallara cavab almaq istərdiniz?**

**C a v a b:** Əvvəla, «Valday» Diskussiya Klubunda iştirak etmək dəvətinə görə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinə minnətdarlığımı bildirmək istərdim. «Valday» klubu özünü dünya gündəliyinin və çox vacib aktual məsələlərin müzakirəsi

üçün diskussiya platformalarından biri kimi göstərib. Əlbəttə, mən bu gün Vladimir Vladimiroviçlə görüşdüm. Biz ikitərəfli münasibətlərimizin çox zəngin olan və xeyli sahələri əhatə edən gündəliyini müzakirə etdik. Buna görə də mən şübhəsiz ki, ikitərəfli gündəliyi, Azərbaycanın rastlaşdığı mühüm problemləri, yeni çağırışları işıqlandırmağı planlaşdırıram. Odur ki, mən bu gün çox maraqlı diskussiyaya ümid bəsləyirəm.

**S u a l: Məlum olduğu kimi, Azərbaycanın Qərb ölkələri ilə yaxşı münasibətləri vardır. Rusiya artıq bir neçə ildir ki, sanksiyalar altındadır. Bu Sizə Rusiya ilə əməkdaşlıq etməyə və bütün bu ikitərəfli layihələri inkişaf etdirməyə mane olmurmu?**

**C a v a b:** Xeyr, qətiyyən mane olmur. Bizim Rusiya ilə münasibətlərimiz hər hansı xarici siyasi gündəlikdən azaddır. Bu münasibətlər zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu həqiqətən də belədir. Çünki biz həm qonşuyuq, həm də mehriban dostlarıq. Son vaxtlar bizim münasibətlərimiz xeyli səmərəli və keyfiyyətli olub. Biz həm beynəlxalq meydanlarda əməkdaşlıq edir, həm də bir-birimizi dəstəkləyirik. Deməliyəm ki, AŞPA-nın iyun sessiyasında Rusiya nümayəndə heyətinin qayıdışı məsələsi həll olunarkən, Azərbaycan nümayəndə heyəti tam tərkibdə Strasburqda Rusiyanın Avropa Şurası Parlament Assambleyasına qayıtmasına səs vermişdi. Biz həmçinin BMT, ATƏT, təbii ki, MDB məkanında sıx qarşılıqlı fəaliyyət göstəririk, çox sıx ticari-iqtisadi münasibətlərimiz mövcuddur. Bu il əmtəə dövriyyəsi 20

faizdən çox artıb. Rusiyadan Azərbaycana, Azərbaycandan Rusiyaya çoxmilyardlı investisiyalar qoyulur. Energetika, nəqliyyat, humanitar, hərbi-texniki və turizm sahələrində əməkdaşlıq edirik. Yəni əməkdaşlıq etmədiyimiz sahələrin adını çəkmək daha asandır. Buna görə, bir daha demək istəyirəm ki, müstəqil xarici siyasət kursu yeridən ölkə kimi, Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir. Prezident Putinlə bugünkü görüş bunu bir daha təsdiq etdi.

**S u a l: Daha bir sual siyasət barədə yox, Sizin alma-mater – tezliklə yubileyi olacaq Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə bağlıdır. Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları arasında ilk Prezidentsiniz. Bu təhsil Sizə hansı əsas keyfiyyətləri verib və bu Sizə indi siyasi fəaliyyətinizdə necə kömək edir?**

**C a v a b:** Bilirsiniz, tələbəlik illəri hər bir insan üçün xüsusi illərdir. Bu, yetkinləşmək, müstəqil həyata qədəm qoymaq illəridir. Məndə bu dövr yaşayış yerimi dəyişərək, Bakıdan Moskvaya köçməklə müşayiət olunub. Deməliyəm ki, valideynlərim məni məktəbə tez, hələ 6 yaşım tamam olmamış göndəriblər. Buna görə də mən orta təhsilimi 16 yaşım tamam olmamış bitirmişəm. Açıq deyəcəyəm, mənim heç pasportum da yox idi. Buna görə də mən Moskvaya ali məktəbə qəbul olunmağa arayışla gəlmişdim. İlk qış sessiyası qabağı isə 16 yaşım tamam oldu və mən pasport aldım. Əlbəttə, bu yeniyetməlik çağıdır. Amma mən institutda özümü çox rahat hiss edirdim. Çünki

şərait çox müsbət idi, həm qrupdakı uşaqlarla, həm də müəllimlərlə çox yaxşı münasibətim yaranmışdı. Həmin illər unudulmazdır. Onlar mənə bilik, ünsiyyət təcrübəsi verib. Bu, ilk müstəqil həyat təcrübəsi idi. Deməliyəm ki, institutu bitirdikdən sonra mən ölkələrdən birində SSRİ səfirliyində işə təyinat alsam da, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qalmağa üstünlük verdim. Aspiranturaya daxil oldum, dissertasiya müdafiə etdim, bundan sonra xeyli illər orada işlədim. Yəni mənim 15 ilim institutla əlaqədar olub. Əlbəttə ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının ilk forumunun mənim təşəbbüsümlə Bakıda keçirilməsini elə bütün bunlar müəyyənləşdirdi. Hətta yadımdadır, o vaxt zarafat etdim ki, başqa cür ola da bilməz, təkcə ona görə yox ki, həmin vaxt mən yeganə Prezident idim, həm də əlifbaya uyğun olaraq istər ölkənin, istərsə də soyadımın ilk hərfinə görə belə olmalı idi – forum Bakıda keçirilməli idi. Çox şadam ki, bu forum artıq ənənəyə çevrilib, məncə artıq 5-ci dəfə keçirilib. Əlbəttə ki, bu hamımızı birləşdirir. İnstitut müəllimlərimi, dostlarımı fərəhlə xatırlayıram və bu yubileydə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna yeni uğurlar arzulayıram. Şadam ki, bu ali məktəbə uzun illərdir mənim mehriban dostum Anatoli Vasilyeviç Torkunov başçılıq edir, institutun inkişafında, dünyanın ən aparıcı ali məktəblərindən biri kimi tanınmasında onun çox böyük xidmətləri vardır.

**S u a l: Sonuncu qısa sual. Prezident Tokayev də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu-**

**nun məzunudur. Bu, Azərbaycan–Qazaxıstan münasibətlərinin inkişafına kömək edirmi?**

**C a v a b:** Şadam ki, mən indi məzun kimi, Prezident olaraq, tək deyiləm. Əlbəttə, biz Kasım-Jomart Kemeleviçlə bir-birimizi lap çoxdan tanıyırıq. Biz həm Qazaxıstanda, həm Azərbaycanda, həm də beynəlxalq tədbirlər çərçivəsində görüşmüşük. Əlbəttə, o, Prezident seçiləndə zəng vurub onu təbrik etdim, hər ikimiz təməli Azərbaycan Prezidenti Heydər Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən qoyulmuş uzun illərin mehriban münasibətlərini daha da inkişaf etdirməyə davam edəcəyimiz barədə fikir mübadiləsi apardıq. Yəni biz bu ənənələri davam etdiririk. Əminəm ki, gələcəkdə də Qazaxıstan və Azərbaycan qarşılıqlı aktiv fəaliyyət göstərəcək.

**M ü x b i r:** Salam. Birinci kanal. Yeri gəlmişkən, mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişəm. Biz müəyyən mənada bu gün Sizinləyik.

**İ l h a m Ə l i y e v:** Neçənci ildə?

**S u a l: 1998-ci ildə, Beynəlxalq Jurnalistika fakültəsini. İlk sualım bu gün burada keçirilən tədbirlə, yəni «Valday» klubu ilə bağlıdır. Mövzu «Şərqin şəfəqi»dir. Yəni şərqin dirçəlişi, şərq istiqamətinin möhkəmləndirilməsidir. Azərbaycan, Rusiya və Rusiya–Azərbaycan münasibətləri bu prosesdə hansı rolu oynayır?**

**C a v a b:** Azərbaycan coğrafi cəhətdən Şərqlə Qərb arasında yerləşir. Buna görə də biz həm Şərq ölkələrini birləşdirən beynəlxalq təşkilatlarda, həm də, məsələn,

Avropa Şurası kimi təşkilatda iştirak edirik. Təbii ki, coğrafiya geosiyasətə təsir edib və edir. Bu gün Azərbaycan özünün coğrafi vəziyyətindən istifadə edir. Hesab edirəm ki, bu gün biz həm humanitar sahədə, həm nəqliyyat sahəsində, həm də bütün digər sahələrdə Şərq və Qərb ölkələri arasında dialoq qurulmasında müəyyən rol oynayırıq. Rusiya dünyanın ən iri ölkəsidir. Buna görə, əlbəttə, təkcə Asiya qitəsində deyil, həm də bütün qlobal dünyada Rusiyanın rolu çox böyükdür. Rusiyanın rolu böyüyür, həm potensialı, həm də gücü artır.

Bizim ikitərəfli münasibətlərimizə gəlincə, bunlar çox müsbətdir, çox yaxşı dinamikaya malikdir, həyatın bütün sahələrini əhatə edir və çox etibarlıdır. Mənim Prezident Vladimir Vladimiroviç Putinlə keçən il 4, bu il 2 şəxsi görüşüm olub. Bu görüşlər ikitərəfli qarşılıqlı fəaliyyətin inkişafına çox ciddi impuls verir və həmçinin bizim regiondakı vəziyyətə müsbət təsir göstərir.

**S u a l: Dünyanın quruluşu, şərqdən baxış. Şərqdən baxdıqda, dünya hansı prinsiplər əsasında qurulmalıdır?**

**C a v a b:** Fikrimcə, biz hansı tərəfdən baxsaq da, əsas prinsip beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunmasıdır. Təəssüf ki, onlar kobud şəkildə pozulur və bu prinsiplərə hörmətin seçim yanaşması mövcuddur. Azərbaycan beynəlxalq hüquq prinsiplərinə riayət olunmamasından zərər çəkən ölkə kimi, o cümlədən ərazilərimizin Ermənistan tərəfindən işğalı ilə əlaqədar, əlbəttə ki, bütün beynəlxalq tədbirlərdə beynəlxalq hüququn zəruriliyinə təkid edir. BMT

Təhlükəsizlik Şurası bəzən qətnamələri bir neçə günə yerinə yetirir, bizə gəldikdə isə qətnamələr 25 ildən artıqdır ki, kağız üzərində qalır. Bununla da bu aparıcı dünyəvi təsisat müəyyən dərəcədə nüfuzdan salınır. Düşünürəm ki, beynəlxalq hüquq dünyadakı vəziyyətin əsas amili olmalıdır. Amma gerçəklik belədir ki, bu, baş vermir. Dünyanın qlobal işlərində Azərbaycan kimi ölkədən çox az şey asılıdır. Buna görə də düşünürəm ki, əsas məsuliyyət dünyanın aparıcı ölkələrinin üzərinə düşür və onlar dünyada sülhün qorunması üçün həmin prinsiplərə riayət etməlidir.

**S u a l: Sizə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu barədə bir sual vermək istərdim. Necə hesab edirsiniz, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu həyatınızda hansı rolu oynayıb? Əgər başqa ali məktəb olsaydı, hər şey başqa cür olardımı?**

**C a v a b:** Bilmirəm, demək çətindir necə olardı. Amma, əlbəttə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu çox mühüm rol oynayıb. Çünki orada aldığım biliklər gələcək işimdə həqiqətən, mənə çox kömək edib. Mən institutdan getdikdən sonra müəyyən mənada peşəmə uyğun olmayan işlə məşğul olurdum. Amma Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda qazandığım biliklər, vərdişlər, o cümlədən xarici dilləri bilməyim artıq Prezident kimi, mənə çox gərəkli oldu.

**M ü x b i r:** Çox sağ olun.

## «VALDAY» BEYNƏLXALQ DİSKUSSİYA KLUBUNUN XVI İLLİK İCLASININ İŞTİRAKÇILARI İLƏ QEYRİ-FORMAL GÖRÜŞDƏ İŞTİRAK

*Soçi*

*3 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Soçidə «Valday» Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşdə iştirak etmişdir.*

*Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev görüşdə çıxış etdilər.*

### Rusiya Prezidenti Vladimir Putinin çıxışı

Hörmətli dostlar, xanımlar və cənablar, həmkarlar!

İcazə verin, sizin hamınızı qeyri-rəsmi şəraitdə bir daha salamlayım. Bu məkanda işə uzun illər boyu maraq göstərdiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Mənim fikrimcə, bu məkan yaxşı, davamlı format kəsb edib və mütəxəssislərin, özü də təkcə mütəxəssislərin yox, həm də, demək olar ki, geniş ictimaiyyətin layiqli hörmətini qazanıbdır. Mənə belə

gəlir ki, bu illər ərzində hətta müəyyən komanda yaranıb. Bu komanda çoxmillətli və sözün yaxşı mənasında, bizim xalqın dediyi kimi, müxtəlif tərkibli, amma hər halda, komandadır.

Mən həmkarlarıma – artıq burada olmayan, lakin o bilir, təşəkkür sözlərimi eşidib – İordaniya Kralına, Prezident Duterteyə, həmçinin burada iştirak edən Qazaxıstan və Azərbaycan prezidentlərinə ayrıca təşəkkürümü bildirmək istəyirəm. Sizin hamınızı salamlamaq üçün məmnuniyyətlə onlara söz verirəm.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Bu gün podiumda əyləşərkən mənə tanış olan çoxlu simaları gördüm və fürsətdən istifadə edib sizə möhkəm cansağlığı, uğurlar, firavanlıq arzu etmək istərdim. «Valday» forumuna dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə bir daha təşəkkür edirəm, ona böyük və səmimi hörmət bəslədiyimi bildirirəm.

Bu forum Rusiyanın hüdudlarından kənarda da məşhurdur. Bu, nüfuzlu diskussiya məkanıdır. Bugünkü iclas mənim fikrimcə uğurlu oldu və əlbəttə, diskussiyanın gedişini Vladimir Vladimiroviç idarə edirdi, sizin suallarınız əsasən ona ünvanlanmışdı. Lakin biz də imkan daxilində öz töhfəmizi verdik. Zənnimcə, belə diskussiyalar davam etməlidir, çünki onlar

müasir dünyada baş verənləri anlamaq üçün çox faydalıdır. Sağ olun.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

«Valday» forumuna dəvətə görə mən də Vladimir Vladimiroviçə təşəkkür etmək istərdim. Bu forumun işində iştirak etmək böyük şərəfdir. Mən artıq demişəm ki, forum aktual məsələlərin müzakirəsi üçün ən mühüm beynəlxalq məkanlardan biridir. Bugünkü mövzu Şərqə həsr edilmişdir. Lakin təbii ki, biz bu mövzunun çərçivəsindən kənara çıxdıq. Mənə belə gəlir ki, bu gün həqiqətən, çox maraqlı, səmimi diskussiya keçdi, panelin hər bir iştirakçısı öz fikrini sərbəst ifadə edə bildi. Siz də qeyd etdiyiniz kimi, bizim fikirlərimiz çox cəhətdən üst-üstə düşdü.

Zənnimcə, bugünkü panel tərəfdaşların, dostların, həmfikirlərin paneli idi. Bugünkü panelə verdiyi töhfəyə görə Vladimir Vladimiroviçə xüsusi təşəkkür edirəm, işin əsas ağırlığı onun üzərinə düşdü. Biz də bacardığımız qədər kömək edirdik. Bir daha sağ olun. Hamınıza firavanlıq diləyirəm.

Yeri gəlmişkən, demək istərdim ki, zalda da çoxlu köhnə dostlarımı, o cümlədən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunlarını gördüm. Vladimir Vladimiroviç, ürəyinizdə arzu tuta bilərsiniz – Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun iki məzunu arasında əyləşmisiniz.

**V l a d i m i r P u t i n:** Mənim arzum budur ki, bizim işimizin nəticələri real siyasətdə əməli fayda ver-

sin, bizim diskussiyalar dünyanın ən mühüm problemlərinin həllinə, müxtəlif ölkələrin yanaşmalarında onların mövqelərini daha yaxşı anlamağa kömək etsin. Bu problemlərin həllində isə biz hamımız maraqlıyıq.

İcazə verin, bu yolda bizə uğurlar arzulayım. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri oktyabrın 4-də başa çatdı.*

## QROSSMEYSTER TEYMUR RƏCƏBOVA

Əziz Teymur!

Xantı-Mansiysk şəhərində keçirilmiş dünya kuboku uğrunda yarışlarda qələbə qazanmağın münasibətilə səni ürəkdən təbrik edirəm.

Sən yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək, qazandığın bu qələbə ilə dünya kubokunun sahibi olan ilk şahmatçımız kimi, Azərbaycan idmanının tarixində şanlı səhifə açdın.

Sənə ən xoş arzularımı yetirir, yeni-yeni qələbələr diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2019-cu il*

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ BAĞDAD AMREYEV İLƏ GÖRÜŞ

*7 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Sizi mühüm hadisə – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının növbəti sammiti ərəfəsində yenidən görməyimə şadam. Bu, mühüm hadisəyə hazırlığın son ştrixlərini müzakirə etmək üçün yaxşı imkandır. Biz çox fəal hazırlaşırıq. Əminəm ki, sammit yüksək səviyyədə keçəcək, bizim dövlətlərin əməkdaşlığı işində yeni mərhələlərə nail olacağıq. Son illərdə əməkdaşlığımızın coğrafiyası genişlənir. Bizim üçün çox xoşdur ki, qardaş dövlətlər təşəbbüslərimizə qoşulur. İndiki sammit yubiley sammiti olacaq. Azərbaycanın qədim şəhəri olan Naxçıvanda 10 il əvvəl biz Əməkdaşlıq Şurasının yaradılması ilə bağlı qərar qəbul etdik. Mən bu mühüm qərara gətirib çıxaran bütün məqamları təfərrüatı ilə xatırlayıram. Siz bilirsiniz ki, Azərbaycan qardaş dövlətlərin başçılarını ilk dəfə deyil ki, qəbul edir. Buna görə də əminəm ki, həm

təşkilati tərəfi, həm də məzmun cəhəti yüksək səviyyədə olacaqdır. Bu mühüm tədbir ərəfəsində biz sizinlə sammitə hazırlıqla bağlı son məqamları müzakirə etməliyik ki, tədbir uğurla keçsin və bizim ölkələri daha da sıx birləşdirsin.

**Bağdad Amreyev** (*Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi*): Bizi qəbul etdiyinizə görə sağ olun, cənab Prezident. Doğrudan da sammit artıq yaxınlaşmaqdadır. Həqiqətən də indi görülən işlər və sammitə qədər nələri edə biləcəyimizi Sizə bildirməyimə böyük ehtiyacım vardır. İlk növbədə, demək istərdim ki, Azərbaycan, ümumiyyətlə, türk birliyi prosesində xüsusi yer tutur. Məhz Azərbaycan torpağında – Naxçıvanda razılaşma imzalanıb. Məhz Azərbaycan torpağında – Bakıda siz yubiley sammitini qəbul edirsiniz. Artıq 10 ildir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası fəaliyyət göstərir. Həmin 10 il bir növ təşəkkül dövrü olub. İndi bu dövrü Sizin siyasi iradəniz, türk birliyinin formalaşması üzrə verdiyiniz mühüm qərarlar sayəsində başa çatdırmışıq. Biz təşəkkül, təsisat dövrünü başa vurmuşuq. İndi isə yeni mərhələyə – artıq böyük inteqrasiya mərhələsinə keçirik.

# BAKININ QARADAĞ RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ «QOBU PARK-2» YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*8 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 8-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış «Qobu Park-2» yaşayış kompleksinin açılışında iştirak etmişlər.*

*Qeyd edək ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının uğurlu icrasını hər bir vətəndaş öz həyatında hiss edir. Bu baxımdan qaçqın və məcburi köçkünlərə göstərilən xüsusi qayğı da böyük əhəmiyyət daşıyır. Ulu öndər Heydər Əliyev bu qəbildən olan insanlara daim diqqət və qayğı ilə yanaşıb, onların sosial müdafiəsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görübdür. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva da fəaliyyətlərində qaçqın və məcburi köçkünlərə diqqət və qayğını davam etdirirlər. 2003-cü ildən bu günədək Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalayıb, bir çox proqramlar qəbul edilibdir. Dövlət səviyyəsində bu istiqamətdə atılmış addımlarla yanaşı, Heydər Əliyev Fondu da*

*fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirir.*

*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və «Paşa Holdinq» şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya kompleksdə yaradılmış şərait barədə məlumat verdilər.*

*Bildirildi ki, təməli ötən ilin sentyabrında qoyulmuş bu kompleksdə ümumilikdə onmərtəbəli 13 bina ilə yanaşı, məktəb, uşaq bağçası, poliklinika, gimnastika, güləş və trenajor zalları, Şahmat Mərkəzi, market, iaşə obyektləri yaradılıb. Ərazidə eyni zamanda, istirahət parkı, uşaq əyləncə meydançası, eləcə də, 3 idman meydançası inşa olunub. Bir sözlə, burada sakinlərin sosial məsələlərinin həlli üçün hərtərəfli infrastruktur qurulubdur.*

*Kompleksin ərazisində inşa olunmuş məktəb binası ilə tanışlıq zamanı qeyd olundu ki, təhsil ocağı 780 şagird-yerlikdir. Bütün zəruri avadanlıqlarla təchiz edilmiş binada şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli şərait yaradılıbdır.*

*Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə təhsilin inkişafı istiqamətində atılmış addımlardan doğma yurdlarından didərgin düşən soydaşlarımız da yüksək səviyyədə bəhrələnirlər. İndiyədək istifadəyə verilmiş belə şəhərciklərdə məcburi köçkün uşaqların təhsilini normal təmin etmək üçün müasir məktəblər yaradılıb. Bütün bunlar ümumilikdə ölkədə təhsilin yüksək səviyyədə olmasına*

*xidmət edir, bu sahənin maddi-texniki bazasını möhkəmləndirir.*

*«Qobu Park-2» yaşayış kompleksinin ərazisində uşaq bağçası da fəaliyyət göstərəcək. Bağça ilə tanışlıq zamanı Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, 220 yerlik uşaq bağçası da lazımi inventarlarla təchiz olunub. Burada balacaların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün bütün imkanlar vardır. Bu bağçanın timsalında da aydın görmək olur ki, gələcəyimiz olan körpələrin sağlam və bilikli böyüməsi üçün dövlət səviyyəsində olduqca əhəmiyyətli layihələr icra olunur. Ölkəmizdə müasir səviyyədə uşaq bağçaları, körpələr evlərinin yaradılmasında Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin də mühüm əhəmiyyəti vardır.*

*Sonra yaşayış komplekslərinin maketləri ilə tanışlıq oldu. Bildirildi ki, təməli ötən ilin sentyabrında qoyulmuş «Qobu Park-2» yaşayış kompleksi məcburi köçkünlər üçün salınmış 106-cı qəsəbədir. Sifarişçisi «Paşa Holdinq», podratçısı isə «Kristal Abşeron» MTK olan yeni qəsəbə ötən il Lökbatanda istifadəyə verilmiş «Qobu Park-1» yaşayış kompleksinin yanında inşa edilib. Hazırda «Qobu Park-3» yaşayış kompleksinin tikinti işləri sürətlə davam etdirilir. Bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Qobu Park-2» yaşayış kompleksində mənzillərdə yara-*

*dılmış şəraitlə tanış oldular. Qeyd olundu ki, kompleksdə bir, iki, üç və dördotaqlı olmaqla, ümumilikdə 1300 mənzil vardır. Bütün mənzillər zəruri inventarlarla təchiz edilibdir.*

*Sonra dövlət başçısı və xanımı Xocalı rayonundan olan məcburi köçkün, şəhid ailəsi Fəridə Cabbarovanın mənzilində oldular. Bildirildi ki, dördotaqlı mənzil bütün mebellərlə təchiz olunubdur.*

*Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəridə Cabbarovanın ailə üzvləri ilə görüşüb söhbət etdilər.*

**İ l h a m  Ə l i y e v:** Bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Siz yeni mənzilə köçürsünüz. Bu münasibətlə sizi və digər bacı-qardaşlarımızı təbrik edirəm. Bu 2 yaşayış kompleksinin istifadəyə verilməsi çox gözəl, əlamətdar hadisədir. Burada 1300 köçkün ailəsi ən müasir şəraitdə yaşayacaq. Burada gözəl binalar tikilib, infrastruktur yaradılıb, bütün təchizat təşkil olunub – qaz, su, işıq, istilik, gözəl həyət. Ona görə bu kompleksin istifadəyə verilməsi ölkə miqyaslı bir hadisədir.

«Qobu-1» yaşayış kompleksi keçən il istifadəyə verilib və biz açılışda iştirak etmişik. Orada artıq 1000-dən çox ailə yaşayır, burada isə 1300 ailə və «Qobu-3» yaşayış kompleksində də 1300 ailə yaşayacaqdır. Beləliklə, 4000-ə yaxın ailə bu gözəl şəraitlə təmin olunub. Məktəblər, uşaq bağçaları, ticarət mərkəzi, tibb məntəqəsi – yaşayış üçün bütün lazımi şərait yaradılıb. Bu qəsəbəyə gözəl yollar da çəkilib, ona görə nəqliyyat problemləri də olmayacaq. Bu bir daha

göstərir ki, Azərbaycan dövləti ağır vəziyyətdə yaşayan vətəndaşların problemlərinin həllində çox böyük addımlar atır. Bildiyiniz kimi, yüz minlərlə köçkün ailəsi evlərlə təmin edilib, 100-dən çox şəhərcik salınıbdır. Çadır şəhərciklərinin ləğv edilməsi prosesi 2007-ci ildə başa çatıb və hazırda köçkünlərin yaşayışı üçün çox gözəl şərait yaradılıbdır. Eyni zamanda, hələ də ağır vəziyyətdə yaşayan soydaşlarımız var – yataqxanalarda, məktəblərdə, uyğun olmayan binalarda – onların da problemləri həll olunacaq. Hər il Azərbaycanda minimum 6000 köçkün ailəsi evlərlə təmin olunacaq. Orta hesabla hər ailədə 5 nəfər vardır, beləliklə, hər il 30 min insan üçün biz yeni evlər, mənzillər tikib təhvil veririk. Yəni bu əslində bir şəhərdir. İndi Qobu qəsəbəsində yeni bir şəhər yaradılıb. Bütün infrastruktur vardır. Təsadüfi deyil ki, beynəlxalq təşkilatlar, o cümlədən BMT Azərbaycanda məcburi köçkünlərə göstərilən qayğı və diqqətin səviyyəsini çox yüksək qiymətləndirir, bir çox ölkələr üçün Azərbaycanda bu sahədə aparılan siyasət bir nümunə kimi göstərilir. Bildiyiniz kimi, bu il məcburi köçkünlərə dövlət tərəfindən ayrılmış müavinətin həcmi də 50 faiz artıbdır. Hər bir köçkünə bu məbləğ verilir, baxmayaraq ki, o, işlə təmin olunub, ya təmin olunmayıb. Bu da bizim sosial siyasətimizin nəticəsidir. Biz bundan sonra da ardıcıl olaraq bu siyasəti aparacağıq, hələ də ağır vəziyyətdə yaşayan soydaşlarımızın yaşayış problemlərini həll edəcəyik.

Ancaq əsas məsələ bu gün hələ də işğal altında olan torpaqları azad etdikdən sonra orada yeni binaların, kəndlərin, şəhərlərin salınmasıdır. Bunu da biz edəcəyik, necə ki, vaxtilə işğal altında olmuş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisində yerləşən Şıxarx qəsəbəsində bu gün gözəl bir şəhərcik salınıb. Orada da 1000-dən çox ailə məskunlaşıb. Aprel döyüşləri nəticəsində azad edilmiş torpaqlarda yeni qəsəbə salınıb – Cocuq Mərcanlı qəsəbəsi, hansı ki, bu gün Azərbaycan xalqının əyilməz ruhunun, iradəsinin təcəssümüdür. Evlərlə təmin edilmiş soydaşlarımız – onların bir çoxu uzun illər Biləsuvarda salınmış köçkün şəhərciyində yaşayıb – böyük həvəslə öz doğma torpaqlarına qayıdıblar. Bu gün orada həyat qaynayır, əkin-biçin prosesi gedir, abadlıq işləri aparılır, iş yerləri yaradılır.

Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən tanınır və biz ardıcıl olaraq bu istiqamətdə öz siyasətimizi aparırıq. Ərazi bütövlüyümüzlə bağlı heç bir kompromisdən söhbət gedə bilməz. Bu, danışıqlar mövzusu deyil və olmayacaqdır. Daha da güclü olmalıyıq və güclənirik. Həm iqtisadi gücümüz artır, eyni zamanda, vətəndaşlarımızın əyilməz iradəsi, öz yurdundan didərgin salınmış soydaşlarımızın əzmi torpaqlarımızın azad olunacağı günü yaxınlaşdırır.

Bu gözəl yaşayış yerini özəl sektor inşa edib. Bu da bir yenilikdir. Çünki bu günə qədər 100-dən çox şəhərciyi Dövlət Neft Fondunun xətti ilə tikmişik. Mən çağırış etmişdim ki, Azərbaycanda böyük şirkətlər

sosial məsuliyyət daşımalıdır. Demişdim ki, imkanlı sahibkarlar ağır vəziyyətdə yaşayanlara əl uzatmalıdırlar və şadam ki, mənim çağırışıma özəl qurumlar müsbət reaksiya verib. «Qobu-1», «Qobu-2» və bu gün tikilməkdə olan «Qobu-3» yaşayış kompleksləri 100 faiz özəl sektorun hesabına salınıbdır. Mən bu fürsətdən istifadə edərək, bütün Azərbaycan şirkətlərinə – kimin böyük imkanı var, kimin o qədər də böyük imkanı yoxdur – deyirəm ki, həmrəylik göstərməli, sosial məsuliyyət daşımalıdırlar. Bizim cəmiyyətimizdə qeyri-bərabərlik, təbəqələşmə, yoxsullar olmamalıdır. Yoxsulluqla bağlı mübarizə indi görün nə qədər gözəl nəticə verir. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bunu qeyd edir. Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir, o da olmamalıdır. Amma biz bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsi 10–15 faizdir. Yəni bu sadəcə olaraq, necə deyərlər, müqayisə üçün səsləndirilən rəqəmdir.

Özəl sektor daha da məsuliyyətli olmalıdır. Dövlət bu qədər kömək göstərir, kreditlər verir, şərait yaradır, infrastruktur layihələrini icra edir. Ona görə özəl sektor da gərək bu işlərə qoşulsun, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət etsin ki, mən də istəyirəm köçkünlərə bir, beş, yüz mənzil verim. Bu olmalıdır. Əminəm ki, bu sözlərimdən sonra Dövlətqaçqınkoma ediləcək müraciətlərin sayı çox olacaq. Sizi bir daha təbrik edirəm.

**Elxan Qasımov:** Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Siz bu günə qədər harada yaşayırdınız?

**E l x a n Q a s ı m o v:** Lökbatan qəsəbəsində.

**İ l h a m Ə l i y e v:** Kirayədə?

**E l x a n Q a s ı m o v:** Xeyr, müvəqqəti verilmiş fin evlərdə.

**İ l h a m Ə l i y e v:** O evlər nə vaxt tikilmişdi – bəlkə də 50–60 il bundan əvvəl. Onlar indi sökülüb?

**R ö v ş ə n R z a y e v:** Bəli, qamış evlərdə yaşayanların hamısı «Qobu Park-1»ə köçürülüb. Mən məruzə etmişdim. Mehriban xanımın tapşırığı var idi, ən çətin vəziyyətdə – zirzəmilərdə, qamış evlərdə yaşayanların hamısı son nəfərə qədər köçürüldü və indi «Qobu Park-1»də yaşayırlar.

**İ l h a m Ə l i y e v:** Bu problemi mən çoxdan bilirəm. Çünki mən ilk dəfə Qaradağ rayonundan deputat seçilmişdim. Hələ o vaxt mənim təşəbbüsümlə «Ümid» qəsəbəsi salındı. Mən o vaxt millət vəkili idim. «Ümid» qəsəbəsində təqribən, 300 mənzil inşa etmişdik. Sonra növbəti mərhələdə qəsəbə daha da genişləndi.

**R ö v ş ə n R z a y e v:** İndi orada 500 mənzil vardır.

**İ l h a m Ə l i y e v:** Eyni zamanda, Lökbatan qəsəbəsində mənim təşəbbüsümlə bir beşmərtəbəli bina da tikilmişdi və o binanın açılışına ulu öndər Heydər Əliyev də gəlmişdi. O vaxt bu, bir yenilik idi. Çünki dövlətin o qədər də böyük vəsaiti yox idi. Ona görə o vaxt mən təşəbbüs göstərmişdim, bu təşəbbüsə qoşulanlar da oldu, bu addımları atdıq. Yadımdadır, o qamış evlər həmişə narahatlıq yaradırdı. Çünki onlar vaxtilə

müvəqqəti tikilmişdi və yaşamaq üçün tamamilə yararsız idi.

**R ö v ş ə n  R z a y e v:** Mehriban xanımın tapşırığı ilə mən orada olmuşdum və bütün şəkilləri təqdim etmişdim. İndi onlar «Qobu Park-1»də yaşayırlar və hər zaman təşəkkürlərini bildirirlər.

**F ə r i d ə  C a b b a r o v a:** Cənab Prezident, Sizi xoş gördük. Siz bilirsiniz ki, bütün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, məcburi köçkünlər, ümumiyyətlə, bütün Azərbaycan vətəndaşları Sizi çox istəyir, Sizin fəaliyyətinizə çox böyük dəyər verirlər. Mən yuxumda belə, görməzdim ki, Sizinlə, Mehriban xanımla görüşərəm, bir süfrə arxasında əyləşərəm. Bu gün mənim üçün ikiqat bayramdır ki, həm bizə ev verilib, həm də Sizinlə – Ali Baş Komandanımızla bir çay süfrəsi arxasında əyləşmişik. Sizə böyük təşəkkür edirik.

Siz bizim qürur yerimizsiniz. Sizin cəsarətiniz danılmazdır. Bu yaxınlarda beynəlxalq tədbirdə Dağlıq Qarabağ haqqında cəsarətlə dediyiniz sözlərə görə Sizinlə fəxr edirik. Qürur duyuruq ki, bizim arxamızda Sizin kimi dəyərli Vətən oğlumuz, qardaşımız vardır.

Sizə bütün qaçqınlar, məcburi köçkünlər, şəhid ailələri adından böyük təşəkkür edirəm. Sizin diqqətiniz daim şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin üzərindədir. Bunu heç kim dana bilməz. Bunu danmaq üçün gərək kar, kor olasan ki, bu gözəllikləri, bu diqqəti hiss etməyəsən.

Özüm haqqında deyim ki, biz əslən laçınlıyıq. Faciədən 9 ay öncə Xocalı şəhərinə köçmüşdük. Yoldaşım təhsilli idi, o vaxt Xocalı gözəlləşir demişdilər,

ora iş üçün getmişdi. Bir aydan sonra dedi ki, mən utanaram xocalılılardan ki, burada vəzifə axtarım. Mən hərbçi olacağam. Həmin gün Xocalı özünümüdafiə batalyonuna yazıldı və son damla qanına qədər döyüşdü. Övladlarımız Nicat 9 aylıq idi, Fuad isə 2 yaşında. Yoldaşım dedi ki, Fəridə, səni qohumlarım çıxaracaq. Mən arxada döyüş yoldaşlarımın üzünə baxa bilmərəm, bir kişi kimi, başımı qaldıra bilmərəm.

O gündən də Vətəni üçün getdi, heç məzarı da yoxdur. Övladlarım atalarına layiq böyüdülər, təhsil alıb, hərbi xidmətlərini kişi kimi başa vurub, çavuş rütbəsi ilə gəldilər. Hər ikisinə təhsil vermişəm, Fuad ixtisasca qarmon müəllimidir, Nicat universitet bitirib. Aprel döyüşlərində mən gecə saat 4-də bildim ki, hər iki övladım eyni döyüş bölgəsindədir. Mənə demədən bir-birinə məsləhət ediblər. Fuad deyib, Nicat, sən subaysan, sən getmə, anamı, ailəmi saxla, mən gedim. Nicat da deyib ki, yox, Fuad, sən anaya, ailə-uşağa bax, mən gedim. Yəni mən fəxr edirəm ki, onları atalarına layiq böyüdə bilmişəm. Nəinki mənim oğlanlarım, şükür Allaha ki, bütün şəhid övladları layiqli, vətənpərvər oğullardırlar. İnşallah, torpaqlarımız sülh yolu ilə alınsın, amma belə olmasa, onların hər biri Sizin əmrinizlə torpaqlarımızı azad etməyə hazırdır.

Çox sevindim. Bugünkü sevincimi bəlkə də 27 ildə yaşamamışdım. Bəlkə də gözlərim sevincdən bu günə qədər belə dolmamışdı. Allah Sizdən razı olsun.

**İlham Əliyev:** Çox sağ olun. Gözəl övladlar böyütmüsünüz, onlar Vətən uğrunda vuruşmağa hər an

hazırdırlar. Azərbaycan gənclərinin mütləq əksəriyyəti vətənpərvərlik ruhunda tərbiyə alır, Vətənə bağlıdır və Vətən üçün hər bir addım atmağa hazırdırlar.

O ki qaldı şəhid ailələrinin sosial müdafiəsinə, bu daim diqqət mərkəzindədir. Şəhid ailələri üçün həm maddi təminat təşkil edilib, eyni zamanda da onlara mənzillər verilir. Minlərlə şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin edilib. Qarabağ döyüşlərində fiziki imkanlarını itirmiş soydaşlarımıza bu il 600 avtomobil, ümumilikdə son illərdə isə minlərlə avtomobil verilibdir. Mən deyə bilərəm ki, Azərbaycanda bu kateqoriyadan olan insanlara dövlət tərəfindən göstərilən qayğı doğrudan da bir örnəkdir. Çünki bu gün biz də, siz də bütün dünyada gedən prosesləri izləyirik, görürük ki, müxtəlif ölkələrdə qaçqınlar böhranı yaşanır, o cümlədən Avropada və o qaçqınlar hansı vəziyyətdə yaşayırlar. Onların bir çoxu dənizdə batır, bir çoxu isə elə bil ki, xüsusi qəfəs içində saxlanılır. Onlara qeyri-insani münasibət göstərilir, şəxsiyyəti alçaldılır və bir çoxları tamamilə yararsız yerlərdə yaşayırlar. Televizorda bunu görürük. Mən 2003-cü ildə bəyan etmişdim ki, Prezident seçilərəmsə, ilk növbədə, qaçqın şəhərciklərini ləğv edəcəyəm. Çünki tamamilə bizə yaraşmayan bir mənzərə idi. Düzdür, o vaxta qədər bizim maddi imkanlarımız yox idi ki, bunu edək. Ona görə də bu şəhərciklər 2007-ci ildə ləğv edildi, bir dənə də qalmadı. Ondan sonra keçdik yataqxanalara, məktəblərə, uyğunsuz binalarda yaşayan soydaşlarımızın problemlərinin həllinə. İndi hər il bu məqsədlə ancaq tikinti üçün yüz milyonlarla manat ayrılır. Bu istiqamətdə işlər

bundan sonra da davam etdiriləcək. Biz hamımız əminik ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bizim gücümüz də artır, əhalimiz də artır. Bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib. İllər keçəcək, əhalimiz daha da artacaq, gücümüz daha da artacaq və istədiyimizə nail olacağıq.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı cəmiyyətdə vahid yanaşma vardır. Bizim haqq işimizi mən bütün kürsülərdə arqumentlərlə, tarixi faktlarla, reallıqlarla, beynəlxalq hüquq əsasında müdafiə edirəm və bu arqumentlərə qarşı hər hansı bir irad tutmaq qeyri-mümkündür. Çünki mən həqiqəti deyirəm və bunu elə kürsülərdən deyirəm ki, bütün dünya eşitsin. Ermənistanın baş naziri Xankəndidə yığılmış bir neçə adamın qarşısında o cəfəng sözləri demişdir. Mən başqa bir beynəlxalq tədbirdə ona cavab verə bilərdim. Amma o tədbirin auditoriyası tutaq ki, 1000 nəfər, 2000 nəfər olardı. Mən onu elə bir yerdə dedim ki, hər kəs eşitsin – canlı efirdə, Rusiyada, mötəbər «Valday» klubunun panelində dedim və bunu bütün dünya eşitdi. Yəni əgər işlər məhz təmkinlə, ağılla qurulursa, zərbələr də dəqiq olur. Elə zərbə vuruldu ki, o zərbədən çətin ki, ayılsınlar. Çünki kontrarqument yoxdur, ancaq yalan-palan danışmaqla düzəlmir. Əvvəllər – münaqişə ilə bağlı məlumat olmayan dövrdə, əlbəttə, bütün yalanları yayırdılar. Hər bir ölkədə onların diaspor təşkilatları var idi, bizim isə heç nəyimiz yox idi. Ona görə onlar münaqişə ilə bağlı təhrif edilmiş faktları ortaya qoymuşlar və bir çox hallarda nail olmuşlar ki, onlara inansınlar. Bu gün biz informasiya dövründə, internet dövründə

yaşayırıq. Həqiqət var və bunu mən çatdırmışam. Hər kəs bilir ki, aranlı-dağlı Qarabağ beynəlxalq hüquq tərəfindən tanınmış əzəli Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır və nida işarəsi, vəssalam!

**Fəridə Cabbarova:** Mən bir şeyi də qeyd edim ki, Sizin şəhid ailələrinə birdəfəlik 11000 manat yardımınız, demək olar, subay olan bir çox şəhid övladlarına dəstək oldu. İnşallah, bu yaxınlarda mən Nicata toy etmək istəyirəm. Arzu edərdim ki, Siz Nicatın toyunda iştirak edib, xeyir-dua verəsiniz.

**İlham Əliyev:** Təbrik edirəm bəri başdan. Allah xoşbəxt eləsin!

**Mehriban Əliyeva:** Artıq bilirsiniz nə zaman olacaq?

**İlham Əliyev:** Tarixi məlumdur?

**Fəridə Cabbarova:** Bəli, deyərik.

**İlham Əliyev:** Mehriban xanıma deyərsiniz, məmnuniyyətlə gələrik.

**Mehriban Əliyeva**: Böyük məmnuniyyətlə gəlib iştirak edərəm.

**İlham Əliyev:** Bilirsiniz ki, Mehriban xanım da bu məsələ ilə çox ciddi məşğuldur. Onun yeni fəaliyyət dövründəki ilk tədbiri məhz məcburi köçkünlərin problemlərinə həsr edilmişdir. Bu məsələni daim diqqətdə saxlayır və bu şəhərciklərin ərsəyə gəlməsində də onun böyük əməyi vardır.

**Fəridə Cabbarova:** Bəli, bilirik. Mehriban xanım keçən dəfə də buraya gəlmişdi. Çox sağ olsun, Mehriban xanımın da gördüyü işlər danılmazdır. Hər ikinizə minnətdarıq, Allah sizləri Azərbaycana çox

görməsin. Həmişə sizi bir yerdə görək, ölkəmizin başında olasınız və xalqımız sizinlə daim fəxr etsin, qürurlansın.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

**E l x a n  Q a s ı m o v:** Yeni evimizdə ilk qonaq Siz olduğunuz üçün çox sağ olun. Sizin sözləriniz bizə ruh verir. Biz Sizin rəhbərliyinizlə Qarabağı azad edəcəyik, səhhətimdə problem olsa da, Sizin hər bir əmrinizə hazıram. Sağ olun.

# İSVEÇRƏ KONFEDERASİYASI KANTONLAR ŞURASININ SƏDRİ JAN-RENE FURNİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz! Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, səfəriniz İsveçrə–Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün önəmli addım olacaqdır.

Bildiyiniz kimi, bizim əlaqələrimiz uğurla inkişaf edir, bir çox sahələri əhatə edir. İlk növbədə, siyasi əlaqələr haqqında demək istərdim. Son 10 il ərzində hər il İsveçrə və Azərbaycan prezidentləri görüşür və ikitərəfli əməkdaşlıq haqqında fikir mübadiləsi aparırlar. Davos Dünya İqtisadi Forumunun burada, əlbəttə ki, xüsusi rolu vardır. Çünki bu görüşlər Forum çərçivəsində baş verir və bu il də istisna olmamışdır. Bu ilin yanvar ayında İsveçrə Prezidenti

ilə görüşümü xatırlayıram. İkitərəfli əlaqələrimizin müxtəlif aspektləri geniş müzakirə edildi və əlaqələrimizə yeni təkan verildi. Eyni zamanda, dövlət səfərləri də təşkil edilibdir. Mən İsveçrədə dövlət səfərində olmuşam və İsveçrə prezidentləri də Azərbaycanda dövlət səfərlərində olublar.

Şadam ki, əlaqələrimiz təkcə siyasi dialoqla məhdudlaşmır, iqtisadi sahədə və sərmayə qoyuluşu sahəsində də yaxşı nəticələr vardır. İsveçrə şirkəti «Holcim» Azərbaycana yüz milyonlarla ölçülən sərmayə qoyubdur. Həmçinin Azərbaycan şirkətləri də ölkənizə sərmayə qoyur və bu proses qarşılıqlı xarakter daşıyır. Beynəlxalq maliyyə qurumları çərçivəsində də əməkdaşlığımızın xüsusi mənası vardır.

Əlbəttə, münasibətlərimizin ümumi kontekstində parlamentlərarası əlaqələr də önəmli yer tutur və əminəm ki, bu əlaqələrin inkişafı ilə əlaqədar sizin səfəriniz çərçivəsində növbəti addımlar atılacaqdır.

Bir daha sizi salamlayıram və «Xoş gəlmisiniz!» – deyirəm.

**Jan-Rene Furniye:** Çox sağ olun, cənab Prezident. Əvvəla, biz Sizə minnətdarıq ki, bizi və nümayəndə heyətimizi səmimiyyətlə qəbul edirsiniz. Əlbəttə ki, bu gün səhər-səhər Sizin tərəfinizdən qəbul olunmaqdan böyük şərəf hissi duyuruq. Həmçinin hesab edirik ki, bu, aramızda olan əməkdaşlığı dərinləşdirmək üçün yaxşı fürsətdir. Mənim səfərimin digər məqsədi bizim Azərbaycan parlamenti ilə olan əlaqələrimizin daha da təkmilləşdirilməsi və gücləndirilməsindən ibarətdir.

Əslində hesab edirik ki, bu həmçinin iki xalq arasında da böyük bir yaxınlaşmanın əlamətidir. Çünki bilirik ki, hazırda Azərbaycan öz Dövlət Neft Şirkəti vasitəsilə biz isveçrəlilərin gündəlik həyatında daha yaxından iştirak etməyə başlayıbdır.

* * *

*Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan artıq soydaşımızın qaçqın və köçkün vəziyyətinə düşdüyünü, dövlətimizin qaçqın və köçkünlərin sosial problemlərinin həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirdiyini qeyd etdi.*

*İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniye Azərbaycana səfərindən məmnunluğunu və ölkəmizdə inkişaf etmiş infrastrukturun şahidi olduğunu bildirdi.*

*Görüşdə Azərbaycanla İsveçrə arasında müxtəlif sahələrdə əməkdaşlıq, o cümlədən beynəlxalq təşkilatlar, beynəlxalq maliyyə təsisatları çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, dövlət idarəçiliyinin müxtəlif sahələri üzrə təcrübə mübadiləsi aparılmasının vacibliyi qeyd olundu.*

## BAKIDA RUS KİTAB EVİNİN 10 İLLİYİ MÜNASİBƏTİLƏ ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Bakıda Rus Kitab Evinin 10 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Rusiya nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi yenidən görməyimə şadam.

**Leonid Kalaşnikov** (*Rusiya Dövlət Dumasının MDB, Avrasiya İnteqrasiyası İşləri üzrə və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri*): Buraya gələndə elə bil öz evimizə gəlirik.

**İlham Əliyev:** Düzdür, belə də olmalıdır. Mən sizi görməyimə çox şadam. Siz bizə çox əlamətdar vaxtda gəlmisiniz. Mənim Rusiyaya səfərim yenicə başa çatıb. Tezliklə də MDB Sammiti başlayacaqdır.

**Leonid Kalaşnikov:** İlham Heydər oğlu, Sizin səfəriniz Rusiyada çox böyük effekt doğurdu. Sizə açığını deyim ki, çox səmimi görüş oldu.

**İlham Əliyev:** Heç kəs üçün sirr deyil ki, mənim Vladimir Vladimiroviçlə əslində qarşılıqlı hörmətə, qarşılıqlı anlaşmaya və əməkdaşlığı dərinləşdirmək cəhdlərinə əsaslanan, mötəbər, deyərdim ki,

dost münasibətlərimiz mövcuddur. Əlbəttə, «Valday» forumuna dəvət olunmaq mənim üçün böyük şərəfdir. Forum özü də əhəmiyyətlidir, kimin dəvət etməsi də mühümdür. Vladimir Vladimiroviç məni hələ apreldə, bizim Pekində görüşümüz vaxtı dəvət etmişdi. Onda biz çox konstruktiv danışıqlar apardıq və Soçidə bir növ bu danışıqlarımıza yekun vurduq. Nə barədə razılaşırıqsa hamısı yerinə yetirilir. Əlbəttə, Prezidentlə görüş çox məzmunlu, səmimi keçdi. Mən buna çox şadam.

*Rusiya Dövlət Dumasının komitə sədri Leonid Kalaşnikov Prezident İlham Əliyevin «Valday» Beynəlxalq Diskussiya Klubundakı çıxışının diqqətlə izlənildiyini və bu çıxışın böyük təəssürat doğurduğunu diqqətə çatdırdı. O bu səfər çərçivəsində Azərbaycanda fəaliyyət göstərən Rus Kitab Evinin 10 illiyinin qeyd olunacağını bildirdi və bu Kitab evinin fəaliyyətinə göstərilən dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə etdi. Qonaq, həmçinin Azərbaycanda dövlət səviyyəsində rus dilinə olan qayğının nümunəvi xarakter daşıdığını qeyd etdi. Azərbaycanda 350-dən artıq orta məktəbdə tədrisin rus dilində aparıldığını və ali təhsil müəssisələrində rus bölmələrinin fəaliyyət göstərdiyini məmnunluqla vurğuladı.*

*Leonid Kalaşnikov, həmçinin Azərbaycan və Rusiya parlamentləri arasında çox sıx əlaqələrin olduğunu qeyd etdi və Rusiyanın Avropa Şurası Parlament Assambleyasında üzvlüyünün bərpasında Azərbaycan nümayəndə heyətinin göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi.*

*Görüşdə Rusiya və Azərbaycan arasında elm, təhsil və digər humanitar sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ GEORGİ QAXARİA İLƏ GÖRÜŞ

*9 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Gürcüstanın Baş Naziri Georgi Qaxarianı qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş Nazir! Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

İlk növbədə, sizi Baş Nazir vəzifəsinə seçilməyiniz münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Siz dəfələrlə Azərbaycanda səfərdə olmusunuz. Mən sizinlə keçirdiyim görüşləri böyük məmnunluq hissi ilə xatırlayıram. Bu dəfə siz qardaş ölkənin Baş Naziri kimi, Azərbaycana səfər edirsiniz və bu sizin Baş Nazir kimi, ilk xarici səfərinizdir. Bu bizi olduqca məmnun edir və bir daha göstərir ki, Azərbaycan Gürcüstan üçün çox önəmli və ən yaxın tərəfdaşlardan biridir. Bizim üçün də Gürcüstan ən yaxın tərəfdaş və ən yaxın ölkələrdən biridir. Bizi birləşdirən ortaq tarix, ortaq coğrafi məkan əlaqələrimizin inkişafı üçün gözəl təməldir. Müstəqillik dövründə əlaqələrimiz uğurla inkişaf edib və bu gün bir çox sahələri əhatə edir. Biz beynəlxalq təşkilatlarda bir-birimizin ərazi bütövlüyünü

dəstəkləyirik və beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik.

Şadam ki, iqtisadi sahədə gözəl nəticələr vardır. Azərbaycan Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ölkələr sırasında ilk yerlərdədir. Birgə həyata keçirdiyimiz neft-qaz və nəqliyyat layihələri ikitərəfli formatdan çıxıb və qlobal məna daşıyır. Əlbəttə, insanlar arasındakı əlaqələr də xüsusi məna daşıyır. Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər bu əlaqələrin inkişafında çox önəmli amildir. Bir daha sizi salamlayıram və «Xoş gəlmisiniz!» – deyirəm.

**G e o r g i  Q a x a r i a:** Səmimi və xoş qəbulunuz üçün təşəkkür edirəm, cənab Prezident! Mənim üçün böyük şərəfdir ki, ilk xarici səfərimi məhz Azərbaycana edirəm. Bu, təsadüfi deyil. Biz bu qərarı ona görə qəbul etdik ki, düşmənə və dosta sübut edək – Azərbaycan və Gürcüstan arasında heç bir həll olunmayan məsələ yoxdur və ola da bilməz.

Mən Sizinlə görüşləri xatırlayıram, biz bütün məsələlər ətrafında açıq söhbət edirdik. Bu mənim üçün böyük təcrübə idi. Siz dediyiniz kimi, Azərbaycan və Gürcüstan ən yaxın dost və qardaş ölkələrdir. Həqiqətən, bizim əməkdaşlığımız və tərəfdaşlığımız regional çərçivədən çıxıb və beynəlxalq müstəviyə yüksəlibdir, xüsusən iqtisadiyyat, nəqliyyat və ticarət məsələlərində. Gürcüstan və Azərbaycan bir-birini beynəlxalq formatda hər zaman dəstəkləyir. Bizim üçün çox vacib olan məsələdə – Gürcüstanın ərazi

bütövlüyünü dəstəklədiyiniz üçün Sizə təşəkkürümü bildirirəm.

Əlbəttə, insanlarımız arasında mehriban, dost münasibətlər də çox mühüm və vacibdir. Bizim xalqlar arasındakı əlaqələr uzunəsrli və mədəni əlaqələrdir. Bu münasibətlərin böyük tarixi vardır.

Əminəm ki, bugünkü səfərim, bugünkü görüşlərimiz son dərəcə səmərəli olacaq, dosta və düşmənə bir daha göstərəcək ki, Gürcüstan və Azərbaycan arasındakı əlaqələr hər zaman dost əlaqələridir. Onlar arasında həll olunmayan məsələ yoxdur və onlar hər zaman bütün məsələlərdən çıxış yolu tapa bilərlər.

Səmimi qəbul üçün Sizə bir daha təşəkkür edirəm.

## TÜRKİYƏ RESPUBLİKASININ TƏHSİL NAZİRİ ZİYA SƏLÇUKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının Təhsil naziri Ziya Səlçukun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Xoş gəlmisiniz! Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu olacaq və təhsil sektorundakı əməkdaşlığımız davam edəcəkdir. Bildiyiniz kimi, Türkiyə–Azərbaycan əlaqələri bütün sahələrdə ən yüksək zirvədədir. Elə bir sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. O cümlədən sizin rəhbərlik etdiyiniz sahə də həm bu gün üçün, həm də gələcək üçün çox önəmlidir ki, gələcək nəsillərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsınlar, bilikli, savadlı olsunlar və gələcəkdə ölkələrimizin inkişafında fəal iştirak etsinlər. Sizi səmimiyyətlə salamlayıram. Türkiyə–Azərbaycan qardaşlığı, birliyi sarsılmazdır. Biz bütün sahələrdə –siyasi, iqtisadi, nəqliyyat, enerji, mədəniyyət, təhsil sahələrində gözəl nəticələri görürük.

Bir neçə gündən sonra Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü keçiriləcək. Biz bu görüşə ciddi hazırlaşırıq və əminəm ki, qəbul ediləcək

qərarlar türkdilli dövlətlərin birliyini daha da möhkəmləndirəcək. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz!

**Z i y a S ə l ç u k:** Təşəkkür edirəm. Zati-alinizin bizi qəbul etməsindən böyük məmnunluq duyuruq. Çox minnətdaram, sağ olun. Cənab Prezidentimizin salamlarını çatdırmaq istərdim.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mənim də salamlarımı Prezidentə çatdırın.

**Z i y a S ə l ç u k:** Prezidentimiz Sizə olan dost münasibətini hər zaman ifadə edir. «Bir millət – iki dövlət» şüarının daim vurğulandığı və bu məsələnin əhəmiyyəti barədə danışıldığı da Sizə məlumdur.

Cənab Prezident, Sizin Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvi barədə qərarınız Türkiyədə böyük bir sevinc hissi yaradıb. Mükəmməl səviyyədə olan əməkdaşlığımız – həm vətəndaşlarımızın ünsiyyətinin artması, həm tələbələrin Türkiyəyə təhsil almağa gəlmələri, həm də Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın genişlənməsi hamımızı çox məmnun edir.

* * *

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə onu qardaşlıq münasibətlərinin bağladığını vurğuladı. Dövlət başçısı qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında böyük sərvətimiz olan dostluq və qardaşlığımızı möhkəm işbirliyinə çevirməyə nail olmuşuq. Prezident İlham Əliyev bildirdi ki, dünya*

*miqyasında Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur.*

*Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçən il Bakıda hərbi paradın keçirildiyini, Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə Bakının mərkəzində təntənəli keçid etdiklərini xatırladaraq, xalqlarımızın bunu böyük fəxr hissi ilə izlədiyini bildirdi.*

*Görüşdə ali və peşə təhsili sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL NƏQLİYYAT, İNNOVASİYA VƏ TEXNOLOGİYA NAZİRİ ANDREAS RAYHARDTIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Avstriya Respublikasının Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayhardtın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Sizi yenidən görməyimə çox şadam. Mən bizim Vyanadakı görüşümüzü xatırlayıram, çox səmərəli və ümidverici idi. Ümidvaram ki, Azərbaycana səfəriniz uğurlu olacaq, biz sıx əməkdaşlığımızı davam etdirəcəyik. Mən cənab Prezidentlə, Baş Nazirlə görüşümü xatırlayıram. Bildiyiniz kimi, çox səmimi və mehriban görüş idi. Düşünürəm ki, bu çox mühüm şəxsi təmas idi. Biz bir daha ölkələrimiz arasındakı əməkdaşlığa verdiyimiz böyük əhəmiyyəti və tərəfdaşlığı genişləndirməyə hazır olduğumuzu qeyd etdik. Ölkənizdən olan bir çox şirkətlər müxtəlif sahələrdə bizim tərəfdaşımızdır. Mənim Baş Nazirə dediyim kimi, onlar Azərbaycandakı tikinti layihələrində mühüm rol oynayıblar. Onlar yeni memarlıq üslubu baxımından, eləcə də infrastruktur

sahəsində çox yaradıcıdırlar. Mən həmçinin şadam ki, hazırda biz sizin məsul olduğunuz nəqliyyat sektorunda əməkdaşlığın fəal mərhələsindəyik və bizim hazırda Avropa ilə Asiyanı birləşdirmək planlarımız həyata keçirilir. Biz bu istiqamətdə yaxşı nəticələrə, yaxşı irəliləyişə nail olmuşuq. Şərq–Qərb dəhlizi fəaliyyət göstərir. Biz Çindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik və sizin Azərbaycanda infrastrukturla bağlı gördüyünüz bütün işlər hazırda iqtisadi tərəfdaşlıq və birlik işinə xidmət edir.

Azərbaycan nəqliyyat sektoruna böyük həcmdə investisiya yatırıb – 6 beynəlxalq aeroport, müasir dəmir yolu sistemi, yeni magistral yollar, Xəzər dənizində ən böyük dəniz limanı, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi, Şimal–Cənub nəqliyyat dəhlizi. Bu il biz artıq şimaldan qərb istiqamətində gedən yükləri də qəbul etməyə başlamışıq. Beləliklə, indi söhbət Şimal–Qərb dəhlizindən gedir. Azərbaycan bu layihədə çox mühüm rol oynayır, çünki biz Şimal–Cənub və Şərq–Qərb dəhlizlərində iştirak edirik. Nəqliyyat sektoru gələcək iqtisadi inkişafın hərəkətverici qüvvəsi olacaq sahələrdən birinə çevrilir. Mən bilirəm ki, bizim dəmir yolları qurumumuz avstriyalı həmkarları ilə yaxşı təmaslar qurub. Bunlar çox ümidverici addımlardır. Əminəm ki, Azərbaycana səfəriniz ərzində bütün bu məsələlər geniş şəkildə müzakirə ediləcək və biz atmalı olduğumuz yeni addımları müəyyənləşdirəcəyik. Bir daha xoş gəlmisiniz!

**A n d r e a s  R a y h a r d t:** Cənab Prezident, dostcasına dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm. Ötən dəfə biz Vyanada görüşmüşdük. O vaxt mən nazir müavini idim, indi nazirəm, lakin mövzular dəyişməyib. Biz hələ də iqtisadi sahələrimizi yaxınlaşdırmağa və birgə layihələri inkişaf etdirməyə çalışırıq. Ötən dəfə Vyanada müzakirə etdiyimiz kimi, vəzifəmiz bəzi layihələrlə bağlı konkret ideyaları inkişaf etdirmək və Avstriyanın dünyada məşhur texnologiya şirkətlərini Azərbaycana gətirməkdir. Bir qədər sonra biz Sizə bəzi konkret ideyaları təqdim etmək istəyirik. Bizim burada kiçik, lakin rəqabət qabiliyyəti çox yüksək olan biznes nümayəndə heyətimiz vardır. Bizim bu gün və sabah ikitərəfli görüşlərimiz olacaqdır.

## TÜRKMƏNİSTANA İŞGÜZAR SƏFƏR

*10 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gəlmişdir.*

*Aşqabad Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevi MDB İcraiyyə Komitəsinin sədri-icra katibi aparatının rəhbəri Sergey Burutin, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Esenmurad Orazgeldiyev və digər yüksəkvəzifəli şəxslər qarşıladılar.*

## TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*Aşqabad*

*10 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev, Prezident Qurbanqulu Berdıməhəmmədov və MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedev birgə foto çəkdirdilər.*

*Sonra Prezident İlham Əliyev və Prezident Qurbanqulu Berdıməhəmmədovun görüşü oldu.*

**Qurbanqulu Berdıməhəmmədov:** İlham Heydər oğlu, icazə verin, Sizi Türkmənistanda, Aşqabadda salamlayım və bizim dəvətimizi qəbul edib MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün gəldiyinizə görə Sizə dərin təşəkkürümü bildirim. Düşünürəm ki, xalqlarımızın rifahı naminə tərəfdaşlığın səmərəliliyini artırmaq üçün yaxşı imkanımız olacaqdır. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz!

**İlham Əliyev:** Sağ olun, hörmətli Qurbanqulu Məlikqulıyeviç. Dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm. Qardaş Türkmənistan torpağına gəlməyə həmişə şadıq. Mənim keçənilki səfərimi, sizinlə

görüşümü və imzaladığımız sənədləri xatırlayıram. Düşünürəm ki, o vaxt biz rekord göstərdik, 20-dən çox sənəd imzaladıq. Bu, iki qonşu ölkə arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir. Əlbəttə, MDB dövlət başçılarının sabahkı Zirvə görüşü çoxtərəfli əməkdaşlığın daha da möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edir. Bu mühüm beynəlxalq tədbirin gözəl təşkil edilməsi münasibətilə Sizi təbrik etmək, Sizə, qardaş Türkmənistan xalqına ən xoş arzularımı bildirmək, yeni zəfərlər, qələbələr diləmək istərdim.

**Qurbanqulu Berdıməhəmmədov:** Sağ olun, İlham Heydər oğlu. Mən həmçinin Xəzəryanı ölkələrin Birinci İqtisadi Forumuna verdiyiniz dəstəyə və onun işində fəal iştirak etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Siz bilirsiniz ki, forum sərgi ilə də müşayiət olundu. Sizin ölkənizin, demək olar ki, hamının diqqətini cəlb edən gözəl stendi var idi. Siz bu forumun keçirilməsində də böyük rol oynamısınız.

Ona görə icazə verin, bu həssas diqqətə və fəal iştiraka görə Sizə təşəkkürümü bildirim. Bu bizim ortaq təşəbbüsümüz idi, ümumiyyətlə, ideya genişdir. Sizə açıq deməliyəm, orada iki ölkə fəal iştirak edib – Türkmənistan və Azərbaycan. Əsas diqqət məhz tranzit-nəqliyyat dəhlizləri məsələlərinə ayrılmışdı.

**İlham Əliyev:** Çox sağ olun.

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODON İLƏ GÖRÜŞ

*Aşqabad*

*10 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Aşqabadda Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşmüşdür.*

**İlham Əliyev:** İqor Nikolayeviç, Sizi görməyimə şadam. Bizim ikitərəfli gündəliyimizə dair fikir mübadiləsi üçün yaxşı imkan yaranıb. Mən bizim görüşlərimizi, o cümlədən Bakıdakı görüşümüzü xatırlayıram. O vaxt biz ikitərəfli əməkdaşlığın geniş spektrini müzakirə etdik, münasibətlərimizin inkişafına ciddi təkan verdik. Sıx qarşılıqlı fəaliyyətin davam edəcəyinə ümid bəsləyirik. Bizim fəal əməkdaşlıq edə biləcəyimiz mövzular, sahələr çoxdur. Əsas odur ki, ölkələrimiz arasında dostluq münasibətləri həm ticari-iqtisadi, həm investisiya, həm də bütün başqa sahələrdə qarşılıqlı fəaliyyəti inkişaf etdirmək üçün yaxşı bazadır. Moldova bizə yaxın, dost dövlətdir. Düşünürəm ki, bugünkü fikir mübadiləsi də faydalı olacaqdır. Zənnimcə, əlaqələrimizin inkişafına yeni təkan verəcəyik.

**İ q o r D o d o n:** Hörmətli İlham Heydər oğlu! Hörmətli dostlar! Əvvəla, bizim ikitərəfli münasibətlərimiz barədə Sizinlə yenidən fikir mübadiləsi aparmaq imkanına görə çox şadam. Bu ilin mart ayında Qlobal Forumda iştirak etməyimi xatırlayıram. Mən bu forumda artıq iki dəfə iştirak etmişəm və gələn il də iştirak etməyi planlaşdırıram. Qeyd etmək istəyirəm ki, bütün istiqamətlər üzrə işlərimiz yaxşı gedir. Sonuncu dəfə Bakıda Sizinlə söhbət zamanı mən demişdim ki, yaxın vaxtlarda hökumətlərarası birgə Komissiyanın tərkibi yenilənəcək. Dünən Moldova hökuməti İqtisadiyyat nazirini Moldova tərəfindən hökumətlərarası birgə Komissiyanın həmsədri təsdiq edib. Buna görə ümid edirəm ki, yaxın vaxtlarda hökumətlərarası birgə Komissiyanın iclası keçiriləcək. Sonuncu iclas 2012-ci ildə olub. Yəni artıq 7 il keçib və bu müddətdə Komissiya işləməyibdir.

Bir neçə həftə bundan əvvəl mən Sizə rəsmi dəvət məktubu göndərmişəm. Bu gün biz Moldova Respublikasına Sizin rəsmi səfərinizin mümkünlüyünü və hökumətlərarası birgə Komissiyanın iclasa hazırlıq məqsədilə həmsədrlərin görüşünün Kişinyovda keçirilməsini müzakirə edəcəyik.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Çox sağ olun.

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ MƏHDUD TƏRKİBDƏ KEÇİRİLMİŞ İCLASINDA İŞTİRAK

*Aşqabad*

*10 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilmiş iclasında iştirak etmişdir.*

*Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət başçılarını salamladı.*

*Sonra birgə foto çəkdirildi.*

*MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasını açan Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov iclasın işinə uğurlar arzuladı.*

*Daha sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev Şuranın iclasının gündəliyi barədə məlumat verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli dövlət başçıları!

Səmimi qəbula və qonaqpərvərliyə görə Prezident Berdıməhəmmədova təşəkkürümü bildirmək istəyirəm.

Bizim dünənki görüşümüz Türkmənistan ilə Azərbaycan arasında münasibətlərin qardaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi. Mən Türkmənistana keçənilki rəsmi səfərimi də səmimiyyətlə xatırlayıram. Həmin səfər müddətində mühüm məsələlərə dair geniş fikir mübadiləsi aparıldı, bizim münasibətlərimizə yeni məzmun gətirən rekord sayda, daha dəqiq desək, 21 sənəd imzalandı. Ölkənin inkişafı, Aşqabadın abadlaşdırılması işində Türkmənistan Prezidentinin şəxsi rolunu da qeyd etmək istərdim. Burada tez-tez oluram, aşkar dəyişiklikləri, sürətli inkişafı, müasir infrastrukturu görürəm. Keçən dəfə olimpiya şəhərciyi ilə tanış oldum. Bütün bunlar göz oxşayır, vətəndaşların idmanla məşğul olmaları və ölkənin inkişafı işinə fəal töhfə vermələri üçün yaxşı imkan yaradır. Genişmiqyaslı tikinti işləri də heyranlıq doğurur. Mən bilirəm ki, Prezident hər bir layihəyə şəxsən nəzarət edir, buna görə də şəhər inkişaf edir, nadir vahid şəhərsalma ansamblı yaradılıbdır.

Bugünkü Zirvə görüşünün gündəliyindəki məsələlərdən biri İkinci dünya müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciətidir. Ən dağıdıcı, qanlı müharibənin ön və arxa cəbhələrində xalqlarımız gələcək nəsillər üçün nümunə olan qəhrəmanlıq və igidlik göstəriblər. Faşizm üzərində ümumi

Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı cəbhələrdə döyüşüb, onların yarısı ümumi qələbəmiz uğrunda canlarından keçibdir. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilibdir. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Hərbi kinoxronikada məşhur kadrlar var: Hitlerə verilən tortun üzərində alman dilində «Xəzər dənizi» sözləri yazılmış bir oyuq, həmin oyuqda «Bakı» adlı qara rəngli maye şokolad vardır. Hitler şokoladı qaşıqla götürür və tortun üstünə süzür, sonra svastika şəklində şokoladı götürüb «Bakı» sözü yazılan yerə qoyur. Bu kadr faşistlərin Azərbaycanın neft yataqlarını, həmçinin hamımızın bildiyi kimi, Şimali Qafqazın neft yataqlarını tutmaq planlarını vurğulayır. Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı. Çünki belə fövqəladə vəziyyətdə sovet hökuməti neft quyularının düşmən əlinə keçməməsi üçün onların hamısını minalamışdı. Yəni bu halda, qurbanların sayı bəlkə də yüz minlərlə olardı.

Azərbaycan elminin nümayəndələri ümumi qələbəmizə sanballı töhfə veriblər. Məsələn, böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan «Molotov

kokteyli» kimi məşhurlaşmış yandırıcı maye ixtira etmişdi. Bu barədə çox adam bilmir, lakin bu həqiqətdir. Bakının zavodlarında gecə-gündüz istehsal edilən məşhur «Katyuşa» raketləri və digər silahlar düşməni dəhşətə salmışdı. Müharibədə həlak olanların xatirəsini Azərbaycanda ehtiramla yad edir, müharibə veteranlarına böyük qayğı göstərirlər. Oyuncaq, satqın, xalqa zidd, biabırçı Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu 1992–93-cü illərdə 9 May bayramı ləğv edilmişdi, müharibə veteranları isə alçaldılmağa və təhqirlərə məruz qalırdılar. Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun ilk qərarlarından biri 9 May – Qələbə Gününün bərpa edilməsi oldu. O vaxtdan təqvimdə qırmızı rənglə qeyd olunan bu gün qeyri-iş günüdür və milli bayram kimi qeyd edilir.

Biz – dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət İrəvanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi «Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması, irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan

praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında» məruzə təqdim edib. Həmin məruzədə deyilir: «Ermənistanın keçmiş hakim Respublikaçılar Partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb». Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir.

Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik «1941–45-ci illərin Böyük Vətən müharibəsi» ensiklopediyasının «Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat» adlı 6-cı cildində dərc edilmiş «Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti» adlı məqalədə deyilir: «Əks-kəşfiyyatçılar 114-cü Dromedar ober qrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb etmiş, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün sovet ordusunun arxa cəbhəsinə atılmasında iştirak etmişdir. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilibdir. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi:

«Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur». Burada şərhə ehtiyac yoxdur. Njde həbs olunub və Vladimir həbsxanasında ömrünü başa vurubdur. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli sökməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Ermənistanın Baş Naziri Nikol Paşinyan Azərbaycan Prezidentinin çıxışında səslənən əsaslı arqumentlərə cavab verməyə uğursuz cəhd etdi:*

– İlham Heydər oğlunun nitqindən belə təəssürat yaranır ki, ümumiyyətlə, bu müharibədə Hitler yalnız ikinci dərəcəli rol oynayıb və nasist hərəkatının lideri Qaregin Njde olub. Həqiqət isə budur ki, Qaregin Njde türk işğalına və türklərin təşkil etdikləri ermənilərin «soyqırımı»na qarşı mübarizə aparıb. Həqiqət ondan ibarətdir ki, Qaregin Njde, yeri gəlmişkən, 1918-ci ildə erməni–türk müharibəsi zamanı bir çox rusiyalı zabitlərlə birgə cəbhənin mühüm hissəsinə rəhbərlik edib. Mən bir daha qeyd etmək istəyirəm ki, bizim tarixi hadisələrə obyektiv qiymət verməyimiz çox vacibdir. Deyilir ki, Qaregin Njde Vladimir həbsxanasında ölüb. Bir çox sovet xadimləri Vladimir həbsxanasında ölüblər. Soljenitsin

«QULAQ»da olub. 1937–50-ci illərə qədər məhkum edilənlərin hamısının xalq düşməni olduğunu hesab edirik? Əgər belədirsə, onda bir çox görkəmli xadimlər məhkum olub, öz həyatlarını həbsxanalarda bitiriblər. Bu o deməkdeyil ki, biz bütün bunları fakt kimi qəbul etməliyik. Mən bu formatdan tarixi təhrif etmək, bu kifayət qədər vacib iclasın ab-havasına hansısa gərginlik gətirilməsi üçün istifadə olunmasını yersiz hesab edirəm. Hesab edirəm ki, Azərbaycan Prezidentinin sözləri ilk növbədə, erməni xalqına hörmətsizlikdir. Mən bunu dövlət başçılarına və onların təmsil etdiyi xalqlara qarşı hörmətsizlik hesab edirəm. Hörmətli həmkarlar, mən belə gərginliyə görə üzr istəyirəm. Amma siz gördünüz ki, onun müəllifi mən deyiləm.

*Ermənistanın baş naziri Nikol Paşinyanın çıxışından sonra növbəti çıxış edən Belarus Prezidenti Aleksandr Lukaşenko olmalı idi. Dövlətimizin başçısı Belarus Prezidentindən icazə alaraq, Nikol Paşinyanın çıxışında səslənən sözlərə tutarlı faktlarla cavab verdi.*

**İlham Əliyev:** Mən sadəcə, şərh verməyə məcburam. Belə ki, Ermənistanın baş nazirinin çıxışında söhbət məndən getdi. Halbuki mənim çıxışımda söhbət Ermənistanın baş nazirindən, xüsusən də erməni xalqından getməyib. Hesab edirəm ki, Sovet İttifaqının digər xalqları kimi, bizim ümumi qələbəmizə böyük töhfə verən erməni xalqı ilk növbədə, özü əvvəlki rəhbərliyin ölkəyə vurduğu bu ləkədən təmizlənməlidir. Əgər baş nazir mənim çıxışıma diqqətlə qulaq asıbsa, onda yəqin ki, o da bunu anlayıb. Həmçinin hesab

edirəm ki, nasist əlaltıları və cinayətkarları ilə «QULAQ»ın və digər düşərgələrin repressiyaya məruz qalmış dustaqlarını müqayisə etmək qətiyyən yolverilməzdir. Mən öz çıxışımı təsadüfən sitatlarla möhkəmləndirmədim. Onları kitabxanada, internetdə tapmaq olar. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin 2019-cu ilin may sitatında və Rusiyanın Müdafiə naziri Şoyqunun redaksiyası altında 12 cildlik nəşrdən gətirdiyim sitatda kifayət qədər aydın deyilir ki, o, necə bir «xadim» olub. Həmçinin nə qədər iyrənc olsa da, onun sitatını mən bir daha təkrar edəcəyəm: «Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur». Bu, Böyük Vətən müharibəsi illərində deyilib. Buna görə də hesab edirəm ki, özünü demokratik seçilmiş təqdim edən yeni hakimiyyət ilk növbədə, bu ləkədən, bu rüsvayçılıqdan təmizlənməli və həmin heykəli sökməlidir. Mənim dövlət başçılarına hörmətsizlik göstərdiyimə gəlincə, düşünürəm ki, bizim iclasımız, yəqin ki, bundan daha absurd tezis eşitməyib. Sağ olun.

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ GENİŞ TƏRKİBDƏ KEÇİRİLMİŞ İCLASINDA İŞTİRAK

*Aşqabad*

*10 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Aşqabadda məhdud tərkibdə iclas başa çatdıqdan sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə keçirilmiş iclasında iştirak etmişdir.*

*Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedevə Türkmənistanın «Bitərəflik» ordenini təqdim etdi.*

*Azərbaycanın Rusiyadakı səfiri, MDB-yə üzv ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondun İdarə Heyətinin sədri Polad Bülbüloğlu fondun «Humanitar əməkdaşlığın inkişafında xidmətlərinə görə» medalını Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədova təqdim etdi.*

*İclasda bir sıra sənədlər, o cümlədən «Strateji iqtisadi əməkdaşlıq haqqında» Bəyannamə imzalandı.*

*Daha sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədovun adından nümayəndə heyətləri başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu.*

*Azərbaycan Prezidenti İlham Əliyev qəbulda iştirak etdi.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana işgüzar səfəri oktyabrın 10-da başa çatdı.*

## QAZAXISTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SERJAN ABDIKARİMOV İLƏ GÖRÜŞ

*14 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Serjan Abdıkarimovun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Serjan Abdıkarimov Fəxri qarovul dəstəsinin qarşısından keçdikdən sonra etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

*Dövlət başçısı səfirlə söhbət etdi.*

**İlham Əliyev:** Hörmətli cənab səfir, hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamağa şadam. Sizə ölkəmizdə uğurlu iş arzulayıram. Əminəm ki, münasibətlərimizin daha da irəliləməsi və inkişafı üçün maksimum səy göstərəcəksiniz. Bildiyiniz kimi, ölkələrimiz arasında münasibətlər çox müsbət istiqamətdə inkişaf edir.

Azərbaycan ilə Qazaxıstan arasında müasir münasibətlərin əsası ölkələrimizin böyük liderləri Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən qoyulub.

Hələ sovet dönəmində onların şəxsi dostluğu və müstəqillik illərində bir-birini qarşılıqlı dəstəkləməsi bizim münasibətlərin təməli olub və bu münasibətlər strateji səviyyəyə çatıbdır. Son 16 ildə Nursultan Abişeviçlə biz münasibətlərimizi daha da irəlilətmişik, dövlət başçıları səviyyəsində bir neçə səfər olub. Yadımdadır, 2004-cü ildə yeni seçilmiş Prezident kimi, mənim ilk rəsmi səfərlərimdən biri, daha dəqiq desəm, sayca üçüncü rəsmi səfərim Qazaxıstana oldu. Bu bizim münasibətlərin xarakterini vurğulayırdı. Oktyabr ayı yüksək səviyyədə görüşlər baxımından çox məhsuldar olub. Bu ay ərzində mən Prezident Tokayevlə iki dəfə – «Valday» Forumunda və MDB Sammitində görüşmüşəm. Bu baxımdan bizim ilk əlaqələrimiz də çox ümidvericidir. Prezident Tokayevlə bir-birimizi çoxdan tanıyırıq və həm Azərbaycanda, həm də Qazaxıstanda müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşük. Bu gün biz çox şadıq ki, Nursultan Abişeviç Nazarbayev bizə səfərə gələcək, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iclasında bu mühüm təşkilatın rəhbəri kimi iştirak edəcəkdir.

Bizim münasibətlərimiz zamanın sınağından çıxıb, həyatın, demək olar ki, bütün sahələrini – iqtisadiyyat, energetika, nəqliyyat və humanitar sahələri əhatə edir. Buna görə də əminəm ki, münasibətlərimizin inkişaf perspektivləri çox müsbət olacaqdır. Biz bundan sonra da beynəlxalq arenada bir-birimizi dəstəkləyəcək, ikitərəfli formatda müştərək layihələri həyata keçirəcəyik. Əlbəttə ki, Azərbaycanda işiniz çox olacaq. Münasibətlərimizin gündəliyi yetərincə

zəngindir. Buna görə də sizə uğurlar arzu edirəm. Əminəm ki, Azərbaycanda özünüzü evinizdəki kimi hiss edəcəksiniz. Bir daha xoş gəlmisiniz!

**Serjan Abdıkarimov:** Hörmətli cənab Prezident! İlk növbədə, bizim elbasının və Prezident Tokayevin Sizə səmimi salamlarını çatdırmaq istərdim. Ortaq türk mənşəli, ortaq dini, dili, mədəni və mənəvi əlaqələri olan qardaş dövlətlərimiz və xalqlarımız arasında hərtərəfli münasibətlərin daha da möhkəmləndirilməsi üçün bütün bilik və səylərimi sərf edəcəyəm. Öz tərəfimdən demək istərdim ki, mən Bakıda sonuncu dəfə 2010-cu ildə bizim ATƏT-də sədrliyimiz dövründə olmuşam və Siz o vaxt bizim nümayəndə heyətini qəbul etmişdiniz. O vaxtdan bəri Bakının və bütövlükdə Azərbaycanın böyük uğurları məni heyran edir. Bütün bu islahatlar əsası ümummilli lider Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş və Sizin müdrik rəhbərliyinizlə uğurla davam edən inkişaf və modernləşmə strategiyası ilə ayrılmaz surətdə bağlıdır.

* * *

*Görüşdə hökumətlərarası birgə Komissiyanın fəaliyyəti və bu günlərdə Komissiyanın Bakıda keçirilmiş son iclası qeyd olundu, ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi məsələləri müzakirə edildi. Prezident İlham Əliyev Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin*

*salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Nursultan Nazarbayevə və Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ GÖRÜŞ

*14 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Bakıda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşmüşdür.*

*Azərbaycan Prezidenti Özbəkistan Prezidentini salamladı.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Şavkat Miromonoviç, Sizi Azərbaycanda görməyimə çox şadam! Xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər bizim dostluq, qardaşlıq münasibətlərimizin inkişafına yeni təkan verəcək. Xalqlarımız arasında əlaqələr tarixin sınağından çıxıb. Özbək və Azərbaycan xalqları əsrlərboyu həmrəylik və sülh şəraitində yaşayıb, bir-birinə qardaş münasibəti bəsləyiblər. Bu, möhkəm təməldir. Bu gün müstəqil ölkələr olan Özbəkistan və Azərbaycan öz gələcəyini çox möhkəm, çoxəsrlik tarixi təməl üzərində qurur. Əminəm ki, bizim münasibətlərimizin durmadan inkişafı gələcək zəfərlərin rəhni olacaqdır. Biz həm qarşılıqlı siyasi əlaqələri, həm də iqtisadi əməkdaşlığı

möhkəmləndirəcəyik. Nəqliyyat, enerji, turizm sahələrində çox yaxşı perspektivlər vardır. Biz bütün istiqamətlərdə fəal əməkdaşlığı, səmərəli nəticələri hədəf seçmişik.

Siz çox müdrik qərar qəbul etmisiniz, Özbəkistan Türk Şurasına qoşulub. Buna görə Sizə təşəkkür etmək və Türk Şurası üzvlərinin ümumi məmnunluğunu bildirmək istərdim. Biz bunu tarixi hadisə hesab edirik, bu heç şübhəsiz, bizim həmrəyliyimizi, qarşılıqlı əlaqələrimizi, əməkdaşlığımızı möhkəmləndirəcək. Əminəm ki, sabahkı sammit Şura üzvü olan bütün ölkələr arasında münasibətlərin daha da inkişafına və həmrəyliyə xidmət edəcəkdir. Azərbaycana xoş gəlmisiniz!

**Şavkat Mirziyoyev:** Hörmətli İlham Heydər oğlu, Sizə bir daha çox təşəkkür edirəm. Təyyarədən Azərbaycana yenicə düşmüşəm və çox səmimi münasibət hiss edirəm. Bu həqiqətən, tarixi səfərdir. Bizim bu Şuraya daxil olmaq barədə qərar qəbul etməyimizin 3 ili tezliklə tamam olacaq. Keçən il həmkarlarımın çoxu deyirdi: gəlin bu sənədi Çolpon-Atada imzalayaq, orada bayraq qaldıraq. Dedim ki, mənim öz fikrim vardır. Naxçıvan Sazişinin 10 illiyi tamam olacaq. Bu, tarixi hadisədir. Sizə çox təşəkkür edirəm ki, Siz də məni dəstəklədiniz. Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin qədim, möhkəm kökləri vardır. Bu əlaqələr uzun tarixə malikdir. Zənnimcə, bütün bunları dirçəltməyin vaxtı çatıb. Biz Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevlə həmişə fəxr edirik. Özbəkistanda onu xatırlayır və ehtiramla yad edirlər,

çünki o həqiqətən, böyük şəxsiyyət olub. Onunla yanaşı işləmiş adamlarla çox söhbət etmişəm. O, özbək xalqına həmişə hörmətlə yanaşıb. Şərəf Rəşidoviç ilə çox görüşüblər, çox çətin məsələləri həll ediblər. Onların bu gün sağ olan məsləkdaşları indiyə qədər fəxrlə deyirlər ki, Heydər Əliyev bütün hallarda Özbəkistan haqqında hörmətlə danışır, hər yerdə onu dəstəkləyirdi. Bizdə «özbək işi» qaldırılmış çətin illərdə Heydər Əliyevin özbək xalqı haqqında şəxsi fikri vardı. Bu gün biz fəxr edirik ki, Heydər Əliyevin oğlu bu böyük işi davam etdirir.

Bu gün Azərbaycan firavanlaşır. Bilirsiniz ki, biz yaxın qonşularıq və Sizin uğurlarınıza sevinirik. Həmişə fəxr edirik ki, bizə qardaş olan Azərbaycanın beynəlxalq nüfuzu artır, iqtisadiyyatda uğurları vardır. Biz bu uğurları görəndə hesab edirik ki, bu Sizin uzaqgörən siyasətinizin, Azərbaycanın sabahını görməyinizin nəticəsidir. Biz buna həmişə sevinirik. Əlbəttə, Siz çox düzgün dediniz ki, biz artıq təzə səhifədən başlamalıyıq. Mən bu səfərə tək gəlməmişəm, çünki biz Azərbaycan üçün darıxmışıq. Bilirsinizmi, hamı səbirsizliklə gözləyir ki, nə vaxt imzalanma başlanacaq. Təyyarədə nazir mənə dedi ki, biz dəyəri 390 milyondan çox olan kontraktlar hazırlamışıq.

**Nümayəndə heyətinin üzvü:** Artıq 432 milyondur.

**Şavkat Mirziyoyev:** Siz düzgün dediniz ki, bizim perspektivli istiqamətlərimiz çoxdur. Energetika, neft-qaz sahələri haqqında dediklərinizlə razıyam. Biz Sizinlə söhbət etmişik, SOCAR üçün ərazi ayır-

mışıq. Mən bizimkilərə demişəm, elə yerlər, elə ərazilər ayırsınlar ki, biz bu ciddi şirkətlə uzun müddət əməkdaşlıq edə bilək. İkincisi, bu gün mənə məruzə etdilər ki, onlar çox ciddi danışıqlar aparıblar, hər şey barədə razılaşıblar və həqiqətən, neft-qaz sahəsində qarşılıqlı faydalı əməkdaşlığın real perspektivləri vardır. Bu, normal kursdur, bu sahədə irəliləyiş var və biz bunu yalnız dəstəkləyəcəyik.

Daha bir mühüm istiqamət – Sizin artıq qeyd etdiyiniz kimi – nəqliyyat-kommunikasiya sahəsində münasibətlərdir. Bakı–Tbilisi–Qars dəmir yolu bizim üçün böyük əhəmiyyət kəsb edir. Bizim şirkətlərin çoxu artıq bu yolu tanıyır və Özbəkistan əmtəə dövriyyəsini artırmağı qarşısına hədəf qoyub. Mən çox istərdim ki, Siz tapşırıq verəsiniz – bütün nazirlər burada əyləşiblər – Türkmənbaşı–Ələt bərə xəttinə limanda preferensiyalar verilsin. Ona görə ki, bizdə də əmtəə dövriyyəsi artır, iqtisadiyyat yavaş-yavaş dirçəlir, istərdik ki, bütünlüklə bu istiqamətə üstünlük verilsin.

Mədəni-humanitar əlaqələr məsələsinə gəlincə, bizim əməkdaşlığı möhkəmlətməyimiz taleyimizə yazılıb. Biz daha çox görüşlər, konfranslar keçirməli, hər şey barədə danışmalıyıq. Bizim ortaq cəhətlərimiz çoxdur, bizi Əlişir Nəvai və Nizami Gəncəvi birləşdirir. Sizə təşəkkür edirəm ki, Mədəniyyət nazirinizi bizim tədbirlərə göndərirsiniz. Bu il o, iki dəfə bizdə olub. Yeri gəlmişkən, bizdə beynəlxalq Baxşi sənəti festivalı keçirilib. Bu festivalda Azərbaycan nümayəndələri mükafata layiq yerlər

tutublar. Demək istəyirəm ki, biz bir-birimizi eşidəndə, görüşəndə əməkdaşlıq istiqamətlərini özümüz tapırıq.

Biz bu səfəri çoxdan gözləyirdik. Biz buraya çox böyük istəklə və qardaş Azərbaycan xalqına sevgi ilə gəlmişik. Mən bu qədər adamı hədər yerə gətirməmişəm. Gətirmişəm ki, onlar həqiqətən, səmərəli işləsinlər. Sizi özünüz üçün münasib olan istənilən vaxtda Özbəkistana dəvət edirəm. Ona görə ki, Siz çoxdan bizdə olmamısınız və biz çox istəyirik ki, Özbəkistana gələsiniz, bizim münasibətlərimiz yeni məzmunla zənginləşsin. Sonra isə mən Azərbaycana hökmən səfər edəcəyəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, hörmətli Şavkat Miromonoviç. Mən ilk növbədə, ölkəmiz barədə dediyiniz xoş sözlərə görə Sizə təşəkkür etmək istərdim. Bilirsiniz ki, biz də Özbəkistanda Sizin rəhbərliyinizlə həyata keçirilən dəyişiklikləri diqqətlə izləyirik. Sizin islahatlara, Özbəkistanın coşqun inkişafına yönəlmiş səyləriniz öz səmərəsini verir. Bu gün Sizin ölkəniz haqlı olaraq böyük beynəlxalq nüfuz qazanıb, iqtisadiyyatda və sosial sahədə apardığınız islahatlar təkcə Özbəkistan vətəndaşları arasında deyil, bizdə də böyük əks-səda doğurur. Çünki biz dost, qardaş kimi, həmişə bir-birimizin uğurlarına sevinirik.

Heydər Əlirza oğlu Əliyev haqqında dediyiniz xoş sözlərə görə çox sağ olun. Siz tamamilə haqlısınız. O, özbək xalqına böyük hörmət və məhəbbət bəsləyirdi. Mən hələ yeniyetmə ikən onun Şərəf Rəşidoviç

Rəşidovla sıx dostluq münasibətlərinin şahidi olmuşam. Onlar qardaşcasına dostluq edirdilər və yadımdadır, qondarma yenidənqurma illərində müəyyən dairələrin törətdiyi ədalətsizlik ona çox mənfi təsir göstərmişdi. Söhbət «özbək işi» adlandırılan məsələ barədə idi. Bunu edən «məşhur» adamlar Qdlyan və İvanov idi. Onlar təkcə Özbəkistana deyil, hesab edirəm ki, bizim hamımıza çox böyük ziyan vurdular. Ona görə ki, bu, Sovet İttifaqının türkdilli respublikalarına qarşı məqsədyönlü şəkildə təşkil edilmiş hücum idi. Bu hücum Azərbaycandan da yan keçmədi, burada da təxminən eyni əməlləri həyata keçirməyə çalışırdılar, lakin bunun üçün sadəcə, vaxtları çatmadı.

Münasibətlərimizin gələcəyi barədə isə Siz bizim əməkdaşlıq edəcəyimiz məsələləri çox geniş və ətraflı səciyyələndirdiniz. Əminəm ki, bu gün biz yeni istiqamətlər müəyyənləşdirəcəyik və hər bir istiqamət üzrə bu gün və sabah müvafiq qurumlar görüşəcək, müzakirələr aparacaq və bizi yaxşı nəticələrə doğru yönəldəcəklər. Dəvətə görə sağ olun. Yenidən məmnuniyyətlə qardaş Özbəkistana səfər edərəm.

**Ş a v k a t  M i r z i y o y e v:** Başlıcası, Siz Özbəkistanın həmişə – əvvəllər də, indi də Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bilirsiniz və Siz buna əmin olmalısınız. Bu bizim səmimi arzumuzdur. Çünki Azərbaycanın ərazi bütövlüyü çox mühümdür. Hər şey sülh yolu ilə olmalıdır, Birləşmiş Millətlər Təşkilatının bütün qərarları yerinə yetirilməlidir. İlham Heydər oğlu, biz bunu həmişə dəstəkləmişik və

gələcəkdə də mütləq dəstəkləyəcəyik. Çünki bu bizim qardaş Azərbaycanla bağlı niyyətimizdir.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*14 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Bakıda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. İqtisadi sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu. Bu baxımdan sərmayə qoyuluşu, ölkələrimizin həyata keçirdiyi qlobal enerji layihələrinin rolu, həmçinin ötən il TANAP boru kəmərinin istifadəyə verilməsi, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin fəaliyyəti vurğulandı.*

*Görüşdə müdafiə sənayesi, təhsil, turizm, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu. Söhbət zamanı ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə görüşünün ölkələrarası əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi bildirildi.*

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SOORONBAY JEENBEKOV İLƏ GÖRÜŞ

*14 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Bakıda Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşmüşdür.*

*Azərbaycan Prezidenti Qırğız Prezidentini salamladı.*

**İlham Əliyev:** Hörmətli Sooronbay Şaripoviç, Sizi Azərbaycan torpağında salamlamağa şadam. Biz Sizinlə bir neçə gün əvvəl MDB Sammiti çərçivəsində görüşmüşük. Bu gün biz Sizi Azərbaycanda qəbul edirik. Çox şadam ki, Siz bizə səfər etmisiniz.

Sammit sabah keçiriləcək, amma bu gün görüşüb bizim ikitərəfli münasibətlərimizin perspektivlərini müzakirə etmək üçün yaxşı imkanımız vardır. Biz Sizinlə bu məsələləri artıq keçən il Qırğızıstanın Türk Şurasına üzv olan dövlət başçılarının sammitini qəbul edərkən müzakirə etmişik. Həmin vaxt biz Sizinlə ikitərəfli məsələlərin geniş spektrini müzakirə etdik. Xatırlayıram ki, söhbət çox məhsuldar idi. Bu gün biz dialoqumuzu davam etdiririk. Əminəm ki, bugünkü görüş çərçivəsində biz gələcək qarşılıqlı fəaliyyətin

həm siyasi, həm iqtisadi, həm humanitar, həm də digər sahələrdə vacib məsələlərini müzakirə edəcəyik.

Bizim üçün Qırğızıstan qardaş ölkədir, yaxşı dost, tərəfdaşdır. Əminəm ki, əlaqələrimiz gələcəkdə yalnız möhkəmlənəcək. Həmçinin fürsətdən istifadə edərək, Sizə Türk Şurasına səmərəli sədrliyə görə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan estafeti Qırğızıstandan qəbul edir. Görülmüş belə yaxşı işlər üzərində biz gələn il ərzində ölkələrimiz arasında həmrəyliyi, qarşılıqlı dəstəyi möhkəmləndirməyə, həmçinin əməkdaşlığımızı real məzmunla zənginləşdirməyə səy göstərəcəyik. Əminəm ki, səfəriniz çox məhsuldar, uğurlu olacaq, Azərbaycanla tanış olacaqsınız. Bir daha xoş gəlmisiniz! Sizə ən yaxşı arzularımı bildirirəm.

**Sooronbay Jeenbekov:** Səmimi sözlərə görə çox sağ olun, hörmətli İlham Heydər oğlu, görüşümüzə çox şadam. Biz böyük məmnuniyyətlə Sizinlə Bakı şəhərində Türk Şurasının VII Sammiti çərçivəsində görüşürük. Bu yubiley tarixi hadisədir. Biz əminik ki, sammit çox yüksək səviyyədə keçəcəkdir.

Mən Sizin siyasi iradəniz sayəsində bu yaxınlarda hökumətlərarası birgə Komissiyanın iclasının uğurla baş tutduğunu xüsusilə qeyd etmək istəyirəm. Siz tərəfdən orada Baş Nazirin birinci müavini iştirak edirdi. Mən də Baş Nazirin birinci müavini Yaqub Abdulla oğlunu qəbul etdim. Çox maraqlı, təcrübəli, etibarlı insandır. Biz onunla bir çox məsələləri uzun müddət müzakirə etdik. Əminəm ki, bu iclas bizim

ikitərəfli münasibətlərimizə, xüsusilə ticari-iqtisadi sahədə münasibətlərimizə yeni impuls verəcəkdir.

Bu yaxınlarda Sizin qızınız Leyla Əliyeva bizdə olub və bizim xalqda çox yaxşı təəssürat doğurubdur. O, Olimpiya Komitəsi rəhbərlərinin forumunda iştirak edib. Leyla xanım mənə şeirlər toplusu kitabını hədiyyə etdi. O həmçinin İssık-Kul haqqında da şeir yazıb. Çox səmimi və istedadlı qızdır. Allah cansağlığı versin.

Bildiyiniz kimi, biz də ikitərəfli münasibətlərimizin inkişafına çox böyük əhəmiyyət veririk, biz qardaş, dost ölkələrik. Biz həmişə münasibətlərimizi dəyərləndirir, qiymətləndirir, münasibətlərimizin inamla, fəal və qarşılıqlı maraqlar əsasında inkişaf etməsinə çalışırıq. Bir daha səmimi qəbula və hava limanında dostlarımızın göstərdikləri qonaqpərvərliyə görə sağ olun. Biz orada dost azərbaycanlıların səmimiyyətini hiss etdik. Çox sağ olun.

*Görüşdə bu yaxınlarda Bişkekdə hökumətlərarası birgə Komissiyanın iclasının keçirildiyi qeyd edildi. Söhbət zamanı iqtisadi, ticari və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu.*

## MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ GÖRÜŞ

*14 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Bakıda Macarıstanın Baş Naziri Viktor Orban ilə görüşmüşdür.*

*Dövlət başçısı Macarıstanın Baş Nazirini salamladı.*

**İ l h a m  Ə l i y e v:** Xoş gəlmisiniz, cənab Baş Nazir! Sizi Azərbaycanda görməyimə çox şadam. Çox şadam ki, Siz sabah sammitdə iştirak edəcəksiniz. Bu həm də çox müsbət olan ikitərəfli gündəliyimizi müzakirə etmək üçün yaxşı fürsətdir. Ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir. Mən sizin ölkəyə səfərimi və bizim söhbətlərimizi, həmçinin Avropa İttifaqının tədbirləri çərçivəsində görüşlərimizi xatırlayıram. Sevindirici haldır ki, Macarıstan və Azərbaycan arasında münasibətlər indi çox yüksək səviyyədədir. Əminəm ki, bu səfərdən sonra biz tərəfdaşlığımıza yeni təkan verəcəyik.

**V i k t o r  O r b a n:** Cənab Prezident, bizi burada qəbul etdiyiniz üçün çox sağ olun. Macarlar üçün həmişə sizin paytaxt şəhərinizə gəlmək və illər öncəyə təsadüf edən dostluğumuzu daha da gücləndirmək şərəfdir. Macarıstan 10 il bundan əvvəl ölkənin o qədər də yaxşı iqtisadi durumda olmadığı bir vaxtda sizin yardımınızı və bütün mənalarda göstərdiyiniz dəstəyi xatırlayır. Biz bunu yüksək qiymətləndiririk.

Diplomatik əməkdaşlığımız çox yaxşıdır. İndi isə hesab edirəm, növbəti mərhələdə biz iki ölkə arasında olan iqtisadi əməkdaşlığı daha da artırmalıyıq. Bizim artıq burada yaxşı sərmayə qoyuluşlarımız, yaxşı əməkdaşlığımız vardır. Hesab edirəm ki, iqtisadi cəhətdən iki ölkə arasında əməkdaşlıq çox ümidvericidir. Bizi burada qəbul etməyinizi və Macarıstana münasibətdə xoşməramlı və xoşniyyətli olmağınızı yüksək qiymətləndiririk.

* * *

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi üçün Macarıstanın göstərdiyi dəstək yüksək qiymətləndirildi, iqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## QAZAXISTAN RESPUBLİKASININ BİRİNCİ PREZİDENTİ – ELBASI, TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ FƏXRİ SƏDRİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*14 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Bakıda Qazaxıstan Respublikasının birinci Prezidenti–elbası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Fəxri sədri Nursultan Nazarbayev ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Nursultan Nazarbayevi salamladı.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Nursultan Abişeviç! Sizi yenidən görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz! Sizi – Qazaxıstanın birinci Prezidentini Sizə çox tanış və doğma olan Azərbaycan torpağında qəbul etmək böyük şərəfdir. Mən bu yaxınlarda Sizin ölkəmizə rəsmi səfərinizi, mənim Qazaxıstana səfərimi, beynəlxalq meydanlarda görüşlərimizi xatırlayırdım. Bizdə – Azərbaycanda Sizi ölkəmizin, Azərbaycan xalqının böyük dostu kimi tanıyırlar. Siz beynəlxalq əməkdaşlığın bir çox meydanlarında həmişə bizə dəstək göstərmisiniz. Münasibətlərimizin möhkəmləndirilməsi işinə verdiyiniz böyük töhfəni Azərbaycanda çox yüksək qiymətləndirirlər. Siz Heydər Əliyevlə birgə münasibətlərimizin qurulmasının təməlində dayan-

mısınız. Həmçinin mən Prezident vəzifəsini icra etməyə başlayandan Sizinlə ünsiyyət təcrübəsi mənim üçün çox dəyərli olub. Siz həmişə mənə dəstək göstərmisiniz və aramızda yaxın, deyərdim ki, doğma münasibətlər qurulub. Türkdilli ölkələrin həmrəyliyinin möhkəmləndirilməsi işinə töhfəniz də çox böyükdür. Türk Şurasının yubiley sammitinin Bakıda keçirilməsindən çox məmnunuq. Siz türk dünyası birliyinin möhkəmləndirilməsi işinə yönəlmiş bir çox təşəbbüslərin və addımların təməlində dayanmısınız. Bir daha xoş gəlmisiniz! Dəvəti qəbul edib səfərə gəldiyinizə görə sağ olun.

**Nursultan Nazarbayev:** İlham Heydər oğlu, sağ olun. Həqiqətən də mən müstəqillik illərində, deyəsən, doqquzuncu dəfədir Bakıya gəlirəm. Burada əvvəllər də olmuşam. Sovet dövründə də Heydər Əlirza oğlu ilə bizim ayrıca münasibətlərimiz olub və bu münasibətlər indi də Sizinlə davam edir. Başladığımız münasibətləri Sizinlə davam etdirirəm. Hər dəfə Bakının necə gözəlləşdiyini görürəm. Bunun nə demək olduğunu yaxşı bilirəm. Mən paytaxtı sıfırdan inşa etdim. Siz qədim şəhəri yenidən qurdunuz, bu daha çətindir. Bu gün Bakının siması, eləcə də havası şübhəsiz ki, gözəl və təmizdir. Müasir binalar inşa edilib, bu, ölkənin, dövlətin inkişafından xəbər verir. Sözün düzü, qüdrətli qardaş dövlət olan Azərbaycan məni çox sevindirir. Əgər Heydər Əlirza oğlu indi bunları görsəydi, əlbəttə, heyran qalardı.

Bizim münasibətlərimiz davam edir. Mən ilk dəfədir ki, buraya Prezident qismində deyil, bizdə deyildiyi

kimi, millətin lideri, millətin atası kimi, Konstitusiyanın mənə verdiyi müəyyən səlahiyyətlər çərçivəsində gəlirəm. Mənim varis seçdiyim və təklif etdiyim, xalq tərəfindən seçilmiş Prezidenti dəstəkləyərək, onunla birlikdə müstəqilliyimizi möhkəmləndirmək, iqtisadiyyatı inkişaf etdirmək və bununla da xalqın rifahını yaxşılaşdırmaq istiqamətində işləyirik.

İlham Heydər oğlu, Sizin Qarabağla, Ermənistanla münasibətlərlə bağlı çətin məsələləriniz az olmayıb. Ümumiyyətlə, Azərbaycanın coğrafi mövqeyi hamı üçün maraqlıdır. Lakin qeyd etməliyəm ki, mən qiymət verməyə çalışmıram, amma mənim həyat, siyasi və yaş təcrübəmdən çıxış edərək deməliyəm ki, Azərbaycanda hər şey öz axarında gedir. Başlıcası budur ki, xalq Sizin kursunuzu dəstəkləyir. Prezident və xalq yekdil olduqda, xalqın öhdəsindən gələ bilməyəcəyi güc yoxdur. Buna görə Sizi təbrik edirəm.

Münasibətlərimizə gəldikdə isə onları davam etdirmək lazımdır. İndi imkanlar daha böyükdür. Amma hər halda, Xəzər dənizi ilə ticarətimiz yetərincə deyil. Hərçənd ötən ildə artım yaxşı olub, 58 faiz təşkil edib. Lakin həcm böyük deyil. Odur ki, hökumətlərimiz nə ilə ticarət etməyin və nəyin tədarük olunması üzərində bir daha çalışmalıdır. Logistika yaxşı vəziyyətdə olmayıb. İndi biz sizin vasitənizlə Qafqazdan keçməklə, Qars–Axalkalaki yolu ilə Türkiyəyə, Avropaya çıxa bilərik. Lakin bərə yolları da genişlənib. Biz də öz infrastrukturumuzu Çinə, Sakit okeanadək inkişaf etdirmişik. Beləliklə,

heç bir siyasi və digər problemlər olmadan, ticari və siyasi münasibətləri inkişaf etdirmək üçün bütün imkanlarımız vardır.

Sabah mənim 10 il əvvəl Naxçıvanda təklif etdiyim Türk Şurası toplanacaq. Sağ olun ki, mənə Fəxri sədr olmağı təklif etdiniz. İlham Heydər oğlu, bunu məmnuniyyətlə qəbul edirəm, çünki bizim dövlətlərimiz arasında münasibətlərin möhkəmləndirilməsinə, türkdilli ölkələrin birgə inkişafına kömək etmək istəyirəm. Artıq «türkdilli ölkələr» sözünün nəsə başqa bir formasına, «türk dövlətlərinə» keçmək haqqında düşünmək lazımdır. Dəvətə görə təşəkkür edirəm. Qazaxıstanda Azərbaycanı diqqətlə izləyir, sevir, hörmət edir, qiymətləndirirlər. Biz bu dövlətin inkişafını müşahidə edirik. İlham Heydər oğlu, Sizə uğurlar arzu edirəm.

**İ l h a m Ə l i y e v:** Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə çox sağ olun, Nursultan Abişeviç. Öz növbəmdə, demək istərdim ki, biz şəhər quruculuğunda sizin gözəl Nur-Sultan şəhərinin tikintisi üzrə təşəbbüslərdən nümunə götürmüşük. Bu şəhər haqlı olaraq, Sizin adınızı daşıyır, çünki Siz onu sıfırdan tikmisiniz. Nur-Sultan şəhərində tez-tez olaraq, mən sürətli dəyişiklikləri görmüşəm. Hər dəfə gələrkən, sanki yeni şəhərdəsən. Xüsusilə keçən dəfə Ekspoda olarkən tikintinin miqyasından, memarlıq ustalığının səviyyəsindən və düşünülmüş quruculuqdan heyrətə gəldim. Mən bilirəm ki, Nur-Sultan şəhərində ucaldılan hər bir binanın, bəlkə də yetişdirilən hər bir ağacın arxasında şəxsən Siz dayanmısınız. Sizin

tövsiyəniz, təlimatınız olmadan, bu şəhərsalma ansamblı indiki kimi belə möhtəşəm görünməzdi və orada yaşayanlar üçün də rahat olmazdı. Buna görə də düşünürəm ki, bir çox ölkələr üçün Nur-Sultan şəhəri özündə modernizmi, ənənələri, həmçinin rahatlığı cəmləşdirən müasir şəhərsalma nümunəsidir. Əlbəttə ki, bu gün beynəlxalq məsələlərdə mühüm rol oynayan, fəal inkişaf edən Qazaxıstanın uğurları Sizin adınızla bağlıdır. Qazax xalqının, bizim qardaşlarımızın bəxti gətirib ki, müstəqilliyin astanasında Siz dayanmışdınız. Bunun sayəsində Qazaxıstan bizim və SSRİ-nin digər respublikalarının payına düşən bir çox sarsıntılardan yan keçib. Həmin yerlərdə müstəqilliyin ilk illərində hakimiyyətə bacarıqsız qüvvələr gəlmişdi. Buna görə də biz Sizin Qazaxıstanın inkişafına verdiyiniz töhfəni, Sizin ölkəmizə münasibətinizi çox yüksək qiymətləndiririk. Mən bilirəm ki, Azərbaycanın üzv olmadığı beynəlxalq təşkilatlar çərçivəsində Siz həmişə bizi müdafiə etmisiniz, dəstəkləmisiniz. Bunu Azərbaycanın hər bir vətəndaşı bilir, Sizə böyük hörmət və sevgi ilə yanaşır. Sizi görməyimə çox şadam. Şadam ki, Siz ölkənizin rifahı naminə öz aktiv fəaliyyətinizi davam etdirirsiniz.

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ VII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN ÖLKƏMİZƏ GƏLƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI İLƏ BİRGƏ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*14 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 14-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilmiş VII Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə səfərə gələn dövlət və hökumət başçıları ilə birgə şam yeməyində iştirak etmişlər.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ VII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*15 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə iştirak etmişdir.*

*Əvvəlcə dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Zirvə görüşünü açan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət və hökumət başçılarını salamladı.*

**İlham Əliyev:** Hörmətli Nursultan Abişeviç!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

Mən sizin hamınızı səmimiyyətlə salamlayır və Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm.

Qırğız Respublikasının Prezidenti Sooronbay Şaripoviç Jeenbekova ötən dövr ərzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurlu sədrliyinə görə minnətdarlığımı bildirirəm.

Qazaxıstan Respublikasının birinci Prezidenti, bizim ağsaqqalımız Nursultan Abişeviç Nazarbayev Türk

Şurasının Fəxri sədri statusunda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə iştirak edir.

Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü və Türk Şurasının üzv ölkələri prezidentlərinin birgə qərarı ilə hörmətli Nursultan Abişeviçə Türk Şurasının Fəxri sədri adı verilibdir. Nursultan Nazarbayevin türk dünyasında əlaqələrin inkişafında, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılmasında böyük xidmətləri vardır.

Özbəkistan Respublikasını Türk Şurasına üzv olması münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Hörmətli Şavkat Miromonoviç Mirziyoyevə bu müdrik qərarına görə təşəkkür edirəm. Özbəkistanın bu qərarı türk dünyasında birlik və həmrəyliyin daha da güclənməsinə, əməkdaşlığımızın daha da dərinləşməsinə xidmət edəcəkdir.

Macarıstanın Türk Şurası ilə əməkdaşlığının genişlənməsi məmnunluq doğurur. Burada Macarıstanın Baş Naziri cənab Viktor Orbanın şəxsən rolunu xüsusi qeyd etmək istərdim. Ötən ay Budapeştdə Türk Şurasının nümayəndəliyinin ofisi fəaliyyətə başlayıb. Ümidvaram ki, bu ofis Şuranın Avropa ölkələri və regional təşkilatlarla əlaqələrinin inkişafına təkan verəcəkdir.

İndi isə sözü Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının hazırkı sədri qismində Qırğız Respublikasının Prezidenti Sooronbay Şaripoviç Jeenbekova verirəm.

## Qırğız Prezidenti Sooronbay Jeenbekovun çıxışı

Hörmətli dövlət başçıları!

Hörmətli görüş iştirakçıları!

Xanımlar və cənablar!

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə sizinlə görüşməyə çox şadam.

Mən ilk növbədə, Azərbaycan Prezidenti cənab İlham Əliyevə qonaqpərvərliyə və bu görüşün yüksək səviyyədə təşkil edilməsinə görə təşəkkürümü bildirmək istəyirəm. Çox şadam ki, Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyev təşkilatımızın tamhüquqlu üzvü kimi, bizə qoşulub. Mən həmçinin Qazaxıstanın birinci Prezidenti cənab Nazarbayevi bizim Şuranın Fəxri sədri kimi, bu Zirvə görüşündə iştirakı münasibətilə təbrik edirəm. Bu Şura onun təşəbbüsü və ideyası əsasında yaradılıbdır. Cənab Nazarbayev, Siz bu Şuranın yaradılmasına böyük töhfə vermisiniz. Düşünürəm ki, cənab Nazarbayevə bizim Şuranın ömürlük Fəxri sədri adının verilməsi çox düzgün qərar olubdur.

Bu il təşkilatımızın yaradılmasından 10 il ötür və çox rəmzi haldır ki, bugünkü Zirvə görüşümüz Azərbaycanda keçirilir. Bizim təşkilatla eyni vaxtda Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu və digər təşkilatlar da yaradılıbdır.

Hörmətli həmkarlar, Qırğızıstanın təşkilatımızda sədrlik dövrü başa çatmaq üzrədir və biz ölkələrimiz arasında qarşılıqlı dostluq münasibətlərinin

möhkəmləndirilməsi üçün əlimizdən gələni etmişik. Bizim Şuranın yaradıldığı vaxtdan təşkil edilmiş 55 tədbirdən 15-i Qırğızıstanda keçirilib. Qırğızıstanın sədrliyi dövründə Özbəkistan Şuranın tamhüquqlu üzvü olub, Macarıstan isə bizim təşkilatda müşahidəçi statusu əldə edibdir. İnanırıq ki, bizim Şuranın Budapeştdə açılmış nümayəndəliyi türk dövlətlərinin və Avropa ölkələrinin sivilizasiyaları arasında qarşılıqlı münasibətlərin və əlaqələrin daha da möhkəmləndirilməsində mühüm rol oynayacaqdır. Zənnimcə, Özbəkistanın və Macarıstanın iştirakı ilə bizim bütün qarşılıqlı münasibətlərimiz yeni təkan alacaq. İnanıram ki, biz gələcəkdə ölkələrimizin inteqrasiyasına və yeni mühüm sənədlərin qəbul edilməsinə nail olacağıq. Biz ölkələrimiz arasında investisiya-inteqrasiya fondu yarada bilmişik. Nəqliyyat və sənaye sahələrində çalışırıq, Qırğızıstan həm də İslam Əməkdaşlıq Təşkilatında bizim Şuranın müşahidəçi statusu alması üçün ərəb ölkələri ilə çox səmərəli iş aparır. Katiblik bu istiqamətdə işini davam etdirməlidir. Oş şəhəri türk dünyasının mədəniyyət mərkəzi seçilib. Biz bir sıra mədəni-etnoqrafik tədbirlər, həmçinin «Oş Türk sivilizasiyasının paytaxtıdır» adlı tədbir keçirmişik. Bu tədbirlərin təşkilində göstərdiyiniz dəstəyə görə sizin hamınıza təşəkkür edirəm. Ümidvaram ki, bu Zirvə görüşünün nəticəsi kimi, biz bir sıra yeni sənədlər qəbul edəcək və ticari-iqtisadi, investisiya əməkdaşlığının potensialını artıracağıq. Kiçik və orta müəssisələrin dəstəklənməsi xüsusilə vacibdir. Qeyd etdiyim kimi, Qırğızıstan bizim türkdilli ölkələrdən olan

tərəfdaşlarımız üçün həmişə açıq olacaq. Hazırda Qırğızıstan ilə Türkiyə, Qazaxıstan və Özbəkistan arasında çoxsaylı müştərək müəssisə vardır. Biz Azərbaycandan və Macarıstandan olan tərəfdaşlarımızla işgüzar qarşılıqlı münasibətlərin inkişafında da maraqlıyıq. Bu gün mən informasiya-telekommunikasiya texnologiyaları sahəsində və «yaşıl» iqtisadiyyatın inkişaf etdirilməsində ölkələrimiz arasında əməkdaşlığı gücləndirməyi təklif edirəm.

Qeyd etmək istəyirəm ki, ölkələrimizin məcmu ümumi daxili məhsulunun həcmi təqribən 1,5 trilyon dollara bərabərdir. Buna görə də biz əməkdaşlığı gücləndirməli və potensialımızdan istifadə etməliyik. Qırğızıstan bu istiqamətdə uğurla işləyir, nəqliyyat dəhlizlərini genişləndirir, enerji müəssisələri inşa edir, yüngül sənayeni və kənd təsərrüfatını inkişaf etdirir. Biz logistika, nəqliyyat, turizm, innovasiya texnologiyaları kimi sektorları da uğurla inkişaf etdiririk. Bütün bu istiqamətlərdə sizinlə işləməyə hazırıq. Qırğızıstan və Qazaxıstanın Avrasiya İqtisadi İttifaqında üzv olması sayəsində 190 milyon əhalini əhatə edən bazar bizim tərəfdaşlarımız üçün əlçatan olub. İqtisadi əməkdaşlığın inkişafı baxımından bizim təşkilatın hələ istifadə edilməyən potensialı çoxdur. Bizim əməkdaşlığın daha bir istiqaməti Dünya Köçəri oyunların təşkilidir. Biz bu oyunların keçirilməsi estafetini Türkiyəyə vermişik. Düşünürəm ki, Türkiyənin böyük nüfuzu Köçəri oyunların bütün dünyada populyarlaşmasına yeni təkan verə biləcək. Sizin

hamınızı növbəti Köçəri oyunlarda fəal iştiraka dəvət edirəm.

Hörmətli həmkarlar, mən təşkilatımızda sədrliyi Azərbaycan Respublikasına verirəm. İlham Heydər oğlunun iqtisadi islahatları və investisiyaların cəlb edilməsi siyasəti artıq öz bəhrəsini verir. Bu gün Azərbaycan dünya siyasətində xüsusi və mühüm yer tutur. Biz qardaş Azərbaycanın uğurları barədə bütün xəbərləri sevinclə qarşılayırıq. İnanıram ki, Azərbaycanın sədrliyi ilə iqtisadiyyatın, ticarətin, investisiyaların və digər sahələrin inkişafı üzrə əməkdaşlıq daha da güclənəcək. Mən inanıram ki, Azərbaycanın sədrliyi səmərəli olacaq. Fikrimcə, bizim daha da inkişaf etmək üçün çox böyük imkanlarımız vardır. Əgər biz bütün potensialımızdan və imkanlarımızdan istifadə etsək, ölkələrimizin əməkdaşlığı əhalinin həyat şəraitini yaxşılaşdıracaq. İndi isə çıxış üçün mənim qardaşım və dostum – Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının yeni sədri cənab İlham Heydər oğlu Əliyevə söz vermək istəyirəm.

Buyurun, cənab Prezident.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Təşəkkür edirəm, hörmətli Sooronbay Şaripoviç!

Hörmətli həmkarlar!

Qırğızıstandan Türk Şurasına sədrliyi qəbul edən Azərbaycan bu müddət ərzində ölkələrimiz arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqa-

mətində öz səylərini göstərəcəkdir. Bizi birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

Türk Şurasının VII Zirvə görüşü Naxçıvan Sazişinin imzalanmasının onuncu ildönümünə təsadüf edir. 2009-cu ilin oktyabrında dövlət başçılarının Azərbaycanın qədim şəhəri Naxçıvanda keçirilmiş Zirvə görüşündə ölkələrimiz arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradıldı. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Ancaq Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk. Bu mənada Türk Şurasının yaradılmasına dair qərarın məhz Naxçıvanda keçirilmiş Zirvə görüşündə qəbul edilməsi türk dünyası üçün böyük rəmzi əhəmiyyətə də malikdir.

Ötən 10 il ərzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bir təşkilat kimi, əhəmiyyətli inkişaf yolu keçibdir. Şura ölkələrimiz arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya və kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafında mühüm rol oynayır. Türk Şurasının mötəbər beynəlxalq təşkilatlarla əlaqələri genişlənir. Hazırda BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarla səmərəli

əməkdaşlıq mövcuddur. TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası zəngin mədəni irsimizin tədqiqi, maddi və mənəvi dəyərlərimizin dünya səviyyəsində təbliğində əhəmiyyətli rol oynayır.

Mənim sərəncamımla 2019-cu il Azərbaycanda «Nəsimi ili» elan olunub. Bu günlərdə növbəti Nəsimi festivalı təntənəli şəkildə keçirilib. Təqdirəlayiq haldır ki, TÜRKSOY dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə 2019-cu ili «Nəsimi ili» elan edib. Türkdilli Ölkələrin Parlament Assambleyası uğurla fəaliyyət göstərir və bir neçə parlamentlərarası təşkilatlarla sıx əməkdaşlıq edir. Mədəniyyət, elm, təhsil, turizm, gənclər və idman kimi sahələrdə birgə fəaliyyətimiz xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin daha da dərinləşməsinə xidmət edir.

Zirvə görüşlərimiz ənənəvi olaraq əməkdaşlığımızın müxtəlif sahələrini əhatə edən mövzulara həsr olunur. Builki tədbirimizin «Kiçik və orta sahibkarlığın inkişafı» adlanan mövzusu mühüm aktuallıq kəsb edir. 2017-ci ildə Azərbaycanda Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. Agentliyin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsidir. Ölkə daxilində və xaricində geniş fəaliyyət imkanlarına malik güclü sahibkarlar sinfi formalaşıb. Sahibkarlığın İnkişafı Fondu tərəfindən indiyədək 36 min sahibkara 1,4 milyard ABŞ dolları həcmində güzəştli kredit ayrılıb. 2018-ci ildə özəl sektorun ölkəmizin ümumi daxili məhsulunda payı 85 faiz təşkil edib.

Son 16 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Ölkəyə 270 milyard dollardan çox sərmayə qoyulub ki, bunun yarısı xarici sərmayədir. Azərbaycan xarici borcu az olan dövlətdir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada 9-cu yerdəyik.

İqtisadi sahədə aparılmış islahatlar beynəlxalq təşkilatlar tərəfindən də təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə «Doing Business» hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Hazırda Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir. Belə ki, Azərbaycanın Türkiyə iqtisadiyyatına sərmayəsi 15 milyard ABŞ dolları, Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulmuş sərmayəsi isə 12 milyard ABŞ dolları təşkil edir.

Tarixən qədim İpək yolunun üzərində yerləşən ölkələrimiz arasında nəqliyyat sahəsində əməkdaşlıq təbii ki, əsas istiqamətlərdən biridir. Azərbaycan Şərq–Qərb nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. 2017-ci ilin oktyabr ayında istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu tarixi İpək yolunun bərpasına bizim müştərək töhfəmizdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 15 milyon ton yük və 100 min konteyner yükaşırma qabiliyyətinə malikdir. Ehtiyac olduğu təqdirdə limanın yükaşırma qabiliyyəti 25 milyon ton yük və 1 milyon konteynerə kimi artırıla bilər. Azərbaycan etibarlı tranzit ölkəsi olaraq, türkdilli ölkələrin dünya bazarlarına çıxışı üçün

səylərini davam etdirir. 2018-ci ildə türkdilli ölkələrdən 8 milyon ton yük Azərbaycan vasitəsilə daşınıbdır.

Biz enerji sahəsində əməkdaşlığa böyük əhəmiyyət veririk. Azərbaycan bu sahədə də öz imkanlarını təqdim edir. Mərkəzi Asiyadan olan tərəfdaşlarımızın enerji resurslarının bir hissəsi Azərbaycan vasitəsilə dünya bazarlarına nəql edilir.

Biz ölkələrimizə xaricdən turistlərin cəlb edilməsi və ölkələrimiz arasında turist axınını təşviq etmək üçün səylərimizi artırmalıyıq. 2019-cu ilin 9 ayında Azərbaycana ümumilikdə 2 milyon 400 min turist səfər edib ki, onlardan 330 mini türkdilli ölkələrin payına düşür. 2018-ci ilin eyni dövründə isə bu rəqəm 285 min idi.

Ölkələrimiz arasında təhlükəsizlik sahəsində əməkdaşlıq genişlənir. Ötən ay Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 22-ci iclası Bakıda keçirildi. Ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi və regional sabitliyin təmin olunması baxımından bu sahədə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

Bildiyiniz kimi, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın destruktiv siyasətinə görə irəliləyiş yoxdur. Ermənistan 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir. İşğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın

və məcburi köçkün vəziyyətinə düşübdür. Həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi mədəni irs, islam abidələri və məscidlərimiz dağıdılıb və məhv edilibdir.

Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilmiş bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilib. Bu qətnamələrdə işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və tam çıxarılması birmənalı olaraq tələb edilir. Eyni zamanda, «Qoşulmama Hərəkatı», ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatlar buna oxşar qərar və qətnamələr qəbul edibdir. Ermənistan bu qətnamə və qərarların tələblərinə məhəl qoymur, beynəlxalq hüquqi öhdəliklərin icrasından boyun qaçırır.

Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşlərinin yekun bəyanatlarında da dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək davamlı olaraq təsbit edilir. Fürsətdən istifadə edərək, mən Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü

çərçivəsində ədalətli həllini dəstəkləyən tərəfdaşlarımıza təşəkkür edirəm.

Azərbaycan bu gündən Türk Şurasına sədrliyi öz üzərinə götürür. Sizi əmin edirəm ki, Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

*Sonra Azərbaycan Prezidenti çıxışına əlavə etdi.*

– Hörmətli həmkarlar! İndi isə Türk Şurasının təsis etdiyi Türk Dünyasının Ali ordenini Nursultan Abişeviç Nazarbayevə təqdim etmək istərdim.

*Prezident İlham Əliyev Türk Dünyasının Ali ordenini Nursultan Nazarbayevə təqdim etdi.*

*Qazaxıstanın birinci Prezidenti və Türk Şurasının Fəxri sədri Nursultan Nazarbayev görüşdə çıxış etdi.*

**Nursultan Nazarbayevin çıxışı**

Hörmətli dövlət və hökumət başçıları, əziz dostlar!

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə iştirak etməkdən məmnunam. Azərbaycan torpağında ənənəvi qonaqpərvərliyə və bu tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident İlham Heydər oğlu Əliyevə səmimi minnətdarlığımı bildirmək istərdim.

Şavkat Miromonoviç Mirziyoyevi və qardaş özbək xalqını Türk Şurasına tamhüquqlu üzv kimi daxil

olması münasibətilə təbrik edirəm. Bu, bütün türkdilli ailə üçün çoxdan gözlənilən tarixi hadisədir.

Zirvə görüşündə müşahidəçi qismində ilk dəfə iştirak edən Macarıstanın Baş Naziri, dostumuz Viktor Orbanı təbrik edirəm. Budapeştdə Türk Şurası nümayəndəliyinin açılması Macarıstan hökumətinin mühüm addımıdır. Həmin nümayəndəlik bizim fəaliyyətimizi Avropa istiqamətində genişləndirəcək. Sooronbay Şaripoviç Jeenbekov başda olmaqla, Qırğızıstanın Şuradakı sədrliyinin yekunlarını yüksək qiymətləndirirəm.

Qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana mənə Türk Şurasının Fəxri sədri statusu verilməsi təklifinə görə xüsusi minnətdarlığımı bildirirəm. Bu təşəbbüsü dəstəklədiyinizə görə hamınıza minnətdaram. Belə yüksək mükafatla təltif edildiyimə görə təşəkkür edir və hamınızın qarşısında baş əyirəm. Bu mənə təşkilatın işində fəaliyyətimi davam etdirməyə imkan verəcək. Mən bunun üçün var qüvvəmi sərf etməyə hazıram.

Bildiyiniz kimi, mən Prezident səlahiyyətlərini böyüməkdə olan nəslə vermişəm və buraya birinci Prezident, elbası kimi gəlmişəm. Mən 30 ilə yaxın Qazaxıstana rəhbərlik etmişəm. Bu illər ərzində bizim iqtisadiyyatımız 20 dəfə, ölkənin rifahı 19 dəfə artıb və biz tədricən inkişaf etmiş ölkələrə yaxınlaşırıq. Bu müddət ərzində bizim çox böyük uğurlarımız olubdur.

Hörmətli Zirvə görüşü iştirakçıları! 2006-cı ildən başlayaraq Jeenbekov və Ərdoğan, Mirziyoyev və Orban isə ötən il Çolpan-Atadakı görüşlərdə iştirak edirlər. Mərkəzi Asiyada yeni müstəqil dövlətlərin

tarixinin yalnız ilk ayları gedirdi, amma biz artıq qardaş xalqlarımız arasında dilin, mədəniyyətin və ənənələrin eyniliyinə əsaslanan münasibətlər qurulmasının əhəmiyyətini dəqiq başa düşürdük. Buna görə də bütün qardaş ölkələr Ankara Bəyanatını imzaladılar. Bunun vasitəsilə biz geniş türk dünyasında qarşılıqlı əməkdaşlığımızı inkişaf etdirmək üçün iradə və qətiyyətimizi ifadə etdik. Türkdilli dövlətlərin başçıları müxtəlif heyətlərdə Azərbaycanda, Türkiyədə, Qırğızıstanda, Özbəkistanda və Qazaxıstanda 10-a yaxın görüş keçiriblər. Görüşlərin dəyişkən nəticələrinə bizim ölkələrimizin daxili inkişafının cürbəcür gündəlikləri və xarici siyasət konyunkturası təsir edibdir.

10 il əvvəl Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında əsas sənədi təsdiq etdik. Beləliklə, əlaqələrimizin yeni, daha düşünülmüş və praqmatik mərhələsinə start verildi. Məhz bu yanaşma bizə indiki yubiley tədbirinə yaxşı nəticələrlə gəlməyə imkan verdi. Əvvəla, biz təşkilatın həm qlobal kontekstdə, həm də özümüz üçün zəruriliyini və aktuallığını sübut etməyə nail olduq. İkincisi, Şura Özbəkistanın və Macarıstanın hesabına genişləndi ki, bu da bizim birgə salnaməmizdə yeni səhifə açdı. Üçüncüsü, ölkələr tərəfindən sanballı institusional struktur yaradıldı. Bu struktura TürkPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Ağsaqqallar Şurası, eləcə də Türk Ticarət-Sənaye Palatası daxildir. Dördüncüsü, Şuranın siyasi və iqtisadi nüfuzu regional və beynəlxalq səviyyələrdə artır.

Beşincisi, türk dünyası inteqrasiyasının konsepsiyası qəbul olunub. Həmin sənəd əsasən türkdilli ölkələrin çoxplanlı qarşılıqlı fəaliyyətini perspektivdə keyfiyyət cəhətdən daha yüksək səviyyəyə çıxaracaqdır.

Hörmətli dostlar, türk sivilizasiyasının dərin kökləri vardır. Əgər tarixə müraciət etsək, biz planetin ən böyük qitəsində həmişə mühüm rol oynamış xalqların xələfləriyik. Türk dünyasının müasir mərhələdə də əhəmiyyətini dərk etmək üçün dünyanın coğrafi xəritəsinə baxmaq kifayətdir. Xüsusilə qeyd etmək istərdim ki, mən ötən müddət ərzində – 1992-ci ildən 2019-cu ilə qədər 25 ildən artıq müddətdə – müxtəlif heyətlərlə türkdilli dövlət başçılarının 17 görüşünün hamısında iştirak etmişəm. Mən bunları əxz etmişəm: məsələn, «türk» sözü – bu sözün hər bir hərfinin mənim üçün xüsusi mənası vardır. Birinci «t» hərfi – «trast», yəni inamdır, «ü» – «uniti», yəni birlik, «r» – renessans, yəni intibah və sonuncu «k» hərfi – «kinşil», yəni qohumluq. Bu anlayışa əsaslanaraq, mənim birlik daxilində işimin məqsədi ölkələrimizi yaxınlaşdırmaq olub və buna görə də mən çox şadam ki, birgə səylərlə bu məqsədə nail olmuşuq. Bizim 160 milyona yaxın sayda qardaşlıq ailəmiz möhkəmlənir, genişlənir və inkişaf edir. Bununla yanaşı, hamımız bilirik ki, bu gün dünyada iri dövlətlər arasında qarşıdurma və etimad böhranı nəticəsində mürəkkəb geosiyasi vəziyyət yaranıb. Bəzən bizim Şuranın ölkələri arasında da öz həllini tələb edən məsələlər yaranır. Əlbəttə, belə şəraitdə biz əllərimizi yanımıza salıb oturmuruq. Birlikdə həll yollarını tapmışıq və həll etmişik. Həmişə də belə olmalıdır.

Məsələn, türk dünyasının inteqrasiya konsepsiyasının qəbul olunması və mənim Çolpan-Atada Türk Əməkdaşlıq təşkilatlarının islahatları barədə təkliflərimlə əlaqədar bizim addımlarımız həmin çağırışlara cavab oldu. Güman edirəm ki, bizim hamımızın növbəti səviyyəyə, yəni ümumtürk gələcəyin yeni üfüqlərinin formalaşdırılmasına başlamağa keçmək vaxtıdır. Bununla əlaqədar, mənim iki təklifim vardır. Birincisi, «Türk baxışı–2040» proqramını hazırlamaq. Bu proqramda türkdilli birliyin uzunmüddətli məqsədləri və onlara nail olmaq yolları əksini tapmalıdır. Beləliklə, biz xalqlarımıza göstərilən dövr üçün türk inteqrasiyasının təxmini obrazının cizgilərini təqdim edərik. Bununla da biz, həmçinin xarici siyasət və ticarətin yumşaq gücü, tranzit və turizm, investisiya, energetika, «yaşıl» iqtisadiyyat, kiçik və orta biznes kimi prioritet sahələrdə ölkələrin qarşılıqlı fəaliyyətinə yeni impuls verərik. Proqrama, həmçinin mədəniyyət və təhsil, gənclər siyasəti və səhiyyə, rəqəmsallaşdırma və «süni intellekt», eləcə də türk beşiyi – Türküstan şəhərinin inkişafı bölmələrini daxil etmək zəruridir. Hazırda Qazaxıstan həmin şəhərdə nəhəng tikinti işlərinə başlayıb. Sənəddə müvafiq təhlil aparıldıqdan sonra indiki və əvvəlki görüşlərdə irəli sürülən təşəbbüslərin gerçəkləşdirilməsi üzrə «Strateji Yol Xəritələri» də öz əksini tapmalıdır. Həm də sənədin bizim dövlətlərin milli inkişaf proqramları ilə əlaqəsini təmin etmək zəruridir. Bununla yanaşı, biz həm də birliyin açıqlığını təmin etməli və qapalı blok yaratmağa şirniklənməməliyik. İkincisi, perspektivdə Şuranın adının dəyişdiril-

məsi məsələsinə nəzər yetirmək lazımdır. Bizim təkcə dilimiz deyil, həm də tariximiz, mədəniyyətimiz, dünyagörüşümüz və ənənələrimiz də eyni mənbədən qidalanır. Buna əsaslanaraq, türk inteqrasiyasının uğuru təkcə bizim ailələrimiz üçün deyil, həm də bütün Avrasiya məkanında təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi üçün strateji əhəmiyyətə malikdir. XXI əsr bizə belə imkan verir və bundan tam istifadə etmək lazımdır. Həm də hesab edirəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasını təşkilat səviyyəsinə qədər yüksəltmək olar. Beləliklə, əgər bizim Şuramız təşkilata çevrilsə, qurumumuzu türkdilli deyil, Türk Dövlətləri Təşkilatı adlandırmaq olar. Biz bilirik ki, vahid köklərə malikik, amma ötən əsrlər, ötən dövr ərzində bizim ölkələrimiz öz yolunu dəyişib. Köklərimiz eynidir, türk dövlətləri adlandırılmalıyıq.

Hörmətli görüş iştirakçıları, türk inteqrasiyasının möhkəmləndirilməsi və inkişafı yolunda əməyimi yüksək qiymətləndirməyiniz mənim üçün böyük şərəfdir. Ümid edirəm ki, biz gələcəkdə də sizinlə birlikdə yeni zirvələr fəth edəcəyik və mən bu yolda sizə kömək etməyə və dəstək göstərməyə həmişə hazıram.

Diqqətinizə və mənə göstərdiyiniz hörmətə görə təşəkkür edirəm.

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Hörmətli prezidentlər!

Hörmətli qurucu Prezident!

Hörmətli Baş Nazir!

Hörmətli nazirlər, əziz qardaşlarım!

Sizi ən səmimi hisslərimlə, məhəbbətlə və hörmətlə salamlayıram. Türk Şurasının VII Zirvə görüşü ilə əlaqədar Odlar yurdu can Azərbaycanın paytaxtı Bakıda olmaqdan böyük məmnunluq duyuram. Zirvə toplantısına ev sahibliyi edən İlham Əliyev qardaşıma qonaqpərvərliyinə görə təşəkkürümü bildirirəm.

Fürsətdən istifadə edərək, Türk Şurasına sədrliyi ötən il uğurla öz üzərinə götürən möhtərəm qardaşım Prezident Jeenbekovu təbrik edirəm.

Naxçıvan Sazişinin 10-cu ildönümünə təsadüf edən və əziz qardaşım Şavkat Mirziyoyevin də aramızda tamhüquqlu üzv olaraq qatıldığı bu Zirvə görüşü həqiqətən, tarixi əhəmiyyətə malikdir. Özbəkistana ürəkdən «Aramıza xoş gəldiniz!» – deyirəm.

Bu Zirvə görüşünü tarixi edən digər bir məqam isə türk dünyasının ağsaqqalı, Qazaxıstan Respublikasının qurucu Prezidenti əziz qardaşım elbası Nazarbayevə minnətdarlığımızın bir göstəricisi olaraq, təklifim əsasında Türk Şurasının Fəxri prezidenti adının təqdim edilməsidir. Hörmətli ağsaqqalım, zati-alinizə təqdirlərimi və təbriklərimi ifadə edirəm.

Macarıstanın Baş Naziri əziz dostum cənab Viktor Orbanı bu il aramızda görməkdən bir daha böyük məmnunluq duyuram. Fürsətdən istifadə edib baş katibimiz hörmətli Bağdad Amreyevə və komandasına əzmkar səylərinə görə təşəkkür edirəm.

Hörmətli qardaşlarım, Türk Şurası kimi təsisatların dünya siyasətində rolunun daha da artdığını görürük.

Türk Şurasının digər çoxtərəfli platformalarla əməkdaşlığına və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməsinə önəm veririk. Şuranın BMT Baş Assambleyasında və İslam Əməkdaşlıq Təşkilatında müşahidəçi statusuna sahib olmasını arzu edirik. Beləliklə, türk dünyasında ortaq bir fondun qurulması təklifini dəstəkləyirik. Ancaq əvvəlcə bu fondun maliyyə, hüquqi və inzibati təməlləri sağlam qoyulmalıdır. Bu məsələdə katibliyin əlaqələndirməsi ilə aidiyyəti milli və beynəlxalq qurumların da təcrübəsindən istifadə edilərək, genişmiqyaslı iş görülməsinin faydalı olduğunu düşünürük.

Beynəlxalq ticarətin dollar əsaslı olması qeyri-müəyyənlik şəraitində risklər yaradır. Buna görə iqtisadiyyatlarımız üzərindəki valyuta təsirini azaldacaq mexanizmləri tətbiq etməliyik. Yerli valyutalarla ticarətə əhəmiyyət verdiyimizi xüsusilə qeyd etmək istəyirəm.

Hörmətli qardaşlarım, şərq–qərb istiqamətində orta dəhliz üzərindən Xəzərdən və Türkiyə ərazisindən keçən nəqliyyat marşrutları böyük potensiala malikdir. Bu marşrutdan tam mənasında istifadə etməyimiz gömrüklərimiz arasında əməkdaşlığın inkişafından asılıdır. Təəssüf ki, kvotalar ticarətimizin qarşısında duran ən böyük maneələrdən biridir. Türk Şurası olaraq, aramızdakı kvotaları ortadan qaldırmalıyıq. Bundan başqa, diasporlarımızın birgə fəaliyyət göstərmələrinə dair layihələrə də önəm verməliyik.

Hazırda Türk Şurasına üzv ölkələrdən təxminən 1300 tələbəyə Türkiyə təqaüdləri ilə universitetlərdə təhsil almaq imkanı təqdim edirik. Türkiyə universitetlərindən məzun olan on minlərlə tələbəmiz, şükür olsun, bu gün həkim, mühəndis, məmur, siyasətçi kimi türk dünyasına qürurla xidmət edir. Başda mədəniyyət və təhsil olmaqla elm, tarix, gənclər, idman, arxiv, kitabxanaçılıq kimi sahələrdəki fəaliyyətimizi genişləndirərək, davam etdirməliyik. Beləliklə, mərkəzi Bakıda yerləşən TürkPA-nı, Türk Mədəniyyəti və İrsi Fondunu, Astanadakı Türk Akademiyasını və Ankarada fəaliyyət göstərən TÜRKSOY-u hamımız birlikdə dəstəkləməliyik. Bu təşkilatlarımız arasında əlaqələri genişləndirəcək əlaqələndirmə komitəsinin yaradılmasına dair qərarı Zirvə görüşündə qəbul etməyi nəzərdə tuturuq.

Müasir dövrdə bölgəmizdə sülhə və əmin-amanlığa ən böyük təhdid mənbəyi terror təşkilatlarıdır. PKK/YPG, İŞİD, FETÖ kimi şər şəbəkələrinin mövcudluğu təhlükəsizlik sahəsindəki əməkdaşlığımızın əhəmiyyətini artırıbdır. Suriyada son 8 ildir yaşadıqlarımız isə bir terror təşkilatının əli ilə digərinin məhv edilməsinin mümkün olmadığını göstərdi. Ölkə olaraq, PKK/YPG-ni ortadan qaldırmaq məqsədilə oktyabrın 9-da çox mühüm bir addım atdıq. «Sülh çeşməsi» əməliyyatımızın 2 əsas məqsədi vardır. Bunların birincisi, Suriyanın şimalındakı PKK/YPG-dən gələn terror təhdidinin tamamilə aradan qaldırılmasıdır. Əməliyyatımızın ikinci qayəsi isə 8 ildir müsafir etdiyimiz 3 milyon 650 min suriyalı ərəbin öz ölkələrinə, vətənlərinə sağ-salamat qayıda bilmələrini təmin

etməkdir. Bundan başqa, təxminən 350 min suriyalı kürdü ölkəmizdə qonaq qəbul etmişik.

Bu gün əməliyyatın yeddinci günündəyik. Əməliyyatımız BMT Baş Assambleyasının 74-cü toplantısında bütün dünyaya nümayiş etdirdiyimiz təhlükəsiz bölgə xəritəsinə uyğun şəkildə uğurla davam edir. Bu gün səhərədək təxminən 1000 kvadratkilometrlik ərazini separatçı terror təşkilatının işğalından azad etdik. İnşallah, qısa zamanda Münbiçdən İraqla sərhədimizə qədər olan bölgəni təhlükəsiz vəziyyətə gətirib ilk mərhələdə 1 milyon, daha sonra 2 milyon suriyalı qaçqının öz istəkləri ilə evlərinə qayıtmalarını təmin edəcəyik. Afrin, Cerablus, Azezdə olduğu kimi, burada da beynəlxalq dəstəklə infrastruktur, məktəb, xəstəxana və ev layihələri ilə sabitliyi təmin edəcəyik.

Suriyanın şimalı sülh çeşmələri ilə yenidən cücərənə, hədəflərimizə çatana qədər mübarizəmizi davam etdirəcəyik. Ulu əcdadımız Dədə Qorqudun dediyi kimi, «Yaxşı dost yaxşı gündə çağırılanda, pis gündə isə çağırılmadan gələndir». Bəli, Türkiyənin terrora qarşı apardığı ölüm-dirim mübarizəsində siz qardaşlarımdan çox güclü həmrəylik gözləyirik. Əməliyyatın başlandığı andan etibarən Türkiyəyə dəstək verən bütün liderlərə buradan bir daha təşəkkür edirəm. 300 milyonluq türk dünyasındakı hər bir qardaşımın qəlbinin bizimlə döyündüyünü, ölkəmiz və qəhrəman ordumuz üçün dua etdiyini çox yaxşı bilirəm. Eyni qaydada 15 iyul gecəsi 251 insanımızı şəhid edən, 2193 insanımızı yaralayan FETÖ təşkilatı ilə mübarizədə ölkəmizə verdiyiniz dəstəyi davam

etdirməyinizi xahiş edirik. Türkiyə Maarif Fondu vasitəsilə əlimizdən gələn hər cür töhfəni verməyə hazırıq.

Hörmətli qardaşlarım, milli mübarizələrimizdə bir-birimizin yanında durmaq qardaşlığımızın borcudur. Azərbaycanın əzəli torpağı Dağlıq Qarabağın və ətrafının Ermənistanın işğalı altında qalması 1 milyondan çox qardaş-bacımızı evlərindən, yurdlarından uzaqda qaçqın və köçkün vəziyyətində yaşamağa məcbur edib. BMT Baş Assambleyasındakı nitqimdə də dediyim kimi, bu, qəbuledilməz bir vəziyyətdir. Dağlıq Qarabağ probleminin ən qısa müddətdə sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməsi üçün əlimizdən gələn səyləri göstərməyə davam edəcəyik. Türk dünyasının əsas hissəsi olan Kipr türkləri problemin həll olunmamasından hələ də əziyyət çəkirlər. Gözləntimiz kiprli türklərin məruz qaldıqları haqsız təcrid və embarqonun aradan qaldırılmasına yardım etməyinizdir.

Bu düşüncələrlə çıxışımı yekunlaşdırarkən Türk Şurasının bu günlərə gəlməsində əməyi olan hər kəsə təşəkkürlərimi bildirirəm. İnşallah, gələn il Türkiyədə keçiriləcək VIII Zirvə görüşümüzdə Türkmənistanı da tamhüquqlu üzv olaraq aramızda görəcəyimizə inanıram.

Zirvə görüşümüzün xeyirli olmasını diləyir, Sizin vasitənizlə türk dünyasındakı bütün qardaşlarıma buradan salam və sevgilərimi göndərir, Türkmənistanın

iştirakı ilə də, bəli, «altı dövlət – bir millət» olmağı arzu edirik.

Allah köməyiniz olsun. Təşəkkür edirəm.

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin çıxışı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli dövlət və hökumət başçıları!

Əziz dostlar!

Hər şeydən əvvəl icazə verin, bu görüşün yüksək səviyyədə təşkilinə və bizə mehriban qonaqpərvərlik göstərildiyinə görə Azərbaycan xalqına və şəxsən zati-aliləri Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirim. Zati-aliləri Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında son 1 il ərzində uğurlu sədrliyinə görə təbrik edirəm. Həmkarlarımın rəylərinə qoşularaq, bizim təşkilatın əsasını qoyanlardan biri, onun inkişafında böyük rol oynamış Qazaxıstan Respublikasının birinci Prezidenti – elbası hörmətli Nursultan Abişeviç Nazarbayevin Türk Şurasının Fəxri sədri seçilməsini tam dəstəkləyirəm.

Həqiqətən, bizim hamımız Nursultan Abişeviçin öz ideyaları və Türk Şurasının beynəlxalq təşkilata çevrilməsi təklifi ilə bağlı böyük töhfəsini yaxşı bilirik və yüksək qiymətləndiririk. Fürsətdən istifadə edərək, onu bu mükafat münasibətilə təbrik etmək istəyirəm.

Hörmətli dostlar, bu gün Türk Şurasının 10 illiyini gözəl Azərbaycan torpağında qeyd etməyimiz dərin rəmzi məna daşıyır. Bu beynəlxalq strukturun əsası məhz burada qoyulub. Həmin tarix bizim üçün də böyük tarixi hadisədir. Çünki Özbəkistan Türk Şurasının tamhüquqlu üzvü olubdur.

Hörmətli həmkarlar, bizim ölkəmizin Şuraya daxil olması, onun türk dünyasında rolu və əhəmiyyəti ilə bağlı söylədiyiniz səmimi fikirlərə görə sizə minnətdarlığımı bildirirəm. Şübhəsiz ki, Özbəkistanın təşkilata daxil olması təbii tarixi proseslərin nəticəsidir. Biz şadıq ki, bu gün tamhüquqlu üzv qismində həmin qədim körpüləri möhkəmləndiririk. Qədim Özbəkistan torpağında bizim ortaq tariximizin şərəfli səhifələri yazılıb, dünya elm və mədəniyyətinin inkişafına misilsiz töhfə vermiş Musa Xarəzmi, Əhməd Fərqani, Əbu Reyhan Biruni, İbn Sina, Mirzə Uluqbəy kimi alimlər və mütəfəkkirlər, müqəddəs dinimizin tarixində parlaq izlər qoymuş böyük ilahiyyatçılar İmam Buxari, İmam Tirmizi, İmam Maturidi, Bəhauddin Nəqşbənd, özünün gözəl əsərləri ilə türk dünyasını birləşdirən Əlişir Nəvai kimi dahi şair bəxş edibdir. Təkcə özbək xalqı deyil, bizim hamımız onlarla fəxr edirik. Bu mənəvi sərvətin gənc nəsillər üçün qorunması və öyrənilməsi hamımızın borcudur. Ən başlıcası – Türk Şurasında iştirakımız bizim xalqın maraqlarına tam uyğundur. Bu gün təkcə mədəni və mənəvi əlaqələr deyil, həm də ticari-iqtisadi münasibətlər də yeni səviyyəyə yüksəlib. Son 3 ildə ölkələrimizin qarşılıqlı ticarət həcmi təxminən 2

dəfə artıb. 3000-dən çox müştərək müəssisə yaradılıb, nəqliyyat əlaqələri genişlənir, vizasız turist səyahətləri artır, xalqların qardaşlıq telləri möhkəmlənir.

Zirvə görüşünün hörmətli iştirakçıları, sizin diqqətinizi gündəliyə daxil edilmiş aşağıdakı məsələlərə cəlb etmək istəyirəm. Birinci məsələ – kiçik və orta biznesin inkişafı bizim görüşümüzün əsas mövzusudur və təşkilata üzv dövlətlərin hamısı üçün, o cümlədən Özbəkistan üçün çox böyük əhəmiyyət kəsb edir. Son 3 ildə ölkəmizdə strateji əhəmiyyətli sahə olan xüsusi mülkiyyətin və sahibkarlığın inkişafına prioritet diqqət yetirilir. Nəticədə ümumi daxili məhsulda onun payı bu gün 59 faiz təşkil edir. Biz öz gələcəyimizi məhz kiçik biznesin və özəl sahibkarlığın inkişafı ilə əlaqələndiririk. Bu sahənin inkişafı öz növbəsində, yeni nəqliyyat-kommunikasiya şəbəkələrinin, logistika mərkəzlərinin, minlərlə iş yerinin yaradılmasına imkan verəcək. Biz bu prosesdə ölkələrin təcrübəsindən fəal istifadə etmək niyyətindəyik. Biz sahibkarlar arasında birbaşa, qarşılıqlı anlaşma və etimada əsaslanan əlaqələrin qurulması üçün ən əlverişli şəraitin yaradılmasını prioritet vəzifələrimizdən biri hesab edirik. Türkdilli Dövlətlərin Biznes Şurasının bu yaxınlarda biznes icmasının 500-dən çox nümayəndəsinin iştirakı ilə Daşkənddə keçirilmiş forumunun yekunları da bu vəzifələrin yerinə yetirilməsinə yönəlib. Biz birgə texnoparkların, innovativ startap şirkətlərinin və vençur fondlarının təşkilini təklif edirik. Birgə sərmayə fondunun yaradılmasına və türkdilli ölkələrin

Ticarət evlərinin açılmasına hazırıq. İkincisi, hazırda Şuraya üzv dövlətlərin əhalisinin 40 faizdən çoxu gənclərdən ibarətdir. İstedadlı və təhsilli gənclərin sahibkarlığa geniş cəlb edilməsi məqsədilə biz Türk Şurası çərçivəsində Gənc Sahibkarlar Forumu təsis etməyi və onun birinci iclasının növbəti ildə Özbəkistanda keçirilməsini təklif edirik. Üçüncüsü, ölkələrimizdə iri nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılması Mərkəzi Asiya–Türkiyə nəqliyyat dəhlizi vasitəsilə Avropa, Çin və Cənubi Asiya bazarlarına çıxmaq üçün geniş imkanlar yaradacaq. Bu zaman Bakı–Tbilisi–Axalkalaki–Qars yeni dəmir yolunun potensialından da səmərəli istifadə edilməlidir. Biz tranzit və logistika mərkəzlərinin təşkilində Aktau, Türkmənbaşı, Ələt, Samsun və Mersin limanlarının müasir infrastrukturundan da istifadə olunmasında maraqlıyıq. Biz həmçinin ölkələrimizin məsul təşkilatları tərəfindən Türk Şurası ölkələrinin ərazisində xarici ticarət yüklərinin daşınması zamanı qarşılıqlı razılaşdırılmış güzəştlərin və preferensiyaların tətbiqi məsələsinə də birgə baxılmasını təklif edirik. Dördüncüsü, bizim turizm sahəsində əməkdaşlığımızın fəallaşdırılması üzrə fəaliyyəti də dəstəkləyirik. Son 3 ildə Şuraya üzv dövlətlərdən Özbəkistana gələn turistlərin sayı təxminən 2 dəfə artıb. Biz təşkilat çərçivəsində ötən il hazırlanmış «Müasir İpək yolu» turizm proqramında da fəal iştirak etməyə hazırıq. Əminəm ki, 2020-ci ildə qədim Xivə şəhərinin «Türk dünyasının mədəniyyət paytaxtı» elan edilməsi qardaş

xalqlarımızın dostluğunun daha da möhkəmləndirilməsinə və yaxınlaşmasına kömək edəcəkdir.

Zirvə görüşünün hörmətli iştirakçıları, biz mədəni-humanitar əlaqələri münasibətlərimizin gələcək inkişafında mühüm amil kimi qiymətləndiririk. Biz hamımız türk dünyasının Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Məhtimqulu, Abay kimi dahi şəxsiyyətlərinin yaradıcılığına böyük hörmət və sevgi bəsləyirik. Onların çox qiymətli mənəvi irsinin bütün xalqlarımız üçün daha əlçatan olması üçün ölkələrimizin hər birində ana dilində 100 cildlik «Türk ədəbiyyatı inciləri» kitablar silsiləsinin nəşr olunmasını təklif edirik. Bu nəşrə Şuraya üzv dövlətlərin ədəbiyyatlarının ən yaxşı nümunələri daxil ediləcək. Biz Şuranın nəzdində fəaliyyət göstərən Beynəlxalq Türk Akademiyasına da üzv olmağa hazırıq. Bununla yanaşı, Şuraya üzv ölkələrin müasir ədəbiyyat və incəsənətdə, tarix elmi və memarlıqda böyük uğurlar qazanmış nümayəndələrinin həvəsləndirilməsi məqsədilə TÜRKSOY beynəlxalq mükafatının təsis olunmasını təklif edirik.

Əziz dostlar, Türk Şurasında sədrliyin Azərbaycan Respublikasına keçməsi münasibətilə hörmətli İlham Heydər oğlunu təbrik edir, bu məsuliyyətli və şərəfli missiyanın yerinə yetirilməsində ona böyük uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

## Macarıstanın Baş Naziri Viktor Orbanın çıxışı

Hörmətli cənab prezidentlər!

İcazə verin, Zirvə görüşünün təşkilinə görə Prezident İlham Əliyevə təşəkkür etməyi özüm üçün böyük şərəf saydığımı bildirim. Mən Bakıya tez-tez gəlirəm və hər səfərim zamanı burada gördüyüm inkişafa görə Sizi təbrik etmək istəyirəm.

Cənab Prezident Sooronbay Jeenbekov, il ərzində gördüyünüz işlərə görə Sizi təbrik edənlərə qoşuluram. Cənab Prezident, məni ölkənizə dəvət etdiyinizə və burada keçirilən iclasda iştirak etdiyimə görə Sizə təşəkkürümü bildirirəm. Mən qıpçaqların böyük dostu Qazaxıstanın birinci Prezidenti Nazarbayevi ali mükafat alması münasibətilə təbrik etmək istəyirəm. Burada iştirak edənlərin heç də hamısı bəlkə də bilmir ki, Macarıstanda qıpçaqlar yaşayır və macarların çoxunun damarlarında qıpçaq qanı axır. Onların hətta öz bələdiyyəsi, özünüidarə orqanları da vardır. Cənab Prezident Nazarbayev macar qıpçaqlarının Fəxri Prezidentidir. Hər il qıpçaqlar iclas keçirəndə biz onu Macarıstandan salamlayırıq. Cənab Prezident, Sizi ali mükafat münasibətilə bir daha təbrik edirik.

Hörmətli xanımlar və cənablar! Mən Türk Şurasının iclasında ilk dəfə Qırğızıstanda iştirak etmişəm. Lakin artıq 5 ildir ki, biz Parlament Assambleyasının üzvləriyik və Türk Akademiyasında müşahidəçi qismində iştirak edirik. Biz Türk Şurasına müşahidəçi qismində qoşulmuşuq, çünki biz həm nə isə almaq, həm də nə isə vermək istəyirik. Bu gün biz macarlar bu

Şuraya Avropaya və Avropa İttifaqına qoşulmağımızı təklif edə bilərik. Buna görə də son aylarda Türk Şurasının Avropa nümayəndəliyini yaratmışıq və sizin Xarici İşlər nazirləri ilə birlikdə Budapeştdə bu daimi nümayəndəliyi açmışıq. Bu daimi nümayəndəlikdə iqtisadi forumlar və müxtəlif mədəni tədbirlər keçiriləcək. Bu işə mümkün qədər tezliklə başlamaq üçün sizin nümayəndə heyətlərini ehtiramla gözləyirik. Cənab prezidentlər, sizə təşəkkür edirəm ki, bu gün bu barədə saziş imzalamağa razılıq vermisiniz.

Hörmətli cənab prezidentlər! Biz iqtisadi əməkdaşlığa xüsusi diqqət yetiririk. Macarıstanda ixracın həcmi ölkənin ümumi daxili məhsulunun 85 faizinə bərabərdir. Keçən il bizdə iqtisadiyyatın artımı 5 faiz olub və bu il də 5 faiz artıma nail olacağıq. Biz xarici ölkələrdə öz kapitallarını sərmayə qoymaq istəyən macar sahibkarlar üçün investisiya proqramı elan etmişik. Biz onları dəstəkləyirik. Bunun sayəsində Macarıstan və Türk Şurasının üzvü olan ölkələr öz əmtəə dövriyyəsini artırır. Mən Baş Nazir olduğum dövrdə bu əmtəə dövriyyəsi 2 dəfə artıb və 4 milyard dollara çatıbdır. Sizə onu da bildirmək istəyirəm ki, Macarıstanın Eksimbankı Türk Şurasının üzvü olan ölkələr üçün kredit xətti açıb. Bu kredit xəttindən həm sizin, həm də bizim sahibkarlar istifadə edə bilərlər. Macarıstan və Türkiyə sahibkarları üçün 190 milyon, Qazaxıstan və Macarıstan sahibkarları üçün 80 milyon, Özbəkistan–Macarıstan əməkdaşlığı üçün daha 80 milyon, Macarıstan–Azərbaycan əməkdaşlığı üçün 80 milyon və Macarıstan–Qırğızıstan əməkdaşlığı üçün 27 milyon

dollarlıq kredit xətti açılıbdır. Biz Türk Şurasının Sənaye və Ticarət Palatası ilə fəal əməkdaşlıq edirik. Beləliklə, bu mənbələrdən istifadə edilsə, gələcəkdə biz bu məbləğin əvəzini çıxa biləcəyik.

Hörmətli cənab prezidentlər! Bizim ölkələrimiz arasında coğrafi məsafə kifayət qədər böyükdür. Buna görə də bizim vətəndaşların öz aralarında ünsiyyət saxlaması xüsusilə vacibdir. Hazırda Türk Şurasının üzvü olan ölkələrdən gəlmiş tələbələrə Macarıstan hökuməti 725 təqaüd verir. Qazaxıstanlı tələbələrə 250 təqaüd, azərbaycanlı tələbələrə 200 təqaüd, türkiyəli tələbələrə 150 təqaüd, özbəkistanlı tələbələrə 75 təqaüd və qırğızıstanlı tələbələrə 30 təqaüd veririk. Hörmətli xanımlar və cənablar, biz bu rəqəmləri daha da artırmağa hazırıq.

İcazənizlə, hazırda Avropa İttifaqında baş verənlər barədə bir neçə kəlmə demək istərdim. Hazırda Avropa İttifaqında yeni təsisatlar yaradılır. Bu yaxınlarda parlament seçilib. Hazırda komitələrə üzvlər seçilir. Bütün üzv ölkələr komitələrə öz nümayəndələrini göndərir, onların qarşısında ciddi vəzifələr durur. İndi Macarıstan bu Avropa qurumunda macarların da portfel alması, Avropa İttifaqının genişlənməsi və mehriban qonşuluq siyasəti uğrunda mübarizə aparır. Bizim şansımız pis deyil, lakin bu çox kəskin mübarizədir. Əgər biz həmin portfelə yiyələnə bilsək, onda Azərbaycanla daha sıx əməkdaşlıq edəcəyik, Türkiyənin üzvlüyü barədə müəyyən addımlar ata biləcəyik və bu istiqamətdə irəliləməyə kömək etməyə şad olarıq. İcazə verin, Brexit haqqında da bir neçə söz deyim. Mən Türk

Şurasının diqqətini buna cəlb etmək istəyirəm. Hələlik heç kəs heç nəyi dəqiq bilmir. Lakin mən hesab edirəm ki, britaniyalılar bu ayın sonunda Avropa İttifaqından çıxacaqlar. İndiyə qədər Britaniya müəssisələri və həmin müəssisələrlə Türk Şurasının üzvü olan ölkələr arasında əlaqələr Avropa İttifaqının oyun qaydaları ilə nizamlanırdı. İndi isə britaniyalılar Avropa İttifaqını tərk edəcəklər. Onlar Avropa İttifaqının ümumi ticarət siyasətindən imtina edəcəklər, buna görə də hər kəslə ayrı-ayrılıqda yeni sazişlər bağlayacaqlar. Əlbəttə, Macarıstanla saziş Britaniya ilə Avropa İttifaqının qaydaları əsasında bağlanacaq, amma sizinlə bağlı bu belə olmayacaq. Buna görə Türk Şurasına qabaqcadan fikirləşməyi və artıq indi Böyük Britaniya ilə Azərbaycan, Böyük Britaniya ilə Qazaxıstan və digər dövlətlər arasında yeni ticarət sazişləri barədə britaniyalılarla danışıqlara başlamağı təklif edirəm. Çünki bu, əvvəl belə deyildi. Mən bu yeni imkanlara hazırlaşmağı təklif edirəm və gəlin bu məsələni də əlaqələndirək.

Hörmətli cənab Prezident Əliyev, dəvət üçün Sizə təşəkkür edirəm. Çox şadam ki, Sizin tədbirdə iştirak edirəm.

**Türkmənistan Baş Nazirinin müavini**
**Purli Aqamuradovun çıxışı**

Cənab sədr, hörmətli dövlət başçıları, xanımlar və cənablar!

İlk növbədə, hörmətli Prezident İlham Əliyevə təşəkkürümü bildirmək istərdim. Mən Türkmənistan

Prezidenti cənab Qurbanqulu Berdıməhəmmədovun salamlarını sizə çatdırıram.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə fəxri qonaq qismində iştirak etmək üçün dəvətə və nümayəndə heyətimizə göstərilən səmimi qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə minnətdarlığımı bildirmək istəyirəm.

Hörmətli görüş iştirakçıları! Bizi ümumi tarix birləşdirir. Xalqlarımız və ölkələrimiz arasındakı əlaqələr möhkəmdir, ümumi tarixə, mədəni və mənəvi dəyərlərə söykənir. Xalqlarımızın bir çox ortaq dəyərləri vardır. Əməkdaşlığımızın müsbət dinamikasını qeyd etmək olduqca vacibdir. Bugünkü görüş bizim üçün vacib hadisədir. Deməli, bizə ümumi dil tapmaq daha asandır. Türkmənistanın xarici siyasətinin əsas istiqamətlərindən biri mədəni diplomatiyadır. Multimodal logistik «hab»ların yaradılması da vacib məqamlardandır. Türkmənistan Mərkəzi Asiya, Xəzər dənizi və Yaxın Şərqdən Avropaya və digər qitələrə çıxış dəhlizinin yaradılmasına tərəfdardır. Türkmənistan həmin sahədə çox ciddi əməkdaşlığı dəstəkləyir. Dahi şəxsiyyətlərimiz bizim fəxrimizdir və beynəlxalq arenada dəyərlərimizin təşviqinə xidmət edir. Düşünürəm ki, XXI əsrin nailiyyətləri xalqlarımız tərəfindən sülh məqsədlərinin təbliği üçün istifadə olunmalıdır.

Hörmətli dövlət başçıları, ümid edirəm ki, VII Zirvə görüşü daha sıx əməkdaşlığa və xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsinə gətirib çıxaracaqdır. Təşəkkür edirəm.

## Baş katib Bağdad Amreyevin çıxışı

Möhtərəm dövlət başçıları və Baş Nazir!

Hörmətli nazirlər, dəyərli nümayəndə heyətlərinin üzvləri!

Dövlət və hökumət başçıları ilə bu yubiley Zirvə görüşündə birlikdə olmaqdan böyük şərəf və qürur hissi duyduğumu dilə gətirmək istəyirəm. Zirvə görüşünə hazırlıq prosesində əvəzolunmaz dəstəyinə və Türk Şurasına dəstəyinə görə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Qazaxıstanın birinci Prezidenti əziz Nursultan Abişeviç, türk dünyasına böyük töhfələrinizə görə Sizi Türk Şurasının Fəxri sədri statusunun verilməsi münasibətilə təbrik edirəm. Fürsətdən istifadə edərək, bütün türk dünyasının birliyi yolunda böyük əməyinə görə Nursultan Abişeviçin qarşısında baş əyirik. Sözsüz ki, elbasının ideyaları, fikirləri və layihələri bundan sonra da bizim fəaliyyətimizin kursunu müəyyənləşdirəcəkdir.

Qırğız Respublikasının Prezidenti zati-aliləri Sooronbay Jeenbekova Qırğızıstanın sədrliyi dövründə yeni uğurlar əldə etdiyimiz təşkilata uzaqgörən rəhbərliyə görə təşəkkürümü bildirirəm.

Zati-aliləri Rəcəb Tayyib Ərdoğana Türk Şurasına göstərdiyi daimi böyük dəstəyə görə minnətdarlığımı ifadə edirəm. Mən həmçinin türk və islam dünyasının maraqlarının müdafiəsinə görə Prezident Ərdoğanın əhəmiyyətli fəaliyyətini vurğulamaq istəyirəm.

Həmçinin bu yaxınlarda məni səmimi qəbul edərək, dəyərli məsləhət və ideyalarını bölüşən Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə səmimi minnətdarlığımı bildirirəm. Çolpon-Ata Sammitindən sonrakı dövr – bu isə 1 ildən bir az çoxdur – Türk Şurası çərçivəsində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi planında ən uğurlu və dinamik dövr olub. İlk növbədə, bu il qardaş Özbəkistanın təşkilata qoşulması ilə Türk Şurasının genişləndirilməsi baş verib. Fürsətdən istifadə edərək, bu tarixi qərara görə Özbəkistan Prezidenti zati-aliləri Şavkat Mirziyoyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu mühüm addım Türk Şurasının işinə yeni impuls verəcək və Türk Şurasının vahid mavi bayrağı altında türkdilli dövlətlərin və xalqların əməkdaşlığının genişləndirilməsinə təkan olacaqdır.

Bu ilin daha bir gözəl xəbəri Xarici İşlər nazirlərimizin iştirakı ilə sentyabrda Budapeştdə Türk Şurasının Avropa ofisinin təntənəli açılışı oldu. Bu addım Macarıstanın türk dünyası ilə əlaqələri inkişaf etdirmək niyyətini təsdiqləyir. Bununla əlaqədar Türk Şurasının Avropada və dünyada təbliğinə görə Macarıstanın Baş Naziri zati-aliləri Viktor Orbana minnətdarlığımı ifadə edirəm. Bu il sizin qarşınızda biz Xarici İşlər nazirləri ilə birgə Türk Şurasının Avropa ofisində sazişin imzalanması mərasimini keçirəcəyik.

Bu il qardaş Türkmənistanla da əlaqələri xeyli irəli aparmışıq. Bu yaxınlarda Türkmənistan rəhbərliyi ilə

rəsmi danışıqlar zamanı bu ölkənin təşkilatda müşahidəçi statusunun əldə edilməsi məsələsi üzrə anlaşmaya nail olduq. Biz əminik ki, qarşıdakı aylarda bu məsələ həllini tapacaqdır.

Zati-aliləri hörmətli dövlət başçıları. Sizin göstərişlərinizə əsasən, üzv ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsi Türk Şurasının yaradılması anından prioritetdir. Buna görə hazırkı Zirvə görüşünü «Üzv dövlətlərin kiçik və orta biznes müəssisələrinə dəstək» mövzusuna həsr etmişik. Bu il biz nazirlər səviyyəsində 15 müşavirə keçirmişik. Onlardan 8-i iqtisadiyyata məsul nazirlərin görüşü olub. Türk Şurası çərçivəsində mayın 17-də Nur-Sultan şəhərində Türk Ticarət-Sənaye Palatasını yaratdıq. Əminəm ki, bu qurum ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin inkişafına böyük töhfə verəcək. Dünən Özbəkistanın və Macarıstanın Ticarət palataları da bu prosesə rəsmən qoşuldular. Biz bir həftə bundan əvvəl Daşkənddə 50 sahibkarın iştirakı ilə böyük biznes-forum təşkil etdik. Dünən biz Bakıda da biznes-forum keçirdik. Bu forumlarda onlarla saziş imzalanıb. Bu ilin iqtisadiyyat sahəsində daha bir mühüm təşəbbüs Türk İnvestisiya Fondunun yaradılmasıdır. Ümid edirəm ki, bu fond sizin dəstəyinizlə kiçik və orta biznes müəssisələri vasitəsilə ölkələrimizin ticari-iqtisadi əməkdaşlığına güclü impuls verəcəkdir.

Sizin Çolpon-Ata Sammitində verdiyiniz tapşırığa müvafiq olaraq, Türk Şurasında islahatlarla bağlı məsələ üzrə iş görülüb. Qurumlarımız arasında əməkdaşlığın səmərəliliyinin artırılması məqsədilə

Türk Şurası yanında Əlaqələndirmə Şurası yaradılıbdır.

Zati-aliləri cənab prezidentlər. Qeyd olunanlardan çıxış edərək deyim ki, keçən 10 il ərzində Türk Şurası tamhüquqlu beynəlxalq təşkilat kimi özünü doğruldub. Üzv dövlətlər arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafının səmərəli mexanizminin olmasını bəyan etmək üçün bütün əsaslar vardır. Bunu ölkələrimizin ümumi maraqlarının irəliləməsi istiqamətində təşkilatın uğurlu fəaliyyəti təsdiq edir. Bu gün Türk Şurası BMT və digər nüfuzlu beynəlxalq təşkilatlarla konstruktiv əlaqələr qurub. Əminliklə deyə bilərik ki, ötən 10 il ərzində Türk Şurasının formalaşdırılması mərhələsi yekunlaşıb və biz təşkilatın inkişafının növbəti mərhələsinə keçirik. Nursultan Abişeviç Nazarbayevin təklif etdiyi kimi, gündəlikdə «Türk baxışı–2040» proqramının işlənilməsi məsələsi durur. Bununla bağlı Şuranın katibliyi tərəfindən təşkilatımızın perspektivlərini müəyyən edən «Türk Şurası–2025» adlı yeni strategiya hazırlanır. Bu sənədə sizin təkliflərinizi əlavə edərək, biz onu gələn Zirvə görüşündə diqqətinizə çatdıracağıq.

Əminik ki, türk dünyasının qlobal regional gündəliyinin prioritetləri əsasında yeni mərhələnin dinamik olması üçün üzv dövlətlər arasında əməkdaşlığı dərinləşdirəcəyik və infrastruktur, sərmayələr, qanunvericilik, həmçinin real iqtisadiyyat sahələrində aparıcı layihələrin reallaşdırılması ilə inteqrasiyanın yeni yüksək səviyyəsinə çatacağıq. Növbəti mərhələ

iqtisadi əməkdaşlığın ən mühüm sahələrində yeni prinsip və yanaşmaların tətbiqini tələb edə bilər. Belə ki, azad ticarətin stimullaşdırılması strategiyası çərçivəsində, yaxud üzv dövlətlər arasında ticarətin inkişafı üçün imtiyazlı ticarət sazişlərin əldə edilməsi gündəliyə çıxarıla bilər. İqtisadi əməkdaşlığın gücləndirilməsi üçün ticarətin stimullaşdırılması və qarşılıqlı investisiyalar, həmçinin kiçik və orta biznes müəssisələrinə dəstək üçün optimal maliyyə alətləri lazımdır.

Trans-Xəzər marşrutunu şərqlə qərb arasında səmərəli ticarət-nəqliyyat dəhlizinə çevirmək üçün biz gündəliyə nəqliyyat və gömrük sahələrində optimal və əlverişli şərtlərin formalaşdırılması məsələsini daxil edirik. Həmin dəhliz boyunca logistik xərcləri azaltmaqla, nəqliyyat və gömrük əməliyyatlarının operativliyini artırmaq olduqca vacibdir. Bunun üçün biz birgə Xəzər gəmiçilik şirkətinin yaradılmasını müzakirə etməyi planlaşdırırıq. Həmin strategiyada bir çox müxtəlif sahələr var, o cümlədən diaspor, turizm, kənd təsərrüfatı, gənclər məsələləri.

Yaxın 10 ildə biz qlobal arenada mühüm yer tutan türk dünyasını daha nüfuzlu, güclü və vahid birliyə çevirmək üçün böyük həvəs və səylə işləməyə hazırıq. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Azərbaycan Respublikasının Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklifi ilə növbəti görüşün Türkiyədə keçiriləcəyini elan etdi.*

*Sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünün sənədləri imzalandı.*

*Azərbaycan Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünə yekun vurdu.*

**İ l h a m Ə l i y e v:** Hörmətli dövlət və hökumət başçıları! Əziz dostlar!

Artıq imzalanma mərasimi başa çatdı. Zirvə görüşümüz də yekunlaşır. Bir daha nümayəndə heyətlərinin başçılarına, bütün qonaqlara bu Zirvə görüşündə iştirak etdiklərinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Özbəkistanın tamhüquqlu üzv dövlət kimi Türk Şurasına qoşulması çox əlamətdar addımdır, Türk Şurasının coğrafiyasını genişləndirir və gücümüzü artırır. Macarıstanda Şuranın nümayəndəliyinin ofisinin açılması Avropa dövlətləri və təsisatları ilə daha sıx əməkdaşlıq üçün yeni imkanlar açır. Bu gün çıxışlarda səsləndirilən dəyərli fikirlər əminəm ki, bizim işimizi zənginləşdirəcək və bu təkliflərin reallaşması əməkdaşlığımızın keyfiyyətcə yeni pilləyə qalxmasına imkan yaradacaqdır.

Azərbaycan bu gündən Şuraya sədrliyi öz üzərinə götürür. Sizi əmin etmək istəyirəm, biz var gücümüzlə çalışacağıq ki, növbəti 1 il ərzində təşkilatımız daha da güclənsin və qarşıda duran bütün vəzifələr uğurla icra edilsin.

Bir daha sizə dərin hörmət və ehtiramımı bildirirəm. Beləliklə, bizim toplantımız başa çatır. Sağ olun.

* * *

*Azərbaycan Respublikasının Prezident İlham Əliyevin adından Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verildi.*

*Daha sonra konsert proqramı oldu.*

# QEYDLƏR

**1. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli

ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsir-

karların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa)

Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5, 6, 20, 37, 91, 93, 97, 98, 99, 102, 103, 110, 114, 116, 117, 139, 149, 199, 209, 246, 253, 258, 259, 261, 271.

**2. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru,

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını tə-sis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.
Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. –5–15, 72, 73, 76, 79, 80, 131, 147, 157, 163, 209, 210, 211, 212, 275.

**3. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-

siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 6–7.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 8, 78, 151, 167, 186, 187, 188, 189, 214, 272, 285, 286, 287, 297.

**5. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Zilhiccə ayının 10-cu günü başlanır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – Həcc mərasimlərinin yerinə yetirilməsi və Allahın

bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 16– 17.

**6. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 18.

**7. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 18.

**8. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 19.

**9. Məhəmməd Qani,** Əşrəf Qani (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 19.

**10. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət

başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 22.

**11. Vladimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 22.

**12. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmləndirilməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 24–25, 282, 286.

**13. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 26–27.

**14. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya

konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən Kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 28.

**15. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 29, 265–267, 276–314.

**16. Sooronbay Jeenbekov** (d.1958) – Qırğızıstanın siyasi və dövlət xadimi. 2017-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 29, 265–267, 276–314.

**17. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i -k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 30, 257–263, 276–314.

**18. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2016-cı ildən Özbəkistan

Respublikasının Prezidentidir. – 30, 257–263, 276–314.

**19. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 33, 47–48, 54, 160, 164–205, 226–228.

**20. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 33, 164–205, 227.

**22. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s- p u b l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 212,8 milyon nəfərdir. Braziliya

federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridir. – 34.

**23. Jair Bolsonaru** (d.1955) – Braziliyanın siyasi və dövlət xadimi. 2019-cu ilin yanvarından Braziliya Respublikasının Prezidentidir. – 34.

**24. Tacikistan,** T a c i k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 36.

**25. Emoməli Rəhmon,** E m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 36.

**26. *bp*,** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məş-

ğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 43, 103, 104, 108, 109, 110–113.

**26. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 46, 84, 110, 229–231.

**27. Georgi Qaxaria** (d.1975) – Gürcüstanın siyasi xadimi. 2019-cu ilin sentyabrından Gürcüstan Respublikasının Baş Naziridir. – 46, 84, 229–231.

**28. Meksika,** Meksika Birləşmiş Ştatları – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon km$^2$, əhalisi 133,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 49.

**29. Andres Obrador** (d.1953) – Meksikanın siyasi xadimi. 2018-ci ildən Meksika Birləşmiş Ştatlarının Prezidentidir. – 49.

**30. Eldar Əzizov,** E l d a r Ə z i z o ğ l u (d.1957) – tarixçi. 2000–2003-cü illərdə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyətinin, 2011–2015-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı, 2015–2018-ci illərdə Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyəti başçısı olmuşdur. 2018-ci il noyabrın 15-dən isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır. – 50, 58, 157.

**31. Avropa Şurası Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. Üzv dövlətlərin məclis üzvlərinin təmsil olunduğu Parlament Assambleyası 324 deputatdan ibarətdir. Assambleya baş katibi, İnsan hüquqları üzrə Komissarı və Avropa İnsan hüquqları Məhkəməsinin hakimlərini seçir. Mənzil-qərargahı Strasburqda yerləşir. – 57, 184, 196, 227.

**32. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın

bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bu təsisatıdır. İki palata və 3 Komitədən ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 57, 286.

**33. Lilian Paskye** (d.1956) – 1979-cu ildən İsveçrə Sosialist Partiyasının üzvüdür. 2018-ci ildə AŞPA-nın sədri seçilmişdir. – 57.

**34. Koreya,** K o r e y a   R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 61, 62, 152.

**35. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 68, 127, 129, 269, 305, 306, 307.

**35. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 67–68.

**36. Böyük Britaniya,** B ö y ü k  B r i t a n i y a  v ə  Ş i m a l i  İ r l a n d i y a  B i r l ə ş m i ş  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlan-

diya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 69–70, 108–109, 306.

**37. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 70, 93–95, 96–118.

**38. Çili,** Ç i l i  R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-qərbində dövlət. Sahəsi 756,9 min km$^2$, əhalisi 18 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı ikipalatalı parlamentdir. (Senat və Deputatlar Palatası). Paytaxtı Santyaqo şəhəridir. – 71.

**39. Sebastian Pinyera Eçenike** (d.1949) – Çilinin siyasi xadimi, iqtisadçı. 2018-ci ildən Çili Respublikasının Prezidentidir. – 71.

**40. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 73, 210, 211.

**41. Türkiyə,** Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 77–78, 102, 110, 169, 232–234, 264, 276–314.

**42. Fuat Oktay** (d.1964) – Türkiyə siyasətçisi. 2018-ci ilindən Türkiyə Cümhuriyyətinin vitse-prezidentidir. – 77–78.

**43. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 78, 232–234, 264, 276–314.

**44. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 84, 232–234, 236, 260, 264, 284.

**45. Malta,** M a l t a R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 km$^2$,

əhalisi 476 min nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 85.

**46. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 88, 174.

**47. Salman bin Əbdüləziz Al Səud** (d.1935) – 2015-ci ildən Səudiyyə Ərəbistanının Kralıdır. – 88.

**48. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Res-

publikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 89–92, 169, 236, 273.

**49. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 89, 91, 144–145.

**50. SOCAR,** Azərbaycan Respublika-sı Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 94, 100, 104, 108, 112, 113, 225, 259.

**51. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə ərazisindən Qərb bazarlarına nəql edir. «Cənub Qaz Dəhlizi» layihəsinin məqsədi «Şahdəniz» qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndirilərək Cənubi Qafqaz Qaz-Boru Kəməri, TANAP və Trans-Adriatik Boru Kəməri vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir. – 94, 102, 109.

**52. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 100, 106–108, 174, 175.

**53. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t  B a ğ ı  o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmlə-

ri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2016-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2016-cı ildən isə Birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət», «İstiqlal» ordenləri və «Heydər Əliyev mükafatı» ilə təltif edilmişdir. – 100, 114–117.

**54. Valeh Ələsgərov,** V a l e h  F e y r u z  o ğ l u (d.1946) – Əməkdar mühəndis, Milli Məclisin üzvü. 1992-ci ildən «Azərneft» Dövlət Konserninin vitse-prezidenti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, şirkətin prezidentinin müşaviri olmuş, 1995–2005-ci illərdə ARDNŞ-in Xarici Sərmayələr İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

2015-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavinidir. Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədri, Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin rəhbəri, Azərbaycan–Rusiya İkitərəfli Parlamentlərarası Komitəsinin həmsədridir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu və onun İdarə Heyəti formalaşana qədər Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə

qurumunun sədri təyin edilib. «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 100.

**55. «Azəri–Çıraq–Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 102, 103, 104, 110, 115.

**56. Bakı–Supsa** – neft kəməri. 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsidir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan 4 terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılışı mərasimi olmuşdur. – 102, 116.

**57. «Şahdəniz» –** Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 102, 117.

**58. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan kəmər 2006-cı ildə istifadəyə verilmişdir. – 102, 111, 116, 116.

**59. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard $m^3$ qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcəkdir. – 102, 103, 264.

**60. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u **–** İsveçrənin kurort şəhəri Davosda keçirilən Forum. Forum 1971-ci ildə yaradılmışdır. Siyasi liderlər foruma ilk dəfə 1974-cü ildə dəvət edilmişdilər. Forum bu tarixdən qısa bir müddət sonra siyasi liderlər tərəfindən tərəfsiz bir platforma olaraq istifadə edilməyə başlanıldı. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 105, 223.

**61. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 105, 141, 143, 215.

